AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

KİTABXANAÇILIQ-İNFORMASİYA
fakültəsi

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

№1(22) * 2008



1997-ci ilin oktyabrından çıxır

Bakı – 2008

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

***Elmi-nəzəri, metodik və təcrübi jurnal***

**№1 (22) * 2008**

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

1997-ci ilin
*oktyabrından çıxır*

BAKI –2008

***KBT- 78***
***K 73***

Təsisçi və baş redaktor: professor Xəlil İSMAYILOV

**Məsul katib: dosent Knyaz ASLAN**

## REDAKSİYA HEYƏTİ:

***Professor Abuzər XƏLƏFOV***
***Professor Zöhrab ƏLİYEV***
***Professor Bayram ALLAHVERDİYEV***
***Dosent Əşrəf XƏLƏFOV***
***Dosent Nadir İSMAYILOV***
***Baş müəllim Solmaz SADIQOVA***

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

K 73 *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-B.: Bakı Universiteti Nəşriyyatı, 2008.-№1.-218 s.*

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Telefonlar: 439-05-47; 439-03-66*

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2008**

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛТЕТ**

# *BİBLİOTEKOVEDENİE*
# И
# БИБЛИОГРАФИЯ

**Научно-теоретический,**
**методический и практический журнал**

**№1 (22) * 2008**

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

*Выходит*
**с 1997 года**

**БАКУ-2008**

***ББК-78***
***К   73***

***Учредителğ и***
***главный редактор:*** ***профессор Халил ИСМАИЛОВ***

***Ответственный секретарğ:***
***Доцент Книзğ АСЛАН***

**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:**

***Профессор Абузар Халафов***
***Профессор Зохраб Алиев***
***Профессор Байрам Аллахвердиев***
***Доцент Ашраф Халафов***
***Доцент Надир Исмаилов***
***Старший преподавателğ Солмаз Садыгова***

**К 73** *Библиотековедение и библиография: Научно-теоретический, методический и практический журнал .- Б., Изд-во Бакинского Университета, 2008.-№1.-218 с.*

*Адрес редакции:*

*Аз –1073/1 г. Баку, ул. Захида Халилова, 23,*
uçebnıy korpus №2, gtaj IV, Biblioteçno-informaüionnıy fakulğtet, redaküiə jurnala
«Bibliotekovedenie i biblioqrafiə».
*Тел.: 439-05-47; 439-03-66*

**© «Библиотековедение и библиография», 2008**

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

## *MÜNDƏRİCAT*

*KITABXANAŞÜNASLIQ*


**XƏLƏFOV A.A.** — *Kitabxanaşünaslıq fəlsəfəsi*

**İSMAYILOV X. İ.** — *Kitabxanaların idarə edilməsinin strateji əsasları*

**RZAYEV S.M.** — *Mütaliənin funksiyaları və insana təsir mexanizmi*

**RÜSTƏMOV Ə.M., MUSTAFAYEVA N.Z.** — *Elektron kommunikasiya mühitində biblioqrafiyanın bəzi məsələləri*

**ASLAN K.İ.** — *Abbasqulu ağa Bakıxanovun əsərlərində kitab və mütaliə əsələləri*

**XƏLƏFOVA S.A.** — *Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin təkmilləşdirilməsi perspektivləri*

**ZƏRBƏLİYEVA E.M.** — *Yeniyetmələrin bədii zövqünün formalaşmasında kitabxanaların rolu*

**NURİYEVA E.T.** — *Müstəqillik illərində Azərbaycanda kitabxana işinin hüquqi təminatı*

**MƏMMƏDOVA Y.A.** — *M.F.Axundov adına Milli Kitabxananının elektron kataloqu (ümumi xarakteristikası)*

**TALIBOVA C.B.** — *Müstəqilliyin ilk illərində Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının elmitədqiqat fəaliyyəti*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

## *BIBLIOQRAFIYAŞÜNASLIQ*

| | |
|---|---|
| **ƏLIYEV Z. H.** | *Biblioqrafik İnformasiya ümumi İnformasiya kommunikasiyaları sistemində* |
| **İSMAYILOV N.İ., CƏFƏROVA A.L.** | *Azərbaycanda biblioqrafik fəaliyyətin İnkişafının bəzi məsələləri* |
| **İSMAYILOVA S.P.** | *Müstəqillik illərində ədəbi biblio-qrafiyanın inkişafı vəziyyəti* |
| **VERDIYEVA X.T.** | *Görkəmli pedaqoq, akademik H.Əhmədovun əsərləri biblioqrafik mənbələrdə* |
| **QARDAŞOV R.Ə.** | *Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının biblioqrafik fəaliy-yətinin əsas istiqamətləri* |
| **MƏMMƏDOVA Z.S.** | *Azərbaycan mühacirət publisistikası: Biblioqrafik tədqiqat* |
| **ŞİRİNOV C. R.** | *Mədəniyyət və incəsənət sahəsi istifadəçilərinin biblioqrafik-İnformasiya tələbatları və M.F.Axundov adına Azər-baycan Milli Kitabxanası* |

## *KITABŞÜNASLIQ*

| | |
|---|---|
| **TAHİR QIZI Ş.** | *Müəlliflik hüququnun obyekt və subyektləri* |
| **BAYRAMOV Ə.Q.** | *Müasir dövrdə ali məktəb dərslikləri-nin nəşrə hazırlanması, tərtibatı və redaktəsi xüsusiyyətləri* |

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**ABUZƏR XƏLƏFOV**
*Tarix elmləri doktoru, professor*

## KİTABXANAŞÜNASLIQ FƏLSƏFƏSİ

Elm fəlsəfəsinin, o cümlədən kitabxanaşünaslıq fəlsəfəsinin hələ çox-çox əvvəllərdən tədqiq olunmasına, bu sahədə ciddi elmi əsərlər yazılmasına, kitabxana işi nəzəriyyəsinin və praktikasının müxtəlif sahələrində tətbiq edilməsinə baxmayaraq bu mühüm problem Azərbaycan elmində son zamanlar öyrənilməyə başlamışdır.

Bu problemin öyrənilməsi tarixinə nəzər salsaq məlum olur ki, keçmiş Sovetlər Birliyində, o cümlədən bu birliyə daxil olan Azərbaycanda hakim marksizm-leninizm ideologiyası kitabxanaşünaslıq fəlsəfəsinin öyrənilməsinə ciddi mane olmuşdur.

Monoideologiyanın hökm sürdüyü Sovetlər Ittifaqında bütün ictimai və humanitar elmlərin elmi-nəzəri və metodoloji əsası kimi marksizm-leninizm fəlsəfəsi qəbul edilmişdi. Humanitar elm kimi formalaşan kitabxanaşünaslıqda marksizm-leninizm ideologiyasına, kommunist partiyalılığı prinsipinə əsaslanmışdır. Sovet hakimiyyəti illərində Sovetlər Birliyində sinfilik və kommunist partiyalılığı prinsiplərinə əsaslanan qondarma «Sosialist kitabxanaşünaslığı» termini yaradılmışdı. Sosialist kitabxanaşünaslığı dünya kitabxanaşünaslığından təcrid olunmuş halda inkişaf edir, bilavasitə kommunist ideologiyasına, marksizm-leninizm fəlsəfəsinə əsaslanırdı.

Sosialist kitabxanaşünaslığı nəzəriyyəçiləri onun elmi-nəzəri və metodoloji əsasını marksizm-leninizm fəlsəfəsinin təşkil etdiyini əsaslandırmağa çalışır, mövzusundan asılı olmayaraq bütün kitabxanaşünaslıq tədqiqatları bu metodologiyaya müvafiq aparılırdı. Sovet dövründə kitabxanalar öz statusuna görə ideoloji müəssisə kimi təbliğat-təşviqat və ideoloji işdə kommunist partiyasının dayaq bazası hesab edilirdi.

Marksist - leninçi ideologiyanın əsas prinsipləri olan sin-filik və partiyalılıq həm də kitabxana işinin əsas prinsipləri ki-

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

mi, kitabxanaların bütün iş proseslərində, kitabxana fəaliyyətinin bütün sahələrində tətbiq edilirdi. Məhz buna görədə Sovetlər Birliyinə daxil olan ölkələrdə kitabxanaşünaslıq fəlsəfəsinin öyrənilməsinə, kitabxanaların fəlsəfi problemlərinin araşdırılmasına şərait yaradılmırdı. Marksizm-leninizmin nəzəri müddəaları bu problemin öyrənilməsinə ciddi maneçilik törədir, buxov rolunu oynayırdı.

SSRI dağıldıqdan sonra bu birliyə daxil olan ölkələrdə marksizm-leninizm ideologiyasından imtina edilməsi, bazar iqtisadiyyatının yaradılması, ölkədə demokratikləşmə prosesinin genişlənməsi, yeni dünyəvi ideologiyanın, milli ideologiyanın bərqərar olmasına, yeni demokratik və  bəşəri prinsiplərə əsaslanan yeni dünyagörüşünün, təfəkkür tərzinin, yeni metodologiyanın meydana gəlməsinə səbəb oldu.

Elmlərin fəlsəfəsini öyrənmək, onu inkişaf etdirmək yeni mərhələyə daxil oldu. Hələ XX əsrdə inkişafa başlayan «Elmin fəlsəfəsi» fənni geniş inkişaf tapdı.

Fransız filosofu, neorializmin banisi Başlyar (1884-1962) elmin inkişafı ilə əlaqədar olaraq yeni epistemalogiya yaratmağa çalışmışdır. Başlyarın rossional və empirik biliklərin daim qarşılıqlı əlaqəsi konsepsiyasında nəzəriyə ilə praktikanın qarşılıqlı təsiri elmin dialektik inki şafının mühüm aspektini təşkil edir. onun rəyinə görə biliyin birinci mərhələsində üstünlük empirizmə, ikinci mərhələsində isə mücürrəd təfəkkürə məxsusdur.

Beləliklə, elmin fəlsəfəsi sanki idrakın iki qütbünə çəkilir. Filosoflar üçün bu proses kifayət qədər ümumi prinsipləri öyrənməkdir, alim üçün isə bu, daha çox xüsusi nəticələri öürənməkdir. Elm fəlsəfəsi, nəticə etibarilə, bu iki əks idrakı maneələri aradan qaldırır. Elm fəlsəfəsi, gah apriori, gah da aposteriori səviyyələrdə dəyərləndirilir. Müasir elmi fikir özünü eksperment və rassional xarakterli dəyərlər arasında ifadə edir.[1]

Elm tarixindən məlumdur ki, elmlərin inkişafında, tərəqqisində, elmi-nəzəri və metodoloji əsaslarının müəyyənləşdirilməsində və formalaşmasında fəlsəfə böyük istiqamətverici rol oynamışdır.  Məhz buna görədir ki, ayrı-ayrı konkret elmlərin fəlsəfə

---

[1] «Мир философия» часть I.-М. 1991. с.117.

ilə qarşılıqlı əlaqəsi, onların fəlsəfi problemlərinin öyrənilməsi, fəlsəfənin müddəalarından metodoloji baza kimi istifadə edilməsi həm filosofların, həm də ayrı-ayrı konkret elm sahələrində çalışan alimlərinin diqqət mərkəzində olmuş, «Elmin fəlsəfəsi» adlı xüsusi kompleks fənn meydana gəlmişdir.

«Elmin fəlsəfəsi» fənninin əsas vəzifəsi: elm fələsəfənin üzərində sistematik inikası, dövrün sosial-mədəni kontekstində mövcud elmin naliyyətlərinin nəzərə alınması (qeyd edilməsi) fəlsəfi və xüsusi biliklərin sintezinin həyata keçirilməsidir. Həmçinin «Elm fəlsəfəsi» biliklərin xüsusi sahəsi kimi bəşəri mədəniyyətin birliyini təmin edən mühüm inteqrasiya funksiyasını yerinə yetirir. Elmin fəlsəfəsi fəlsəfə ilə elm arasında zəruri əlaqə formalarından biri kimi onların qarşılıqlı inteqrasiyasına və zənginləşməsinə xidmət edir. Bu fənnin inkişafında həm fəlsəfə, həm də xüsusi elmlər maraqlıdır.

«Fəlsəfəni insan mədəniyyəti sferasında baş verən müxtəlif ziddiyyətlər və qarşılıqlı təsirlə əlaqədar olan, eyni zamanda bir sahədən digərinə keçmək və onda təcəssüm olmaq məharətinə malik olan mənəvi-ruhi proses kimi anlamaq lazımdır».[1]

«Elm fəlsəfəsi»nin problemlərinə elm üzərində fəlsəfənin inikası, elmin strukturunun inkişafı və məzmununun ayrıca elmi fənn kimi, bütövlükdə elm kimi öyrənilməsi daxildir.

«Elm fəlsəfəsi» fənninin üç mühüm səviyyəsini ayırmaq mümkündür:

1. Bütövlükdə fəlsəfə;
2. Ayrı-ayrı elm sahələrinin fəlsəfəsi (təbiətşünaslıq, humanitar elmlər).-Bu da iki yerə bölünür.
3. Ayrı-ayrı elmlər, fənlər (mexanika, astronomiya, tarix, sosiologiya, kitabxanaşünaslıq, filologiya, dilçilik və s.).[2]

Elm fəlsəfəsini, onun strukturunu, predmetini öyrənərkən ayrı-ayrı elmlərin klassik fəlsəfə tərəfindən öyrənilməsini, onların irəli sürdüyü ideyaları, gəldiyi nəticələri öyrənmək, onlara isnad etmək hər bir tədqiqatçı üçün zəruridir.

Belə fəlsəfi əsərlər içərisində görkəmli alman filosofu Hege

---

[1] İmanov H. Fəlsəfənin əsasları.-B., 2007, s.23.
[2] Основы философии науки. -М., 2005, с. 37-38.



KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

lin «Hüquq fəlsəfəsi»[1] «Tarix fəlsəfəsi», «Dinin flsəfəsi» böyük maraq doğurur. Hegelin bu məşhur fəlsəfi əsəri ayrı-ayrı elmlərin fəlsəfəsini öyrənmək üçün məhək daşı, elmi-nəzəri metodoloji bazadır. Hegel bu əsərdə hüquq haqqında fəlsəfi elmin predmetindən bəhs edərkən yazır: «Hüquq haqqında fəlsəfi elmin predmeti hüquq ideyasıdır, hüquq anlayışı və onun gerçəkləşməsidir… Hüquq haqqında elm fəlsəfəsinin bir hissəsidir. Odur ki, o predmetin təfəkkürü, zəkası kimi ideyanı anlayışdan inkişaf etdirməli və ya predmetin özünün immanent inkişafını müşahidə etməlidir. Fəlsəfənin hissəsi kimi hüquq haqqında elmin müəyyən çıxış nöqtəsi və həqiqətindən və bunun sübutundan ibarət olmalıdır».[2]

Hegel hüquqşünaslığı, onun anlayışlarını, qanunlarını və hüquq nəzəriyyələrini hüquq fəlsəfəsinin predmeti kimi müəyyən etməklə yanaşı onun vəzifələrini izah edərək yazır: «Hüquq haqqında fikir hər kəsin bilavasitə malik olduğu şey deyildir; yalnız düzgün təfəkkür predmetin dərki və onun haqqında bilik ola bilər, ona görə də idrakımız elmi olmalıdır».[3]

Hegelin Hüquq fəlsəfəsi»nin əsas xüsusiyyətlərindən biri də tarixilik prinsipidir. Hegel hüququn inkişafında iki aspekti irəli çəkir: birincisi, hüququn tarixi əsaslar üzərində inkişafı, ikincisi, onun öz anlayışlarından irəli gələn inkişafı Hegel fəlsəfəyə gətirdiyi tarixilik prinsipindən özünün bütün fəlsəfi araşdırmalarında olduğu kimi hüquq fəlsəfəsi tədqiqatlarında da ardıcıl olaraq istifadə edir».[4]

Beləliklə, «Elmin fəlsəfəsi»nin öyrənilməsində görkəmli filosof Hegelin «Hüquq fəlsəfəsi» əsəri böyük elmi-nəzəri və metodoloji əhəmiyyətə malik olmaqla, ayrı-ayrı elmlərin öyrənilməsi yolunu işıqlandırır, onu düzgün elmi istiqamətə yönəldir. Ayrı-ayrı elmlərin fəlsəfi problemlərində hüquq fəlsəfəsinə oxşar cəhətlər olduqca çoxdur. Hüquq fəlsəfəsinin öyrənmə üsulları və metodlarını bütün elmi araşdırmalara tətbiq etmək və ondan istifadə etmək,

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

---

[1] Hegel Hüquq fəlsəfəsi.- B., 2007, 375 s.
[2] Yenə orada s.65
[3] Yenə orada s.7
[4] Yenə orada s.9

fəlsəfi tədqiqatların səmərəliliyini artırar və elmlərin fəlsəfə elminin əsas müddəalarına əsaslanaraq inkişaf etməsinə gətirib çıxarar.

Müasir dünyada «Elmin fəlsəfəsi»nin inkişafı onun predmetinin və vəzifələrinin müəyyənləşdirirlməsini, bu sahədə qiymətli əsərlərin meydana çıxması, ayrı-ayrı elmlərin fəlsəfəsinin öyrənilməsi üçün şərait yaratdı və mühüm elmi mənbə rolunu oynadı. «Elm fəlsəfəsi» fəninin elmi fənn kimi formalaşması başqa elmlərlə yanaşı olaraq kitabxanaşünaslıq fəlsəfəsinin yaranıb inkişaf etməsinə böyük kömək etdi. Bütün bunların nəticəsində kitabxanaşünaslıq elminin yeni elmi metodoloji əsaslar üzərində inkişaf edən, dünya kitabxanaşünaslığının naliyyətlərinə, elmi müddəalarına əsaslanan yeni kitabxanaşünaslıq formalaşdı. Yeni kitabxanaşünaslıq kommunist ideologiyasının, marksist-leninçi fəlsəfənin buxovlarından azad olmaqla, yeni təfəkkür tərzinə, yeni demokratik, bəşəri prinsiplərə söykənərək, müasir İnformasiya cəmiyyətinin kitabxanaşünaslıq elminin qarşısında qoyduğu vəzifələri həll etməyə başladı. Məhz bu şəraitdə kitabxanaşünaslıq fəlsəfəsinin öyrənilməsi ciddi bir zərurət kimi qarşıya çıxdı.

Kitabxanaşünaslıq fəlsəfəsini öyrənmək və onu formalaşdırmaq üçün hər şeydən əvvəl terminoloji məsələləri həll etmək qaçılmazdır. Son zamanlar kitabxanaşünas alimlər, mütəxəssislər bu termini müxtəlif formada işlədirlər. Bu formalar içərisində üçü: «Kitabxana fəlsəfəsi», «Kitabxana işi fəlsəfəsi», «Kitabxanaşünaslıq fəlsəfəsi» diqqəti daha çox cəlb edir. Çətin də olsa (təvazökarlıqdan uzaq olsa da) biz bu terminlər içərisində «kitabxanaşünaslıq fəlsəfəsi»nin işlədilməsinə üstünlük veririk. Çünki «Kitabxanaşünaslıq fəlsəfəsi» həm kitabxana, həm də kitabxana işi problemlərini özündə birləşdirir, onu öyrənir, təhlil edir, elmi nəticələr çıxarır.

Doğrudur, Sovetlər Birliyi dövründə Azərbaycanda kitabxanaşünaslığın elmi-nəzəri əsasları və metodologiyası sahəsində elə bir ciddi monoqrafik tədqiqatlar aparılmamış, elmi diskussiyalar, müzakirələr keçirilməmişdi. Respublikamızın alimləri bu sahədə rus kitabxanaşünaslığının təsiri altında tədqiqatlar aparırdılar.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Sovetlər Birliyi dağıldıqdan sonra «Sovet kitabxanaşünaslığı»nın əsas prinsiplərindən imtina edildi. Yeni təfəkkür tərzinə, yeni ideologiyaya, bəşəri prinsiplərə əsaslanan kitabxanaşünaslıq inkişaf edib təkmilləşməyə, kitabxanaşünaslığın məzmun və prinsiplərində islahatlar aparılmağa başladı. Məhz bu dövrdə «Kitabxanaşünaslıq fəlsəfəsi», Kitabxanaşünaslığın fəlsəfəfi problemləri haqqında yeni fikirlər, elmi məqalələr, tədqiqatlar meydana çıxdı.

Dünya kitabxanaşünaslıq elmində xüsusi yeri və ciddi elmi nailiyyətləri olan rus kitabxanaşünaslığının görkəmli allmləri «Kitabxanaşünaslıq fəlsəfəsi» və kitabxanaların fəlsəfi problemləri haqqında ciddi elmi fikirlər irəli sürməyə və məqalələr çap etdirməyə başladılar. Belə alimlərə misal olaraq K.I.Abramovu, A.N.Vanayevi, N.S.Kartaşovu, O.P.Korşunovu, Y.N.Stolyarovu, V.V.Skvortsovu, A.N.Sokolovu, M.Y.Dvorkinanı, E.I.Kuz
mini, T.F.Karatıginanı, S.A.Poroşinanı, N.V. Babilovanı, L.N.Qusevı, E.B.Smolinanı, N.F.Fyodorovu, V.D.Stelmaxı, L.V.Luçkaşovu, A.V.Liçutini və M.Y. Opuonkovu və s. başqalarını göstərmək olar.

Adları çəkilən görkəmli rus alimlərinin yazmış olduğu bu dəyərli əsərlər və məqalələr yeni rus kitabxanaşünaslığının qiymətli ideyalarla zənginləşdirməklə yanaşı dünya kitabxanaşünaslığına qiymətli töhfə vermişlər.

Bu əsərlərdən MDB ölkələrində, o cümlədən Azərbaycan Respublikasında da müvəffəqiyyətlə istifadə edilməkdədir.

Məlum olduğu kimi, Sovetlər Ittifaqı dağılana qədər Azərbaycanda da kitabxanaşünaslıq sahəsində aparılan tədqiqatlar rus kitabxanşünaslığının təsiri altında idi. Kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsasları Moskvada işlənib hazırlanırdı. Kitabxanaşünaslığın nəzəri problemlərinə həsr edilmiş bütün elmi konfranslar, müzakirə və diskussiyalar Moskvada keçirilirdi. Müttəfiq respublikaların kitabxanaçılıq ali məktəbləri Moskvada hazırlanmış tədris planları və proqramları əsasında işləyirdilər.

Digər müttəfiq respublikalarda olduğu kimi milli Azərbaycan kitabxanaşünaslığıda böhran keçirirdi. Kitabxanaşünaslığın elmi-nəzəri məsələlərinə dair ciddi elmi-tədqiqatlar aparılmırdı.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Azərbaycan kitabxanaşünaslığı bilavasitə rus kitabxanaşünaslığının təsiri altında formalaşırdı.

1991-ci ildə SSRI dağıldıqdan sonra Azərbaycan Respublikası müstəqillik əldə etdi. Müstəqil və süveren Azərbaycan Respublikasının yaranması xalqımızın taleyində böyük tarixi hadisə oldu. Müstəqillik şəraitində ölkənin sosial-iqtisadi tərəqqisi, xalqın mədəni-mənəvi potensialının güclənməsi, milli mədəniyyətimizin, elmimizin hərtərəfli inkişafı üçün geniş imkanlar açıldı. Mədəniyyətimizin mühüm sahələrindən biri kimi kitabxana işinin inkişaf və tərəqqisi üçün əlverişli şərait yarandı. Kitabxana işinin, kitabxanaşünaslıq elminin elmi-nəzəri və metodoloji əsasları yenidən işlənməyə başlandı. Kitabxana işi problemləri köklü surətdə təzədən formalaşmağa başladı. Bu da hər şeydən əvvəl keçmiş totalitar rejimdən miras qalmış kitabxanaların ideologiyalaşdırılması, sinifilik, partiyalılıq kimi anti-elmi və qeyri-humanist prinsiplərdən azad olmasını, onun dünyəvi humanist prinsiplərlə əvəz edilməsini tələb edirdi.

Marksizm-leninizm nəzəriyyəsindən imtina etmək onun anti-elmi prinsipləri olan sinifilik və partiyalılıq prinsiplərini rədd etmək, Azərbaycan milli kitabxanaşünaslığına dünya kitabxanaşünaslığının ümumbəşəri prinsiplərinə qovuşmaq imkanı verdi.

Müstəqillik illərində respublikamızda milli dəyərlərə söykənən kitabxanaşünaslığın bir elm kimi inkişafı sahəsində ciddi addımlar atılmış, bir çox qiymətli elmi-tədqiqat əsərləri, məqalələr, monoqrafiyalar, dərsliklər meydana çıxmış, yeni ümumbəşəri, dünya kitabxanaşünaslığına söykənən müasir kitabxanaşünaslıq formalaşmağa başlamışdır.

Bu sahədə Azərbaycan kitabxanaşünaslarından milli kitabxanaşünaslığımızın banisi, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor A. A.Xələfovun xüsusi xidmətləri olmuşdur.[1] Professor A.A.Xələfov müstəqillik əldə edildikdən sonra ölkədə baş verən siyasi, iqtisadi, ideoloji

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

[1] Bax. 1. Knyaz Aslan Elm və təzsil fədaisi. B., 2006, 240 s.; Müdriklik və Alimlik zirvəsində. B., 2006; Mənalı ömür yolu. Abuzər Xələfov 70. B., 2001, 230 s.
4. Abuzər Xələfov Biblioqrafik məlumat kitabı (I hissə) B., 2001, 224 s. II hissə B., 2006, 142 s.

dəyişikliklərlə əlaqədar olaraq, dövrün tələbinə, yeni milli ideologiyaya, müvafiq olaraq kitabxanaşünaslığın elmi-nəzəri, metodoloji, fəlsəfi məsələlərini yenidən, yeni təfəkkür tərzinə, dünya kitabxanaşünaslığınının təcrübəsinə əsaslanaraq, yeni baxımdan işlədi. Prof. A.Xələfovun 1997-ci ildə çap etdirdiyi «Müasir şəraitdə Azərbaycanda kitabxana quruculuğu nəzəriyyə və təcrübəsinin, elmi əsasları»[2] adlı məqaləsində müasir kitabxanaşünaslığın «Sosialist kitabxanaşünaslığından» fərqli cəhətləri, yeni kitabxanaşünaslığın elmi-nəzəri əsasları, metodologiyası, demokratik inkişaf istiqaməti, dünya kitabxanaşünaslığına inteqrasiyası göstərilmiş, müasir kitabxanaşünaslığın inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

2001-2003-cü illərdə prof. A.Xələfovun öz tədqiqatlarını davam etdirməsi nəticəsində respublikanın tarixində ilk dəfə kitabxanaşünaslığın ümumi fəlsəfi məsələlərindən bəhs edən, kitabxanaşünaslıq fikrinin inkişaf tarixini, kitabxanaşünaslığın bir elmi fənn kimi meydana gəlməsini, elmi-nəzəri və metodoloji əsaslarının formalaşmasını elmi dəlillərlə ümumiləşdirən «Kitabxanaşünaslığa giriş»[3] adlı ikicildlik dərsliyi meydana çıxdı. Bu dərslikdə müəllif «sosialist kitabxanaşünaslığının» bir çox müddəalardan cəsarətlə imtina etdi, öz yeni fikirlərini irəli sürdü. İlk növbədə uzun illər SSRI-nin ali kitabxanaçılıq məktəblərinində əsas fənn kimi tədris edilən «Ümumi kitabxanaşünaslıq» fənninin adı dəyişdirilərək «Kitabxanaşünaslığa giriş» adlandırıldı. «Kitabxana haqqında təlim» və «Kitabxana işi haqqında təlim» yenidən işlənərək kitabxanaların yaranması, tarixi, inkişafı, təkamülü, kitabxana işinin məzmunu və vəzifələri yeni dünyagörüşü, dünya kitabxanaşünaslığının müddəaları əsasında ümumiləşdirildi. Müəllif kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarını yenidən işləyərək, kitabxanaşünaslıq fəlsəfəsi haqqında, kitabxanaşünaslığın metodoloji əsasını dünya fəlsəfəsinin təşkil etdiyini,

---

[2] Kitabxanaşünaslıq və biblioqrafiya (elmi-nəzəri, təcrübi jurnal).- B., 1997, №1, 18-26.

[3] Kitabxanaşünaslığa giriş.I hissə, B., 2001, 400 s.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

fəlsəfənin elmi-nəzəri müddəalarının və kateqoriyalarının kitabxanaşünaslığa tətbiqi məsələlərinə aydınlıq gətirdi.[1]

Bu dərslikdə diqqəti cəlb edən nəzəri yeniliklərdən biri də kitabxanaşünaslığın humanitar elmlər bölməsinə daxil edilməsidir. Məlumdur ki, sosialist kitabxanaşünaslığında və sovet elm təsnifatlarında «Kitabxanaşünaslıq» ictimai elmlər bölməsində öyrənilirdi. Müəllifin dünya kitabxanaşünaslığına əsaslanaraq Kitabxanaşünaslığın humanitar elm olması fikrini irəli sürməsi və əsaslandırması kitabxanaşünaslıq aləmində yenilikdir. Prof. A.Xələfov kitabxanaların tipologiyasını kitabxanaşünaslıq elminin əsas nəzəri problemi kimi qiymətləndirərək ümumiyyətlə kitabxana işi və təsnifat probleminə böyük diqqət yetirmiş, elmlər təsnifatı ilə kitabxana təsnifatının əlaqələrini, onların oxşar və fərqli cəhətlərini elmi araşdırmağa səy göstərmiş, kitabxanaların tiplərə və növlərə bölünməsinin yeni variantını hazırlanmişdir. Prof. A.Xələfovun kitabxanaların tipləri və növləri haqqında təklif etdiyi yeni variant respublika kitabxana işçilərinin böyük marağına səbəb olmuşdur. Professor A.Xələfov müasir İnformasiya cəmiyyəti, onun xüsusiyyətləri, İnformasiya cəmiyyəti və kitabxana işi, İnformasiya və kitabxana texnologiyası, kitabxanaların kompüterləşdirilməsi, elektron kataloq və elektron kitabxana haqqında çox qiymətli məqalələr və dərsliklər yazılmışdır.[2]

Prof. A.Xələfovla yanaşı olaraq Azərbaycan kitabxanaşünas alimlərindən prof. X.I.Ismayılov, dosentlərdən R.Ə.Kazımov, E.Y.Əhmədov, M.Ə.Məmmədov, S.Rzayev və s. öz əsər və məqalələrində kitabxanaşünaslığın müasir problemlərinə toxunmuş, Azərbaycan milli kitabxanaşünaslığının müəyyən sahələrini tədqiq etmişlər.

Bütün bunlarla yanaşı 2007-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Rusiya Federasiyasının

---

[1] Kitabxanaşünaslığa giriş. II-III hissə, B., 2003, 214 s.

[2] Bax: 1. Abuzər Xələfov Kitabxanaşünaslığa giriş. I hissə, B., 2001, 400 s. Abuzər Xələfov Kitabxanaşünaslığa giriş. II hissə, B., 2003,, 315 s. Abuzər Xələfov XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri; Abuzər Xələfov, Azad Qurbanov Kitabxanaların kompüterləşdirilməsinin əsasları. B., 2007, 200 s.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Mədəniyyət və Kütləvi Kommunikasiyaları Nazirliyi, Rusiya Federasiyasının Mədəniyyət və Kinomatoqrafiya üzrə Federal Agentliyi və İnformasiya üçün YUNESKO Proqramının Rusiya Komitəsi tərəfindən «Kitabxanalar biliklər aləmində (iki dilli: Azərbaycan-Rusiya Layihəsi)»[1] məqalələr məcmuəsinin çap edilməsi kitabxanaşünaslığın, müasir problemlərinin öyrənilməsinə qiymətli hədiyyə olmuşdur. Məqalələr məcmuəsində Azərbaycan və Rusiyanın görkəmli alimlərindən və mütəxəssislərindən Ə.M.Qarayevin, İ.Y.Məmmədəliyevanın, L.M.Məmmədovanın, A.A.Xələfovun, M.Q.Əhmədovun, R.Ə.Kazımovun, A.İ.Əliyeva-Kəngərlinin, S.Kondratyevin, T.Məmmədovun, Y.İ.Kuzminin, V.M.Krasilşikovanın, M.Usoçevuon, T.Y.Kuznetsovanın, E.V. Smolinovanın, Y. A.Qrixanovun, İ.B.Mixnovanın, N.I.Xaxalevanın, M.Y. Opuonkovun, A.V.Liçutinin, İ.P. Tikunovanın müasir kitabxanaşünaslığın, «Kitabxanaşünaslıq fəlsəfəsinin» öyrənilməsi üçün olduqca böyük əhəmiyyət kəsb edən, onun elmi, nəzəri və metodoloji əsaslarının tədqiqinə və istiqamətləndirilməsinə mühüm köməyi olan məqalələri dərc edilmişdir. Məcmuədə çap edilən məqalələr içərisində İnformasiya cəmiyyətində kitabxanaçıların yeri və vəzifələri əhatəli şəkildə şərh edilmiş, çox ciddi tövsiyələr hazırlanmışdır.

Məcmuədə kitabxanaşünaslığın fəlsəfi problemlərinə, «Kitabxanaşünaslıq fəlsəfəsi»nə dair də çox qiymətli məqalələr vardır. Bu məqalənin görkəmli filosoflar M.S. Opuonkov və A.V.Liçutin tərəfindən yazılması böyük maraq doğurur.

Bütün burada göstərilənlərdən məlum olur ki, müasir şəraitdə həm Rusiyada həm də Azərbaycanda cəmiyyətin strukturunda baş verən dəyişiliklər, keçmiş Sovet imperiyasının yerində yaranmış müstəqil dövlətlərdə, o cümlədən müstəqil Azərbaycan Respublikasında kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji problemlərinin öyrənilməsinə, milli kitabxanaşünaslığımızın dünya kitabxanaşünaslığına inteqrasiyasına böyük şərait yaranmışdır. Müasir şəraitdə meydana çıxan yeni problemlər içərisində

---

[1] Kitabxanalar biliklər aləmində (iki dilli Azərbaycan-Rus layihəsi). Bakı, 2007, 516 s.

«İnformasiyanın ümumaçıq olması fəlsəfəsi»nin və «Kitabxanaşünaslıq fəlsəfəsi»nin öyrənilməsinə böyük maraq əmələ gəlmişdir.

İnformasiya cəmiyyəti şəraitində hər cür İnformasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, İnformasiya resurslarını toplayan, qoruyub saxlayan, onu insanların İnformasiya təminatının ödənilməsinə yönəldən kitabxanalar İnformasiya daşıyıcısı kimi mühüm əhəmiyyət kəsb edir. Kitabxanalar bilavasitə İnformasiyanın hamı üçün açıq olması missiyasını yerinə yetirən ideal bir müəssisədir. Belə bir bəşəri missiyanı öhdəsinə götürən kitabxanaların XXI əsrdə strateji vəzifəsi tamamilə dəyişmişdir. Müasir kitabxanalar İnformasiyanı təkcə təqdim etməklə kifayətlənməməli onunla necə davranmağı, onu necə nizamlamağı, ondan necə istifadə etməyi aşılamalı, onun yaradılması və ötürülməsi prosesinə müdaxilə etməlidirlər. Beləliklə, müasir kitabxanalar təkcə İnformasiyanın oxuculara çatdırılması yox, biliklərin əldə edilməsi və idarə edilməsi missiyasını həyata keçirir. Biliklərin idarə edilməsi isə bilavasitə idrak nəzəriyyəsində aparılan tədqiqatlarla əlaqədardır, onların böyük oxşarlıqları vardır.

Müasir dünyada baş verən bu proseslər kitabxanaların elmi nəzəri və metodoloji əsaslarını tədqiq edib öyrənən kitabxanaşünaslığın dünya elmləri ilə əlaqələndirilməsi, kitabxana, kitabxana işi və kitabxanaşünaslığın fəlsəfi problemlərinin öyrənilməsini, başqa sözlə, «Kitabxanaşünaslıq fəlsəfəsi»nin yaradılmasını tələb edir.

Müasir dövrdə humanitar elm kimi formalaşan kitabxanaşünaslıq bir elm kimi əhəmiyyətli dərəcədə inkişaf edib təkmilləşmiş, strukturunda ciddi dəyişiliklər baş vermiş, yeni-yeni elm sahələri yaranmış, elmi-nəzəri cəhətdən daha da zənginləşməklə, bilik və onun əldə edilməsi və mütaliə prosesinə, insanlara kitabxana-İnformasiya xidməti prosesinin təşkirlinə dərindən nüfuz etmiş, beləliklə də kitabxana praktikasının səmərəliliyinin artmasına geniş şərait yaratmışdır.

İnformasiya cəmiyyətinin kitabxanalar qarşısında qoyduğu böyük vəzifələr: İnformasiyanın hamı üçün olması, yeni İnformasiya texnologiyasının kitabxana və İnformasiya işinə tətbiqi,

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

kitabxanalarda tətbiq edilən ənənəvi üsullardan öz məzmunu və formasına görə tamamilə fərqlənən yeni xidmət formalarının, elektron kataloqun, elektron kitabxananın yaranmasını, kitabxana proseslərinin kompüterləşdirilməsi, oxuculara xidmət prosesində kompüterlərdən istifadə edilməsi, oxucuların kompüter savadının təkmilləşməsi, kitabxanaların internetə qoşulması, kitabxanaşünaslığın yeni tərkib hissəsi olan elektron kitabxanaşünaslığın meydana gəlməsi, kitabxanaşünaslığın nəzəriyyəsində və metodologiyasında əsaslı dəyişiliklər edilməsini, yeni elmi fənlər yaradılmasını, elmi ümumiləşdirmələr aparılmasını, əldə edilmiş elmi nəticələrin sürətlə praktikaya tətbiq edilməsini tələb edir. Bütün bunlar isə öz növbəsində kitabxanaşünaslıq tədqiqatlarını bilavasitə cəmiyyətin tələbatına müvafiq istiqamətlərə yönəlimək, İnformasiya hamı üçün sosial mühitinin hazırlanması zərurətini doğurur. Bu həyati proseslərin həlli isə bütövlükdə kitabxanaşünaslıq fənlərinin elmi-nəzəri və metodoloji əsası olan «Kitabxanaşünaslıq fəlsəfəsi»nin öyrənilməsini ön plana çəkir. Beləliklə, «Kitabxanaşünaslıq fəlsəfəsi» kitabxanaçılıq elmlərinin elmi-nəzəri əsası, metodoloji bazası məhək daşıdır.

Hər bir elmi fənnin mahiyyətini açan, vəzifələrini müəyyənləşdirən predmeti olduğu kimi «Kitabxanaşünaslıq fəlsəfəsinində» özünə məxsus predmeti mövcuddur. Bu predmeti düzgün müəyyənləşdirmək, onun mahiyyətini və məzmununu açmaq olduqca böyük elmi ümumiləşdirmələr aparmağı, kitabxanaçılıq elmlərini dərindən bilməyi, onun dərinliklərinə nüfuz etməyi bacarmaq zərurəti doğurur.

«Kitabxanaşünaslıq fəlsəfəsi» hələ lazımi səviyyədə öyrənilmədiyindən onun predmeti haqqında müxtəlif fikirlər vardır. Hazırda əsas vəzifə bu müxtəlif fikirlər aləmindən ən optimalını, səmərəlisini seçib ümumiləşdirməkdən ibarətdir.

Kitabxaşünaslıq fəlsəfəsi hər şeydən əvvəl kitabxana fəaliyyətininin təşkilinin məqsəd və prinsipləri haqqında ideyalar və anlayışlar sistemini, kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarını öyrənməyə səy göstərir. «Elm fəlsəfəsi»nin öyrənilməsində tarixilik prinsipi əsas prisiplərdən biri kimi qəbul edildiyindən «kitabxanaşüanslıq fəlsəfəsi» öz tədqiqatlarında

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

kitabxanaların yaranması və inkişafı tarixinə, təkamül prosesində kitabxanaların təkmilləşməsinə, cəmiyyətin mədəni inkişafında insanların biliklərə yiyələnməsində, İnformasiya təminatında, maarif və mədəniyyətin inkişafında keçdiyi yola, oynadığı rola da geniş nəzər salmaqla kitabxanaların tarixi missiyasını ümumiləşdirir.

Kitabxanaların bəşəriyyətin, ayrı-ayrı xalqların, dövlətlərin inkişafında oynadığı böyük tarixi missiyanı yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev deyir: «Kitabxana, xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir».[1]

Mübaliğəsiz demək olar ki, H. Əliyevin böyük fəlsəfi mahiyyət kəsb edən bu fikirləri, dünya mədəniyyəti tarixində kitabxanaya verilən ən qiymətli kəlam, dərin metodoloji əhəmiyyət kəsb edən fikirlərdir. Heydər Əliyevin kitabxananı müqəddəs bir yer (ilahi qüvvəyə malik, toxunulmaz, sarsılmaz, pak, təmiz bir yer) adlandırması, kitabxanaların cəmiyyətin mənəvi tərbiyəsində, maariflənməsində böyük məsuliyyət daşımasını ön plana çəkir. Həmçinin kitabxanaları mənəviyyat, bilik, zəka mənbəyi kimi xarakterizə etməsi, onun cəmiyyət qarşısındakı, elmi, İnformasiya, mədəniyyət, təhsil, tərbiyə kimi çox mühüm sosial funksiyaları yerinə yetirmək vəzifələrini elmi cəhətdən əsaslandırır, fəlsəfi mahiyyətini aşkara çıxardır.

Kitabxana haqqında dünyanın bir çox görkəmli şəxsiyyətləri, filosofları yazıçıları, şairləri, alimləri, incəsənət xadimləri olduqca yüksək fikir söyləmiş, kitabxanaların bəşəriyyətin bilik xəzinəsi ideya və baxışlar mənbəyi kimi qiymətləndirmişlər. Belə görkəmli şəxsiyyətlərdən rus kitabxanaşünaslığının görkəmli simaları olan N.F.Feodorov və N. Rubakinin «Kitabxanaşünaslıq fəlsəfəsi» haqqında fikirləri daha çox diqqəti çəkir.

25 il Rumyantsev muzeyi kitabxanasında xidmət edən Nikalay Feodoroviç Feodorov (1829-1903) özündən sonra kitabxanaşünaslığa dair çox qiymətli əsərlər qoyub getmişdir.[1] Onun

---

[1] Heydər Əliyev. Müstəqillik yollarında.- B., 1977, III cild, s. 397.
[1] Библиотековедение.- 2001, №3, с. 80-88.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

əsərləri içərisində kitabxanaşünaslığın fəlsəfəsinə (elmi-nəzəri və metodoloji problemlərinə) dair əsərləri mühüm elmi əhəmiyyət kəsb edir. N.F.Feodorovun əsərlərində kitabxanaların mahiyyəti və vəzifələri haqqında fikirləri kitabxana işinin fəlsəfi anlamı üçün olduqca əhəmiyyətlidir. N.F.Feodorovun nəzəri irsində kitabxanın iki istiqaməti: ideal və ruhi istiqaməti göstərilir, çap əsərlərinin real toplayıcısı hesab edilir. Kitabxanaya bir tərəfdən «ideal», digər tərəfdən «maddi» obyekt kimi baxılması onun baxışlarının mahiyyətini təşkil edir. O, bütün kitabxana fonduna bəşəriyyətin bütövlükdə fikri, həmçinin hissi və ruhu kimi baxırdı. Ona görə də o, kitabxanaları hiss və fikirlərin müqəddəs məbədgahı hesab edir, onu aqillik məbədi kimi qiymətləndirirdi. N.F.Feodorov fəlsəfəsinin əsas ideyası ölümün üzərində qələbə çalmaq, dünyasını dəyişənləri həyata qaytarmaq, onları diriltmək ideyasıdır. O əsərlərində özünün bu utopiyasının həyata keçirilməsinə böyük yer verirdi. Onun anlamına görə kitabxana ancaq kitab toplusu deyil, əcdadlarımız tərəfindən yaradılmış abidədir, yazarların ruhudur. Ona görə də kitabxana müqəddəs məbəd kimi təbiətin əksinə olaraq, ölən atalarımızın, babalarımızın ideya, fikir və düşüncələrini yenidən dirildir kitabxana dünyasını dəyişənlərin xatirəsini qoruyub saxlamaqla onların yazdıqları əsərlər vasitəsi ilə həyata qaytarılmasına xidmət edir. N.F.Feodorov yazır: insan öləndən sonra onun cəsədi qəbirstanda dəfn edilir, ancaq onun ruhu kitablar formasında kitabxanaya müzeyə qayıdır.

N.F.Feodorov öz əsərlərində kitabxananın böyük maarifçilik fəaliyyətini ön plana çəkir, ona ali məktəb kimi baxırdı. O, kitabxanaya elmi-tədqiqat işi aparan alimlərlə ali məktəb arasında yer verir. Onun fikrincə, kitabxana ali tədris müəssisələrindən üstün olmalıdır. Ona görə ki, müəllimlər özü də kitabxanadan öyrənir.[1]

Beləliklə, böyük mütəfəkkir, kitabxanaşünas N.F.Feodorovun əsərlərində kitabxanaşünaslığın bir çox fəlsəfi problemlərini öyrənməklə, «Kitabxanaşünaslıq fəlsəfəsinin» öyrənilməsinin zəruriliyini ortaya çıxarıldı.

---

[1] Библиотековедение.- 2001, №3, с. 80-88.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Klassik rus kitabxanaşünaslığında «Kitabxanaşünaslıq fəlsəfəsi»nə, kitabxanaçılığın fəlsəfi problemlərinə aid böyük və dərin nəzəri irs qoymuş, şəxsiyyətlərdən biri də görkəmli rus kitabxanaşünası N.A.Rubakin olmuşdur.[2] Bütün mənalı həyatını kitab, kitabxana və mütaliə problemlərinə həsr etmiş N.A. Rubakin dünyada ilk dəfə «Bibliopsixologiya»nın əsasını qoymuş, kitabxanaşünaslığın elmi, nəzəri və metodoloji problemlərinin yeni elmi əsaslar üzrəində öyrənilməsini əsaslandırmışdır. Onun elmi-nəzəri irsində kitab, kitabxana və mütaliənin fəlsəfi problemlərinin öyrənilməsinə geniş yer verilir. Bu problem N.A.Rubakin yaradıcılığından qızıl xətt kimi keçir.

Kitabxana işini fəlsəfə kimi qiymətləndirən N.A.Rubakin yazır: «Kitabxana işi kitab rəflərinin fəlsəfəsi deyil, biliyin, anlayışların fəlsəfəsidir». Deməli, A.N. Rubakinə görə kitabxana işi biliyin və anlayışların fəlsəfəsidir. A.N.Rubakinin kitabxana, onun cəmiyyətdəki yeri, tarixi missiyası, elmin, mədəniyyətin inkişafında, insanın yetişdirilməsində rolu əhəmiyyət və vəzifələri haqqında çox qiymətli fikirləri vardır.

N.A.Rubakin deyir: «Bəşəriyyətin ruhi enerjisinin anbarı olan kitabxana elə bir mərkəzdir ki, burada toplanan enerji canlı qüvvəyə çevrilir». «Kitabxana canlı orqanizm, kollektiv, yüksək təhsilli şəxsiyyət, bəşəriyyətin ən yaxşı nümayəndələrindən fərdi təşkil edilmiş müəssisədir».

Daha sonra N.A.Rubakin kitabxananın bəşəri biliyin toplanıb saxlanılmasında, onun nəsildən-nəsilə ən qiymətli yadigarlar kimi ötürülməsində böyük fövqəl əhəmiyyətini dilə gətirərək söyləyir: «Kitabxana bəşəriyyətin ən yaxşı aqillərinin əməyinin məcmusudur, onların biliyinin fikrinin, hissinin, ciddi-cəhtinin və ümidinin xəzinəsidir. Kitabxana kainatın kitabla əks etdirilməsidir».[1]

Klassik rus kitabxanaşünasları ilə yanaşı müasir rus kitabxanaşünaslarından K. I.Abramovun, A.H.Vaneyevin, A.B.Sokolovun, V.V.Skvortsovun, Y.N.Stolyarovun, M.Y.Dvorkinanın, A.E.Matelinanın son məqalələrində də «Kitabxanaşünaslıq

---

[2] Yenə orada.
[1] Библиотеная энциклопедия. -М., 2006, с. 187.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

fəlsəfəsi»nin bu və ya digər aspektləri haqqında qiymətli fikir söylənilmiş və kitabxanaşünaslıq fəlsəfəsinin öyrənilməsi müasir kitabxanaşünaslığın əsas vəzifələrindən biri kimi qiymətləndirilmişdir.

Müasir kitabxanaşünas alimlər belə bir ümumi nəticəyə gəlmişlər ki, kitabxanaşünaslıq tədqiqatlarının aparılmasında, kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji əsaslarının hazırlanmasında, elmi-tədqiqat işləri nəticələrinin kitabxana praktikasına tədbiq edilməsində, kitabxanaşünaslığın digər elmlərlə inteqrasiyasında «Kitabxanaşünaslıq fəlsəfəsinin» böyük əhəmiyyəti vardır.

Bu məsələdən danışarkən fəlsəfə elmləri doktoru A.Q.Spirkin fəlsəfə dərsliyində fəlsəfə ilə konkret elmlərin nisbətini şərh edərək yazır: «Hər bir elmin istər-təbiətşünaslıq, istərsə də humanitar elmlər olsun öz predmeti vardır. Bütün bunlar inkişaf prosesində dəyişər, yanlış nəzəriyyələrin əvəzində daha mükəmməl nəzəriyyələr yarana bilər».[2]

Bütün burada dediklərimizi nəzərə alaraq, həmçinin görkəmli alimlərin, filosofların, kitabxanaşünasların «Kitabxanaşünaslıq fəlsəfəsi» haqqında söylədiyi ideya və fikirlərə söykənərək bizcə «Kitabxanaşünaslıq fəlsəfəsi»nin predmetini aşağıdakı şəkildə formalaşdırmaq olar. «Kitabxanaşünaslıq fəlsəfəsinin predmeti bilik, onun əldə edilməsi, İnformasiya və onların idarə edilməsidir». «Kitabxanaşünaslıq fəlsəfəsi» kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji məsələləri haqqında təlim, kitabxana işi fəaliyyətinin təşkilinin məqsəd və prinsipləri haqqında ideyalar və baxışlar sistemidir. O, həmçinin kitabxana ideyaları və kitabxana siyasətini hazırlamaq üçün metodoloji əsasdır.

Bəşəriyyət həmişə biliyə can atır, bilik əldə edilməsində insanların ən yaxın köməkçisi, bilik əldə etməyin vasitəsi, bilik mənbəyi olan mətnləri toplayıb saxlayan, onları nəsildən-nəsillərə ötürən kitabxanalar olmuşdur. Kitabxanalar özünün bu tarixi missiyası ilə insanlığın maariflənməsinə, elmə, mədəniyyətə yiyələnməsinə sərf etmiş, svilizasiyanın inkişafına böyük töhfələr vermişdir.

---

[2] H.İmanov fəlsəfənin əsasları. B., 2007, s.4.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Bilik ictimai nemətdir. Bilik hər bir insan üçün əlyetərli olmalıdır. Cəmiyyət bilik dalınca gedən, bilik qazanmaq istəyən insana şərait yaratmalı, onun İnformasiya tələbatını ödənilməsini təmin etməlidir ki, kitabxana şəbəkələri insana İnformasiyanın biliyə çevrilməsi prosesində yardımçı olsun.

Məhz buna görədir ki, görkəmli rus alimi, fəlsəfə elmləri doktoru, professor M.Y.Opuonkov və fəlsəfə elmləri namizədi A.B.Lituçin «Kitabxana şəbəkələrində biliklərin idarə edilməsi» adlı məqaləsində biliklərin əldə edilməsində kitabxana ların roluna böyük qiymət verərək (kitabxana fəlsəfəsi və onun əhəmiyyətindən danışarkən) yazırlar: «Kitabxana fəlsəfəsi insanın biliklərlə necə davranması, onu necə sistemləşdirməsi və yeni bilikləri necə yaratması məsələlərini tədqiq edir. Biliyin strukturlaşdırılması, təşkili və onunla iş metodlarının yaradılması məsələsi idrak nəzəriyyəsində aparılan tədqiqatlara oxşayır. Biliklərin hər hansı şəkildə sistemləşdirilməsi üçün dərin nəzəri hazırlıq, bəşər biliklərinin bütün məcmusunun moritorinqi və mümkün qədər dəqiq formalaşdırma tələb olunur. Biliklərin hər bir rubrikası konkret bilik strategiyasına əsaslanır».[1]

Beləliklə, insanın bilik qazanmaq, onları sistemləşdirmək, yeni biliklər yaratmaq sahəsində həyata keçirdiyi bütün təfəkkür prosesi daim hərəkətdə, yeniləşməkdə olan kitabxana işi ilə bağlıdır. Insanla kitabxana arasında baş verən bu dinamik fəlsəfi proses «Kitabxanaşünaslıq fəlsəfəsi»nin yaranması və inkişafı üçün təkan verir. Kitabxana ilə insan (oxucu) arasında baş verən bu yaradıcı proses öz inikasını bilavasitə kitabxanaşünaslıq tədqiqatlarında tapır. Kitabxanaşünaslıq insan və bilik, insanın biliklə davranması və biliklərin idarə edilməsi haqqında elmə çevrilir. Göstərilən müddəaların hamısı təfəkkür, dərk etmə prosesi ilə əlaqədar olduğundan «Kitabxanaşünaslıq fəlsəfəsi»nin yaranması və inkişafı labüddür.

Elm tarixindən məlumdur ki, biliklərin sistemləşdirilməsi olduqca mürəkkəb, ciddi araşdırmaları və ümumiləşdirmələri tələb edən, həmişə inkişafda olan, dinamik bir prosesdir. Ona

---

[1] Kitabxanalar biliklər cəmiyyətində (iki dilli Azərbaycan-Rusiya layihəsi).- B., 2006. s.304.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

görə də elmlərin sistemləşdirilməsi kitabxanaçıdan geniş elmi eredusiya, nəzəri bilik, təcrübi vərdiş, bəşəri biliklərin bütün məcmusundan baş çıxarmaq, onarı elmi, məntiqi ardıcıllıqla əks etdirmək bacarığı tələb edir. Bütün elmlər əsirlər boyu sitemləşdiirlmiş biliklərin məcmusudur. Fasiləsiz olaraq davam edən sistemləşmə prosesi elmlərin təsnifinə də şərait yaradır. Beləliklə də elmlərin sitemləşdirilməsi ilə təsnifləşdirilməsi arasında böyük oxşarlıq və üzvü əlaqə vardır. Hər bir yeni bilik və elm konkret bilik strategiyasına əsaslanır. Məhz buna görə universal və dəyişməz elm və kitabxana təsnifatı yaradılması müasir zaman gerçəkliyindən olduqca uzaqda olan sonsuzluqdur.

Elmlər durmadan inkişaf etdiyindən gələcək elmi biliklər, kəşflər haqqında məlumat vermək, gələcəyi indiki dövrə sıxdırmaq mümkün deyildir.

Beləliklə, yeni biliklərin və elmlərin meydana gəlməsi sonsuz olduğundan bitkin və müfəssəl təsnifatlar yaratmaqda sonsuzdur.

Müasir İnformasiya cəmiyyəti şəraitində biliklər okeanından əldə edilən bilik xüsusi əhəmiyyət kəsb edir. İnformasiya insanın şəxsi fəaliyyətinə, təcrübi iş prosesinə daxil olduqda, ona məlum olmayan yeniliyi mənimsədikdə, onu dərk edib özününküləşdirdikdə, təcrübəyə tətbiq edə bildikdə biliyə çevrilir.

Aydındır ki, insanın duyğu orqanları vasitəsi ilə əldə etdiyi hər bir İnformasiya bilik deyildir. Deməli, insan İnformasiyanı biliyə çevirmək üçün onu olduqca ciddi bir təfəkkür süzgəcindən keçirməlidir. Başqa sözlə, İnformasiyaya belə tərif vermək olar: bilik, minus şəxsi təcrübə. İnformasiyanın biliyə çevrilməsi prosesində bir çox müəssisələr iştirak edir. Bunların içərisində ən səmərəli və perspektivli müəssisə kitabxanalardır. Kitabxana ən mükəmməl İnformasiya bazası olan, onu oxuculara çatdırmaq üçün olduqca dinamik texnologiyaya malik, ən məhsuldar, ən kütləvi, həmçinin ən çevik, bilikləri idarə etmək sistemlərindən biridir. Kitabxana təkcə bəşəriyyətin yaddaşını qoruyub saxlayan müəssisə deyil, həm də yeni biliklər istehsal edən, elm və mədəniyyətin inkişafını əvvəlcədən görən, proqramlaşdıran idrak vasitəsilidr. Ona görə də elmlərin strukturunda baş verən dəyişiliklər kitabxananın ənənəvi və elektron İnformasiya vasitələrində

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

öz əksini tapmalı, elmlərin sitemləşdirilməsində ondan istifadə edilməlidir. Bu işin təşkili isə elm xadimləri ilə tədqaqitçı kitabxanaçıların birgə fəaliyyətini elmi əməkdaşlığını tələb edir. Indiyə qədər kitabxanaçı peşəsi insanların axtardığı İnformasiyanı əldə etməsində onları müşayiət etməkdən ibarət idi. Hazırda müasir texnologiyanın inkişafı sahəsində kitabxananın öhdəsinə düşən vəzifəni oxucu özü müstəqil həyata keçirmək imkanına malikdir. «Ona görə də XXI əsrdə kütləvi kitabxanaların strateji vəzifəsi İnformasiyanı təqdim etməkdən yox, onunla necə davranmağı, onu necə nizamlamağı, ondan qecə istifadə etməyi, onun yaradılması və ötürülməsi üsullarını öyrənməkdən ibarət olacaqdır. Buna görə də kitabxana işinin gələcək missiyası biliklərin istehsal olunması və əldə edilməsi mühitini yaratmaqdan ibarətdir».[1]

Beləliklə, İnformasiya cəmiyyəti şəraitində kitabxanaların qarşısında duran olduqca mühüm, siyasi, iqtisadi, ideoloji və sosial vəzifələri yerinə yetirməkdə kitabxanaşünaslıq elminin inkişaf edib təkmilləşməsi, onun digər fundamental elmlərlə inteqrasiyası olduqca zəruridir.

Kitabxanaşünaslıq kitabxanaçılıq prosesinin inkişaf qanunauyğunluqlarını, xassələrini, xarakterini, strukturunu, kitabxanaçılıq ideyasını, anlayışlarını və çap əsərlərindən ictimai istifadənin təşkili problemləirini tədqiq edib öyrənən humanitar elmdir. Kitabxanaşünaslığın humanitar elm olması kitabxanaların sosial müəssisə kimi cəmiyyətin mənəvi həyatına əsaslı təsir göstərməsi ilə əlaqədardır. Kitabxanalar humanist, demokratik, bəşəri ideyaların daşıyıcısı kimi insanların tərbiyə və təhsilində mədəni inkişafında yaxından iştirak edir. Kitabxanaşünaslıq kitabxanaçılıq elmlərinin kompleks tədqiqinin öyrənilməsi və ümumiləşdirilməsini həyata keçirərkən, kitabxanaçılıq elmlərinin fəlsəfi problemlərini də öyrənir.

Beləliklə, «Kitabxanaşünaslıq fəlsəfəsi» dedikdə kitabxanaçılıq elmləri kompleksinə daxil olan bütün elmi fənləri, həmçinin kitabxanaların sosial funksiyalarını, kitabxana və

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

[1] Kitabxanalar biliklər cəmiyyətində (iki dilli Azərbaycan-Rusiya layihəsi).- B., 2006. s.304.

kitabxana işi haqqında təlimləri bütövlükdə əhatə edilir. Müasir İnformasiya cəmiyyətində kitabxanalar elmi-İnformasiya müəssisəsi kimi cəmiyyətin əsas atributlarından biri hesab edilir. Kitabsız, kitabxanasız, təhsilsiz, elmsiz, mədəniyyətsiz, İnformasiya cəmiyyətini düşünmək qeyri-mümkündür. Biliklər cəmiyyətinin inkişaf konsepsiyası-ən səmərəli elm, kitabxana-təhsil layihəsinə əsaslanır. Bu layihəni həyata keçirə bilən ölkənin heç şübhəsiz böyük, iqtisadi, elmi, mədəni üstünlüklər əldə etməsi labüddür.

Müasir dünyanın İnformasiya təminatında kitabxanalar ümumbəşəri əhəmiyyət kəsb etdiyindən dünya birliyinin diqqət mərkəzindədir.

Bu baxımdan kitabxanaşünaslıq tədqiqatlarının səmərəliliyinə və təsirliliyinə böyük kömək göstərən «Kitabxanaşünaslıq fəlsəfəsi»nin elmi fənn kimi öyrənilməsinə və tədrisinə olduqca böyük ehtiyac duyulmaqdadır.

«Kitabxanaşünaslıq fəlsəfəsi» «Elm fəlsəfəsi»nin tərkib hissəsi olduğundan, elm fəlsəfəsinin tədqiqat üsulları, metodologiyası və metodları «Kitabxanaşünaslıq fəlsəfəsi»nə şamil edilməli, fəlsəfi ideyalar və anlayışlar kitabxanaçılıq tədqiqatlarının elmi-nəzəri və metodoloji əsasını təşkil etməlidir.

Məlum olduğu kimi, kitabxanaşünaslığın strukturuna elmi fənn kimi aşağıdakı fənlər daxildir:

1. Kitabxanaşünaslığın ümumi nəzəri və metodoloji məsələləri;
2. Kitabxana-İnformasiya kütləsinin formalaşması nəzəriyyəsi;
3. Kitabxanaçılıq-İnformasiya axtarış sistemləri nəzəriyyəsi;
4. Oxuculara (tələbatçılara) kitabxana xidməti nəzəriyyəsi;
5. Kitabxana işinin strateji idarəedilməsi nəzəriyyəsi;
6. Kitabxana işi və kitabxanaçılıq fikirlərinin tarixi;
7. Kitabxana-İnformasiya texniki vasitələri;
8. Kitabxana işinin kompüterləşdirilməsi;
9. Kitabxanaçılıq informatikası;
10. Elektron kitabxana;
11. Elektron kataloq və s.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Göründüyü kimi, kitabxanaşünaslığın quruluşu ona daxil olan fənlərin çoxsahəliliyi və müxtəlifliliyi ilə xarakterizə olunur. Bu fənlərin hər birinin özünün predmeti, vəzifələri, məzmunu, tədqiqat sahəsi vardır. Bu fənlər içərisində «Kitabxanaşünaslığa giriş» fənni kitabxanaşünaslığın elmi-nəzəri və metodoloji problemlərini tədqiq etdiyindən əksər hallarda digər kitabxanaşünaslıq fənlərinin elmi-nəzəri və fəlsəfi əsası kimi də öyrənilir və ondan istifadə edilir. Bu baxımdan gələcəkdə «Kitabxanaşünaslığa giriş» fənninin strukturunu və proqramını yenidən işləyib təkmilləşdirərək «Kitabxanaşünaslıq fəlsəfəsi» kimi qəbul etmək və tədris etmək fikrinin reallaşmasına səy göstərmək zəruridir.

### *Ədəbiyyat*


**I. Azərbaycan dilində**

1. *Heydər Əliyev. Müstəqillik yollarında.-B.,1997.-III cild.*
2. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş. I hissə.-B., 2001.-398 s.*
3. *Xələfov A.A. İnformasiya cəmiyyəti və kitabxana işi.- B., Bakı Universitetinin Xəbərləri humanitar seriya.-2004.-№3.-s. 316-327*
4. *Xələfov A.A. Müasir şəraitdə Azərbaycanda kitabxana quruculuğu. Nəzəriyyə və təcrübəsinin elmi əsasları.-Kitabxanaşünaslıq və biblioqrafiya seriyası.-nəzəri və təcrübi jurnal.-B., 1997.-s.18-26.*
5. *Kitabxanalar biliklər cəmiyyətində iki dilli Azərbaycan-Rusiya layihəsi.-B., 2006.-516 s.*
6. *Fəlsəfə enskolopedik lüğət.-B., 1997.-518 s.*
7. *Hegel Hüquq fəlsəfəsi.-B., 2007.-374 s.*
8. *Imanov H.R. Fəlsəfənin əsasları.-B., 2007, 442 s.*

***II. Rus dilində***

1. *Ванеев А.Н. Библиотесное дела теория, методика, практика. Санк-Петербург 2006.*
2. *Ванеев А.Н. Философия библиотеки в теоритечком наследии Никалая Феодоровича Феодорова// Библиотековедение.-2001.-№ 3.-с.80.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

3. Дворкина М.Я. Библиотечная филосефия: что это? «Библиотековедение».-1996.-№1.
4. Основы философии науки под. ред. С.А.Леведева.-М., 2005.-540 с.
5. Скворцов В.В. Теорические основы библиотековедения.-М., 1996.-с.37.
6. Библиотечная энциклопедия.-М., 2007. 1299 с.

***Абузар Халафов***

## ***Философия библиотековедения***

***РЕЗЮМЕ***

*В статье освещаются общие теоретико-мировоззренческие проблемы библиотековедения и библиотечной деятельности на философском уровне. Особое внимание уделено средствам и методам познания социальных функций библиотек в современном обществе.*

***Abuzar Khalafov***

## ***Philosophy of library science***

**SUMMARY**

*In the article the general theoretico-world outlook problems of library science and library activity at a philosophical level are published. The special attention is given to means and methods of knowledge of social functions of libraries in a modern society.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**XƏLİL İSMAYILOV**
*Tarix elmləri doktoru, professor*

## KİTABXANALARIN İDARƏ EDİLMƏSİNİN STRATEJİ ƏSASLARI

Cəmiyyətin həyatında, dövlət quruluşunda və sosial-iqtisadi həyatında son illərdə çox ciddi və nəzərə çarpan bəzi dəyişikliklərin baş verməsi sosial institut kimi kitabxanaların qarşısında yeni vəzifələr müəyyənləşdirir, sosial missiyaların yerinə yetirilməsində cəmiyyət və kitabxanalar arasında qarşılıqlı münasibətlərin özündə də bir sıra dəyişikliklər baş verir. Bütün bunlar müasir tələblərdən irəli gələn vəzifələr kimi kitabxanaların idarə edilməsində də dəyişikliklərin aparılmasını qarşıya qoydu.

Kitabxanaların strateji cəhətdən idarə edilməsi, ümumiyyətlə idarəçilik və idarəetmə haqqında elmi ədəbiyyatda çox ətraflı məlumatlar və fikirlər çap olunmuşdur, həmçinin kitabxana menecmenti konsepsiyasında, dünya təcrübəsində idarəetmə fəaliyyətinin hərtərəfli təhlil edilməsinə geniş yer verilmişdir.

Strateji idarəetmə-Kitabxanaların idarə edilməsinin yüksək səviyyələrdə aparılması kimi dərk olunması kimi başa düşülür, Mərkəzi icra hakimiyyət orqanları tərəfindən həyata keçirilir. Onun başlıca vəzifələri kitabxana işinin inkişafının başlıca istiqamətlərini müəyyənləşdirmək, kitabxana fəaliyyətinin idarə edilməsi məqsədilə vəsaitləri və kitabxana resurslarının bölüşdürülməsi, bina, avadanlıq və kadrların seçilib yerləşdirilməsi və s. bu kimi strateji məsələlərin həyata keçirilməsindən ibarətdir.

Bu istiqamət yəni idarəetmə nəzəriyyəsi və təcrübəsi müstəqil Azərbaycan respublikası kitabxana təcrübəsi üçün bir sıra yenilikləri tələb edir. Odur ki, strateji idarəetmə, müasir kitabxana nəzəriyyəsi və təcrübəsi müasir tələblər baxımından geniş şəkildə mütəxəssislərə öyrədilməlidir. Xüsusilə kitabxana işçilərinin ixtisasartırma sistemində kitabxana müdirlərinə, bölmə

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

şöbə mülirlərinə strateji idarəetmənin mahiyyəti açıqlanmalıdır.

İlk növbədə strateji idarəetmənin metodologiyasını hər bir kitabxana rəhbəri mükəmməl bilməlidir.

Kitabxanalara strateji rəhbərlik metodologiyası əsasən aşağıdakılardan ibarətdir: Ümumi fəlsəfi; ümumi elmi; idarəetmə elmi; metodologiya, metodika texnalogiyaları. Həmçinin qeyd etməliyik ki, strateji idarəetmənin inkişaf etdirilməsi bir sıra mərhələdə həyata keçirilir. Bu mərhələlər əsasən aşağıdakılardan ibarətdir:

1. İdarəetmə işində icraçıya nəzarət edilməsi;
2. İdarəetmədə ekstrapolyasiyaya əsaslanmaq
3. İdarəetmədə hadisələrin gedişini qabaqcadan görmək
4. İdarəetmədə təcili (eksterni) qərarlar çıxarmaq və s.

Bütün bunlarla yanaşı idarəetmə nəzəriyyəsində idarəçiliklə bağlı bir sıra yanaşmalar da mövcuddur. Bunlardan ən vacibi məqsədli; prosesli, sistemli, situasiyalı idarəçilik nəzəriyyələridir.

Bütün bu deyilənlər idarəetmə nəzəriyyəsinin metodologiyası, onların inkişafında ayrı-ayrı mərhələlər və müxtəlif yanaşma yolları haqqında geniş təsəvvür yaratmaq üçün hər birinin haqqında ətraflı məlumat vermək yerinə düşər və məsələnin geniş izahı tam təsəvvür yarada bilər.

İlk növbədə qeyd etmək istərdik ki, kitabxanaların strateji idarə edilməsində praktiki olaraq həm proseslərin metodologiyası nəzəri cəhətdən öyrənilməli və tam mənimsənilməlidir. Yuxarıda göstərdik ki, kitabxanaların strateji idarə edilməsində nəzəriyyə və praktikada əsasən dörd mühüm mərhələ mütəxəssislər tərəfindən bəyənilmiş və qəbul olunmuşdur. Əsas mərhələlərdən biri ümumfəlsəfi metoddur ki, idarəetmə prosesində bütün hadisələrin və baxışların birlikdə düzgün dərk edilməsi kimi başa düşülür. Bu səviyyə özlüyündə bir sıra elm sahələrini yaradırvə formalaşdırır. Yəni fəlsəfə futurologiya, riyaziyat, İnformasiya nəzəriyyəsi və s.

İkinci səviyyə-ümumelmi səviyyə hesab olunur və ümumyanaşma təsəvvürü yaradır, sistem haqqında, oun formal cəhətləri haqqında təsəvvür yaradır. Bu metod özlüyündə elmi

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

fikir yaradı, sistem nəzəriyyəsini, kibernetikanı və təşkilatçılıq nəzəriyyəsini yaradır.

Üçüncü mərhələ elmin metodologiyası kimi idarəetmədə istifadə olunur və bütövlükdə sosial- iqtisadi sisemdə idarəetmə haqqında təsəvvür yaradır.

Strateji idarə etmədə dördüncü mərhələ metodologiya, metodika və texnalogiya əsas səviyyələrdən biri kimi hesab olunur. Bu səviyyə kitabxanaların idarə olunmasında praktiki fəaliyyətə yaxınlaşırvə digər elm sahələrinə yaxınlaşma prosesi baş verir, həyata keçirilir. Ona görə də strateji idarəetmənin inkişaf səvityyəsi təkcə kitabxanaşünaslığın deyil, həm də digər elm sahələrinin yeni nailiyyətlərindən və bü günkü kitabxana-İnformasiya təcrübəsindən asılıdır. Kitabxanaşünaslıq təcrübəsində belə bir əks əlaqə də özünü göstərir ki, strateji idarəetmə digər elmlərin inkişafında da xüsusi rol oynaya bilər, digər elmlərin inkişafında yeni stimul yarada bilər. Əlbəttə, istər xarici ölkələrdə, istərsə də Azərbaycan Respublikasının iri elmi və xüsusi kitabxanalarında və kitabxanalara rəhbərlik edən dövlət strukturlarında strateji idarə edilməsində qabaqcıl təcrübəsindən istifadə edilir. Ona görə də strateji idarəetmədə qabaqcıl metodologiyalar əsas götürülməklə, yuxarıda göstərdiyimiz dörd əsas mərhələdən istifadə edilməsi məqsədəuyğundur. Əlbəttə, idarəetmə nəzəriyyəsində hər bir kitabxananın idarə edilməsinə müxtəlif aspektlərdən yanaşılır. Yalnız bu kitabxanaların idarə edilməsində məqsəd, proseslərin həyata keçirilməsi , sistem yanaşma və situasiyalı şəraitin yaradılması nəzərə alınmalıdır. Müasir kitabxana fəaliyyətində strateji idarəetmə olduqca böyük əhəmiyyətə malikdir. Hazırda bütün kitabxanaların inkişafı onların strateji planlarının olub-olmamasından asılıdır və bu planların ardıcıl olaraq həyata keçirilməsinə nəzarət edilməlidir.

Strategiya-qəbul olunmuş qərarlar toplusundan ibarət olmaqla kitabxana fəaliyyətinə nəzarət edir. Strategiya anlayışı idarəetmə terminləri sisteminə 1960-cı illərdə daxil olmuşdür, o dövrdə ki gözlənilmədən bir sıra konkret dəyişikliklər həyatda baş vnrməyə başladı. Elə bununla bağlı strateji idarəetmənin strukturu və yeni modeli işlənib hazırlanmağa və tətbiq olunmağa

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

başladı. Strateji idarəetmə yeniləşmə prosesi ilə bağlıdı. daha dəqiq desək təcrübədə yeni qərarların keyfiyyətli yeninə yetirilməsi kimi başa düşülməlidir.

Beləliklə, qeyd etmək lazımdır ki, «strateji idarəetmə» əvvəlki idarəetmə rədd etmir, əksinə əvvəlki idarəetmə fəaliyyətini bazis kimi əsas götürməklə, bütün problem və çatışmamazlıqlar təhlil edilir, strategiyanın həyata keçirilməsi prosesi nəzərdən keçirilir, qiymətləndirilir və nəzarət edilir. Strateji problemlərin həllində əvvəlki illərin göstəriciləri ilə kifayətlənmək olmaz, həmişə inkişafa təşəbbüs göstərməklə yeni göstəricilər əldə olunmalıdır.

Müasir kitabxanaların strateji cəhətdən idarə edilməsi bir sıra faktorlara görə çox vacibdir. Kitabxanaların işinin strateji idarə edilməsi, onların gələcək fəaliyyətinin planlaşdırılması, kitabxanaların müəyyən dövr üçün inkişaf proqramıdır, maliyyə vəsaitinin. kitab sərvətinin və kitabxanaçıların əməyinin səfərbərliyə alınması və ondan düzgün istifadə edilməsi vasitəsidir. Strateji plan əsasında işləmək-bu zaman hansı məqsədlə nə etmək lazım olduğunu aydın bilmək, yəni kitabxana işinin vəzifələrini, məzmununu, işin həcmini və metodlarını əvvəlcədən müəyyənləşdirmək deməkdir.

Məlum olduğu kimi, sovet hakimiyyəti illərində kitabxana işinin planlaşdırılması, xüsusilə strateji planlaşdırılmasında başlıca prinsip kimi partiyalılıq prinsipi əsas götürülmüş kitabxanaların bütün fəaliyyəti süni şəkildə partiyanın irəli sürdüyü vəzifələrə tabe edilirdi. Strateji planlar be illik hazırlanır və qurultay materiallarına və partiya qərarlarına uyğun həyata keçirilirdi.

Hazırda müstəqil Azərbaycan Respublikasının bütün kitabxanalarında ictimai şəraitə uyğun olaraq bir sıra demokratik tədbirlər həyata keçirilir. Azərbaycan kitabxanaları sosial institutlar kimi öz fəaliyyətlərini əsaslı şəkildə yenidən qurmağa başladılar. Son illərdə mərkəzi icra hakimityyəti orqanları, nazirliklər, baş idarələr və iri mərkəzi elmi kitabxanalarda kitabxanaların işinin dünya səviyyəsinə qaldırılması, yeni kitabxana proqramlarının tətbiq edilməsi, bütövlükdə kitabxana proseslərinin elektron versiyasının hazırlanması, elektron kitabxana şəbəkəsinin yaradılması və s. tədbirlərin həyata keçirilməsi

KITABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

istiqamətində konkret işlər görülür. Bu tədbirlər M.F.axundov adına Milli Kitabxanada, Bakı Dövlət Universitetinin və Prezident Aparatı Kitabxanalarında mütəşəkkil həyata keçirilir. Kitabxanaların işinin dünya səviyyəsinə çıxarılması məqsədilə Respublika Mədəniyyət və Turizm Nazirliyi bu məsələni həmişə diqqət mərkəzində saxlayır. Nazirliyin son aylarda bu məqsədlə həyata keçirdiyi tədbirlər daha çox diqqəti cəlb edir. Xüsusilə bu yaxınlarda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin «2007-2011-ci illərdə Azərbaycan Respublikasında kitabxana-İnformasiya sahəsinin inkişafı və modernləşməsi» Dövlət Proqramı hazırlanmış və Respublika Prezidentinə təqdim edlilmişdir. Belə bir sənət Respublikamızda birinci dəfədir ki, hazırlanmışdır. Bildirmək istərdim ki, belə konsepsiya xarakterli, əslində strateji əhəmiyyətə malik sənədin hazırlanması kitabxana işinin inkişafına çox ciddi təsir edəcək, xüsusilə kitabxanaların maddi-texniki bazalarının möhkəmləndirilməsində, yeni internet xəttlərinin çəkilməsində, kitabxana proqramlarının tətbiq edilməsində təsirli tədbirlərin keçirilməsi gözlənilir. Yeni hazırlanan bu sənəddə kitabxana işinin inkişafına dair çox mühüm müddəalar nəzərdə tutulur. Bu sənəddə ilk dəfə olaraq kitabxanaların inkişafına dair «Dövlət proqramı»nın pasportu hazırlanmış, burada Dövlət proqramının müddəti (2007-2011-ci illər) proqramın sifarişçisi və icraçısı, proqramın iştirakçıları, dövlət proqramının qanunvericilik bazası, proqramın maliyyə təminatı və proqramın qısa məzmunu verilir. Ümid edirik ki, 2007-2011-ci illər üçün nəzərdə tutulmuş dövlət proqramı strateji plan və dövlət proqramı olmaqla Respublikamızda kitabxana işi sahəsində əsaslı dəyişikliklər aparmaq imkanı verəcəkdir.

Kitabxana işinin strateji planlaşdırılması zamanı bütövlükdə cəmiyyətin, bəşəri dəyərlərin inkişaf etdirilməsi mənafeyi əsas götürülməlidir. Beləliklə, müasir şəraitdə kitabxanaların işinin planlaşdırılması zamanı Respublikamızın tam milli müstəqilliyi əsas götürülməli və bütün plan göstəriciləri bu məqsədə xidmət etməlidir. Müasir dövrdə strateji planlaşdırmaya verilən ən başlıca tələb, planın elmi cəhətdən əsaslandırılmış olmasıdır. Xüsusilə uzun müddətə nəzərdə tutulan strateji planların tərtib edilməsində elmi əsaslara söykənən proqnozlar dəqiq

hesablanmal ı, ölkənin inkişafı ilə əlaqəli tərtib edilməlidir. Planlaşdırma işində real şərait və kitabxanaların imkanları, kitabxana fondunun tərkibi nəzərə alınmalı, bütün göstəricilər dəqiq hesablanmalı və bir-biri ilə əlaqələndirilməlidir. Strateji planlaşdırma ilə göstəricilər nəzərə alınmalıdırki, onlar bu günün və gələcək 5-10 ilin tələblərinə cavab versin, keyfiyyətlə yerinə yetirilə bilsin və kitabxananın imkanları, kitabxana işçilərinin qüvvəsi lazımi səviyyədə istifadə olunsun.

Yeri şəraitin nəzərə alınmsı plan göstəricilərinin hesablanmasında xüsusi əhəmiyyət kəsb edir.

Strateji planlaşdırma kitabxana fəaliyyətinin iki istiqamətdə inkişaf etdirilməsini nəzərdə tutur, yəni uzun müddətli eyni zamanda operativ, strateji planlaşdırma uzunmüddətlilik nəzərdə tutulur, real rejimdə plandankənar həyata keçirilir.

Strateji planlaşdırma idarəetmə sistemlərinin bütün cəhətləri nəzərə alınır. Xüsusilə büdcənin hazırlanması, stabil faktorların ekstrapolyasiya edilərək qiymətləndirilməsi, əlavə olaraqstrateji qərarların mənimsənilməsində real vaxt rejimini müəyyənləşdirmək. Strateji planlar həyatın bütün sahələrində tətbiq edilir. Lakin müasir kitaboxana işinin inkişafında və idarə edilməsində daha önəmli hesab olunur. Qeyd etmək lazımdır ki, hələ sovet dönəmində strateji planların tətbiqinə cəhd göstərilsə də bu iş çox çətin və ağır həyata keçirilmişdir. Hazırda isə kitabxana təcrübəsində, xüsusilə idarəetmədə daha geniş tətbiq edilir, bu planların həyata keçirilməsi yolu ilə kitabxanaların cəlbetmə imici artır, vaxt ötdükcə kitabxanaların statusu artır, strateji planlaşdırmanın əsas cəhətlərindən biri budur ki, belə idarəetmə prosesində yuxarı mərkəzi icra hakimiyyət orqanlarının yaxından iştirakı və nəzarəti ilə bütün iri mərkəzi elmi kitabxanalar iştirak edir, planlaşdırma işi kompleks şəkildə həyata keçirilir. Bu zaman kitabxanaların idarə edilməsində bütün iş sahələri-kompleks əhatə edilir və idarə etmədə bir sıra variantlarda metodoloji seçim aparmaq mümkün olur. Kitabxana fəaliyyətinin optimallaşdırılması universal model hazırlamaq mümkün deyil, ona görə ki, hər bir kitabxana çox unikal bir sistemdə fəaliyyət göstərir. Odur ki, ən etibarlı iş metodu hər bir kitabxana üçün xüsusi strateji model hazırlanmalı, strateji

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

alqoritmlərin hazırlanmasında sosial mədəni situasiyalar nəzərə alınmalıdır. Kitabxanaların idarə edilməsinin optimallaşdırılması strategiyası aşağıdakı kimidir.




Kitabxanaların idarə edilməsinin optimallaşdırılmasının strategiyası

Kitabxanaların məqsədli auditoriyasından danışarkən kitabxana kontingenti və əməkdaşları ilə məlumat-İnformasiya xarakterli monitorinqlərin keçirilməsi tələb olunur. Bu monitorinqlər oxucu tələbnamə və sorğularına uyğun aparılmalı, xidmət işi keyfiyyətlə yerinə yetirilməli, sosial-mədəni situasiyada baş verən dəyişikliklər düzgün proqnozlaşdırılmalı, bütün bunların yeni kitabxana-İnformasiya texnalogiyaları ilə əlaqəli tətbiq olunması, beləliklə kitabxana fəaliyyətinin gələcək işinin proqnozlaşdırılması strategiyası müəyyənləşdirilməlidir.

Strateji idarəetmə sistemində kitabxana əməkdaşlarının işini optimallaşdırmaq üçün bir sıra təşkilati və mədəni tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə kitabxanaların səmərəli idarə edilməsi üçün effektiv qərarlar qəbul etmək, onları nəzarətdə saxlamaq və nəticələrini yoxlamaq; təşkilati strukturların demokratikləşdirilməsi;

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

əməkdaşların fasiləsiz ixtisasartırma sisteminə cəlb olunması; kitabxananın ayrı-ayrı bölmələrinin vahid texnalogiya da birləşdirilməsi sisteminin yaradılması; marketinq sisteminin formalaşdırılması və s.

Kitabxana fondunun ümumi tələblərə cavab verməsi üçün sosial marketinq üsulundan istifadə etməklə kompleksləşmə siyasətində fandrayzinq işindən geniş istifadə etmək olar. Nəhayət kitabxana fəaliyyətinin ən mürəkkəb aspektlərindən biri- madii-texniki bazanın modernləşdirilməsi yolu ilə- stabil maliyyələşməyə nail olmaq, ardıcıl olaraq avropa standartlarına uyğun olaraq təmir işlərinin aparılması, elektrik və elektron aparatların, avadanlıqların alınması və kitabxana proqramlarının əldə edilməsində, kitabxanaların təqdimatında fandrayzinq tətbiq etməklə kitabxana imicini artırmaq tədbirlərinin keçirilməsi çox vacibdir. Bu kimi təşkilati, metodiki tədbirlərin həyata keçirilməsi müstəqil Azərbaycan respublikasının tipindən, növündən və tabeçiliyindən asılı olmayaraq bütün kitabxanaları üçün çox vacibdir.

Mərkəzi Icra hakimiyyət orqanları uzun müddətli idarəçilik işində strateji planlaşdırmada bu kimi məsələləri nəzərə almalıdırlar. Kitabxana işinin idarə edilməsində metodologiya seçimi baxımından **menecment** prinsipi əsas götürülür. Sosial idarəetmə- olduqca mürəkkəb və çoxplanlı bir fəaliyyət sahəsidir. Idarəetmə mexanizmi insan fəaliyyətinin bütün sahələrini əhatə etməklə xüsusi sistem əsasında formalaşır. Ona görə də idarəetmənin menecerlər tərfində həyata keçirilməsi olduqca vacibdir. Azərbaycan kitabxanalarında və onlara rəhbərlik edən mərkəzi icra apparatı sistemində hələlik belə ştat vahidlərinin olmaması ciddi çətinlik törədir. Doğrudur bu termin Azərbaycan kitabxana ictimaiyyəti üçün çox yeni bir anlayış kimi qəbul edilir. Buna baxmayaraq qeyd etməliyik ki, Ümumi menecment anlayışı Azərbaycan cəmiyyətində idarəetmə müəssisələrdə, şirkətlərdə, beynəlxalq qurumlarda və təşkilatlarda geniş istifadə olunur və bu sahədə kitab, kitabça və xeyli məqalələr çap olunmuşdur. Kitabxana menecmenti ilə bağlı Kitabxanaçılıq-İnformasiya fakültəsində tədris prosesində bu sahəyə geniş yer verilir, kitab, kitabça və məqalələr yazılır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Tələbələrə tədris prosesi zamanı menecmentin əsasları izah olunur, onlar məsələnin mahiyyətini əsasən öyrənirlər. Lakin istehsalatda çalışan kitabxana işçiləri menecment fəaliyyəti ilə lazımi səviyyədə məşğul ola bilmişlər. Bütün buna baxmayaraq  qeyd etməliyik ki, menecer ştatları olmasa belə bu fəaliyyət kitabxanalarda həyata keçirilir. Menecer işini əsasən kitabxanalarda metodistlər həyata keçirir.

Kitabxanaların idarə edilməsində strateji məqsədlərlə yanaşı kompleks qarşılıqlı təşkilati işlər, elmi, sosial və texniki vəzifələrində yerinə yetirilməsi çox vacibdir. Bir sıra hallarda kollektivin fəaliyyətindəki nailiyyətlər gözlənilməz problemlərin ortaya çıxmasından asılıdır.

Odur ki, strateji idarəetmədə və planlaşdırmada bu cür problemlər üçün də iş vaxtı nəzərdə tutulmalıdır. Əks təqdirdə gözlənilmədən meydana çıxan işlər digər işlərin yerinə yetirilməsinə mənfi təsir edəcəkdir.

Kitabxanaların strateji idarə edilməsində müasir kitabxana rəhbərlərindən qüvvədə olan qanunları və hüquqi aktlar baxımından idarəetmə qərarlarını mükəmməl bilmək tələb olunur.

Kitabxanaların idarə edilməsində sosial modelləşdirmə əsas prinsiplərdən biri kimi qarşıda durur və cəmiyyətdə gedən prinsipial dəyişiklikləri əks etdirir. Maraqlıdır ki, sosial layihələşdirmə zamanı ancaq kəmiyyət və keyfiyyət xarakterli məsələlərə  üstünlük verilir. Təəssüflə qeyd etməliyik ki, kitabxanaların yenidən qurulması zamanı, həmçinin kitabxana binaları layihələşdirilərkən insan faktoru demək olar ki, nəzərə alınmır. Halbuki layihələrin sosial konstruksiyalarının yeniləşməsi ilk növbədə insan faktorunu nəzərdə tutmalıdır.

Son zamanlar idarəetmənin analitik-nəzarət funksiyası  xeyli yenilənmişdir. Burada söhbət ondan gedir ki, kitabxanalarda idarəetmə qərarlarının ekspertiza edilməsi, mənimsənilməsi, rəhbərlik və idarəetmə geniş istifadə olunmalıdır. Əməkdaşlar sosioloji axtarışlar zamanı qərarların necə tətbiq olunması və işlənməsini görməli və hiss etməlidirlər.

Idarəetmənin **təşkilati-texnoloji** funksiya xüsusi əhəmiyyətə malikdir. Konkret iş şəraiti ilə bağlı sosial layihələrlə yanaşı, həmçinin texnoloji layihələrin həyata keçirilməsində nəzərdə

KITABXANASUNASLIQ VƏ BİBLİOQRAFİYA

tutulmalıdır. Faktiki olaraq bu sosial-mühəndis fəaliyyəti olmaqla təşkilati strukturların məqsədyönlü dəyişdirilməsinə yönəldilməli həm də insan fəaliyyətini istiqamətləndirməlidir.

Kitabxanaların idairə edilməsində sosial yanaşmada **məsləhətləşmə** funksiyası kitabxanadaxili fəaliyyətin optimallaşdırılmasına xidmət edir. Bu funksiyanın tətbiqi zamanı təşkilati strukturun təkmilləşdirilməsi, qərarların qəbul olunması prosesi, rəhbərlik stili, kadrların seçilməsi və yerləşdirilməsi və s. məsələlər əhatə edilir. Bu məsələlərin həyata keçirilməsində təşkilati və idarəetmə yeniliklərindən geniş istifadə edilməlidir.

Kitabxanaların idarə edilməsinin sosioloji yanaşma metodunda xüsusi bir funksiya imic funksiyası vardır, hansı ki, kitabxananın simasını müəyyənləşdirir, ictimaiyyət tərəfindən etibar və xoş münasibət əhval-ruhiyyəsinin yaradılması, kimi başa düşülür.

Kitabxanaların strateji idarə edilməsində tətbiq edilən sosioloji yanaşmalar və yuxarıda göstərilnə metodlar kitabxana fəaliyyətinin bütöv görkəmini dəyişməyə xidmət edir. Əlbəttə, bunlar kitabxana xidmətinə ehtiyacı olan bütün oxucuların və tələbatçıların maraqlarının təmin olunması üçündür.

Çox təəssüflə qeyd etməliyik ki, ölkəmizdə demək olar ki, bütün kitabxanaların və kitabxanalara rəhbərlik edən Nazirlik və baş idarələrin sosioloji tədqiqatlar sahəsindəki fəaliyyətlərində bu sahədə lazımi işlər yox dərəcəsindədir və ya çox epizodik xarakter daşıyır. Elə buna görə də kitabxana fəaliyyətində nəzərə çarpan deformasiyalar yaranır, oxucu tələbləri və maraqları təmin olunmur. Əlbəttə müasir mərhələdə belə bir situasiyanı dəyişmək üçün yeganə yol ondan ibarətdir ki, kitabxanaların fəaliyyətinə Azərbaycan Respublikasında kitabxana işi haqqında qanunda göstərildiyi kimi kitabxanalar sosial institutlar kimi öz fəaliyyətlərini genişləndirməli və idarəetmənin alternativ idarəetmə strukturunu yaratmalıdır. Kitabxanaların rəqabət şəraitində fəaliyyəti məcbur edəcək ki, hər bir kitabxana öz fəaliyyətini yaxşılaşdırmaq üçün mübarizə aparacaq, yeni bazar münasibətlərini analitik təhlil etməklə , sosioloji yanaşma yolu ilə, fandrayzinq fəaliyyəti tətbiq etməklə

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

vəsaitlər tapaca, kitabxana müəssisələrinə müasir standartlara cavab verən sosial müəssisəyə çevriləcəkdir.

Bu gün kitabxanalarda çalışan mütəxəssislər də sosial mədəniyyətin yeni prinsipləri lazımi səviyyədə inkişaf etdirilmədiyindən kitabxanaların sosial problemləri mövcuddur. Bəzi kitabxana işçiləri sosial proseslər mədəniyyət və mədəni inkişaf haqqında çox dumanlı təsəvvürə malikdirlər. Ona görə də sosial tədqiqatlar, sosial inkişaf, sosial idarəetmə haqqında lazımi biliklərə malik olmadıqları üçün müxtəlif oxucu qrupları və kitabxanalar arasındakı münasibətlər, xüsusilə oxucu kitabxana münasibətləri lazımi səviyyədə deyil. Odur ki, sosialoji tədqiqatlar, sosial idarəetmə, digər sosioloji problemlərin öyrənilməsi, yeni strategiya və texnalogiyaların tətbiq edilməsi yolu ilə istənilən məqsədə nail olmaq olar.

### *Ədəbiyyat*

***Azərbaycan dilində***


*1. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxanalar işinin əsas inkişaf istiqamətləri (mühazirələr, təkliflər və proqnozlar).-B., 2006, 106 s.*

*2. A.A.Xələfov. Kitabxanaşünaslığa giriş: Dərslik (üç hissədə) B.- Bakı Universiteti nəşriyyatı, 2001.-400 s.*

*3. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik (üç hissədə) .-H3, Kitabxana işi haqqında təlim.- B.:Bakı Universiteti nəşriyyatı, 2003.-314 s.*

*4. 2007-2011-ci illərdə Azərbaycan Respublikasında kitabxana-İnformasiya fəaliyyətinin inkişafı və modernləşdirilməsi.-B.-2006., 22 s.*

*5. Ismayılov X.I.Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi: (1918-2000-ci illər) B.-2000., 415 s.*

*6. Ismayılov X.I. Kitabxana işinin idarə edilməsinin metodiki və təşkilati məsələləri.-B., 1995.- 96 s.*

*7. Ismayılov X.I. Kitabxana menecmentinin əsasları (Dərs vəsaiti) B., 2005.-200 s.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**Rus dilində**

**8. Н.С. Карташов, В.В. Скворцов. Общие библиотековедение Часть 1. М. 1996, 88 с.**

*9. Н.С. Карташов, В.В. Скворцов. Общие библиотековедение Часть 2.М.- 1997, 256 с.*

*10. Фрумин И.М. Библиотечное дело: Организация и управление. М., Книга, 1980.- 271 с.*

**11. Ильяева И.А., Маркова В.Н.Стратегическое управление библиогтекой учебно-методической пособие.-М., 2007.-164 с.**

*12. Тилко И.С. Информационные и библиотечные технологии: Учебное пособие.-Санкт-Петербург, 2006.-341 с.*

**Халил Исмаилов**

**Стратегические основы управления библиотек**

## РЕЗЮМЕ

*Стратегические управления –область деятельности высшего руководства библиотеки, главная обязанность которого состоит в определении предпочтительных направлений развития, постановка целей, распределении ресурсов и всего того, что дает библиотеке конкурентные преумешества.*

*Данное направление управленческой теории и практики является сравнительно новым для руководителей библитек.*

*В статье анализирована методология, сущность, значение и социологические аспекты и др. стратегического управления библиотек на современном этапе.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

***Xalil Ismayilov***

***Strategıc bases of the management of lıbrarıes***


## *SUMMARY*

*Strategic administrations are the sphere of activity of the superior direction of library whose main duty consists in definition of preferable directions of development statement of the objects distrution of resources and all that gives library competetive advantage. The given direction of the administrative theory and practice is comparativele new to heads of libraries.*

*The metodology essence value and sociological aspecte and other strategy directions of the modern libraries have been analysed in this article.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**SAHİB RZAYEV**
*Kitabxanaşünaslıq kafedrasının dosenti*

# MÜTALİƏNİN FUNKSIYALARI VƏ İNSANA TƏSİR MEXANİZMİ

Bəşər övladı tarixən təbiətdən lazımı səviyyədə səmərələnmək məqsədilə daim mübarizə aparıb. Bu mübarizə təkcə fiziki imkan deyil, həm də mənəvi keyfiyyətlər hesabına həyata keçirilib.

Məlum həqiqətdir ki, insan dünyaya gəlişinin ilk vaxtlarından başlayaraq ətraf mühiti, onu əhatə edən maddi aləmi, əşya və predmetləri öyrənməyə, getdikcə ondan daha çox istifadə etməyə meyllidir. Bununla əlaqədar olaraq insan müəyyən keyfiyyətlər əldə etmək, təbiət və cəmiyyətin qanunlarını daha ətraflı öyrənmək üçün müxtəlif vasitələrdən istifadə edir. Bu cəhətdən təbiət və cəmiyyətin inkişaf qanunlarını, eləcə də bəşəriyyətin əldə etdiyi nailiyyətləri mahiyyətcə mənimsəmək üçün ən səmərəli vasitə olan mütaliədən istifadə etməli olur. Artıq danılmaz həqiqətə çevrilmişdir ki, insan təfəkkürünü tam qidalandırmaq, istənilən anlayışı bütün təfsilatı ilə dərk etməyə kömək göstərmək baxımından heç bir köməkçi vasitə mütaliəni əvəz etmir. Belə ki, məlumatlandırıcı vasitələr olan radio, televiziya, kino, teatr, hər cür mühazirələr tamaşaçıların və dinləyicilərin iradəsindən və istəyindən asılı olmayaraq fəaliyyət göstərir. Belə ki, insan onu maraqlandıran hər hansı suala istədiyi vaxt həmin vasitələrdən cavab ala bilməz. Bizim mütaliəmiz isə öz istəyimizdən, iradəmizdən asılıdır. Yəni hər hansı məsələ haqqında məlumatlanmaq məqsədilə çap məhsulundan istədiyimiz vaxt, istənilən şəraitdə stifadə etmək imkanına malikik.

Mütaliənin mahiyyəti açılarkən məlum olur ki, mütaliə hər hansı mətndə verilmiş məlumatı əxz etməyə yönəlmiş kommunikasiya - əlaqə fəaliyyətidir. Bu kommunikasiyada müəllif, çap məhsulu, oxucu və ya oxucu auditoriyası iştirak edir. Tədris proqramının tələbinə uyğun olaraq oxucu məfhumunun məzmununu açmağa ehtiyac duyulur. Oxucu məfhumu haqqında professor A.A.Xələfovun fikrini olduğu kimi verməyi

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

lazım bildik. Professor A.A.Xələfov yazır: «Bizcə, oxucu sözü öz məzmununda kitaba təkcə bir günlük tələbi olan adamı ifadə etmir, əksinə kitaba daimi ehtiyacı olan, öz professional səviyyəsini və mənəvi zənginliyini həmişə təkmilləşdirən, kitabxananın daimi abonenti olan, kitabxananın ictimai fəaliyyətində ardıcıl iştirak edən, sistemli qaydada biliklərə yiyələnmək istəyən, kitabxana mühiti yaradan ziyalı şəxslər oxucu tituluna sahib ola bilərlər».(3, s.278).

XX əsr mahiyyətcə elmi-texniki tərəqqi əsri olduğu kimi, mütaliənin də geniş vüsət aldığı bir əsrdir. Həm bütün dünyada, həm də bizim ölkəmizdə kitab nəşri, eyni zamanda geniş kitabxanalar şəbəkəsinin yaradılması, onların oxuculara xidmət işi, əhalinin bunlardan səmərələnməsi sahəsindəki göstəricilər bu fikri təstid edir. Həm elmi-texniki tərəqqinin, həm də sosial tələbatın nəticəsi kimi bu gün mütaliə həyatımızın ictimai hadisəsinə çevrilmiş, nəticədə geniş sosial məzmun kəsb etmişdir.

Müasir elm mütaliəyə, onun mahiyyətinə, prinsiplərinə, məzmununa və quruluşuna cəmiyyətin sosial və iqtisadi həyatında gedən proses kimi baxır.

Bir cəhəti qeyd edək ki, mütaliə mahiyyətcə fərdi psixoloji proses olsa da, cəmiyyətin sosial həyatına, ictimai marağın istiqamətlərinə, mövcud maraqların məhsulu olan yeni ideyaların yayılmasına, bütövlüklə hamının malına çevrilməsinə imkan yaradır.

Məlumdur ki, insanların müxtəlif xarakterli maraqları və tələbatları olur. Hər bir kəsin özünə məxsus marağı tələbatı və mütaliə tələbatının və mütaliə marağının yaranmasına təsir göstərə bilir. Eyni zamanda insanın mütaliə marağının və mütaliə tələbatının reallaşmasında mühüm rol oynayır.

Maraq nədir? Tələbat nədir? Bunu izah edək. Marağın və tələbatın bir-birinə mahiyyətcə oxşar və fərqli cəhətləri vardır. Maraq – obyektin emosional cazibədarlığına və həyati əhəmiyyətinə görə insanın ona olan seçimə müsbət münasibətidir.(1,s.351)

Tələbat isə – insanın konkter həyat şəraitindən asılılığını ifadə edən və onun bu şəraitdə aktivliyini şərtləndirən özünəməxsus psixi halətidir. (2,s.141) Bu mənada insanın maraqları

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

və tələbatları onun gündəlik mütaliəsinin hərəkətverici qüvvəsidir. Müasir insanın həm tələbatları, həm də maraq obyektləri əvvəlki dövrlərlə müqayisədə həm çoxcəhətli, həm də rəngarəngdir. Bu çoxcəhətlilik və rəngarənglik isə mütaliənin geniş vüsət almasına, kütləvi xarakter daşımasına səbəb olan amillərdən biridir.

Müasir insanın mütaliə tələbatının artmasını şərtləndirən amillərdən biri də elmi-texniki nailiyyətlərdir. Dünyanın qabaqcıl ölkələrində istehsal sahələrinin yeni-yeni texnika ilə silahlanması, yeni elmi kəşflərin, böyük elmi nailiyyətlərin meydana gəlməsi, yeni-yeni elm və bilik sahələrinin yaranması, eləcə də dünyada gedən ictimai-siyasi proseslər mütaliəni obyektiv sosial zərurətə çevirmişdir.

Indiki dövrdə dünya xalqları öz ölkələrində sosial xarakter daşıyan və ictimai məzmun kəsb edən mühüm problemlərin həllində fəal iştirak etməyə xüsusi səy göstərirlər. Eləcə də bizim müstəqillik əldə etmiş respublikamızın vətəndaşları ölkənin tale yüklü problemlərinin həllində öz səylərini əsirgəmirlər. Bu isə hər kəsdən yüksək ictimai şüur, mənəvi zənginlik, intellektual imkan tələb edir. Bütün bunlara nail olmaq üçün axtarış obyekti kimi çap məhsullarına, öyrənmək vasitəsi olan mütaliəyə ehtiyac yaranır.

Həyatda insanın məqsədyönlü inkişafı üçün müvafiq biliklər sisteminə yiyələnməsi vacibdir. Bu məqsədlə ilkin ümumi biliklər əldə etmək üçün bütün inkişaf etmiş ölkələrdə olduğu kimi respublikamızda da ümumtəhsil məktəbləri yaradılmışdır. Eyni zamanda ölkə vətəndaşlarının müəyyən ixtisas və peşələrə yiyələnməsi üçün ali və orta ixtisas məktəblərinin bütöv şəbəkəsi fəaliyyət göstərir.

Istər ümumtəhsil, istərsə də ali və orta ixtisas məktəblərinin tədris proqramında nəzərdə tutulan biliklər insanın həyata fəal müdaxiləsi üçün kifayət deyildir. Təcrübələr göstərir ki, heç bir ali məktəb öz məzunu olan mütəxəssisə müəyyən ixtisas üzrə müasir həyatın tələbi həcmində məlumat və biliklər məcmuunu verə bilmir. Bu isə təbii haldır. Çünki müəyyən vaxtla məhdudlaşan ali və orta ixtisas təhsili məktəblərinin proqramları lazımi bilikləri tam şəkildə özündə əks etdirmək imkanına malik deyildir.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Ona görə də zamanın tələbinə uyğun olaraq rəsmi təhsillə şəxsi təhsil mütaliəsi paralel getməlidir. Bu baxımdan mütaliə mühüm elmi-nəzəri problemdir.

Geniş oxucu kütləsi arasında kitab təbliğini və oxucu mütaliəsini istiqamətləndirməyin elmi əsaslarını təhlil edən mütaliə nəzəriyyəsində təkmilləşmə prosesi gedir. Müasir kitabxanaşünaslıq mütaliənin sosial, sosial psixoloji və pedaqoji problemlərinin, eyni zamanda onun ictimai həyata təsirinin tədqiqi sahəsində geniş nailiyyətlər qazanmışdır.

Keçmiş ittifaqda aparılmış tədqiqatlar, eyni zamanda BDU-nun kitabxana-İnformasiya fakültəsinin kollektivinin elmi-nəzəri fikirləri və mövcud təcrübə bu qənaətə gəlməyə əsas verir ki: a) Mütaliə insanlar üçün fasiləsiz artmaqda olan sosial tələbatdır; b) Mütaliə insanların ictimai şüurunun formalaşmasına və təhsil səviyyəsinin yüksəlməsinə, artmasına təsir göstərən ictimai əlaqə sistemidir.

Bununla da mütaliənin cəmiyyətdə ictimai rolu müəyyənləşir. Bu baxımdan mütaliə mühüm tədqiqat problemi kimi kitabxanaşünaslıqla bərabər sosioloqları, psixoloqları, pedaqoqları da eyni dərəcədə maraqlandırır. Mütaliə ictimai məzmun kəsb etməklə bərabər, həm də fərdi məzmuna malikdir. Yəni mütaliə prosesi hər bir oxucunun fərdi-psixoloji keyfiyyətləri ilə əlaqədar olaraq fərdiləşir.

Cəmiyyətdə insanların əksəriyyətinin mütaliə marağının məqsədəuyğunluğu, dərin ideyalılığı və yüksək mütərəqqiliyi mövcuddur. Əlbəttə bu hal bütün oxucularda eyni vəziyyətdə deyildir. Çünki sosioloji tədqiqatların nəticələri göstərmişdir ki, cəmiyyətdə mütaliə tələbatının müxtəlifliyi hər bir oxucunun mədəni və intellektual səviyyəsi, həyat təcrübəsi, ixtisası, həyat fəaliyyətinin xarakteri ilə, özünəməxsus fərdi xüsusiyyətləri, həyata münasibətdə zövq və təmayül müxtəlifliyi ilə əlaqədardır. Bununla əlaqədar mütaliənin həm ayrı-ayrı fərdlərin, həm də cəmiyyətin həyatının bütün tərəflərinə bilavasitə təsir göstərən ictimai hadisə kimi qiymətləndirilməsi vacib sayılır.

«Mütaliə məlumat-axtarış və idraki fəaliyyət növü kimi insanın inkişafında, tərbiyəsində və təhsilində xüsusi yer tutur».

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

(5,s.13) Bu isə cəmiyyətin ümumi inkişafı fonunda mühüm əhəmiyyət kəsb edir.

Mütaliənin ictimai məzmunu özünü əsasən üç istiqamətdə göstərir:

1. Mütaliə üçün materialın seçilməsi və oxunmuş ədəbiyyatın qiymətləndirilməsi meyarı insana ictimai təsir amili və mexanizmi ilə şərtlənir.

2. Mütaliə üçün material və qiymətləndirmə motivləri şəxsiyyətlər arasında əlaqə predmetidir və ictimai mütaliə atmosferi yaradır.

3. Mütaliənin nəticələri insanın ictimai və istehsalat fəaliyyətində əks olunur, onun dünyagörüşünün, əməyinin səmərəliliyini müəyyən edir.

Bütün bunlar isə mütaliənin sosial xarakterini açan faktlardır.

Mütaliə prosesində oxucu kitabla sosial psixoloji münasibətlərə girir. Məhz bu münasibətlərin mexanizmini və onun sosial nəticələrini aşkar etmək mütaliə haqqında elmin mühüm vəzifələrindəndir.

Kitabla ünsiyyət, ədəbiyyatın qavranılma formaları barədə müxtəlif fikirlər söylənilsə də, mütaliə nəzəriyyəsi, onun elmi metodoloji xüsusiyyətləri elm aləmində hələ də formalaşmaqdadır. Bu da çox güman ki, onun bir çox elmlərin maraq dairəsində, o cümlədən fəlsəfə, sosiologiya, psixologiya, pedaqogika, filologiya, kitabxanaşünaslıq elmləri üçün tədqiqat obyekti olmasından irəli gəlir.

Odur ki, mütaliənin bütövlükdə mahiyyətini müəyyənləşdirmək üçün adları çəkilən elm sahələrində mütaliə barədə mövcud biliklərin inteqrasiya edilməsi zəruridir.

Göründüyü kimi, mütaliə problemləri ilə bilavasitə məşğul olan elmlər insan, insan təbiəti, cəmiyyət, bir sözlə insanla bağlı olan bütün amillərlə üzvi surətdə əlaqədardır. Buna görə də mütaliənin özünün tədqiqat obyektlərindən biri kimi insanı, şəxsiyyət və onun şüurunu, cəmiyyətdə tutduğu mövqeyini və həyati fəaliyyət növünü götürmək məqsədəuyğun hesab edilə bilər.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Qeyd etmək lazımdır ki, hər bir elm sahəsində olduğu kimi mütaliənin də elmi-nəzəri əsaslarının müəyyənləşdirilməsi üçün ilk növbədə onun modelləşdirilməsi, başqa sözlə onun müxtəlif aspektlərini əhatə edən ümumi bir modelinin yaradılması vacibdir. Əgər nəzərə alsaq ki, bu modelin iki qanadından birini təşkil edən əsas komponent – subyekt – insandır – onda belə bir qənaətə gəlmək olar ki, mütaliə prosesinin özü ilk növbədə fərdi-psixoloji prosesdir. Mütaliə nəzəriyyəsini formalaşdırarkən insan şəxsiyyətini, onun şüur və fəaliyyətini, eyni zamanda onun tələbat və maraqlarını kitabla vəhdətdə nəzərdən keçirmək lazımdır.

«Subyekt - obyekt» modeli ilə izah olunan mütaliə nəzəriyyəsinin əsas problemləri ilk növbədə mütaliəni doğuran səbəblər, məqsəd və onu şərtləndirən vasitələr, mütaliə vərdişləri, mütaliə prosesinin özü və onun davametmə mexanizmi, qavrayış, bədii qavrayış və onun xüsusiyyətləri, ən nəhayət nəticə-şəxsiyyətə təsir, mənalar sisteminin şüurda inikası, şüurun formalaşması və s. məsələlərdir.

Müasir şəraitdə mütaliənin hansı konkret probleminin nəzəri və təcrübi maraq kəsb etməsi sualına birdəfəlik cavab vermək çətindir. Çünki, müasir mütaliə nəzəriyyəsi mürəkkəb problemlər kompleksini birləşdirdiyi üçün onun dərindən tədqiqi yalnız müxtəlif elmlərin tədqiqat üsullarından istifadə etməklə həyata keçirilə bilir.

Ictimai həyatda mütaliə bir sıra mühüm funksiyaları yerinə yetirir. Mütaliənin aşağıda qeyd olunan dörd mühüm funksiyası vardır. Bunlar: 1.Təşkilati funksiya; 2.Qiymətləndirmə və istiqamətləndirmə funksiyası; 3.Kompleks xarakter daşıyan təlim, təhsil və tərbiyə funksiyası; 4.Modelləşdirmə funksiyasıdır.

Təşkilati funksiya dedikdə – burada ölkənin əhalisinin kollektiv fəaliyyətinə, bu fəaliyyətin planlaşdırılmasına, əlaqələndirilməsinə və tənzimləndirilməsinə mütaliənin təsiri nəzərdə tutulur. Bu fikir onunla izah olunur ki, dövlət sənədlərinin, müxtəlif qərar və göstərişlərin mətbuat vasitəsilə təbliği, adamların əhəmiyyətli hadisələrlə tanış edilməsi ölkənin həyatında xalqın şüurlu iştirakını təmin edir, onların vətəndaşlıq hisslərini

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

fəallaşdırır, hər kəsin üzərinə düşən vəzifəni yerinə yetirməyə səfərbərliyə alır.

Mütaliənın qiymətləndirmə və istiqamətləndirmə funksiyasını izah edərkən göstərmək lazımdır ki, oxucular oxuduqları kitablardan və dövri nəşrlərdən yalnız müxtəlif məsələlər üzrə məlumat məcmusunu deyil, həm də bu məsələlərin, hadisələrin sosial baxımdan qiymətləndirilməsi haqqında aydın təsəvvür əldə edirlər.

Beləliklə, mütaliə müasir dövrün və tarixi keçmişin hadisələri ilə yaxından tanış olmağa, ictimai münasibətlərin dərk edilməsinə, həyatda obyektiv baxışın formalaşmasına, eləcə də cəmiyyətin həyat tərzi üçün xarakterik olan etik, hüquqi və estetik normaların mənimsənilməsinə kömək edir.

Mütaliənin tədris, təhsil və tərbiyə funksiyaları kompleks xarakter daşıyır. Bir-biri ilə qırılmaz surətdə bağlı olan bu proseslər də mütaliənin nəticəsi olaraq cəmiyyət tərəfindən toplanmış biliklərin mənimsənilməsi (tədris), bu biliklərin sisteminin yaradılması (təhsil) və şəxsiyyətin inkişafı gedişinin idarə edilməsi (tərbiyə) kimi ifadə olunur. Bu funksiyalar insanın məktəbə getdiyi ilk dövrdən ömrünün sonuna qədərki intellektual fəaliyyətində ifadə olunur.

Insanın təfəkkürünü qidalandırmaq baxımından mütaliə tərəfindən yerinə yetirilən funksiyalardan biri də modelləşdirmədir. Mütaliənin modelləşdirmə funksiyasının özünəməxsus cəhətləri vardır. Belə ki, mütaliə prosesində çap əsərlərindən götürülmüş hər bir məlumat bəhs edilən mövzunun və onunla əlaqədar məsələlərin bu və ya digər tərəfinin insan təsəvvüründə modelini yaradır. Bu cəhətdən mütaliə nə qədər hərtərəfli, həyat məsələlərini təsvir edən mətnin dərk edilməsi nə qədər dərindirsə, oxucunun təsəvvüründə həmin məsələnin modeli bir o qədər həcmli, tam və aydın olur. Bütün bunlar isə mütaliəni doğuran səbəb və məqsədlərlə əlaqədardır.

Elmi ədəbiyyatda mütaliənin səbəb və məqsədlərinin növləri təxmini olaraq aşağıdakı kimi müəyyənləşdirilmişdir.

1. Həyat təcrübəsi qazanmaq və özünütəkmilləşdirmə
2. Idraki ehtiyac
3. Şəxsi təhsil və təcrübi faydalanmaq

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

4. Emosional və estetik tələbat
5. Əylənmək.(4,s.163)

Əlbəttə bu bölgünün özü də tam hesab olunmur. Insanı mütaliəyə cəlb edən daha başqa səbəblər haqqında fikirlər söylənilmişdir.

Insanı mütaliəyə cəlb edən səbəblər haqqında mütaliə psixologiyası sahəsində aparılan tədqiqatlarda kifayət qədər fikirlər söylənilmişdir.

Qeyd etmək lazımdır ki, mütaliə nəzəriyyəsinin formalaşdırılması məsələsi ilə məşğul olan bir çox elmi araşdırmalarda mütaliə psixologiyasının xüsusiyyətləri oxucu psixologiyasının fonunda nəzərdən keçirilib. Lakin yaddan çıxarmaq olmaz ki, mütaliə prosesinə oxucu şəxsiyyəti, onun sosial statusu, həyat fəaliyyəti, tələbat və maraqları, həmçinin idrak səviyyəsi nöqteyi-nəzərindən yanaşan oxucu psixologiyasından fərqli olaraq, mütaliə psixologiyası oxucunu bütün xüsusiyyətləri ilə kompleks halda götürməklə, eyni zamanda bu problemin digər tədqiqat obyekti olan kitab, çap məhsulu, onun struktur komponentləri və qavranılması tərzi, eləcə də bədii və elmi qavrayışın psixoloji aspektlərini də yaddan çıxarmır.

Oxucuların mütaliə etmək tərzləri və motivlərinə, eyni zamanda yaş, peşə, cins, sosial faktorlara görə təsnifləşdirilməsi problemi ilə də əsasən oxucu psixologiyası elmi məşğul olur. Mütaliə psixologiyası isə daha geniş spektri – mütaliə prosesinin psixoloji mexanizmini, fərdi-psixoloji, fikri proses kimi spesifik xüsusiyyətlərini, elmi araşdırmaya daha çox ehtiyacı olan qavrayış və digər idrak proseslərinin (diqqət, hafizə, təfəkkür, təxəyyül) sistemli mütaliəni şərtləndirən amillər kimi öyrənilməsi məsələlərini əhatə edir.

Fəaliyyətin dərketmə – estetik, həmçinin professional sferasına birbaşa təsir edən mütaliənin nəticəsi öz növbəsində oxucu fəaliyyətinin bir motivləşdirilmiş – sövqetmə mərhələsini yaradır. Beləliklə əldə edilmiş nəticələr və onların qiymətləndirilməsi əsasında oxucu fəaliyyətinin təkrar istehsalı baş verir.

Mütaliənin elmi-tədqiqat istiqamətləri mütaliə psixologiyası tərəfindən araşdırılan problemlərlə – yəni mütaliə prosesinin psixoloji məzmunu, mexanizmi, qavrayış, təfəkkür, nitq və

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

şüur mərhələləri ilə məhdudlaşmır. Elmi və bədii sözlə mənəviyyata təsir göstərmək, mənəviyyat sahibini real, məqsədyönlü və xeyirxah fəaliyyətə sövq etmək, əxlaqi keyfiyyətlər aşılamaqla da mütaliə cəmiyyətin bütövlükdə, eyni zamanda hər bir fərdin ayrı-ayrılıqda həyatında müstəsna əhəmiyyətə malikdir. Öz təsir obyekti və əhatə dairəsinə görə mütaliə psixologiyası ilə haradasa yaxınlıq təşkil edən mütaliə pedaqogikası məhz bu vəzifələrin yerinə yetirilməsini nəzərdə tutur. Mütaliə pedaqogikası ilk növbədə mütaliənin, hissi predmetlərlə ifadə olunan emosional-tərbiyəvi, eyni zamanda təfəkkür materialları vasitəsilə idraki funksional xüsusiyyətlərini araşdırır. Bütün bunlarla bərabər, sistemli mütaliənin elmi-nəzəri, həmçinin təcrübi əsaslarının işlənib hazırlanması, onun həyata keçirilməsi yollarının müəyyənləşdirilməsi, mütaliənin daha çox keyfiyyət göstəricilərinin aşkar edilməsi problemləri də mütaliə pedaqogikasının tədqiqat obyektlərindəndir.

Şəxsiyyətin mütaliə vasitəsilə tərbiyə olunması prosesi birinci növbədə ailədə başlanır. Sonra orta ümumtəhsil məktəblərində davam etdirilir, sonrakı ali və orta ixtisas təhsili zamanı davam edərək geniş məzmun kəsb edir.

Mütaliənin təhsillə birgə həyata keçirdiyi pedaqoji funksiyalar özünü ümumtəhsil məktəblərində daha aydın göstərir. Belə ki, siniflərdə, uşaq və məktəb kitabxanalarında keçirilən ifadəli oxular, sinifdənxaric oxu tədbirləri, müxtəlif dərnək məşğələləri, uşaqları ardıcıl və sistemli mütaliəyə cəlb etməklə bərabər, onlarda vacib olan mənəvi keyfiyyətlər formalaşdırır.

Professor A.Xələfov bu barədə yazır: «Təhsil sisteminin çoxillik təcrübəsindən məlumdur ki, sinifdənkənar mütaliə şagirdlərin əqli inkişafında, tədris olunan fənlərin daha dərindən mənimsənilməsində, ümumiyyətlə, şagirdlərin ümummədəni səviyyəsinin yüksəlməsində, hərtərəfli, ahəngar inkişafda və tərbiyədə olduqca mühüm rol oynayır.» (3,s.325)

İnsanpərvərlik, əməkdə və ünsiyyətdə həmrəylik, fəal həyat mövqeyi, fikir və fəaliyyətin bacarıqla əlaqəsi, ideya inamı, həqiqi milli mənlik və s. bu kimi yüksək insani keyfiyyətlər şəxsiyyətin mənəvi-əxlaqi zənginliyinin göstəriciləridir. Cəmiyyətin bütün tərbiyə və təhsil strukturları ilə qarşılıqlı əlaqədə

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

olan mütaliə də bütün bu keyfiyyətlərin formalaşmasında mühüm təsiredici gücə malikdir. Şəxsiyyətin əxlaq və həyat mövqelərini aydınlaşdırmaqla mütaliə ona sanki mənəvi mövqe qazandırır. Həyatın aydın dərk edilməsi, şəxsiyyətin fikir və hərəkətləri ilə səciyyələnən mənəvi mövqe insanda hadisələrə, ictimai hallara, əməllərə prinsipial münasibət formalaşdırır.

Sistemli və ardıcıl mütaliə üçün kitabların seçilməsi və toplanmasında məqsədəmüvafiqlik izlənilməlidir. Yalnız sistemli mütaliə oxucuya, öz bilik və məlumatını, təsəvvür və anlayışını, elmi dünyagörüşünü daha dərindən formalaşdırmağa imkan verir. Sistemli mütaliə oxucunun müstəqil mühakimə yürütmək qabiliyyətini inkişaf etdirir, onun zəkasını və hissini zənginləşdirir.

Insana həyatda professional mövqe qazandıran ali təhsil strukturu ilə təmasda olan mütaliə öz pedaqoji funksiyasını daha çox kitabxanalar vasitəsilə həyata keçirərək, ona mənəvi mövqe qazandırır.

Təhsil prosesinin iştirakçısı kimi mütaliə pedaqogikasının və onun daşıyıcısı olan kitabxanaların kəsb etdiyi əhəmiyyət öz əksini mühüm dövlət sənədlərində də tapmışdır. Bütün bunlar mütaliənin geniş ictimai məzmun kəsb etdiyini təstid edir.

Mütaliənin ictimai məzmun kəsb etməsi və sosial xarakter daşıması bu gün daha aydın şəkildə meydana çıxır. Mütaliənin belə bir mahiyyət kəsb etməsi aşağıda qeyd olunan sahələrdə xüsusilə nəzərə çarpır:

1. Mütaliə getdikcə daha çox adamın ictimai şüurunun və dünyagörüşünün formalaşmasına, onlarda yüksək mənəvi ideyaların tərbiyə edilməsinə xidmət göstərən mühüm vasitəyə çevrilir.

2. Fasiləsiz şəxsi təhsili həyata keçirmək, dövlət səviyyəsində əhalinin ümummədəni səviyyəsini yüksəltmək üçün mütaliədən geniş istifadə olunur.

3. Mütaliə həm də insanların peşə, bilik və vərdişlərinin səviyyəsinin yüksəlməsinə xidmət edən səmərəli vasitəyə çevrilir.

Cəmiyyətin həyatında mütaliənin rolunun artması, sosial funksiyalarının genişlənməsi onun getdikcə kütləvi xarakter almasına səbəb olur. Bu isə kitaba, müxtəlif çap məhsullarına

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

daha çox müraciət edilməsi ilə nəticələnir. Ona görə də respublikamızda adamların mütaliənin təmin edilməsi ciddi dövlət qayğısına çevrilməlidir. Əlbəttə, bu sahədə az iş görülmür.

Mütaliənin kütləviləşdirilməsi sahəsində isə kitabxanalar aparıcı qüvvə hesab olunur. Kitabın nəşrinin və yayılmasının kommersiya xarakteri aldığı bir şəraitdə əhalinin mütaliəyə olan tələbatı ən çox kitabxanalar vasitəsilə ödənilir. Kitabxanalar tarixən, eləcə də bu gün kütləvi mütaliənin təşkilatçısı olaraq qalır. Çünki kitabxanalar:

a) Əhalinin mütaliəsini təşkil etmək üçün sistemli qaydada seçilmiş, oxucuları maraqlandıran problemləri öyrənmək əsasında yaradılmış kitab fondlarına malikdirlər.

b) Kitabxanalar mütaliənin təşkilatçısı kimi ölkə ərazisində planlı qaydada yerləşdirilmiş, əhaliyə daha çox yaxınlaşdırılmış, həmçinin müxtəlif oxucu qruplarını müntəzəm mütaliəyə cəlb etmək üçün böyük imkanlara malikdirlər.

c) Burada hər bir oxucunun mütaliəsi üçün lazım olan kitabların məqsədyönlü şəkildə seçilməsinə kömək göstərmək, oxuculara kitabxananın məlumat aparatından istifadə etmək vərdişi aşılamaq imkanına malik mütəxəssis işçilər üçün səmərəli fəaliyyət göstərir. Bütün bunlar əhalinin intellektual tələbatının ödənilməsi üçün mütaliənin sosial zərurətə çevrilməsini şərtləndirən amillərdir.

***Ədəbiyyat***

1. *Azərbaycan Sovet Ensiklopediyası. C. 6.- B., 1982.-S.351*
2. *Bayramov Ə.S. və Əlizadə Ə.Ə. Psixologiya/ Ali məktəblər üçün dərslik.- B., 2002.- 624 s.*
3. *Xələfov A. Kitabxanaşünaslığa giriş. Dərslik. 3 hissədə. H. 1-2.- B., Bakı Universiteti nəşriyyatı, 2001.- 400 s. H.3-B.: BUN, 2003.-315 s*
4. *Художественное восприятие. Сборник.-Л.: «Наука», 1971.-386 с.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**5.** *Засорина Л.Н. Структура читательской деятельности. Психолого-педагогический аспект. Психологические проблемы чтения.-Л.-1981.- 126 с.*

***Сахиб Рзаев***

***Функции чтения и механизм его влияния на человека***

***РЕЗЮМЕ***

*В статье распирваются общественная сушность и социальный характер чтения и его роль в формировании личности. В этой связи освишены содержательное функции чтения и механизм его воздействия на отделные личности и обшества в целом.*

***Sahib Rzayev***

***The functions of reading and its influence mechanizm to the man***

***SUMMARY***

*In the article is explains the public essence and social character of the reading and its role in formation of person. From this point of view is lichtend the base functions of the reading and its influence mechanism to the separately persons and generally to society.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

***Əli Rüstəmov,***
*Kitabxanaşünaslıq kafedrasının dosenti*
***Nuriyyə Mustafayeva***
*Kompüter mərkəzinin mühəndisi*

## ELEKTRON KOMMUNİKASİYA MÜHİTİNDƏ BİBLİOQRAFİYANIN BƏZİ MƏSƏLƏLƏRİ

Elektron kommunikasiya fərdi kompüterlərin, disk və telerabitə vasitələrinin istehsalı və sürətlənən inkişafı, internetin geniş imkanları, yeni İnformasiya metod və texnologiyalarının yaradılması və istifadəsi ilə əlaqədar olaraq formalaşmışdır. Bu mühitdə bibliqorafik fəaliyyət daha yüksək elmi və texnoloji səviyyəyə çatmış, digər sosial kommunikasiya sistemləri ilə daha sıx inteqrasiya olunmuşdur. Hazırda minlərlə şəbəkə bibliqorafik məlumat bazalarının və banklarının, virtual elektron kataloq sistemlərinin, beynəlxalq biblioqrafik yazı formatlarının, ekspert sistemlərinin və bilik bazalarının yaradılması bibliqorafiyanın elektron kommunikasiyası mühitində aparıcı roluna əyani misal ola bilər.

Elektron kommunikasiya baxımından təcrübi biblioqrafik fəaliyyətdə xeyli dəyişikliklər yaranmışdır. Belə ki, bibliqorafik vasitələrin işlənməsində ağırlıq mərkəzi yaradıcılıq prosesinə keçərək biblioqrafı üzücü texniki əməliyyatlardan azad etmiş, oxucular isə maşınlaoxunan formada biblioqrafik yazıların istifadəsində vaxta və əməyə qənaət edərək, dolğun İnformasiya əldə edirlər. Burada zaman və məkan məhdudiyyəti aradan qaldırılmışdır.

Gil lövhələrdən papirusa, ondan da kitab blokuna, yəni əvvəlcə perqamentə, sonra kağıza keçid hər dəfə İnformasiya kommunikasiyasında dəyişiklik yaratmışdır. Kitab mədəniyyətinin inkişafında hərəkət edən literlə kitab çapının ixtirası xüsusi rola malik olmuşdur. Kompüterlərdən simvol, qrafiki və multimedia İnformasiyalarının hazırlanmasında, emalında, zaman və məkan etibarilə ötrülməsində kitab çapına nisbətən daha geniş sahələr və obyektlər əhatə edilmişdir. Beləliklə, elektron kommunikasiya həm kitab nəşrində, həm də onunla sıx əlaqədə olan

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

biblioqrafiyada əsaslı dəyişikliklər yaratmışdır. Məsələn, elektron kommunikasiyası mühiti baxımından «Kitab» anlayışı xeyli genişlənmiş, zənginləşmiş və ənənəvi baxışlara nisbətən qismən dəyişmişdir. Bu dəyişiklik elektron sənədlərin və onların yayılma vasiətlərinin sürətlənən inkişafı ilə bağlıdır. Nəşriyyat işi sahəsində proqnozlar göstərir ki, yaxın on-iyirmi illərdə elektron kitablar həm çeşidi, həm məzmunu, həm də kəmiyyəti etibarilə xeyli üstün mövqe qazanacaqdır.

Burada elektron kitab dedikdə istənilən əsərin kompüter yaddaşında və diskret İnformasiya daşıyıcısında toplanan, (yazılan), əlaqədar proqram və aparat vasitələrinin köməkliyi ilə oxunan məlumatların (mətn, səs, statik və hərəkət edən obyektlər) məcmuyu başa düşülür. Elektron kitab müxtəlif daşıyıcılara (sərt, çevik və ya yığcam disk) yazıla, mətn fraqmentələrini məntiqi və digər münasibətlərlə (hipermətn) əlaqələndirə, mətndən, audio və video materialların (multimedia birliyindən) ibarət ola, elektron və telefon kanalları ilə ötürülə bilər. Bütün bunlar elektron kitabı istifadə edən şəxslərə imkan verir ki, onu istənilən coğrafi ərazidən və istənilən vaxt istifadə etsin, forma və məzmununu öz marağına uyğun olaraq dəyişsin.

Burada biblioqraf üçün o cəhət vacibdir ki, belə kitabın fiziki forması biblioqrafiyalaşdırma baxımından öz əhəmiyyətini itirir. Belə ki, elektron vasitələrlə hazırlanmış (emal edilmiş) əsər öz formasını asanlıqla dəyişərək məkan etibarilə yayılır. Bununla əlaqədar olaraq bibliqorafiyalaşdırma üçün əsərin nəşredilmə vacibliyinə, dərcedilmə faktına yeni müstəvidə baxmaq tələb olunur. Belə ki, məhz nəşredilmə faktı deyil, əsər biblioqrafiyalaşdırma obyektinə çevrilir, yəni elektron kitab, elektron jurnal və digər elektron sənədlər konkret maddi forma deyil, virtual obyekt xarakterini alır. Əlaqədar əsərin biblioqrafik yazı ilə birlikdə olması, məkan etibarilə ayrılıb-ayrılmaması az əhəmiyyət daşımır. Bununla əlaqədar olaraq əsərin biblioqrafik yazı elementləri (müəllif, sərlövhə və s.) və onun digər axtarış vasitələri (təsnifat indeksi, predmet rubrikaları, annotasiya və ya referat) yeganə axtarış vasitəsi olaraq qalmır. Əgər əsər hipermətn formasında təqdim edilirsə, mətn fraqmentləri üzrə də axtarış aparmaq olar. Aydındır ki, burada əsas problemlərdən biri biblioqrafik

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

təsvir qaydalarına yenidən baxmaqla əlaqədardır. Bu problem beynəlxalq və milli proqramlar çərçivəsində kataloqlaşdırma üzrə mütəxəssislər və biblioqraflar trəfindən baxılmaqdadır. Xüsusilə, universal biblioqrafik uçot problemi üzrə Alman Milli Kitabxanası və beynəlxalq MARK sahəsində İFLA bu istiqamətdə xeyli işlər görmüşlər [1]. Deyilən işlərin görülməsində əsas məqsəd, yəni kataloqlaşdırma sahəsində əsaslı dəyişikliklər edilməsi, mütəxəssislərin fikrincə bu prosesə sərf edilən vəsaitin ilbəil artması, bu sahədə təkrarçılığın aradan qaldırılması kimi göstərilsə də, aydındır ki, dəyişiklikdə əsas məqsəd müxtəlif növ sənədlərin biblioqrafik qaydalarını «kompüter mühitinə» tam adaptasiya etməkdən ibarətdir.

Həqiqətən, ənənəvi və elektron sənədlər vəhdət təşkil edir. Demək olar ki, bütün kitablar, jurnallar və digər növ sənədlər əvvəlcə maşınlaoxunan formaya keçirilir, sonralar ya elektron kommunikasiya üçün (diskret, yığcam disk, internet saytı) istifadə olunur ya da kağız formasında çap edilir. Minlərlə adda jurnal paralel olaraq həm kağız, həm də elektron formada mövcuddur. Xeyli miqdarda kitab və jurnal isə ancaq elektron formadadır, yəni kağız çap analoqu yoxdur. Bir çox hallarda əsərin hansı fiziki formada hazırlanması son mərhələdə maliyyə imkanlarından asılı olaraq müəyyənləşdirilir. Bir neçə sahədə (elm, texnika, iqtisadiyyat, biznes və s.) elektron nəşrlər kağız nəşrlərə nisbətən təqribən iki dəfə ucuzdur və bir saata hazırlana bilir. Bu ucuzlaşma və operativlik getdikcə artır. Çünki elektron vasitələrin satış qiymətləri ilbəil azalır, konstruktiv elementləri təkmilləşdirilir və operativliyi artır.

Kitab nəşri sahəsində elektron sənədlərlə kağız nəşrlərin texnoloji baxımdan vəhdəti və kommunikativ funksiyaları xeyli dərəcədə müəyyən edilsə də, biblioqrafiyalaşdırma baxımından onların səmərəli inteqrasiya problemi hələlik həll edilməmişdir. Yuxarıda deyilən təşkilatlar tərəfindən işlənməkdə olan biblioqrafik təsvirin yeni qaydaları ilk növbədə ən müxtəlif kateqoriyalı istifadəçilərin İnformasiya tələbatlarının ödənilməsinə, sonra isə kommunikasiya sferasında proffesional ehtiyacların təmin edilməsinə xidmət edərək, yalnız mətni sənədləri deyil, həm də bütün növ yazıları (simvol, rəqəm, analoq, akustik, optik)

müxtəlif İnformasiya daşıyıcıları (kitab bloku, vərəq, sərt disk, Maqnit kartı və s.) baxımından əhatə etməlidir. Bunlarla yanaşı, yeni təvir qaydaları müəyyən mövzuda və konkret adda sənədlərin axtarış məqsədlərini nəzərə almalı, istifadəçinin imkanlarına uyğun olaraq əlamətlərin (məs: mətnin dili və ya istifadəçinin kompüterinin imkanlarına uyğun olması), həmçinin sənədə çıxış imkanlarına (kitabxananın şifri, abonoment şərtləri, elektron ünvan) və onun identifikasiyasını təmin etməlidir. Təbii ki, yeni biblioqrafik təsvir qaydaları heç bir ənənəvi kataloqlaşdırma qaydalarına (kitabın sərlövhə ilə təsvirini əsas götürən ingilis-amerikan kataloqlaşdırma qaydaları) oxşamamalıdır. Təsadüfi deyildir ki, yeni təsvir qaydalarının işlənməsi ilk növbədə sənədin məzmun elementlərinin axtarışına (Prusiya sistemi), sonra isə formal identifikasiya tələblərinə cavab verən kataloqlaşdırma qaydalarına xeyli tarixi dövrdə tətbiq etmiş alman mütəxəssislərinə həvalə edilmişdir.

Bütün tələbləri ödəyən, əhatəli beynəlxalq təsvir qaydalarının işlənməsi sadə problem deyil, onun tətbiqi isə yüksək dərəcədə məsarif tələb edir. Bundan başqa, müxtəlif ölkələr, hətta ayrı-ayrı kitabxanalar və İnformasiya mərkəzləri öz elektron kataloqları üçün formatlar işləyirlər. Bu isə biblioqrafik təsvir qaydalarının yeni standartının işlənməsi sahəsindəki vəziyyəti daha da ağırlaşdırır.

Deyilən istiqamətdə vacib problemlərdən biri də rəqəmləşdirilmiş obyektlərlə biblioqrafik identifikasiya sisteminin hazırlanmasıdır. Bu problemin 1994-cü ildə ABŞ Naşirlər Assosiasiyası təşəbbüs edilmiş, beynəlxalq dəstək qazanmış, musiqi və proqram obyektlərinə də aid edilmişdir. Sistemin işlənməsi hələlik başa çatdırılmamışdır. Işlənmənin bir neçə mərhələsi göstərir ki, bu sistem eyni zamanda rəqəmləşdirilmiş obyektlərin məzmun axtarışına, internetdə yerləşdirilməsini və onlara çıxışı təmin edən universal identifikator olmalıdır. Sistem faylın adı ilə obyektin yerləşmə yerini, yəni sənədi, təsviri (image) və istənilən kompüter proqramını əlaqədar qovluq və ya fayl kataloqu ilə əlaqələndirir. Bu yeni ad prefiksdən (hər bir təşkilat üçün eynidir) və həmin adın məxsusi faylından (və ya qovluqdan) ibarətdir.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Ad maşın ədədindən, beynəlxalq standart nömrədən və ya digər istənilən vahid identifikatordan ibarət ola bilər.

Sistemin idarə edilməsi əlaqədar fondun üzərinə qoyulur və həmin fond aparıcı təşkilat hesab edilir [2]. Fond biznes qurumu deyil, yəni gəlirsiz işləyən təşkilatdır. Onun əsas vəzifəsi sistemi yaratmaq və inkişaf etdirməkdir. Üzvlər tərəfindən fonda verilən vəsait sistemin təşkilinə və inkişafına xərclənir. Üzvlük haqqı xeyli yüksəkdir: sisemi yaradan üzvlər üçün 30 min dollar, adi üzvlər üçün-təşkilatın tipindən asılı olaraq 10 mindən 30 min dollara qədər. Ayrıca bir identifikator almaq üçün istifadəçilərin maraqları əsas götürülərək bir neçə sent təşkil edir. Sistem müəlliflik hüququnun qorunmasını təmin etmir, lakin belə bir sistemin qurulması üçün baza yaradır. Üzvlər naşirlərdən, texnalogiya işləyən kompaniyalardan, musiqi üzrə konsorsiumlardan, standartlaşdırma üzrə təşkilatlardan, bir neçə iri kitabxanadan, İnformasiya mərkəzlərindən və s. ibarətdir. Baş fond funksiyasını Almaniya Milli Kitabxanası yerinə yetirir. Hazırda fondun konkret vəzifələri, fəaliyyət proseduru, təqdimat standartı və s. işlənmişdir [2].

İnformasiya axtarışı həmişə kommunikasiya prosesinin tərkib hissəsi olmuşdur. Axtarışın əsas məqsədi hər şeydən əvvəl ilkin sənədin və ya ona dair məlumatın tapılmasıdır. İnformasiya axtarış sistemləri (IAS) ənənəvi texnalogiyalardan avtomatlaşdırılmış texnalogiyalara qədər uzun bir təkamül yolu keçmişdir. Ümumdünya hörümçəyinin (Word Wide Web) yaranması bu təkamül yolunu inqilabi yola çevirmişdir. Bununla da külli miqdarda sənəd massivləri, müxtəlif formatlı və məzmunlu əsərlər dünyəvi coğrafi, xronoloji və dil əhatəsində bütün insanların istifadə obyektinə çevrilmişdir. Onların çox hissəsi artıq kitabxanalara toplanmır, nəzarət edilmir və vahid texnaloji sxem əsasında emal olunmur.

Biz bir obyektiv reallığı nəzərə almalıyıq ki, bütün parametrlər üzrə kəskin dəyişən müasir dünyəvi sənəd axınını strkuturlaşdırmaq və müəyyən kitabxanada, hətta ərazi kitabxana kompleksində onun dolğun və dinamik soraq aparatını yaratmaq mümkün deyil. Buna görə də İnformasiya axtarışınının yeni texnaloji mexanizmini işləmək və istifadəçi üçün daha əlverişli

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

sistemlər yaratmaq bütün müasir İnformasiya sferası üçün aktuallıq kəsb edir. Rabitə sistemlərinin hazırki vəziyyətini (nisbətən ləng işləməsini) və kanalların ötürmə qabiliyyətini nəzərə alaraq fikrimizcə İnformasiya axtarışı sahəsində aşağıdakı problemlərin həlli ilk plana keçir:

Axtarış sisteminin seçilməsi. Istifadəçi axtardığı İnformasiyanı optimal şəkildə əldə etmək üçün çoxlu axtarış sistemləri içərisindən sadə və operativ olanını seçmək imkanlarına malik olmalıdır. Başqa sözlə desək, ona rahat mühit yaradan və axtardığı İnformasiyanı dəqiq və dolğun ödəyən axtarış sistemi lazımdır.

İnformasiya sorğusunun formalaşdırılması. Öz sorğusuna İnformasiya alan istifadəçi onu elə strukturlaşdırmalıdır ki, baxmaq üçün əlerişli olsun, sonra isə alınmış inteqrasiyanın sorğuya uyğunluğu ilk baxışdan görünsün. Bunun üçün nəinki istifadəçinin istəyinə uyğun filtrasiya mexanizmini təmin edən prqram vasitələri, həm də aparılmış axtarışın nəticələrini keyfiyyətcə qiymətləndirmək üçün meyarlar olmalıdır.

Bu problemin həllinin ağırlıq qüvvəsi, texniki, hətta proqram vasitələrindən daha çox insan faktoru sahəsinə keçmişdir. Biblioqrafın kvalifikasiyasından və istifadəçinin bilik səviyyəsndən asılı olaraq sorğunun düzgün formalaşdırılması və təmin edilməsi üçün vasitələrin təyini axtarışın keyfiyyət dərəcəsini müəyyən edir.

XX əsrin 70-ci illərində yaranan, 80-cı illərdən geniş yaılan və kütləvi istifadə olunan IAS-lar off-line və on-line rejimlərində işləyirdilər. Axtarış texnikası etibarilə prinsipial fərqi olmayan bu rejimlər bir çox hallarda ancaq vaxt parametrləri və verilən sənədlərin miqdarı baxımından fərqlənirdi.

Deyilən birinci qrup IAS-larda yığcam disklərdə və disketlərdə mühafizə edilən biblioqrafik və referativ məlumat bazaları aiddir. Sorğunu formalaşdırmaq üçün belə sistemlərdə daha zəif leksika, lakin mürəkkəb sintaksis istifadə olunur. Sorğunun axtarış əlamətlərinin orta həddi 5-7 söz (deskriptor) əhatəsindədir. Axtarış üçün çoxlu sayda həm formal, həm də məzmun əlamətlərinin kombinasiyasından istifadə olunur. Belə bazaların çoxunda soraq aparatı, yəni bazanın tezlik lüğəti, yaxud

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

tezaurusu vardır. Buna baxmayaraq off-line rejimli məlumat bazaları ilə işləmək xeyli mürəkkəbdir  və xüsusi hazırlıq (bazanın strukturu və axtarış imkanları ilə tanışlıq) tələb edir.

On-line  bazaları ilə işləməyin üstün cəhətləri də vardır. Məsələn, konkret profilə dair materialları əvvəlcədən seçmək, bu siyahıya sonralar sərbəst baxmaq və dəqiq seçim etmək mümkündür; eyni tipli və təyinatlı bütün bazalar vahid interfeysə malikdir; onların əksəriyyəti uyğun axtarış rekvizitinə (fiksasiya olunmuş sahə)  malikdir ki, bu da axtarış mexanizminin asan öyrənilməsinə imkan yaradır.

Xüsusilə 90-cı illərdən başlayaraq on-line bibilioqrafik məlumat bazaları daha sürətlə inkişaf edir. IFLA-nın məlumatına görə belə bazalar ildə orta hesabla 28%, tam mətnli bazalar-40%, sərt disklərdə bazalar isə 100%-dən çox artır  [3]. Onlar sürətlə inteqrasiya edilir, yəni biblioqrafik məlumat bazası tam mətnli məloumat bazasının tərkib hissəsini, bir interaktiv elementini təşkil edir. Məlumat bazalarının belə arxitekturası elmi və təcrübi baxımdan biblioqrafiya sahəsində tamamilə yeni istiqamətdir.

On-line rejimində axtarış da istifadəçiyə xeyli üstünlüklər verir. Lakin bu rejim axtarış məqsədindən  və axtarılan materilın xarakterindən asılı olaraq dəyişir. Rusiya axtarış sistemlərindən (Rambler, Aport, Yandex  və s.) alınan məlumatlara görə kütləvilik rejimində sorğunun 25%-i tədris və elmi ədəbiyyatın payına düşür. Rusiya Milli Kitabxanasının statik məlumatlarına görə oxucuların 60%-i internetdə tədris  və elmi işlər üçün axtarış aparaır. Həmin sorğuların 35%-i mürəkkəb və kitabxanadan “yox” cavabı verilən sorğulardır  [4]. Həmin məqalədə göstərilir ki, istifadəçilərin axtardığı çap elmi jurnallar milli kitabxanada olmadıqda internetə daha çox müraciət etməli olurlar. Lakin onu da qeyd etməliyik ki, internetdə külli miqdarda material olmasına baxmayaraq, bu sahə nisbətən zəif inkişaf etmişdir. Çünki internetdə elmi ədəbiyyatın  axtarış vasitələri kifayət dərəcədə işlənməmişdir və bir sıra hallarda isə həmin vasitələr istifadəçi üçün rahat mühit yaratmır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Müxtəlif IAS-larda sorğuların xüsusiyyətlərinə və axtarış strategiyasına keçməzdən əvvəl qısaca olaraq axtarış münasibətlərinə baxaq.

İstifadəçi kitabxanaya gəlir. Əlifba kataloqundan istifadə onun təsəvvürü səviyyəsində sadədir. Yüksək ixtisaslı biblioqraf isə ilk baxışdan istifadəçiyə sadə görünən əlifba kataloqundan bir sıra hallarda daha çox İnformasiya aşkarlaya bilər. Bu, xüsusilə «psevdotematik axtarışa», yəni kollektiv müəllifi olan əsərlərə və müəllifsiz kitablara aiddir. Sistemli və predmet kataloqunda axtarış isə əlavə biliklər və vərdişlər tələb edir və buna görə də istifadəçilərin əksər hissəsi biblioqrafın köməyindən istifadə etmək zərurətində qalır. Sorğunun təsnifat indeksi və predmet rubrikası ilə tam üst-üstə düşməsi istisna olmaqla, digər axtarış variantlarında sənədlərin tapılması istifadəçi üçün çətinlik yaradır. Istifadəçinin eyni tip ənənəvi axtarış sistemindən xeyli istifadə vərdişi olduqda kənar kömək olmadan lazımi sənədləri tapa bilər. Belə sistemlərin kütləvi istifadəsi onların xeyli tarixi dövrdə mövcud olması, geniş yayılması və sadəliyi ilə əlaqədardır.

Kataloqlarda axtarış apardıqda müəyyən mövzuya yaxın və istifadəçi üçün yeni olan digər sənədlər də tapılır ki, bu da axtarış dairəsini xeyli genişləndirir.

Mexanikləşdirilmiş axtarış sistemlərində axtarış aparmaq üçün istifadəçilər vaxtilə məlumat mərkəzlərinə müraciət edirdilər. Belə sistemlər kitabxana kataloqlarına nisbətən az miqdarda biblioqrafik yazıları əhatə edirdi və axtarış sürəti kataloqlardakı orta axtarış vaxtına yaxın idi. Mexanikləşdirilmiş sistemlərdən bir sıra hallarda sorğuya uyğun çox az sənədlər (əsasən cari İnformasiyalar) əldə etmək mümkün olurdu. Sorğunun əlaqəli axtarış əlamətlərinin (unitermlər və ya deskriptorlar) miqdarı sistemdən verilən sənədlərin miqdarı ilə tərs mütanasiblik təşkil edirdi, yəni sorğuda açar sözlərin sayı, əlaqəli miqdarı nə qədər çox olurdusa, sistemdən alınan sənədlərin miqdarı da o qədər az olurdu. Buna görə də kitabxana kataloqları ilə mexanikləşdirilmiş IAS-lar arasındakı fərqlər axtarış nəticələri baxımından deyil, məhz texniki reallaşdırma baxımından müqayisə edilirdi. XX əsrin 50-60-cı illərində mexanikləşdirilmiş və avtomatlaşdırılmış

biblioqrafik İnformasiya axtarışı sahəsində az təcrübə toplanmışdı. Buna görə də mexanikləşdirilmiş sistemlərlə ənənəvi axtarış sistemlərinin müqayisəsi birtərəfli, yəni sistemin texniki vasitələri baxımından müqayisə edilirdi. Çünki məhz bu cəhət (texniki vasitələrin tətbiqi) kitabxanalarda zəif inkişaf etmişdi və bir sıra hallarda da bundan yapışaraq kitabxana kataloqlarını köhnlmiş iş üsulu hesab edirdilər. Zaman keçdikcə, təcrübələr toplandıqca məlum olurdu ki, ənənəvi IAS-lar bütün axtarış imkanlarına görə mexanikləşdirilmiş sistemlərdən üstündür və texniki təminat dərəcəsi İnformasiya axtarışında heç də hər şeyi həll etmir.

Lakin mexanikləşdirilmiş sistemlər sonralar avtomatlaşdırılmış IAS-ların işlənməsi üçün bir sıra təcrübi-elmi nəticələrin alınmasına səbəb oldu. Məsələn, koordinat indeksləşdirilməsi metodu, dinamik lüğətlərin yaradılması, sistemin istifadəçi interfeysinin işlənməsi, riyazi proqramların İnformasiya axtarış strategiyasına uyğunlaşdırılması zəruriliyi və s. İnformasiya axtarışı istiqamətində mübahisəli fikirlər hələ də qalmaqdadır. Bəzi mütəxəssislərin fikrincə avtomatlaşdırılmış sistemlərdə axtarış üçün vasitəçi (biblioqraf, İnformasiya işçisi və s.) gərəksizdir. Əlbəttə, bu fikir doğru sayıla bilməz. Çünki istifadəçinin İnformasiya axtarışında vaxtının səmərəli təşkilinə və axtarış strategiyasının öyrədilməsinə kömək edən vasitəçilər həmişə olmuşdur və olacaqdır. Indiki şəraitdə kitabxana-İnformasiya sistemi axtarış zamanı vasitəçi-biblioqrafın aparıcı rolu vardır.

Dünyanın bir sıra kitabxanaları eyni zamanda İnformasiya brokerləri kimi fəaliyyət göstərirlər. Onlar şəbəkə sistemlərində nəyi necə axtarmağı, yəni müasir İnformasiya axtarışı strategiyasını yaxşı bilirlər. Tam mətnli sənədlərin axtarışını təmin edən sisemlərdə (hipermətn sistemləri) sorğunun leksikasına nəzarət edilmir. Istifadəçi müəyyən dildə və mövzuda sənədlərin tapılması üçün sorğunun axtarış elementlərini dəqiq formalaşdırmağı bacarmalıdır. Bundan əlavə, sərbəst leksikanın istifadəsi retrosənədlərin axtarışını xeyli çətinləşdirir. Buna görə də vasitəçilər, yəni İnformasiya axtarışının təşkili sahəsində çalışan mütəxəssis-biblioqraflar belə mürəkkəblikləri nəzərə almalı və onları aradan qaldırmaq bacarığına malik olmalıdır. Bu baxımdan

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

müasir səviyyəli biblioqraf dilçiliyin bəzi bölmələrini (semantika, morfologiya və s.) formal məntiqi yaxşı bilməli, şəbəkə IAS-ları, məlumat bazaları ilə texniki vasitələrlə işləmək vərdişinə yiyələnməlidir.

Nümunə üçün bir sorğu götürək və müxtəlif avtomatlaşdırılmış axtarış sistemlərindən alınan nəticələri göstərək. Tutaq ki, sorğu belədir: «Elektron mühitdə kitabxanalar». Bu sorğu iki axtarış əlamətindən (Elektron mühit və Kitabxanalar) ibarətdir. Internetdə 4 rus və 4 uzaq xarici ölkələrin sistemlərində axtarşın nəticələri belədir: Alta Vista və Yahoo!-1352,5 min sənəd, Magellan-20,8 min sənəd, Yandex-18,3 min sənəd, Lukas-2 mindən çox sənəd, Rambler-528 sənəd, Infoseek-118 sənəd, Aport-3 sənəd, AI-1 sənəd.

Təbiidir ki, müxtəlif avtomatlaşdırılmış sistemlər internetdə axtarış robotlarının indeksləşdirmə səviyyəsindən asılı olaraq müxtəlif miqdarda elektron sənədlərlə işləyirlər. Lakin burada ümumi mənzərə belədir ki, internet tərəfindən təklif edilən sənədlər müntəzəm olaraq sürətlə artır və istifadəçi sənəd okeanında necə deyərlər «boğulur». Buna görə də peşəkar kömək olmadan lazımi informasianın tapılması getdikcə çətinləşir. Elektron İnformasiya axtarış strategiyasın kompleks halda mənimsəmiş vasitəçilərin, yəni biblioqrafların hazırlanmsına ehtiyac duyulur.

Ənənvi kataloqlarla işləyərkən bir qayda olaraq, axtarış dolğunluğu zəif olur. Lakin tapılmış sənədlər əksər hallarda bu və ya digər dərəcədə sorğuya uyğun gəlir. Belə ki, sənədin sərlövhəsi əksər hallarda onun məzmununu ümumi şəkildə olmasa da, dəqiq əks etdirir. Lakin burada sənəd spektri (növləri) məhdud olur və xarici referativ jurnallarla axtarış təmin edilmir, yəni axtarış birtərəflidir (ancaq kitablar və ən yaxşı halda məhdud dolğunluğa malik olan jurnal məqalələri axtarılır). Sənəd növlərindən asılı olaraq istifadəçi müxtəlif məsafələrdə yerləşən ayrı-ayrı kataloqlara müraciət etməli olur. Bu isə xeyli vaxt itkisi deməkdir.

Avtomatlaşdırılmış sistemlər tərəfindən deyilən sahədə prinsip etibarilə yeni imkanlar təklif olunur. Indi axtarış zamanı formal məntiq operatorlarından (VƏ, VƏ YA, DEYIL və s.) və

digər sintaktik strukturlardan, çəki əmsalından və s. –dən istifadə etmək və yaxın məzmunlu sənədləri axtarmaq mümkündür. Burada axtarış leksikasına normativ nəzarət yoxdur və sənəd növləri də məkan etibarilə ayrılmamaışdır. Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, İnformasiya axtarışını təmin edən ən mükəmməl sistem yaradılsa belə istifadəçini tam, dolğun təmin etmək çətindir. Çünki İnformasiya axınının sürəti ilə onun müəyyən obyektə (obyektlərə) toplanması və emalı arasındakı vaxt intervalı getdikcə artır və daha çox vəsait tələb edir. Digər tərəfdən, axtarış həm cari, həm də retrosənədlər sistemində aparılır.

Elektron kommunikasiya inkişaf etdikcə kitabçılıq işinin bütün sahələri, o cümlədən biblioqrafiya işi ilə bu və ya digər cəhətdən bağlı olan və hələlik həll edilməmiş problemlər yaranır. Buraya intellektual mülkiyyətin müəlliflik hüququ və digər hüquqi qorunması, yalnız internet vasitəsilə istifadə edilə bilən elektron sənədlərin uzunmüddətli mühafizəsi, sənədlərin elektron göndərişi, onların istifadə haqqının ödənilməsi və s. problemlər daxildir.

Elektron sənədlərə müəlliflik hüququ problemlərilə kitabxanaçı və biblioqraflar ümumdünya hörümçəyi yarandığı dövrdən (1969-cu il) qarşılaşmışlar. Kitabxanalarda elektron sənədlər (nəşrlər) əksər hallarda kağız sənədlərin rəqəmləşdirilməsi, skanirovkası, yəni maşınla oxunan formaya keçirilməsi və həmçinin profil İnformasiyaları mühafizə edən saytların şəbəkədən yüksək sürətli kanallarla alınması vasitəsilə yaradılır.

Müəlliflik hüququna dair milli qanuna əsaslanaraq demək lazımdır ki, elektron sənədlərin yayılması məsələləri hələlik bitkin formada öz hüquqi həllini tapmamışdır. Rəqəmləşdirilmiş jurnal məqalələri və elektron jurnallar əksər hallarda internet vasitəsilə yazıldığına görə onların istifadəsinə nəzarət etmək mümkün deyil. Hələlik bu sahədə dəqiq və dolğun qanunlar olmadığına görə naşirlərin özləri öz maraqlarını təmin etmək məcburiyyətində qalırlar. Beynəlxalq konvensiyalarda da (Bern,Cenevrə) elektron İnformasiyaların hazırlanması və yığılmasının hüquqi məsələlərinə az diqqət verilmişdir. Bunlar da müasir elektron kommunikasiya mühiti üçün yaramır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Məsələn, ədəbi və bədii əsərlərin qorunmasına dair Bern və Cenevrə konvensiyalarının əsas məğzi odur ki, konvensiyanın üzvü olan bir ölkədə nəşr edilmiş əsər digər üzv ölkələrdə də milli nəşr kimi hüquqi cəhətdən qorunur. Bu prinsipi tam şəkildə elektron sənədlərə aid etmək çətindir. Çünki burada sənədlərin milli mənsubiyyəti deyil, onların mövzu əhatə dairəsi, tipi və onların ünvanlarının müxtəlif axtarış sistemlərində dərc edilməsi (domen adı) əsas rol oynayır. Buna görə də beynəlxalq miqyasda elektron İnformasiyaların hazırlanmasına, mühafizəsinə və yayılmasına dair qanunların işlənməsinə ehtiyac vardır.

Əlaqədar dövlətlərarası standartın [5] olmasına baxmayaraq hələlik tam məlum deyil ki, «elektron sənəd» anlayışı nələri əhatə edir. O, internetdə orijinal formada olan ayrıca səhifədirmi, müəllif tərəfindən qaydaya salınmış və müxtəlif növ sənədlərdən ibarət olan saytdırmı, yaxud hər hansı qurum, o cümlədən kitabxana tərəfindən yaradılan məlumat bazasıdırmı, onun bir elementidirmi (məs: bibilioqrafik yazı), diskret elektron nəşrdirmi və s. Burada qəti fikir hələlik yoxdur. Məsələn, müəlliflik hüququnu idarə edən kopirayt © işarəsi çap nəşrlərində bütün sənədə aid edilirsə, elektron sənədlərdə bütün sayta, ana səhifəyə, ayrıca sənədin-müəyyən səhifəsinə, qrafiki elementinə və s.-yə qoyula bilər.

Beynəlxalq İnformasiya mübadiləsi baxımından müəlliflik hüququ zəif işlənmiş problemdir. Milli çərçivədə mübadilə prosesi nisbətən asandır. Çünki mübadilədə iştirak edən hər iki tərəf eyni qanunçuluq üzrə hərəkət edir. Əgər mübadilə iki müxtəlif ölkənin hüquqi və ya fiziki şəxsi iştirak edirsə, təbii ki, buraada əlaqədar qanunlar müxtəlif olduğundan ziddiyyətlər yaranır. Bu ziddiyyətləri elektron İnformasiyaların mübadiləsi baxımından beynəlxalq müqavilə, yaxud konvensiya çərçivəsində tənzim etmək ehtiyacı meydana çıxır. Mübadilənin iqtisadi mexanizmi də burada müəyyən əhəmiyyət daşıyır.

Ancaq internetlə istifadə edilən keçmiş illərə aid sənədlərin uzunmüddətli mühafizəsi də sadə problem deyil. Kitabxanalar xeyli tarixi dövrdə kitabları, jurnalları və digər növ çap əsərlərini sisemləşdirilmiş şəkildə mühafizə edən və kütləvi istifadəsini təşkil edən sosial institutlar olmuşlar. Bəs elektron sənədlər üçün

KİTABXANASÜNASLIQ VƏ BİBLİOQRAFİYA

bu funksiyanı kim yerinə yetirməlidir? Təbii ki, belə bir vəzifəni nəşriyyatların özləri yerinə yetirməlidir. Lakin bu iş onlardan hətta nəşrin qiymətindən də çox vəsait tələb edərdi və ilbəil daha da baha başa gələrdi. Belə ki, zaman keçdikcə yeni, daha təkmil texniki vasitələr, İnformasiya daşıyıcıları, proqram məhsulları yaranır. Retroİnformasiyanı həmin mühitə konversiya etmək hədsiz dərəcədə mürəkkəb problemldir. Digər tərəfdən, əgər nəşriyyat ləğv olsa, yaxud başqa bir təşkilatla birləşsə onun retrospektiv elektron sənədləri necə olmalıdır, onlar istifadə edilə bilərmi? Bu problem istiqamətində elmi kitabxanaların elektron depozitar fondlarının təşkili ideyası da irəli sürülür [6].

Nəşriyyatların əksəriyyəti yüksək tələbat olan materialları yaymağa daha çox cəhd edirlər. Buna görə də onların xeyli vəsait sərf edərək, az sorğu olan keçmiş illərə dair  sənədləri mühafizə etməsi və interaktiv istifadə verməsi real görünmür. Bu sahədə bir sıra variantlar olsa da, indiyə qədər səmərəli model yoxdur. Kitabxanalar və bibilioqrafiya idarələri bu sahədə fəal rol oynaya bilər. Elektron kommunikasiya şəbəkəsinin yaranması ilə əlaqədar  olaraq İnformasiyanın toplanmasında və yayılmasında yeni imkanlar yaranmışdır. Bu imkanlar içərisində virtual kitabxanaların yaradılması ideyası mühüm yer tutur. Virtual kitabxana-kompüter metaforasıdır, paylanmış elektron kitabxanalar, yaxud məlumat bankları şəbəkəsidir və onu ifadə edir ki, müxtəlif ölkələrdə, hətta qitələrdə yerləşən şəbəkə elektron kitabxanalarından İnformasiya alan istifadəçi elə zənn edir ki, onu yerli kitabxanadan almışdır. Əslində isə bu İnformasiya virtual elektron kitabxanadan və ya məlumat bankından verilmişdir. Şəbəkədə  kitabxanaların biblioqrafik və tam mətnli məlumat bazaları yüksək ötürücülüyə malik olan supermagistral vasitəsilə əlaqələndirildikdə virtual kitabxana  təcrübi olaraq reallaşdırılmış olur.  Avropa Ittifaqının İnformasiya Institutu və ABŞ-da Klinton-Qor  layihəsi çərçivəsində neçə ildir ki, belə İnformasiya supermagistralının yaradılması istiqamətində tədqiqatlar aparılır.

Fondun fəal istifadə olunan hissəsinin rəqəm formasına keçirilməsi və uzunmüddətli mühafizəsinin təşkili ilə birlikdə, virtual kitabxananın əsas tərkib hissələrindən biri də sənədlərin

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

elektron göndəriş sisteminin yaradılmasıdır. Bu prosesdə elektron sənəd geri qaytarılmadan sifarişçiyə göndərilir. Kitabxanalarda hələləik bu proses biblioqrafik yazıların, referatların və kiçik həcmli sənədlərin ötürülməsi sahəsində daha geniş yayılmışdır. Tam mətnli sənədlərin ötürülməsi texniki və iqtisadi baxımdan zəif işləndiyinə görə hələlik məhdud çərçivədə həyata keçirilir. Qrafiki və multimedia İnformasiyalarının btürülməsi problemi də hələlik tam təcrübi həllini tapmamışdır.

Müasir şəraitdə kitabxana fondlarının çap əsərlərilə dolğun komplektləşdirilməsi ancaq müəyyən ərazi baxımından bütün kitabxanalaprın sıx koordinasiyası ilə bağlıdır. Belə bir tədbir xüsusilə dövri nəşrlərə aiddir. Çünki oxucuların ən azı 50%-i jurnallardan istifadə edir. Xarici jurnallara abunə o qədər yüksəkdir ki, ayrıca bir kitabxananın, hətta, profl jurnalları tam komplektləşdirməsi çətindir. Elektron sənədlərin komplektləşdirilməsi baxımından işlər daha mürəkkəbdir. Burada elektron nəşr təchizatları (naşirlər, kitab mağazaları, mətbuat yayımı agentlikləri və s.) və sayt sahibləri ilə kitabxanalar və kitabxanalarla istifadəçilər arasında əlaqənin hüquqi və iqtisadi mexanizmi işlənməlidir, elektron nəşrlərin çeşidivə sənəd növləri, hansı tip saytların elektron kitabxanalara alınması sabit olaraq müəyyən edilməlidir. Elektron nəşr və sənəd təchizatları son istifadəçilərin maraqlarını müəyyən etməyə, birbaşa vasitəçi olmadan onları təmin etməyə cəhd edirlər. Son istifadəçilər isə elektron nəşrləri biblioqrafik yazı formasında deyil, tam mətn (ilkin mətn) formasında konkret bir obyektdən istəyirlər. Buna görə də kommunikasiya prosesinin iştirakçılarının rolu dəyişir. Bu cəhət biblioqrafiyaya da aiddir.

İnformasiya cəmiyyətinə keçid mahiyyət etibarilə bütün maddi və mənəvi məhsulların əmtəə xarakteri almasıdır. Çünki bu proses bazar iqtisadiyyatı şəraitində baş verir. Indi ən bahalı məhsul İnformasiyadır. Buna görə də getdikcə daha çox hüquqi və fiziki şəxs öz İnformasiya məhsullarını satmağa cəhd edirlər. Bununla da rəqabət getdikcə kəskin şəkil alır. Elektron İnformasiya bazarının təchizatçıları daha sürətlə artır, elektron kommunikasiya spektri genişlənir və mürəkkəbləşir. Bu bazarda hər kəs öz yerini tapmağa və daha orijinal, yeni vasitələr

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

tətbiq etməyə çalışır. Elektron kommunikasiya şəraitində bibilioqrafın rəqabət aparan digər şəxslərdən peşəkar fərqləri nələrdən ibarət olmalıdır, hansı fəaliyyət istiqamətləri rəqabətə davamlılığı təmin etməlidir? Hələlik bu kimi suallara cavablar yoxdur.

Elektron kommunikasiya erası qaçılmazdır və dönməzdir. Bu eranı ideallaşdırmaq lazım deyil, ona ciddi şəkildə hazırlaşmaq, təşvişə düşməmək, elektron və kağız sənəd kommunikasıyası arasında sələfliyi və inteqrasiya nöqtələrini tapmaq gərəkdir. Biblioqrafiyaşünaslığın elektron kommunikasiya nəzəriyyəsini yaratmaq və üümumiyyətlə, biblioqrafiya problemlərini yeni İnformasiya texnologiyaları ilə nəzəri və metodiki baxımdan uzlaşdırmaq aktual problem kimi qarşıya çıxır. Biblioqrafik prosesdə şəbəkə texnalogiyaları, virtual biblioqrafik kommunikasiya, internetin biblioqrafik resurs kimi xarakteristikası, elektron sənədlərin kataloqlaşdırılması kimi təcrübi problemlər hələlik az öyrənilmişdir. Biblioqrafiyaşünaslığın müxtəlif konsepsiyaları (kitabşünaslıq, sənədşünaslıq, koqintoloji) [7] geniş işlənsə də, daha perspektiv əhəmiyyət daşıyan elektron konsepsiyasa az işlənmiş problemdir.

### *Ədəbiyyat*


1. *Functional requrements and biblioqrafik records: Draft reports for Word Wide rev/Recomended by the IFLA study Group on the Institional Requirement for Biblioqr. Records //www.ifla.com*
2. *The International Digital object Identifier Foundation//www.doi.org*
3. *Malunconuce S.M. The Use of Electronuc Documents un Lubrarues//http//www.bnc/ca/ufla/uu/ufla61/6/-mals.htm*
4. *Галеева И.С.Статистические исследования: к вопросу оптимизации обслуживания пользователей интернет// Тез.докл. 2-й науч.-прак. конф. СпБ 25-27 марта, 1998 г.-СпБ: РНБ, 1999.-с.12-13.*
5. *ГОСТ 7.83.2001. Электронные издания. Основные виды и выходные сведения.-М., 2001.-9 с.*
6. *Евстенгеева Г.А., Земсков А.И. Электронные версии депозитарных фондов научных библиотек//Науч. и техн. б-ки, 2003.-№7.-с.6-21.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

*7. Соколов А.В. Вехи и альтернативы русской библиографии//Библиогр., 2001.-№6.-с.3-23*

***Али Рустамов,***
***Нурия Мустафаева***

*Nekotorıe voprosı biblioqrafii v srede*
***электроннной коммуникации***

*REZÖME*

*В статье излагаеться основные характерные особенности библиографии в среде электронных коммуникации. Особое внимание удалено формированию электронной библиографии, ее предметам и объектам, а также информационно-библиографическому обслуживанию в сетевом решение. Приведена комплексная характеристика библиографических база данных и их взаимодействия в коммуникационной среде.*

***Ali Rustamov,***
***Nuriya Mustafaeva***

*Some questions of the bibliography in medium*
***the electronic communications***

***SUMMARY***

*In the article discusses the basic prominent feature of the bibliography in medium of the electronic communications. A special attention is paid to creation of the electronic bibliography, its subjects and objects, and also informational- bibliographic upkeep in the network solution. The complex performance of the bibliographic database and their interactions in communication medium is emphasised.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**KNYAZ ASLAN**
*Kitabxanaşünaslıq kafedrasının dosenti*

# ABBASQULU AĞA BAKIXANOVUN ƏSƏRLƏRİNDƏ KİTAB VƏ MÜTALİƏ MƏSƏLƏLƏRİ

XIX əsrin birinci yarısında Azərbaycanda maarifçilik ideyalarının inkişafında mühüm xidmətləri olan görkəmli ziyalılardan biri də Abbasqulu ağa Bakıxanovdur (1794-1847). O, ensiklopedik biliyə malik istedadlı alim, mütəfəkkir və şair kimi məşhurdur. Xalqımızın ictimai və mədəni inkişafı tarixində özünəməxsus yer tutan Abbasqulu ağa Bakıxanov qiymətli elmi və bədii əsərləri ilə Azərbaycan, eləcə də Yaxın Şərq elminə bir sıra əvəzciz yeniliklər gətirmişdir.

Ilk təhsilini Bakıda alan Abbasqulu ağa sonralar yazırdı: “Məni 7 yaşından oxumağa qoydular, lakin vəziyyətin qarışıqlığı və müharibələr nəticəsində olan dəyişikliklər, məqsədin lazımi qədər əldə edilməsinə mane oldu. 10 il içərisində farsca azacıq savaddan başqa heç bir şey qazanmadım. Bundan sonra Qubada 10 il ərəb dili və sair fənləri təhsil etməklə məşğul oldum. Vəsaitin azlığı və sair maneə əngəllərə baxmayaraq, mən yenə bir qədər təhsil almağa müvəffəq olmuşdum. Bu zaman Qafqaz ordusu və vilayətlərinin baş komandanı general A.P.Yermolov 1820-ci ildə məni dəvət edib dövləti vəzifələrdə işə təyin etdi. Tiflisdə rus dili və yazısını öyrəndim, bu dilə tərcümə edilmiş kitablar vasitəsilə cürbəcür elmlər və müxtəlif tayfaların əhvalı ilə tanış oldum. Vəzifə işləri ilə əlaqədar olaraq və bu dövlət böyüklərinin hüzurunda olmaq münasibəti ilə Şirvan, Ermənistan, Dağıstan, Çərkəzistan və Gürcüstan vilayətlərinin bir çox yerlərini dolandım. Anadolu və Azərbaycan şəhərlərinə də gedib böyük şəxslər və əhalinin müxtəlif təbəqələrinə mənsub adamlarla görüşdüm. İran və Rum (Osmanlı) dövlətləri ilə olan müharibə və barışıq işlərində rus əsgərlərinin baş komandanı böyük əmir Paskeviçin yaxın adamlarından biri oldum. 1833-cü ildə səyahət qəsdilə səfərə çıxıb iki il Don ölkəsini, Malorossiyanı, Velikorossiyanı, Lifliyandiyanı, Litvanı və Lehistanı (Polşanı) gəzdim. Avropa

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

ölkələrinin təcrübəli dövlət adamları, məşhur alimləri və bilici sənətkarları ilə görüşdüm. Bir çox qəribə işlər və saysız təəccüblü əsərlər gördüm. Hər bir ölkədə, hər bir işdən bilik və təcrübəmi artırdım. Get-gedə cəhalətim azaldı” (3).

Xatırlatmaq lazımdır ki, 1827-ci ilin noyabında Iran Azərbaycanında Rusiya və Iran dövlətləri arasında keçirilən sülh məclisində A.Bakıxanov Rusiya dövlətinin nümayəndəsi kimi iştirak edirdi. Onun Iranda gördüyü faydalı işlərdən biri də Cənubi Azərbaycanda – Ərdəbildə rus qoşunlarının əlinə keçən Şeyx Səfi məqbərəsinin zəngin kitabxanasının tədqiqi ilə məşğul olmasıdır. Qraf Paskeviç o zaman bu işi Rusiyanın Irandakı səfiri Aleksandr Qriboyedovla diplomatik xidmətdə olan Bakıxanova tapşırmışdı. Çox qiymətli fonda malik olan Şeyx Səfi məqbərəsinin kitabxanası rus qoşunlarının mühafizəsi altında Tiflisə daşındıqdan sonra A.Bakıxanov orada bütün əlyazma və çap kitablarının siyahısını tutmuş, başqa sözlə, Şərq müəllifləri tərəfindən yazılmış əsərlərin katoloqunu tərtib etmişdi (7, 287).

1832-ci ildə Bakıda rus dilində məktəb açmağa təşəbbüs göstərən və hökumətə xüsusi layihə təqdim edən A.Bakıxanov yazır: “Maarifə doğru ilk addım məktəb təsis etməkdir. Mən həmvətənlərimin faydası üçün var qüvvəmi bu işə həsr edIrəm və öz nəzarətim altında məktəb təsis etmək haqqında fikir irəli sürməyə cəsarət edIrəm” (3).

Müharibələr qurtardıqdan sonra A.Bakıxanov Rusiyanın və Avropanı bir çox şəhərlərini gəzib-dolaşır. Həmişəlik məzuniyyətə çıxdıqdan sonra isə Tiflisdən Qubaya köçərək atasının Əmsar kəndindəki malikanəsində yaşayır. Burada elmi və ədəbi fəaliyyətini davam etdirərək “Təhzibi-əxlaq”, “Kitabi nəsihət”, “Kitabi-Əsgəriyyə”, “Mişkatül-ənvar” əsərlərini yazır.

A.Bakıxanov bu dövrdə Qubada “Gülüstan” adlı ədəbi məclis təşkil edir, tanınmış şair və ziyalıları bir yerə toplayıb vaxtını şeir yazmaqla və arifanə söhbətlərlə keçirir.

1841-ci ildə A.Bakıxanov uzun illər çəkdiyi zəhmətin və apardığı ciddi tədqiqatın məhsulu olan məşhur “Gülüstani-Irəm” əsərini başa çatdırır. Fars dilində yazdığı bu əsərin rus

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

dilinə tərcüməsi və nəşri uğrunda çalışması ilə əlaqədar tez-tez Tiflisə gedir, fasilələrlə həmin şəhərdə yaşayır.

A.Bakvxanov 1844-ci ildə "Gülüstani-Irəm" əsərinin ruscaya tərcüməsini tamamladıqdan sonra onu çap olunmaq üçün çar I Nikolaya göndərir. Əsər imperator tərəfindən qəbul olunaraq baxılmaq üçün Peterburq Elmlər Akademiyasına verilir. Alimlər bu əsərin həm zəif cəhətlərini göstərir, həm də elmi əhəmiyyətini qeyd edirlər.

"Gülüstani-Irəm" akademiklərin bu mülahizələri ilə bərabər əvvəlcə Maarif Nazirliyinə, sonra Hərbi Nazirliyə, oradan da Qafqaz komitəsi idarəsinə və canişin Vorontsova göndərilir. Bir ildən artıq müxtəlif idarələrdə dolaşan, əldən-ələ keçən, lakin çap olunmayan əsərə hökumət başçılarının laqeydliyi müəllifi ruhdan salır.

Elm sahəsində öz bilik və təcrübəsini artırmaq məqsədi ilə A.Bakıxanov Şərqə səyahət etmək fikrinə düşür. O, 1846-cı ilin martında səyahətə çıxır, Təbriz, Tehran, Bağdad, Istanbul, Qahirə, Məkkə və digər şəhərlərə gedir, ayrı-ayrı xalqlarının vəziyyəti ilə tanış olur.

A.Bakıxanov 1846-cı ildə Mədinə ilə Məkkə arasında "Vadiyi-Fatimə" adlanan yerdə vəba xəstəliyindən vəfat edir, elə orada dəfn olunur. Təəssüf ki, bu böyük Azərbaycan aliminin məzarından indi heç bir iz qalmamışdır.

"Qanuni-Qüdsi", "Əsrarül-Mələkut", "Təhzibi-əxlaq", "Eynəl-mizan", "Gülüstani-Irəm" kimi əsərləri ilə böyük şöhrət qazanmış A.Bakıxanov Azərbaycan elmi tarixində mühüm rolu olan böyük alimdir. Dil, coğrafiya, tarix, astronomiya, məntiq, psixologiya və digər elmlərə aid əsərləri onun hərcəhətli bir alim olduğunu təsdiqləyir.

Coğrafiya və astronomiya elmləri ilə məşğul olan böyük alimin Rusiyaya səyahətinin və müxtəlif ölkələri gəzməsinin bir səbəbi də coğrafiyaya marağı ilə bağlı idi. A.Bakıxanov coğrafiyaya dair fars dilində iki əsər yazmışdır. O, şair-alim Mirzə Məhərrəmlə birlikdə yazdığı "Kəşfül-Qəraib"də Amerikanın Xristofor Kolumb (1451-1506) tərəfindən kəşf olunması, Yer kürəsinin qərb hissəsində yaşayan qəbilələrin adət-

KITABXANASÜNASLIQ VƏ BİBLİOQRAFİYA

ənənə və mərasimləri, əxlaq normaları və s. kimi məsələlərdən bəhs edir, digəri isə "Ümumi coğrafiya" adlanır.

Iki fəsildən ibarət olan yarimçiq qalmış "Ümumi coğrafiya" əsəri haqqında müəllif özü belə məlumat verir: "Bu əsər farsca olub, dünyanın riyazi, təbii və siyasi əhvalından, əcramın vəziyyətlərindən, ünsürlərin xassələrindən, məvalidin (camadat, nəbatat və heyvanatın) məhsulatından, iqlimlərin hüdudunu təyin etmək və Yer kürəsi əhalisinin siniflərini müəyyən etməkdən və hər bir ölkənin yaşayış tərzindən bəhs edir".

A.Bakıxanov ərəbcə yazdığı "Əsrarül-Mələkut" əsərinin müqəddiməsində bu əsəri "Ümumi coğrafiya" kitabının "riyazi hissəsindən" götürdüyünü qeyd etmişdir. Təəssüf ki, "Ümumi coğrafiya" əsəri hələlik tapılmamışdır.

30-cu illərdə A.Bakıxanov kainatın quruluşu və vəziyyətindən bəhs edən əsərlərlə maraqlanır, qədim yunan və ərəb alimlərinin bu sahədə yazdıqları əsərləri mütaliə edir. Yeni inqilabi kəşfləri ilə məşhur olan Nyuton, Qaliley, Kopernik, Kepler kimi məşhur alimlərin əsərləri ilə tanış olur.

Kopernikin kainat haqqındakı heliosentrik sistemindən ilham alaraq yazdığı "Əsrarül-Mələkut" əsərinin əlimizdə ancaq ərəbcə mətni ilə birlikdə türk dilinə tərcüməsi vardır. Əsər müqəddimədən, üç hissədən və nəticədən ibarətdir. Əsərin müqəddiməsində astronomiya elminin qısa tərifi verildikdən və əsas vəzifələri göstərildikdən sonra eramızdan əvvəl II əsrdə yaşamış qədim yunan astronomu Klavdi Ptolemeyin və Polşa astronomu Nikolay Kopernikin (1472-1543) astronomik sistemləri müqayisə olunur.

A.Bakıxanov bir alim kimi pedaqoji məsələlərlə də məşğul olmuş, uşaqların və gənclərin tərbiyəsi ilə əlaqədar olan iki əsər yazmışdır. Onlardan biri "Təhzibi-əxlaq", digəri isə "Kitabi-nəsihət"dir.

"Təhzibi-əxlaq" müəllifin pedaqogika və psixologiyaya aid elmi və nəzəri məsələləri əhatə edən fəlsəfi əsəridir. Əsər fars dilində yazılmış müqəddimə, on iki fəsil və nəticədən ibarətdir. "Təhzibi-əxlaq" əsərinin əsas məqsədi gəncləri pis əməllərdən çəkindirmək, onlarda nəcib və gözəl əxlaqi normaları tərbiyələndirməkdir. Şəxsiyyətin bütövlüyü, vicdan təmizliyi,

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

doğruluq, ədalət, mərdlik, yoxsul və məzlumlara hamilik, insanlarla yaxşı rəftar, düşkün ehtiraslardan özünü saxlamaq, dünya malına tamah salmamaq, şöhrətpərəstlikdən çəkinmək, təvazökarlıq, zəhməti sevmək, elm və maarifin bayrağını hər şeydən uca tutmaq, vətənə və xalqa məhəbbət və s. "Təhzibi-əxlaq" əsərinin irəli sürdüyü əsas əxlaqi məsələlərdir.

"Təhzibi-əxlaq"da müqəddimədən sonra gələn "Etidala riayət", "Yaxşı işlərin fəziləti", "Can sağlığının qazanılması", "Şöhrətin bəyanı" fəsilləri əxlaq normalarının şərhinə həsr olunur. A.Bakıxanovun əxlaq nəzəriyyəsi onun insanlığa, vətənə və xalqına olan məhəbbəti, maarifçi və demokratik dünyagörüşü ilə bağlıdır. O, bu nəzəriyyəsi ilə gənclərdə ən gözəl əxlaqi sifətlər tərbiyə etmək istəyir ki, onlar müasir cəmiyyətin faydalı və xeyirxah üzvləri olsunlar, onlardan xalqa zərər yetişməsin.

"Təhzibi-əxlaq"da A.Bakıxanov nəzəriyyə ilə təcrübənin ("elmlə əməlin") qarşılıqlı əlaqə və münasibətini təyin etməyə çalışır. Elmlə əməlin bir-birindən asılı olduğunu izah edərkən, elmə üstünlük verir.

A.Bakıxanovun ikinci pedaqoji əsəri "Kitabi-nəsihət" və ya "Nəsihətnamə"dir. "Kitabi-nəsihət"də 102 nəsihət vardır. Əsər müəllifin kiçik müqəddiməsi və dini nəsihətlərlə başlanır.

Dini nəsihətlərdən sonra dövlət başçısına (padşaha), ata-anaya, böyüklərə itaət və ehtiramın vacibliyi, həyat və məişət məsələləri ilə əlaqədar əxlaqi nəsihətlər verilir. Əxlaqi nəsihətlərin əksəriyyəti "Təhzibi-əxlaq"dakı əxlaqi nəzəriyyə ilə sıx bağlıdır. "Kitabi-nəsihət"in girişində müəllif əsərinin izlədiyi əsas məqsəddən danışarkən tərbiyə və təlimə dair yazılan kitabların uyğunsuzluğundan, çətin dildə yazılmasından şikayət edir.

"Kitabi-nəsihət" əsərində əsas məqsəd özündən böyüyə hörmət, ata-ananı sevmək, onların itaətindən çıxmamaq, qohum-əqrəbaya mehribanlıq, dostluqda sədaqət, işdə və haqq-hesabda düzlük, doğru danışmağa adət etmək, pis və "hərzəgu" adamlarla ünsiyyət etməmək, özünə rəva görməyən işi başqasına rəva görməmək, həyatdakı çətinliklərə və müsibətlərə dözmək, səbirli olmaq, mərdlik və qorxmazlıq, zəhməti sevmək,

tənbəlliyə nifrət, elm və təhsilə həvəs və s. kimi əxlaqi nəsihətlər "Kitabi-nəsihət"in əsas məzmununu təşkil edir.

Uşaqların əxlaqını yaxşılaşdıran və onlarda nəcib xasiyyətlərin yaranmasını təmin edən belə nəsihətlər bu gün də öz əhəmiyyətini itirməmişdir.

Azərbaycan və Dağıstan xalqlarının tarixinə aid olan "Gülüstani-Irəm" A.Bakıxanovun ən böyük elmi əsəridir. Əsər ilk məxəzlər arasında, müəllifin uzun illər bu sahədə apardığı ciddi tədqiqatın nəticəsində yaradılmışdır. Müəllif özü dövlət başçısına və müasirlərinə yazdığı müraciətnamələrində bu əsər "mənim uzun illər zəhmətimin məhsuludur" - deyə qeyd edirdi. Müəllif əsəri yazarkən bir neçə dəfə arxeoloji tədqiqat işləri aparmış, tarixi abidələrdən, köhnə binaların qalıqlarından, sikkələrdən, padşahların və xanların fərmanlarından, milli əfsanələrdən, dini kitablardan, "Zənd-Avesta"dan, qoca kişilərin nağıl və rəvayətlərindən, səyyahların verdiyi xəbərlərdən, gürcü və ləzgi salnamələrindən, çoxlu Şərq mənbələrindən, qədim yunan, Roma, Azərbaycan və rus alimlərinin əsərlərindən istifadə etmişdir.

A.Bakıxanova qədərki tarixçilərin əsərlərində Azərbaycan coğrafi, iqtisadi və siyasi vahid kimi öyrənilmirdi. Iran tarixinə və müxtəlif xalqların tarixinə həsr olunmuş əsərlərdə Azərbaycan tarixinin müəyyən dövrlərinə aid tarixi hadisələr pərakəndə halda öz əksini tapırdı. Azərbaycanı vahid bir ölkə kimi qədimdən 1813-cü ilə qədər öyrənən ilk tarixşünas A.Bakıxanov olmuşdur.

A.Bakıxanovun Azərbaycan tarixşünaslığına gətirdiyi yeniliklərdən biri də Azərbaycan tarixinin dövrləşdirilməsidir.

XIX əsrin əvvəllərində Azərbaycanda ictimai fikir formalaşır və inkişaf edir. Tərəqqipərvər ziyalılar xalqı gerilikdən, cəhalətdən, köləlikdən xilas etmək yollarını maarifçilik ideyalarının, qabaqcıl mədəniyyətin təbliğində görürdülər. Belə mütərəqqi xadimlər arasında özünəməxsus yer tutan Abbasqulu ağa Bakıxanov çox düzgün olaraq göstərirdi ki, Avropaya Asiya qarşısında üstünlük verən bəzi asiyalıların düşündükləri kimi tale və təsadüf deyil, maarifdir. O dövrün təhsili ilə tanış olmuş asiyalılar isə öz elmlərinin naqisliyini görüb yaranmış

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

vəziyyətdən çıxış yolu tapa bilmir, öz həmvətənlərinin miskin vəziyyətinə böyük bir qüssə ilə baxırdılar.

A.Bakıxanov xalqı cəhalət, avamlıq, mədəniyyətsizlik bəlalarından qurtarmaq üçün elmə, maarifə, kitaba üz tutmağı məsləhət görürdü. O deyirdi ki, xalqın maarifləndirilməsi üçün ilk növbədə məktəblər açılmalı və dərs kitabları tərtib edilməlidir.

A.Bakıxanov gələcək nəsillərin inkişaf və tərəqqisi üçün çalışan, öz əməyi ilə onlara bir mənəvi yadigar qoyub gedən şəxsləri xoşbəxt hesab edirdi.

Böyük maarifçi yazır: "Şəxsi ləyaqət olmadan, nəsəb və sülalə şərafəti qürbətdə naməlum, vətəndə isə məzəmmətə məruzdur. Bunlara təkyə etmək mənasızdır, etibar ediləcək və arxalanacaq bir dövlət varsa, o da hər bir halda elm və adabdan (ədəbdən) ibarətdir… Bu elm və adab da zahirpərəst adamların boşboğazlıq edib, özləri üçün fəzilət sandıqları mənzum kəlmələrdən və mövhumi (xəyali) qaydalardan ibarət deyildir…

Bəlkə bu elm və adab, sərf olunan mərifət və edilən əməldən ibarətdir ki, bu da ümumun mənfəəti, sülh və asayiş üçün yararlıdır. Əsərləri vasitəsilə bir çox əsrlər boyu öz xeyir və mənfəətini saxlar…

Dünyada əsərlərin ən möhkəmi və dayanıqlısı təlifdir (əsər yazmaq, kitab tərtib etməkdir). Bunun fəziləti tərifə möhtac deyildir".

A.Bakıxanov kitabları insanlara doğru yol göstərən, onlara inkişaf yolunu göstərən bir vasitə hesab edir. O göstərir ki, gözəl qələmi olan sənətkarların borcu keçmişdə baş verən hadisələrin nəticələrini ümumiləşdirərək gələcək nəslə yadigar qoymaq üçün kitablar yazmaqdır. Həmin fikirlər onun bu şeirində ifadə olunmuşdur:

*Gözəl əsərlər yazan sənətkarın qələmi,*
*Əski rəsm və ayindən yeni bir tərh yaratmazsa,*
*Keçmişlərdən kim bir nişan və xəbər verə bilər,*
*Və kim gələcək nəslə yadigar olaraq bir töhfə*
*qoya bilər? (3)*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Onu da qeyd etmək maraqlı olar ki, A.Bakıxanovun bu sözləri böyük rus inqilabçı-demokratı Gertsenin "Kitab bir nəslin o biri nəslə qoyub ketdiyi qiymətli yadigardır" - sözləri ilə uzlaşır və ondan əvvəl deyilmişdir.

Elmə və əqli təhsilə yüksək qiymət verən, elmli adamların yazdığı, hamının maariflənməsi üçün əhəmiyyətli olan kitabları müsbət dəyərləndirən A.Bakıxanov yazır: "Insanın işlərinə dərin nüfus etdikdə inandım ki, dünyada heç bir şey əbədi deyil. Sərvət və mənsəb yox olub gedə bilər… Mən yalnız bircə şeyə inanıram ki, ona etiqadım çox möhkəmdir. O da elmdir. Elm aləmində lazım olan biliyi əldə edib özün sonra gələcək nəsil üçün biliklərdən bir iz buraxdığın zaman özünü xoşbəxt insan hesab etməkdə haqlısan və öldükdən sonra bu dünyada ömrünü davam etdirmiş olursan".

A.Bakıxanovun bütün tədqiqatlarının nəticəsi idi ki, dünya bütünlüklə dərk edilə bilir. Lakin insan bu məqsədinə çatmaq üçün inad və səbrlə kitabları mütaliə etməli, elmə sahib olmalıdır. Mütaliə vasitəsi ilə insanların yaratdığı bütün mədəniyyət sərvətini tənqidi mənimsədikdə, ardıcıl surətdə bilik səviyyəsini yüksəltdikdə və təcrübələrini zənginləşdirdikdə insan hər şeyə müvəffəq ola bilər və dünya sirləri onun üçün qaranlıq qalmaz.

A.Bakıxanov xalqın maariflənməsi yolunu göstərməklə kifayətlənməmiş, bu yolda əməli fəaliyyət göstərmiş, Bakıda müsəlman məktəbi açmağa təşəbbüs göstərmiş, bir sıra qiymətli dərs kitabları tərtib etmiş, elmi əsərlər yazmışdır.

A.Bakıxanov bu sahədə ilk addımı Bakıda müsəlman dünyəvi təhsil məktəbi açmaq üçün hazırladığı layihəsidir. O, həmin layihəni 1832-ci ildə tərtib edir və Qafqazın o zamankı canişini V.T.Rozenə göndərir. Lakin bu layihə yerli millətlərə, onların mədəniyyətinə pis münasibət bəsləyən general Rozen tərəfindən etinasız qarşılanır və onun şəxsi arxivində yatıb qalır.

Abbasqulu ağa Bakıxanovun 20 fevral 1832-ci ildə tərtib etdiyi "Müsəlman məktəbi təsis edilməsinin layihəsi" hazırda Moskvada Dövlət Tarix Muzeyinin Baron Rozen Fondunda saxlanılır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

A.Bakıxanov çox düzgün olaraq göstərir ki, müsəlmanlar arasında maarif yayıldıqca yerlərdə məmurların və tərcümanların qərəzkarlığı üzündən baş verən cinayətlər də kəsilər. Maarif yerli xalqı rus xalqı ilə daha sıx birləşdirər və bundan hər iki tərəf böyük fayda götürər.

A.Bakıxanov yazır: "Maarifə doğru ilk addım məktəb təsis etməkdir. Mən həmvətənlərimin faydası üçün bütün qabiliyyətimi bu işə həsr edirəm və mənim nəzarətim altında məktəb təsis etmək haqqında fikir irəli sürməyə cəsarət edirəm".

A.Bakıxanov məktəb üçün Bakını seçməyə, məktəbin üç sinifli olması, orada keçiləcək fənlər, şagirdlərin məktəbə qəbul yaşı, məktəbin tədris və əyani vəsaitləri haqqında 2 maddədən ibarət təkliflər irəli sürür.

Bu layihə A.Bakıxanovu qabaqcıl bir maarifçi, xalqının gələcəyini düşünən bir vətənpərvər kimi yüksəldir.

A.Bakıxanovun kitab və mütaliə haqqında fikirlərinə bədii və elmi əsərlərində də rast gəlmək mümkündür. O, özündən əvvəlki alimlərdən, filosoflardan fərqli olaraq xalqının inkişaf yolunu düzgün müəyyən etməklə kifayətlənməmiş, bu yolda yorulmadan fəaliyyət göstərmiş, kitabların, mütaliənin xalqın inkişafında böyük rolunu nəzərə alaraq bir sıra qiymətli elmi, bədii və fəlsəfi əsərlər yaratmışdır. Belə kitabların yazılması o dövr üçün böyük hadisə, elmi yenilik idi.

Etiraf etmək lazımdır ki, A.Bakıxanova qədər yaşamış Azərbaycan alimlərinin çoxu dil, incəsənət, ədəbiyyat, məntiq, tarix, coğrafiya, astronomiya və s. elmlərə aid əsərlər yazsalar da, bunları mütləq dini nöqteyi-nəzərdən işıqlandırır, əsasən köhnə ilahiyyat kitablarına şərh və dini məsələlərə dair əsərlər yazırdılar. O dövrdə Azərbaycanda elm sahəsində müəyyən durğunluğun hökm sürməsi bununla izah edilə bilər.

A.Bakıxanovda öz xalqı üçün kitab yazmaq fikri rus dilini yaxşı öyrəndikdən, bu dilin vasitəsilə rus və Avropa mədəniyyəti ilə tanış olandan sonra yaranmışdır. Ona görə də A.Bakıxanovun kitaba verdiyi tələblər müəyyən mənada rus və Avropa maarifçilərinin fikirləri ilə uyğun gəlir.

A.Bakıxanovun kitab haqqındakı fikirlərindən biri kitabın əhatə etdiyi sahəyə dair bilikləri sistemli və ardıcıl verməsidir. O,

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

bu fikrini 1828-ci ildə yazdığı ilk elmi-pedaqoji əsəri olan “Qanuni-Qüdsi” (“Fars dilinin qrammatikası”) kitabında həyata keçirmişdir. Əsər müəllifin dərin məzmunlu yığcam girişindən, “Hərflər”, “Kəlmələr” və “Cümlə” adlı üç fəsildən ibarətdir.

Girişdə müəllif dilin qısa elmi tərifini verdikdən sonra bu əsəri nə münasibətlə, nə kimi şəraitdə və hansı prinsiplər əsasında yazdığı haqqında aydın elmi izahat verir. Həmin girişdən görünür ki, müasir dilçilik elminin tələbləri baxımından çıxış edən alim əsəri yazarkən fars dilinin qayda-qanunlarını kitablardan deyil, canlı danışıq dilindən öyrənmişdir. O, “Qanuni-Qüdsi”də həmin materialdan istifadə edərək, fars dilinin qanunları haqqında elə bu dilin təbiətinə uyğun şəkildə müəyyən hökmlər vermiş və nəticələr çıxarmışdır.

Əsərin ikinci fəslində nitq hissələrinin bölgüsü, üçüncü fəslində isə cümlənin şərhi əsasən ərəb sərfi üzərində qurulmuş, fars dilində işlənən ərəb sözlərinin izahı da verilmişdir. Müəllif “Qanuni-Qüdsi”nin məktəb şagirdləri üçün bir dərslik olmasını nəzərdə tutduğu üçün əsərdə əyanilik prinsipinə riayət etmiş, qrammatika qaydalarının yadda möhkəm saxlanılması üçün misalların çoxunu şeir parçaları ilə vermişdir.

“Qanuni-Qüdsi”nin farsca əsli 1831-ci ildə Təbrizdə, ruscaya tərcüməsi isə 1841-ci ildə Tiflisdə 500 nüsxə tirajla nəşr olunmuşdu. Bu kitabın elmi qiymətini nəzərə alan çar hökuməti A.Bakıxanovu 1500 manatlıq brilyant üzüklə mükafatlandırmışdı.

Bakıxanovun kitabının elm qiyməti nəzərə alınaraq əsərin hər iki nəşrindən uzun müddət Cənubi Qafqazda, Şimali Qafqazda və Rusiyanın əksər gimnaziyalarında, digər tədris müəssisələrində əsas dərs vəsaiti olmuş, fars dilinin öyrənilməsində böyük rol oynamışdır. Odessa Rişelyov liseyi nəzdindəki Şərq Dilləri Institutunda A.Bakıxanovun bu əsərindən 15 il dərslik kimi istifadə edilmişdir.

Rusiya Xarici Işlər Nazirliyinin Asiya Departamenti nəzdindəki Şərq Dilləri Institutunda da bu əsər xüsusi dərslik rolunu oynamışdır.

Görkəmli dilçi alim, professor Ə.Dəmirçizadə bu əsərinə görə A.Bakıxanovu birinci Azərbaycan dilçisi hesab edir.

"Qanuni-Qüdsi" əsəri A.Bakıxanovu tək alim-tədqiqatçı kimi yox, həm də pedaqoq-metodist, ictimai xadim kimi tanıdır.

A.Bakıxanov Azərbaycan tarixinə həsr etdiyi "Gülüstani-Irəm" əsərində də elm, kitab və mütaliə haqqında çox qiymətli sözlər söyləmişdir.

Əvvəllər Azərbaycan tarixinə aid zəngin və qiymətli materiallara ancaq pərakəndə halda tarixi və coğrafi əsərlərdə, səyahətnamələrdə və digər yazılı sənədlərdə təsadüf olunurdu. Abbasqulu ağa Bakıxanov ilk dəfə olaraq bu pərakəndə materialları toplamış, təhlil etmiş, sistemləşdirmiş və sanballı bir tarixi əsər yazmışdı (3).

Bu əsəri yazmaqda onun məqsədi həm öz xalqına, həm də başqalarına Azərbaycanın zəngin tarixini tanıtdırmaq idi. Qafqazlıları vəhşi adlandıran, onların əqli inkişaflarını qeyri-qabil hesab edən çarizm məmurlarının, ruslaşdırma siyasəti nökərlərinin bu cür həqarətli və alçaldıcı müddəalarına cavab olaraq Abbasqulu ağa bu əsəri ilə sübut etdi ki, "Hər şeyin səbəbi xalqa qarşı yeridilən siyasətdə, xalqın mənafeyinə uyğun gələn kitabların, tərbiyə üsullarının, asayişin olmamasındandır".

A.Bakıxanov Azərbaycan xalqının başqa millətlərdən geri qalması səbəblərini təhlil edərək bu qənaətə gəlir ki, əgər asayiş imkan versəydi, lazımı tərbiyə üsulları, məktəblər, kitablar yaradılsaydı, "o zaman qafqazlılar böyük tərəqqiyə nail olar, maarifin zirvəsinə ucala bilərdilər" (4).

A.Bakıxanov göstərirdi ki, hər bir xalqın, millətin inkişaf dərəcəsini həmin xalqın kitabları ilə müəyyən etmək olar.

A.Bakıxanov bununla xalqın şüurunun, əqlinin, mədəniyyətinin inkişafında kitabın oynadığı böyük rolu açıb göstərir: "Hər bir tayfanın kəmalət dərəcəsi, vəziyyət və hallarının gözəlliyini onların kitablarından, əsərlərindən anlamaq olar" (4).

Sonra müəllif göstərir ki, bu elmi və ədəbi boşboğaz adamların yazdıqları həyatla əlaqəsi olmayan, boş nəsihətlərdən, xəyali qaydalardan ibarət kitablardan deyil,

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

xalqa inkişaf yolunu öyrədən, həyatda ona düzgün yol göstərən kitabları mütaliə etməklə qazanmaq olar.

A.Bakıxanov insanların var-dövlətini iki qrupa bölür: maddi və mənəvi sərvətlər. O, bunların fərqini göstərərək yazır ki, insanların yığdığı maddi sərvətlər pul olub gedəcək və nə sərvətdən, nə də onu yığan adamdan heç bir nişanə qalmayacaq. Qabaqcıl, mütərəqqi elmlərlə biliyi, elmi, xalqın maariflənməsi, irəliləməsi, inkişafı üçün sərf edən və qiymətli kitablar yazan şəxsləri A.Bakıxanov mənəvi sərvət sahibləri adlandırır və göstərir ki, bu şəxslər özləri üçün heç zaman azalmayan, itməyən, əsrlər boyu yaşayacaq bir dövlət qazanırlar. "Kitab yazan şəxs əsrlər boyu öz xeyir və mənfəətini saxlar" – deyən A.Bakıxanovun fikrincə, kitab durduqca onu yazan şəxsin fikirlərini də yaşadacaqdır.

A.Bakıxanov təkcə kitabları yox, kitab yazan şəxsləri də yüksək qiymətləndirərək yazır: "Dünyada əsərlərin ən möhkəmi və dayanıqlısı təlifdir. Bunun fəziləti tərifə möhtac deyildir. Bunsuz nə məişətin səpgi və qaydaları qala bilər, nə də davam edə bilər" (4).

A.Bakıxanov öz dövrü üçün böyük işlər görərək ilk dərsliklər, elmi kitablar yazmış, qiymətli fikirlər irəli sürmüşdür. Buna baxmayaraq təvazökarlıq etmiş, öz məqsədinə çatmadığına görə təəssüflənmişdir: "Mən imkan olduqca müxtəlif kitablar və təsnifat yaratmışam. Lakin əsl məqsədimə yenə də çata bilməmişəm".

A.Bakıxanov belə hesab edir ki, kitablar və başqa mədəniyyət abidələri dövrün nəbzini tutmaqla, hər xalqın mənəvi aləmini, onun elm və mədəniyyətinin inkişaf səviyyəsini əks etdirir: "Hər bir tayfanın kəmalət dərəcəsini, vəziyyət və hallarının gözəlliyini onların talifatından və s. əsərlərindən gözəlcə anlamaq olar".

A.Bakıxanova görə "Hər bir xalqın keçmiş olduğu həyat yolunda yaranmış müsbət mədəniyyət, ədəbiyyat zəminindən kənarda heç bir ədəbiyyat, kitab yarana bilməz" (4).

A.Bakıxanov tarix elminə və bu elmə dair yazılmış kitablara daha yüksək qiymət verirdi. O göstərirdi ki, tarixə dair yazılmış kitabları mütaliə edən şəxslər bilik və gözəl əxlaqlı olur.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Tarix kitablarının mütaliəsi keçmişdə baş vermiş yaxşı və pis işlərin səbəblərini insana agah edir və bunlara əsasən gələcəkdə baş verəcək işləri əvvəlcədən görməyə imkan yaradır. Tarixə dair yazılmış kitablar xalqın özünü özünə tanıtmışdır, xalqı vətənpərvərlik ruhunda tərbiyə edir. O, bu haqda yazır: "Tarix elə bir natiqdir ki, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır. Tarix elmi dünyanın təcrübəsini bizə kəşf edir. Hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır" (4, 10).

Tarix kitablarına böyük qiymət verən A.Bakıxanov göstərirdi ki, tarix elminə dair kitablar yazmaq çətin və məsuliyyətli işdir. Çünki saysız-hesabsız müharibələr, istilalar bir çox kitabları və başqa mədəniyyət abidələrini məhv etmişdir. O qeyd edir ki, tarix kitabları yazan alimin təfəkkürü yüksək dərəcədə inkişaf etməli, hadisələrdən nəticə çıxarmağı bacarmalıdır. Çünki qədim tarix kitablarında və sənədlərdə hadisələr olduğu kimi əks olunmayıb, buna görə də onlara tənqidi yaşamaq lazımdır. Bu haqda A.Bakıxanov yazır: "Əxbar kitabları və əsariətiqə qalıqları heç bir ölkədə keçmişdə vaqe olan işləri lazımi tərtib və təhsil ilə ifadə edə bilməz xüsusilə bu ölkə müxtəlif tayfaların gedişi-gəlişi və istilası üzündən həmişə ixtişaş və qarşılıq meydanı olmuşdur. Bir çox kitab, tarixi sənədlər və maddi mədəniyyət əsarı tələf olmuşdur. Başqa millətlərdən heç birinin tarix kitabları da bu məsələni layiqincə izah etmir… Mən mümkün olanı ələ keçirib, qalanlarını əlaqələndirdim. Mövcud əsərləri nəql və rəvayətlərlə tutuşdurdum" (4).

A.Bakıxanov yazırdı ki, tarix elmindən bəhs edən kitablarda hadisələr müxtəsər, oxucunun anlaya biləcəyi sadə dildə, həmçinin biliklər sistemli şəkildə verilməli və hadisələr arasında əlaqə yaradılmalıdır A.Bakıxanova görə kitabın qiymətli olması üçün orada müstəqil, obyektiv fikirlər öz əksini tapmalı, müəllif kitaba daxil etdiyi hər bir faktı dəfələrlə yoxlamalı, təhlil etməlidir. Onun fikrincə, kitab yazan şəxs millətçilik, yerçilik naminə faktları, hadisələri təhrif etməməlidir. "Kitab yazarkən millət təəssübündən, vətən

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

tərəfdarlığından çəkindim. Hər bir mötəbər sözlər, cürbəcür kitablar və məktublar, sultanların məktubları, fərmanları, sikkələr, əsari-ətiqələrin qalıqları, əhalinin təhqir və bəyanları ilə əsaslandırmağa çalışdım" (4).

Kitabın, elmin, mütaliənin qüdrətinə, insan ağlına, insan biliyi və qabiliyyətinə inam, etiqad A.Bakıxanovun bütün nəzəri fikirlərinin əsasını təşkil edir. O, elmin, mütaliənin, kitabın bir sıra qiymətli keyfiyyətlərini, onların xalqın mədəni səviyyəsinin inkişafında mühüm rolunu və qüdrətini anlamış, bütün varlığını elmə və kitaba, kitab yazmaq işinə həsr etmişdir: "Mən rahiblikdə nicat yolu görmədim, etiqad və etimadsızlıq kimin başında dolanır. Qara torpaqdan günəş yüksəlir. Insan bilmədiklərini öyrənir".

Burada A.Bakıxanov savadsız insanları qara torpağa, elmli, bilikli insanları isə günəşə bənzətmiş və onların bu səviyyəyə çatmasında mütaliənin roluna böyük qiymət vermişdir.

Onu da qeyd etmək lazımdır ki, A.A.Bakıxanov ilk dəfə olaraq "Gülüstani-Irəm" əsərində konkret tarixi faktlara əsaslanaraq Azərbaycanın Iran və Türkiyədən, müsəlman ölkələrindən asılı olmayaraq xüsusi mədəniyyətinin olduğunu sübut edir.

A.Bakıxanov şeirlərinin birində "Gülüstani-Irəm" əsərinin yazılması barədə maraqlı məlumat verir. Bu şeirində o, xalqına xeyir vermək üçün, gələcək nəsillərə yadigar qoymaq üçün kitablar yazan müəllifi körpəsini əmizdirən anaya bənzədir. Kitabın xalq tərəfindən mütaliə olunmasını, xalqa xeyir vermәsini görən zaman müəllifin keçirdiyi sevinc hissi ilə müqayisə edir. Şeirdən məlum olur ki, alim "Gülüstani-Irəm" əsərini o zaman Dağıstan Hərbi Dairəsinin komandanı olmuş, Bakıxanova və onun ailəsinə çox yaxın olan rus ordusu generalı Moisey Arqutinskinin xahişi ilə yazmışdır.

A.Bakıxanov yazırdı ki, vəzifə yalnız bilik verməkdən deyil, həm də onu asan yolla, sürətlə və möhkəm verməkdən ibarətdir. Onun fikrincə, kitablarda həddən artıq uzunçuluq olanda onun anladacağı fikirlər dolaşır, fikirlər qısa veriləndə isə təhsil alanlar üçün bu kitab əhəmiyyətsiz olur. Bu haqda

A.Bakıxanov 1835-1836-cı illərdə Qubada məntiqə dair qələmə aldığı, hazırda Sankt-Peterburq Dövlət Universiteti Elmi Kitabxanasının Şərq əlyazmaları şöbəsində saxlanan "Eynül-mizan" ("Tərəzinin mahiyyəti") əsərində yazır: "Məntiq əsərlərinin uzunçuluğu allahsızlığa bais, müxtəsərliyi isə təhsil sahibləri üçün faydasız olduğunu görüb biliksevər dostların xahişi ilə yığcam bir əsər tərtib etdim" (3).

Bu əsərində A.Bakıxanov göstərir ki, təhlil dairəsini başa vurmaq üçün məntiq elmini öyrənmək lazımdır.

A.Bakıxanov elm, bilik, kitab, mütaliə və əxlaq haqqında ən gözəl fikirlərini "Təhzibi-Əxlaq" və "Nəsihətnamə" əsərlərində söyləmişdir. Bu əsərlərin məzmunundan aydın olur ki, o, apardığı uzun tədqiqatlar nəticəsində bu fikrə gəlmişdir: dünya bütünlükdə dərk edilə bilər, insan inad və səbatla mütaliə etdikdə, elmə sahib olduqda, insanların yaratmış olduğu bütün mədəniyyət sərvətini tənqidi mənimsədikdə, ardıcıl surətdə bilik səviyyəsini yüksəltdikdə, təcrübələrini zənginləşdirdikdə hər şeyə müvəffəq ola bilər və dünya sirləri onun üçün qaranlıq qalmaz.

A.Bakıxanov "Təhzibi-əxlaq" ("Əxlaq təmizliyi") əsərinin müqəddiməsində qeyd edir ki, o, bu əsəri "xalqların görkəmli adamlarının, islam, yunan və Avropa filosoflarının əsərlərindən bir qədər tədqiqat işi apararaq, öz ağlımın dərəcəsinə görə material toplayıb" yazmışdır.

A.Bakıxanov "Təhzibi-əxlaq"ın müqəddiməsində elmin, kitabın, mütaliənin insan həyatında necə böyük rol oynadığını göstərmək üçün həyatı, öz başına gəlmiş hadisələri misal çəkir. O qeyd edir ki, insanla heyvanı fərqləndirən onların şüurudur. Bu şüur insanlarda mütaliə edən kitabların və uzun müddətli təcrübələrin nəticəsində əmələ glir. Lakin bəzən biliksiz təcrübə fayda vermir. Buna görə də A.Bakıxanov qabaqcıl adamların kitablarını oxumağı və əldə edilən bilik vasitəsi ilə həyatda olan çətinlikləri aradan qaldırmağı məsləhət görürdü: "Hər gün öz biliyimi artırmaq üçün ciddi-cəhd göstərdim. Dünyanın böyük və qabaqcıl adamlarının, xalqların görkəmli şəxsiyyətlərinin əsərlərini araşdırmağa başladım. Özümün az məlumatım olmasına baxmayaraq daha çox faydalandım. İndi bir çox çətinlikləri aradan qaldırmağa müvəffəq ola bilib təsəlli

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

tapmaqdayam… Bundan qiyas etmək olur ki, bilik daha çox əldə edilsə və təcrübə artsa, daha çox müvəffəqiyyətlərə nail olacağıq" (3).

A.Bakıxanov elmin uşaqlara kiçik yaşlarından öyrədilməsinin əhəmiyyəti haqqında yazır: "Uşaqlara öyrədilən elm daşda həkk edilən kimidir".

Lakin o, öz dövründə uşaqlar üçün dərsliklərin olmamasından şikayətlənərək göstərirdi ki, "uşaqlar üçün yazılmış kitabların dil çətinliyi və fikir dolaşıqlığı yalnız şagirdləri deyil, həm də müəllimləri və tədqiqatçıları çətinliyə salır".

A.Bakıxanov səthi və başdansovdu bilik verən kitabları rədd edərək göstərir ki, kitabların dili sadə və anlaşıqlı olmalı, həyatla, təcrübə ilə əlaqəsi möhkəm olmalıdır. A.Bakıxanov uşaqlar üçün dərsliklərin ana dilində, sadə, yığcam olması barədə "Nəsihətnamə" əsərində də bir sıra qiymətli fikirlər söyləmişdir. O, bu haqda əsərin girişində yazır: "Mən nə qədər axtardımsa, uşaqların təlimi üçün elə bir kitab tapa bilmədim ki, asan və anlaşıqlı dil ilə əxlaq gözəlliyinə dəlalət etsin… Bəzi kitablar o qədər uzun və pərakəndədir ki, onları anlamaq çətindir…" (3).

A.Bakıxanov göstərir ki, elm, bilik qazanmaq üçün kitabların mütaliəsi böyük əhəmiyyətə malikdir. Mütaliə vasitəsilə insan böyük alimlərin, filosfoların, dövlət adamlarının fikirləri, işləri ilə tanış olur, bilik xəzinəsinin incilərindən istifadə edir. Mütaliə insanı xoşbəxtliklə bəzəyir, insan bədbəxtliyə düçar olduğu zaman isə qazandığı bilik onun dayağı olur. Mütaliənin təsiri isə şagirdlərin səyindən asılıdır. A.Bakıxanov qeyd edir ki, ağıllı adamlar bilmədiklərini mütaliə vasitəsilə aradan qaldırır.

A.Bakıxanov göstərir ki, elmə maraq xatirinə yox, ondan həyatda istifadə etmək üçün məşğul olmaq lazımdır. O, elmin, biliyin həyatda insana böyük dayaq olduğunu söyləyərək yazır: "Elmli adamlar həyatda müvəffəqiyyətsizliyə uğrasa da adamlar onun haqqında deyir: "Öz işini bilən adamdır". Elmsiz adam məqsədinə çatdıqda isə deyirlər: "O adamın bəxti gətirdi" (3).

A.Bakıxanov qeyd edir ki, kitablar təcrübə əsasında yazılmalı və kitabda verilən nəzəriyyələr təcrübədə özünü

KITABXANASUNASLIQ VƏ BİBLİOQRAFİYA

doğrultmalıdır. O, belə kitablara böyük qiymət verərək yazırdı: “Kitab xeyir əməlin ən yüksək dərəcəsi olmaqla tükənməz bir sərvətdir. Kitab təcrübənin məhsuludur, təcrübə üçün də yaşayır. Təcrübə-nəzəriyyəsiz şor torpağa əkilən toxuma bənzər. Elm təcrübəsiz qəbrə basdırılmış canlı orqanizmə bənzər”.

A.Bakıxanov göstərir ki, hiyləgərliklə yox, elmlə, biliklə, savadla öyünmək lazımdır. Çünki, bilik bütün çətin işlərdə insana lazım olan kəsərli bir silahdır. Bəzi adamlar isə az kütlüyünü, savadsızlığını gördükdə hiyləyə əl atırlar.

Biliyin, elmin tükənməz xəzinə olduğunu qeyd edən A.Bakıxanov deyirdi ki, bütün ehtiyatlar istifadə etmə nəticəsində azalır, elm isə əksinə, artır. O, elmi əbədi dövlət adlandıraraq yazırdı: “Ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur. Çünki onlar həmişə səninlədir heç kəs onları sənin əlindən ala bilməz”.

A.Bakıxanov elmi, kitabı, mütaliəni hər şeyin açarı hesab edirdi və göstərirdi ki, onlar bütün arzulardan yüksək tutulmalır: “Elm və kamal əldə etməyi hər şeydən əziz tut. Çünki hər şey onların vasitəsilə əldə edilir”.

A.Bakıxanov öz xalqını maarifləndirmək üçün tək kitablar yazmaqla kifayətlənməmiş, başqa dillərdə olan qiymətli kitabları ana dilinə tərcümə etməklə də məşğul olmuşdur. Bu tərcümələrə alimin ərəb, fars, türk və rus dillərindən etdiyi tərcümələr aiddir. Bu tərcümələrin xalq üçün faydalı olmasına çalışan şair onları xalqın başa düşəcəyi bir dildə yazmışdır.

Məşhur ədəbiyyat tarixçisi F.Köçərli A.Bakıxanovun tərcümələri haqqında yazırdı: “Bizim şairlərin bir neçəsi Krılovun “Eşşək və bülbül” adlı təmsilini uşaqlar üçün tərcümə etmişdir, lakin onlardan heç kəs həmin təmsili Bakıxanov qədər gözəl, bədii, saf, ustalıqla tərcümə edə bilməmişdir. Bu gözəl, şairanə tərcümə bizim dərsliklərin bəzəyi ola bilər”.

Müasir dövrdə klassik yazıçıların, şairlərin, filosofların zəngin ədəbi-bədii irsini öyrənib üzə çıxarmaq, onlardan xalqımızın mənəvi və estetik tərbiyəsində istifadə etmək böyük əhəmiyyətə malikdir. Belə şəxsiyyətlərin əsərləri ilə bərabər onların şəxsi kitabxanalarını, bu kitabxanalarda olan kitab və əlyazmaları, onların məktublarını, həmin şəxslər haqqında

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

xatirələri öyrənmək tədqiqatçılardan ötrü mühüm mənbədir. Bu zaman əldə olunan faktlar tədqiq olunan şəxsin özü, yaradıcılığı, maraq dairəsi, elmi dünyagörüşü haqqında tək tədqiqatçı üçün yox, həm də geniş oxucu qrupu üçün maraqlı məlumatlar verir. Bu mənada A.Bakıxanovun yaradıcılığı müstəsna əhəmiyyət kəsb etdiyi kimi, şəxsi kitabxanaları da sadəcə olaraq kitab toplusu deyil, alimin zəngin mənəvi aləmə, geniş elmi dünyagörüşə malik olduğunu sübut edən bir faktdır.

**_Ədəbiyyat_**


*1. Azərbaycan ədəbiyyatı tarixi: 3 cilddə. C.2 (XIX əsr – XX əsrin əvvəlləri). – Bakı: Azərb. SSR EA nəşr-tı, 1962. – 906 s.*

*2. Bakıxanov A.A. Bədii əsərləri.–Bakı, 1973. – 392 s.*

*3. Bakıxanov A.A. Gülüstani-Irəm. – Bakı: Azərb. SSR EA nəşr-tı, 1951.–256 s.*

*4. Bakıxanov A.A. Seçilmiş əsərləri. – Bakı: Yazıçı, 1984. – 476 s.*

*5. Qasımzadə F. Abbasqulu ağa Bakıxanov Qüdsi. – Bakı, 1956 .– 166 s.*

*6. Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi. – Bakı, 1964. – 130 s.*

*7. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. 2 hissədə. H.2 (Ən qədim dövrlərdən XX əsrə qədər). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004. – 326 s.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**_Князь Аслан_**

**_Вопросы чтения в произведениях Аббас-Кули Ага Бакиханова_**

**_РЕЗЮМЕ_**

*Азербайджанский писатель Аббас-Кули Ага Бакиханов-Кудси (1794-1847) один из великих представителей раннего просветительства. Крупным ученым и поэтом был А.Бакиханов, автор ряда трудов по истории, географии, педагогике и психологии, написанных как на азербайджанском, так и на арабском и*

*фарсидском языках. Близость к передовым поэтам и мыслителям эпохи наложила отпечаток на его творчество.*

*В числе основных произведений Бакиханова – сочинение по истории Азербайджана с древних времен до начала ХЫХ века («Райский цветник»), поэма «Книга Аскера», философские произведения, этические трактаты, несколько сборников лирических и сатирических стихотворений и др.*

*В данной статье отражены выдающиеся мысли А.Бакиханова о книги и чтения.*

***Knyaz Aslan***

## ***Vıews of Abbasgulu Agha Bakıxanov on reading ıssues***

### ***SUMMARY***

*The great Azerbaijan educator and writer Abbasgulu agha Bakixanov (1794-1847) plays an important role in the social and cultural development of people living in Azerbaijan. He was popular as a talented scientist, thinker and poet with encyclopedic knowledge.*

*A.Bakixanov advised people the ways of avoiding intellectual darkness and ignorance by being enlightened. He that said if we wanted to educate people, first of all we had to open schools and compile textbooks for them.*

*Being proud of his personal library A.Bakixanov considered happy those people who tried to do something for the development and progress of the future generations and left good morals and knowledge for them.*

*Ideas and thoughts of A.Bakixanov about books, reading and the importance of the library are studied in the current article.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**SEVDA XƏLƏFOVA**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi*

# AZƏRBAYCANDA DÖVLƏT KÜTLƏVİ KİTABXANALAR ŞƏBƏKƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ PERSPEKTİVLƏRİ

XX əsrin 70-80-ci illəri Azərbaycanın kitabxana işi tarixində mühüm əhəmiyyət kəsb edir. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bu illərdə respublikamızın sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi kitabxana quruculuğu sahəsində də xeyli nailiyyətlər əldə edilmişdir. Bu səbəbdən Azərbaycanın kitabxana işi tarixində XX əsrin 70-80-ci illəri Heydər Əliyev mərhələsi sayıla bilər.

Qeyd etmək lazımdır ki, 70-ci illərə qədərki dövrdə Azərbaycanda əhaliyə kitabxana xidmətinin vəziyyəti yüksək səviyyədə olmayıb, dövrün tələblərindən geri qalırdı. Bu gerilik özünü ilk növbədə kitabxana şəbəkəsinin düzgün yerləşdirilməməsində, kitabxanaların və xüsusən kütləvi kitabxanaların maddi-texniki bazasının zəifliyində, kitabxana fondlarının məqsədyönlü şəkildə formalaşmamasında, əhalinin kitabxana xidməti ilə lazımi səviyyədə əhatə edilməməsində, metodik təminat işinin təşkilində və s. göstərirdi.

60-cı illərdə Azərbaycanda kitabxana işinə vurulan ən ciddi zərbə 500 kənd kitabxanasının  ictimai əsaslara keçmək adı ilə faktiki olaraq ləğv edilməsi oldu. 70-ci illərdən başlayaraq Heydər Əliyevin ciddi səyləri nəticəsində ölkədə  kitabxana işi sahəsində islahatlar başlamış, əhaliyə kitabxana xidmətində mühüm kəmiyyət və keyfiyyət dəyişiklikləri  baş vermiş, ləğv edilmiş kitabxanalar  bərpa  olunmuş, dövlət kütləvi kitabxanalar şəbəkəsi mərkəzləşdirilmiş, kitabxana işində əvvəllər həll edilməsi mümkün olmayan problemlərin həlli üçün geniş imkanlar açılmışdır. Bu illərdə əhaliyə kitabxana xidməti sahəsində qazanılmış uğurlar kitabxana sistemində aparıcı şəbəkə olan dövlət kütləvi kitabxanalar şəbəkəsinin

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

sosial funksiyalarının təşəkkülünə səbəb olmuşdur. Şəhər, rayon və kənd yerlərində əhalinin bütün təbəqələrinə xidmət edən bu ümumaçıq xalq kitabxanaları tədqiqat dövründə cəmiyyətdə ictimai mütaliənin, xalqın maariflənməsinin, mütəxəssislərin peşə səviyyəsinin inkişafına səmərəli xidmət göstərmiş, bu məqsədlə kitab təbliğinin bütün forma və metodlarından hərtərəfli istifadə etmişdir.

70-ci illərin I yarısında dövlət kütləvi kitabxanalar şəbəkəsinin fəaliyyətinin bütün göstəriciləri əsasən yüksələn xətlə inkişaf etmişdir.

1970-1975-ci illərdə bu kitabxana şəbəkəsində oxuculara xidmət işi kütləvi kitabxanaların məqsəd və vəzifələrinə, tipoloji mahiyyəti və xüsusiyyətlərinə uyğun şəkildə formalaşıb təkmilləşdirilmişdir. Bu illərdə dövlət kütləvi kitabxanalar şəbəkəsi Azərbaycanın kitabxanaları arasında aparıcı şəbəkə kimi oxucuların mənəvi inkişafında, onların elmi, mədəni və peşə səviyyəsinin yüksəlməsi istiqamətində qiymətli təcrübə və uğurlar əldə etmişdir.

70-ci illərin I yarısında dövlət kütləvi kitabxanalar şəbəkəsi maksimum dərəcədə əhaliyə yaxınlaşdırılaraq, əməli olaraq bütün xalq kütlələrinin həmin kitabxanalardan istifadəsini təmin etmişdir. Cəmiyyətdə ümumtəhsil mütaliəsinin təşkilatçısı kimi dövlət kütləvi kitabxanalar şəbəkəsində bu dövrdə öz oxucularının hərtərəfli inkişafı, politexnik biliklərinin zənginləşməsi məqsədilə ən mühüm ədəbiyyatın əldə edilməsi və oxuculara çatdırılması, müasir oxucunun mütaliə mədəniyyətinin formalaşmasına yönəlmiş fəal və təsirli metodların tətbiq edilməsi istiqamətində xeyli nailiyyətlər əldə edilmişdir. Bu illərdə kütləvi dövlət kitabxanaları yerlərdə çalışan mütəxəssislər ordusunun, fəhlə və kolxozçuların peşə mütaliəsinə köməklik işində, ixtisas ədəbiyyatının təbliğində səmərəli fəaliyyət göstərmişlər. Bu proses şəhər, rayon və kənd kitabxanalarının komplektləşdirilməsi profilinin genişləndirilməsi, xüsusilə mütəxəssislərə ən mühüm yeni kitab və dövri orqanlarla xidmət göstərmək üçün ixtisas ədəbiyyatının əldə edilməsi və onların təbliğində mütərəqqi üsulların tətbiqi ilə həyata keçirilmişdir.

1970-1975-ci illər ərzində respublikada 531 yeni dövlət kütləvi kitabxanası yaradılmışdır. Dövlət kütləvi kitabxanalar şəbəkəsinin fondu 4 milyon 100 min nüsxə artmış, oxucuların sayı 1 milyon 599 min nəfərdən 1 milyon 813 minə qalxmış, kitab verilişi isə 1970-ci ilə nisbətən 2 milyon 762 min nüsxə artıq olmuşdur. Tədqiqat dövründə dövlət kitabxanalarının maddi-texniki bazası xeyli genişlənmiş, onların müvafiq avadanlıqla təmin edilməsi, yeni ədəbiyyatın alınmasına ayrılan pul vəsaiti hər il orta hesabla 50% artmış, metodik və kadr təminatında müsbət dəyişikliklər baş vermişdir.

1975-1980-ci illər respublikanın dövlət kütləvi kitabxanalar şəbəkəsinin tarixində keyfiyyətcə yeni inkişaf mərhələsi olmuşdur. Bu tarixi mərhələ ilk növbədə onların mərkəzləşdirilməsi, ölkənin bütün şəhər və rayonlarında mərkəzləşdirilmiş kitabxana sistemlərinin formalaşması ilə nəticələnmişdir. Mərkəzləşdirmə hər bir inzibati ərazidə fəaliyyət göstərən dövlət kütləvi kitabxanalarının vahid fond, texnoloji proseslər və maddi-texniki bazası əsasında birləşib kompleks şəkildə fəaliyyət göstərməsinə yönəlmişdir. Bu iş müvafiq şəhər və rayonlarda əvvəllər bir-birindən tədric olunmuş şəkildə fəaliyyət göstərən kütləvi dövlət kitabxanalarının mexaniki şəkildə birləşdirilməsi deyil, keyfiyyətcə yeni kitabxana-informasiya müəssisələrinin meydana gəlməsinə səbəb olmuşdur.

70-ci illərin ikinci yarısında respublikada yaradılan mərkəzləşdirilmiş kitabxana sistemlərinin ənənəvi kitabxana müəssisələrindən fərqli və üstün cəhətləri aşağıdakılardan ibarət olmuşdur:

– Hər bir inzibati ərazidə iriləşdirilmiş kitabxana-informasiya kompleksləri meydana gəlmiş;

– Mərkəzləşdirmə nəticəsində müvafiq ərazidə vahid kitabxana fondu formalaşaraq əhalinin bütün təbəqələri həmin fonddan tam və maneəsiz istifadə etmək imkanları əldə etmiş;

– Mərkəzləşdirilmiş kitabxana sistemlərində bütün texnoloji və əməliyyatlar mərkəzi kitabxanalar tərəfindən həyata keçirilməsindən filial kitabxanalar oxuculara daha səmərəli xidmət göstərmək imkanları əldə etmişlər;

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

– Mərkəzləşdirmə nəticəsində hər bir şəhər və rayonun mərkəzi kitabxanasının statusu genişlənmiş, onlar müvafiq ərazidə dövlətin kitabxana siyasətini həyata keçirən baş müəssisəyə çevrilmişlər.

Mərkəzləşdirilmiş kitabxana sistemlərinin üstünlüklərindən biri də kitabxana birliklərinin iqtisadi baxımdan daha səmərəli olması idi. Belə ki, mərkəzləşdirmə şəraitində vahid kitabxana fondunun formalaşması ədəbiyyatın komplektləşdirilməsinin sistemdaxili əlaqələndirilməsini təmin edir və bu işdə paralelçilik və təkrarlanma hallarını aradan qaldıraraq yeni ədəbiyyat üçün nəzərdə tutulmuş dövlət vəsaitinin daha səmərəli istifadə edilməsinə geniş imkanlar açırdı. Bu isə öz növbəsində mərkəzləşdirilmiş kitabxana sistemlərinin informasiya ehtiyatlarının kəmiyyət və keyfiyyət göstəricilərinin daha sürətlə inkişaf etməsinə təminat yaradırdı.

1980-ci ilin əvvəllərində respublikada dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi əsasən başa çatdırılmış və respublikanın şəhər və rayonlarında artıq 69 mərkəzləşdirilmiş kitabxana sistemi səmərəli fəaliyyət göstərməyə başlamışdılar.

1975-1980-ci illərdə dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi respublikada əhaliyə kitabxana-informasiya xidməti sahəsində bir sıra mütərəqqi meyllərin güclənməsinə səbəb olmuşdur. Bu dövrdə dövlət kütləvi kitabxanalar şəbəkəsinin kitab fondu 5 milyon nüsxə, oxuculara kitab verilişi 9 milyon nüsxə, onların ümumi sayı isə 513 min artmışdır. Bu illərdə respublikanın şəhər və kənd rayonlarında 332 yeni kitabxana yaradılmış, 400-dən artıq kitabxana əsaslı təmir edilmişdir.

70-ci illərin ikinci yarısında dövlət kütləvi kitabxanalar şəbəkəsində, o cümlədən mərkəzləşdirilmiş kitabxana sistemlərində həyata keçirilən mühüm dövlət əhəmiyyətli tədbir kitab fondlarının köhnəlmiş və istifadə üçün yararsız ədəbiyyatdan kütləvi şəkildə təmizlənməsi olmuşdur. Bununla yanaşı, respublikada depozitar fondların yaradılması, kitabxanalarda az istifadə edilən, lakin öz tarixi əhəmiyyətini itirməyən nəşrlərin həmin fondlarda mühafizə

KİTABXANAŞÜNASLIQ və BİBLİOQRAFİYA

edilməsinə başlanması milli kitablarımızın gələcək nəsillər üçün itib-batmaması üçün əsaslı zəmin yaratmışdır.

Dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi prosesində meydana çıxmış çox mühüm mütərəqqi hadisə kənd əhalisinə kitabxana xidmətinin əsaslı surətdə təkmilləşməsi idi. Bu dövrdə respublikanın kənd əhalisinə xidmət edən filial kitabxanalarda kitab verilişinin həcmi ildən-ilə yüksəlir və onun struktur tərkibi zənginləşirdi. Belə ki, yalnız 1979-cu ildə dövlət kütləvi kitabxanalar şəbəkəsində oxuculara verilmiş müxtəlif məzmunlu ədəbiyyatın ümumi həcmi 52 milyon 295 min 500 nüsxə olduğu halda, bunun 29 milyon 180 min nüsxəsi kənd kitabxanalarının öhdəsinə düşürdü.

Dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsinin ilkin nəticələri özünü yeniyetmələrə kitabxana xidmətində kəmiyyət və keyfiyyət göstəricilərinin inkişafında göstərməyə başladı. Mərkəzləşdirmə dövründə yalnız müstəqil uşaq kitabxanalarında oxucuların sayı 220 min 100 nəfərə çatmış, kitab verilişi isə 5 milyon 256 min nüsxədən 5 milyon 428 min nüsxəyə qədər artmışdı. 1980-ci ilin əvvəlində bir uşaq kitabxanasından istifadə edən oxucuların sayı orta hesabla 2.246 nəfər, hər uşaq oxucusuna verilən kitab isə 25 nüsxə olmuşdu.

1978-1980-ci illərdə şəhər və rayon MKS-ləri mərkəzi kitab-xanalarının fəaliyyətində elmi-tədqiqat işlərinin ilkin rüşeymləri formalaşmağa başlamışdır. Bu illər ərzində Qəbələ, Zaqatala, Yevlax, Kəlbəcər, Masallı, Salyan, Xanlar, Cəlilabad və Şahbuz rayon MKS-lərinin mərkəzi kitabxanaları M.F.Axundov adına Dövlət Kitabxanasının rəhbərliyi ilə “Azərbaycan kəndində kitab və mütaliə” probleminə həsr edilmiş sosioloji tədqiqatlar, o cümlədən anketləşdirmə, müşahidə, sorğular keçirib maraqlı nəticələr əldə etmişlər. Bu nəticələr mərkəzləşdirilmiş kitabxana sistemlərində əhaliyə kompleks kitabxana-informasiya xidmətinin optimallaşdırılması üçün olduqca qiymətli material vermişdir.

70-ci illərdə respublikada dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi əsaslı dərəcədə bu mürəkkəb təşkilati və elmi-metodik prosesin metodik təminatından asılı idi və bu işin öhdəsindən M.F.Axundov adına Dövlət Kitabxanası

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Respublika Mədəniyyət Nazirliyinin bilavasitə rəhbərliyi və iştirakı ilə uğurla gəlmişdir.

1975-1980-ci illərdə M.F.Axundov adına Dövlət Kitabxanasının kütləvi kitabxanaların mərkəzləşdirilməsi ilə əlaqədar təşkilati-metodik fəaliyyəti bir tərəfdən MKS-in formalaşmasının metodik təminatı, digər tərəfdən isə yeni yaradılan MKS-lərin müvafiq regionda filial kitabxanalar üçün metodik mərkəzə çevrilməsini təmin etməyə yönəlmişdi. Bu məqsədlə həmin illərdə Dövlət kitabxanası tərəfindən respublikanın şəhər, rayon və kənd kitabxanalarına 1.567 gediş təşkil edilmiş, 349 seminar, müşavirə və praktikum keçirilmiş, 2.688 məsləhət və tövsiyələr verilmiş, 2 məcmuə və 12 metodik vəsait tərtib edilmiş, 5 qabaqcıl təcrübə məktəbi yaradılmışdır. Bütün bunlar həmin dövrdə respublikanın şəhər və rayonlarına müasir təşkilati-metodik prinsiplərə əsaslanan mərkəzləşdirilmiş kitabxana sistemlərinin formalaşmasında çox mühüm rol oynamışdır.

1975-1980-ci illər eyni zamanda yeni formalaşan mərkəzləşdirilmiş kitabxana sistemlərinin kadr potensialının da möhkəmlənməsi dövrü kimi xarakterizə edilə bilər. Belə ki, bu illərdə kitabxana işçilərinin sayı 331 nəfər ali ixtisas, 680 nəfər isə orta ixtisas təhsilli gənc kadrlar hesabına artmışdır. 1980-ci ildə MKS-in tam əksəriyyəti ali kitabxanaçılıq təhsili almış mütəxəssislər tərəfindən idarə olunurdu. Bununla yanaşı, mərkəzi kitabxanalarda təsis edilmiş yeni direktor müavinləri və əksər şöbə müdirləri ali kitabxanaçılıq təhsilli mütəxəssislər idi.

Beləliklə, 1975-1980-ci illər respublikanın dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi və mərkəzləşdirilmə nəticəsində onların sosial funksiyalarının daha da təkmilləşdirilməsi üçün geniş imkanların yaranması dövrü olmuşdur.

XX əsrin 80-ci illəri Azərbaycanda kitabxana işinin tarixinə mərkəzləşdirmə şəraitində əhaliyə kitabxana-biblioqrafiya xidmətinin bütün sahələrində inkişaf və təkmilləşmə dövrü kimi daxil olmuşdur. Bu inkişaf və  təkmilləşmə dövrü MKS-lərdə vahid fondun məqsədyönlü şəkildə zənginləşməsində, oxuculara göstərilən xidmətlərin məzmun və forma baxımdan daha yüksək səviyyədə təşkil edilməsində, kitabxanaların idarə

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

edilməsi və metodik təminatında daha qabarıq şəkildə göstərirdi ki, bu da dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsinin mütərəqqi mahiyyətini sübut edirdi.

80-ci illərdən başlayaraq respublikanın bir çox şəhər və rayon MKS-lərində vahid fondların tərkibində elmi-kütləvi və istehsalat ədəbiyyatının xüsusi çəkisi müntəzəm surətdə artırdı. Bu illərdə MKS-lərin vahid fondunda, o cümlədən kənd kitabxanalarının fondunda istehsalat ədəbiyyatı ilə yanaşı müxtəlif sahə ensiklopediyalarının, soraq kitablarının, lüğətlərin, biblioqrafik vəsaitlərin, eləcə də not-musiqi və audiovizual sənədlərin xüsusi çəkisi hər il orta hesabla 3-5 % artırdı. Uşaq mütaliəsinə rəhbərliyi təkmilləşdirmək məqsədilə respublikanın MKS-lərində, xüsusən onların mərkəzi uşaq kitabxanalarında və kənd filiallarında məktəb kitabxanaları ilə əlaqələndirmə işləri xeyli genişlənmişdi.

Beləliklə, 80-ci illərdə Azərbaycanın dövlət kütləvi kitabxanalar şəbəkəsi artıq əhalinin bütün təbəqələrinə səmərəli xidmət göstərən aparıcı informasiya və mədəniyyət müəssisələri kimi formalaşmışdılar. Buna əsas səbəb mərkəzləşmə nəticəsində onların informasiya ehtiyatlarının intensiv inkişafı və struktur baxımdan xeyli təkmilləşməsi idi.

XX əsrin 80-ci illərində MKS-lərdə ədəbiyyatın kataloqlaşdırılması istiqamətində xeyli işlər görülmüş, bir çox kənd kitabxanalarında sistemli kataloq yaradılmış, diyarşünaslıq xarakterli kartotekalar meydana gəlmiş, soraq-biblioqrafiya aparatının tərkibi əsaslı surətdə təkmilləşdirilmişdir.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Bu dövrdə 1 ildən-ilə onların maddi-texniki bazasının möhkəmlənməsi idi. 1980-1988-ci illərdə respublikada hər il orta hesabla 5-10 yeni kitabxana binası tikilir, 258 kitabxana təmir edilirdi. Bu illərdə yalnız Mədəniyyət Nazirliyi tərəfindən kütləvi dövlət kitabxanalarına hər il orta hesabla 1 milyon 300 min manat vəsait ayrılırdı, onlara həmin vəsait hesabına ildə təqribən 2 milyon 200 min nüsxə yeni nəşrlər daxil olurdu.

Beləliklə XX əsrin 80-ci illərində Azərbaycanda mərkəzləşdirilmiş kitabxana sistemləri uğurla inkişaf etmiş, onların fəaliyyəti əsasən dövrün tələblərinə müvafiq şəkildə formalaşmışdı. Dövlət kütləvi kitabxanalar şəbəkəsi ölkədə insanların mənəvi simasını, ictimai şüurunu, elmi dünyagörüşünü kitab vasitəsilə tərbiyə, elm və texnikanın nailiyyətlərini, estetik bilikləri təbliğ etməklə cəmiyyətin intellektual potensialının güclənməsinə səmərəli təsir göstərirdilər.

Lakin 80-ci illərin sonunda erməni təcavüzkarlarının ölkəmizə hücumu, ərazimizin 20%-nin işğal edilməsi, bir milyon nəfərdən artıq əhalinin qaçqın və köçkün vəziyyətinə düşməsi, ölkədə baş verən digər sosial-iqtisadi və siyasi çətinliklər, respublikaya rəhbərlik edən şəxslərin və partiyaların səriştəsizliyi bütün sahələrdə olduğu kimi kitabxana işinə də öz dağıdıcı təsirini göstərdi. Belə ki, 90-cı illərin əvvəllərində ermənilər tərəfindən işğal olunmuş ərazilərdə 1.000-dən artıq kitabxana və onların fondunda olan 4 milyon nüsxədən artıq ədəbiyyat vəhşicəsinə məhv edildi. Bununla yanaşı, müharibə şəraitindən, siyasi və sosial və iqtisadi çətinliklərdən meydana çıxan problemlər respublikanın bir çox regionlarında kitabxana işinin böhran vəziyyətinə düşməsinə, bəzi hallarda isə onların fəaliyyətinin dayandırılmasına, kitabxanaların bağlanmasına səbəb oldu. Həmkarlar Ittifaqı kitabxanaları, bir çox sənaye müəssisələri kitabxanaları demək olar ki, dağıdıldı. Lakin 1993-cü ildən Heydər Əliyevin respublikada hakimiyyətə qayıtdığı dövrdən başlayaraq kitabxana işində başlanan böhran meylləri tədricən aradan qaldırılmağa başladı.

Heydər Əliyevin ölkəmizdə hakimiyyətə gəlməsi Azərbaycan xalqını, Azərbaycan dövlətçiliyini xilas etdiyi kimi, Azərbaycan kitabxanalarını da məhv edilməkdən qorudu. Məhz bu dövrdə Azərbaycan dövləti keçid dövrünün hər cür çətinliklərinə baxmayaraq dövlət kitabxana şəbəkəsini, o cümlədən mərkəzləşdirilmiş kitabxana

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

sistemlərini qoruyub saxlamağa müvəffəq oldu. Sonrakı illərdə kitabxanaların maddi-texniki bazası, kitab və kadr təminatı, kitabxana işçilərinin maddi rifahı tədricən yaxşılaşdırılmağa başladı.

Ölkəmizdə kitabxana işinə dair dövlət siyasətinin formalaşması və onun vəzifələrinin müəyyənləşdirilməsində 1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və hazırda qüvvədə olan Azərbaycan Respublikasının ali qanunu – Konstitusiyasının böyük əhəmiyyəti oldu. Bu ali dövlət sənədində insanların mədəni sərvətlərdən istifadə etmək, həmçinin istədiyi informasiyanı əldə etmək hüquqları və azadlıqları geniş şərh edildi ki, bu da öz növbəsində cəmiyyətdə kitabxana-informasiya xidmətinin yeniləşməsi və inkişafı üçün geniş imkanlar açdı. Məhz Konstitusiyada təsbit edilmiş bu hüquqi normaları Azərbaycan da kitabxana siyasətini formalaşdırıb həyata keçirmək istiqamətində Milli Məclis tərəfindən 1998-ci ildə ölkə tarixində ilk dəfə olaraq qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət kəsb edir. Bu Qanun müasir dövrdə və yaxın gələcəkdə Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətinin əsasını təşkil edir. Bu Qanunun qəbul edilməsindən sonra respublikada kitabxana işi üzrə yeni vəzifələrə uyğun digər normativ sənədlər qəbul edilməyə başlandı. Əhaliyə kitabxana xidmətinin yeniləşməsi istiqamətində bir sıra mütərəqqi proseslər tədricən reallığa çevrildi və bu proses hal-hazırda uğurla davam edir.

Müasir dövrdə Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin fəaliyyətinin yeniləşməsi, bu aparıcı kitabxana şəbəkəsində əhaliyə kitabxana xidmətinin mahiyyəti MKS-in işinin informasiyalaşdırılması, kitabxanalarda yeni informasiya texnologiyalarının tətbiqi və inkişafı, MKS-in bazasında elektron-informasiya mərkəzlərinin yaradılması, vahid avtomatlaşdırılmış şəbəkə texnologiyasının tətbiqi və s. işləri nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, son illər bu istiqamətdə Respublika Mədəniyyət Nazirliyi, M.F.Axundov adına Milli Kitabxana tərəfindən bir sıra səmərəli işlər görülmüşdür. Belə ki, 2001-ci ildən

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

dövlət kütləvi kitabxanalar şəbəkəsinin işçilərinin fasiləsiz təliminin təşkili üçün Avrasiya və Soros fondunun maliyyə dəstəyi ilə "Tədris mərkəzi" yaradılmışdır. Mərkəzin hazırladığı "Müasir kitabxanalar və onların vəzifələri" adlı proqram bütün mərkəzləşdirilmiş kitabxana sistemlərinə təqdim edilmiş və təşkil edilən seminarlarda MKS-in mərkəzi kitabxanalarının 225 əməkdaşı tədris keçmişdir.

Mərkəzləşdirilmiş kitabxana sistemlərinin fəaliyyətinin tənzimlənməsi və onların idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə milli kitabxana tərəfindən son vaxtlar "Mərkəzləşdirilmiş kitabxana sistemləri haqqında Əsasnamə", "Mərkəzləşdirilmiş kitabxana sistemlərinin nümunəvi strukturu və ştatları haqqında təlimat", "Kütləvi kitabxanaların iş rejimi normaları" kimi normativ sənədlər hazırlanmışdır.

Bundan əlavə milli kitabxana tərəfindən 2005-ci ildə əvvəllər nəşr edilən və 80-ci illərdə nəşri dayandırılmış "Əlamətdar və tarixi günlər təqviminin" nəşrinin bərpa edilməsi, şübhəsiz, kitabxanalarda kütləvi tədbirlərin təşkilinə, onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə xeyli köməklik göstərəcəkdir.

Milli kitabxanada 2005-ci ildə "VTLS-Virtual" sistemi əsasında elektron kataloqunun yaradılmasına başlanması yaxın gələcəkdə Azərbaycan Respublikasının bütün kitabxanalarının fondunun toplu elektron kataloqunun yaradılmasına imkan verəcək və son nəticədə dövlət kütləvi kitabxanalarının oxucuları yaşadığı ərazidən asılı olmayaraq dünya kitabxana-informasiya ehtiyatlarından maneəsiz və operativ istifadə etmək imkanlarına malik olacaqlar.

Dövlət kütləvi kitabxanalar şəbəkəsinin kitab təminatında prezident Ilham Əliyevin müvafiq sərəncamına əsasən onların latın qrafikası ilə yenidən nəşr edilən kitablarla pulsuz təmin edilməsi dövlətimizin kitabxanalara göstərdiyi qayğının bariz nümunəsidir.

Apardığımız hesablamalara görə, yalnız 2005-ci ildə rayon və kənd dövlət kitabxanalarına 200 min nüsxədən artıq belə nəşrlər verilmişdir. Bunların içərisində Azərbaycan, Rus və digər xarici

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

ölkə ədəbiyyatı klassiklərinin əsərləri və məlumat nəşrləri xüsusi yer tutur. Lakin qeyd etmək lazımdır ki, son illər dövlət kütləvi kitabxanalar şəbəkəsində baş vermiş mütərəqqi dəyişikliklərə baxmayaraq bu aparıcı kitabxana sistemində əhaliyə kitabxana-biblioqrafiya və informasiya xidməti sahəsində hələ də ciddi problemlər, həll edilməmiş, təşkilati və metodik məsələlər bir sıra çətinliklər və noqsanlar qalmaqdadır. Bu problemləri belə ümumiləşdirmək olar:

– Dövlət kütləvi kitabxanalar şəbəkəsinə onların xidmət etdiyi ərazilərin sakinlərinin kitabxana xidməti ilə əhatə edilməsi müxtəlif şəhər və rayonlarda qənaətbəxş deyil. Bir neçə ərazi istisna olmaqla əksər rayonlarda bu göstərici 40%-dən yuxarı deyil. Bir sıra MKS-də isə bu göstərici 15-20 % təşkil edir.

Belə vəziyyətin bir səbəbi müvafiq MKS-in vahid fondunun yeni ədəbiyyatla zəif komplektləşdirilməsidirsə, digər səbəbi isə həmin kitabxanalarda, bu işin lazımi səviyyədə təşkil edilməməsidir.

Hazırda dövlət kütləvi kitabxanalar şəbəkəsinin və xüsusən kənd kitabxanalarının yalnız 12-15%-nin oxu zalı vardır.

– Bir çox MKS-in, o cümlədən Dəvəçi, Daşkəsən, Lerik, Imişli, Xaçmaz, Qəbələ, Kürdəmir, Zaqatala, Şəki, ümumilikdə isə MKS-lərin təqribən 40 faizi ağır bina şəraitində fəaliyyət göstərir. Kənd əhalisinə xidmət edən dövlət kitabxanalarının təqribən 12 faizi şəxsi evlərdə yerləşir.

– Son illər MKS-lərin xüsusi kitabxana avadanlığı, kitab rəfləri, kataloq qutuları, sərgi vitrinləri, eləcə də kitabxana texnikası ilə təchiz edilməsi qənaətbəxş deyildir. Əksər kitabxanalarda kataloq kartoçkaları, uçot kitabları, digər normativ sənədlər yox dərəcəsindədir.

– Kitabxanaların yeni ədəbiyyatla komplektləşdirilməsi planlı və sistemli şəkildə aparılmır, profillilik prinsipi unudulmuşdur. Əksər MKS-lərin vahid fondunun tematik-tipoloji planı yoxdur.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

– Respublika Kitabxana Kollektorunun fəaliyyəti yararsız olub MKS-lərin komplektləşdirilməsinin müasir tələblərinə cavab vermir.

– Son 1-2 il ərzində Respublika Mədəniyyət Nazirliyində bu sahədə baş vermiş canlanmaya baxmayaraq MKS-lərin idarə edilməsində və xüsusən onların metodik təminatında ciddi nöqsanlar hələ də özünü göstərməkdədir. MKS-lərə dünya kitabxanaçılıq təcrübəsində baş verən yeniliklər, müxtəlif innovasiyalar operativ şəkildə çatdırılmır. MKS-lərin əksəriyyəti Azərbaycan və rus dillərində nəşr edilən ixtisas ədəbiyyatını, o cümlədən dövri mətbuat orqanlarını almırlar.

– 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində respublikanın sosial-iqtisadi həyatındakı ciddi problemlərlə əlaqədar kitabxanaların kadr potensialında yaranmış ciddi boşluqlar hələ də aradan qaldırılmamış, əksər MKS-lərdə yüksək ixtisaslı kitabxanaçı kadrlar çatışmır. Kənd dövlət kütləvi kitabxanalar şəbəkəsinin əməkdaşlarının əksəriyyətinin yalnız ümumorta təhsili vardır.

– Son illər Mədəniyyət Nazirliyi, metodik mərkəzlər, ictimai birliklər, bir sıra xarici təşkilatlar: ABŞ səfirliyi, Avrasiya fondu, Soros fondu və s. təşkilatlar tərəfindən həyata keçirilən tədbirlərə baxmayaraq kitabxana işçilərinin fasiləsiz təhsili sistemli xarakter almamışdır.

– Respublika daxilində kitabxanalararası əlaqələr, dövlət kütləvi kitabxanalar şəbəkəsinin digər kitabxana şəbəkələri ilə, həmçinin beynəlxalq kitabxana təşkilatları ilə əlaqələri olduqca zəifdir.

– Kitabxana işçilərinin sosial müdafiəsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanları tərəfindən “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş əmək haqlarına əlavələr, müxtəlif mükafat və kompensasiyalar, digər maddi və mənəvi stimullaşdırma tədbirləri həyata keçirilmir.

Dövlət kütləvi kitabxanalar şəbəkəsinin fəaliyyətinə həsr edilmiş tədqiqatımızın nəticələri yaxın gələcəkdə onların fəaliyyətinin

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

optimallaşdırılmasına yönəlmiş aşağıdakı dövlət tədbirlərinin həyata keçirilməsini zəruri edir:

1. Azərbaycanda kitabxana işinin inkişaf konsepsiyasının strateji istiqamətləri çərçivəsində dövlət kütləvi kitabxanalar şəbəkəsinin yaxın 10-15 il ərzində inkişafının mühüm istiqamətləri müəyyənləşdirilsin. Bu iş Respublika Mədəniyyət Nazirliyi, Milli Kitabxana, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi və mövcud kitabxana ictimai birlikləri tərəfindən həyata keçirilsin.

2. Dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişaf konsepsiyası ilk növbədə bu kitabxana şəbəkəsinin məqsədyönlü inkişafı və yerləşdirilməsini nəzərdə tutmalıdır. Kitabxanaların yerləşdirilməsində və onların informasiya ehtiyatlarının formalaşmasında regionların demoqrafik, sosial-iqtisadi və tarixi ənənələri nəzərə alınmalıdır. Dövlət kütləvi kitabxanalar şəbəkəsinin yeni dislokasiya siyasəti həyata keçirilərkən ilk növbədə hazırda 2 minə yaxın yaşayış məntəqəsində stasionar kitabxanaların olmaması nəzərə alınaraq həmin yerlərdə universal fonda və ərazinin təsərrüfat xüsusiyyətlərini əks etdirən informasiya ehtiyatlarına malik kitabxanaların yaradılması təmin edilməlidir. Bu məqsədlə yaxın vaxtlarda respublikanın bütün regionlarında kitabxana işinin inkişafının kompleks planları hazırlanıb həyata keçirilməlidir. Bu iş Respublika Mədəniyyət Nazirliyi və müvafiq icra hakimiyyəti orqanları tərəfindən təmin edilməlidir.

3. Yaxın onilliyin ən mühüm vəzifələrindən biri dövlət kütləvi kitabxanalar şəbəkəsində optimal informasiya ehtiyatlarının formalaşması və səmərəli istifadəsini təmin etməkdən ibarət olmalıdır. Bu iş müvafiq regionların informasiya tələbatının öyrənilməsi və kitabxanaların komplektləşdirilməsinin elmi prinsiplərə əsaslanması nəticəsində həyata keçirilməlidir.

4. Dövlət kütləvi kitabxanalar şəbəkəsinin informasiya ehtiyatlarının səmərəli təşkili və istifadəsi kitabxana fondlarının yeni ədəbiyyatla məqsədyönlü, çevik şəkildə yeniləşməsi və paralel surətdə köhnəlmiş, istifadə üçün yararsız ədəbiyyatdan təmizlənməsini nəzərdə tutmalıdır.

5. Mərkəzləşdirilmiş kitabxana sistemlərinin ən mühüm vəzifələrindən biri oxuculara və xüsusən mütəxəssislərə biblioqrafik informasiya xidmətinin yeniləşməsindən ibarət olmalıdır. Bu baxımdan

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

MKS-lərdə müasir informasiya texnologiyasına əsaslanan elektron informasiya xidmətinin təşkili ümdə vəzifə kimi meydana çıxır. Odur ki, MKS daxilində vahid soraq-biblioqrafiya fondu və cari informasiya sisteminin yaradılması, texniki vasitələrdən istifadə etməklə müxtəlif oxucu təbəqələrinə cari və retrospektiv, fərdi və kollektiv biblioqraifk informasiya xidmətinin təşkili mks-lərin fəaliyyətinin optimallaşdırılmasının mühüm istiqamətinə çevrilməlidir.

6. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının ictimai həyatın bütün sahələrinə tətbiqinin genişlənməsi ilə əlaqədar Mədəniyyət Nazirliyi və milli kitabxana tərəfindən mks-lərdə yeni informasiya texnologiyalarının tətbiqinə dair dövlət proqramının hazırlanıb həyata keçirilməsi ən mühüm vəzifə sayılmalıdır. Bu proqram özündə ilk növbədə mərkəzi kitabxanaların kompüter texnikası ilə təmin edilməsini və hər bir regionda mərkəzi kitabxananın elmi informasiya mərkəzinə çevrilməsini nəzərdə tutmalı və mks oxucularının dünya informasiya resurslarından səmərəli istifadəsini təmin

etməlidir. Bu məqsədlə MKS-lərdə oxuculara xidmət işində tədricən virtual iş rejiminə keçməli, CD-ROM, Internet, Elektron kataloqu, Elektron məlumat bazaları, Elektron poçtu, Onlayn və s. xidmət vasitələrindən geniş istifadə edilməlidir.

7. Yaxın illərdə MKS-lərin maddi-texniki bazası və ilk növbədə onların dövlət büdcəsindən maliyyələşdirilməsi işində əsaslı dəyişikliklər baş verməlidir. Belə ki, MKS-lərin müvafiq icra hakimiyyəti orqanları tərəfindən maliyyələşdirilməsində qalıqlı prinsipinə son qoyulmalı, onların il ərzində normal fəaliyyəti maddi baxımdan tam təmin edilməlidir. Digər ölkələrin təcrübəsinə müvafiq olaraq bütün mks-lər hər ilin əvvəlində onların smeta xərclərini tam ödəyən maddi vəsaitləri almalı və bu vəsait mərkəzi kitabxananın sərəncamına verilməlidir.

8. Dövlət büdcəsi ilə yanaşı MKS-lərin büdcədənkənar maliyyələşdirilməsi işinə diqqət artırılmalı, “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu kimi onların fandrayzinq fəaliyyəti, təsərrüfat fəaliyyəti və ödənişli xidmətlər sistemi hərtərəfli araşdırılıb milli kitabxana tərəfindən bu işin tətbiq

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

mexanizminin hüquqi, təşkilati və metodik məsələləri işlənib hazırlanmalıdır.

9. Kitabxananın maddi vəsaitlərinin səmərəli istifadəsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən Nazirlər Kabinetinin qarşısında MKS-lərə yeni dövlət nəşrlərinin (kitab, dövri nəşrlər və digər informasiya daşıyıcılarının) güzəştli qiymətlərlə satılması haqqında vəsatət qaldırılmalıdır.

10. Yaxın onillik ərzində dövlət kütləvi kitabxanalar şəbəkəsinin kadr potensialının təkmilləşməsi, onların yeni, müasir informasiya texnologiyalarından səmərəli istifadə etməsini mənimsəmək məqsədilə xüsusi təhsil və təlim proqramı hazırlanıb həyata keçirilməlidir. Proqramın hazırlanması və həyata keçirilməsi Respublika Mədəniyyət Nazirliyinin rəhbərliyi ilə milli kitabxananın tədris mərkəzinin “Müasir kitabxanalar və onların vəzifələri” proqramı çərçivəsində kitabxana assosasiyaları, Mədəniyyət Nazirliyi nəzdindəki mədəniyyət işçilərinin ixtisasartırma kursu, eləcə də BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin alimləri tərəfindən təmin

edilməlidir. Bu məqsədlə Bakıda və respublikanın ayrı-ayrı regionlarında kurslar, seminar və treninqlər, praktikumlar təşkil edilməli, bu işə respublika və xarici ölkələrin aparıcı mütəxəssisləri cəlb edilməlidir. Həmin tədbirlərin müəyyənləşdirilməsi üçün dövlət təşkilatları ilə yanaşı bir sıra xarici donor təşkilatları, o cümlədən USAID, Avrasiya fondu, Soros Fondundan maliyyə dəstəyi təşkil edilməli, məqsədli qrant layihələri hazırlanıb həyata keçirilməlidir. Kitabxana işçilərinin kompüter mədəniyyəti və müasir informasiya texnologiyalarından istifadə vərdişlərini formalaşdırmaq məqsədilə MKS-lərin məsul işçilərinin hər il Rusiya və digər xarici ölkələrin qabaqcıl kitabxanalarında stajorluq keçməsi də faydalı olardı. Beləliklə, yaxın illərdə ölkəmizin bütün mərkəzləşdirilmiş kitabxana sistemlərində əhaliyə kitabxana-informasiya xidmətində müasir informasiya texnologiyalarının tətbiqi prioritet istiqamətə çevrilməlidir.

11. Yaxın 2 il ərzində Bakı şəhərində dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsinin başa çatdırılması mühüm vəzifə kimi meydana çıxır. Bu məqsədlə həmin dövrdə paytaxtın Nəsimi, Səbayıl, Nərimanov və Yasamal rayonları kütləvi kitabxanalarının mərkəzləşdiril-

məsinin hüquqi, metodik və təşkilati məsələləri həll edilməlidir. Bu məsələlərin həllində Bakı şəhərinin Nizami rayon MKS-nin mövcud təcrübəsi əsas götürülə bilər.

12. Son illər Bakı şəhərində dövlət kütləvi kitabxanalar şəbəkəsinin Metodik təminatında yaranmış boşluq aradan qaldırılmalıdır. Əvvəllər paytaxt kitabxanalarının metodik mərkəzi funksiyalarını həyata keçirən mərkəzi şəhər kitabxanalarının statusunun dəyişməsi ilə əlaqədar bu kitabxananın artıq metod mərkəz kimi fəaliyyət göstərməsi qeyri-mümkündür. Bu baxımdan zəngin təcrübəsi və kadr potensialı olan M.Ə.Sabir adına kütləvi kitabxanaya Bakı şəhər kütləvi kitabxanaları üzrə metodik mərkəz statusunun verilməsi məqsədəuyğun olardı. Belə halda kitabxananın maddi təminatı struktur quruluşu və kadr tərkibində müvafiq dəyişikliklərin edilməsi zəruridir.

13. Respublikada mərkəzləşdirilmiş kitabxana sistemlərinin hüquqi-normativ bazasının təkmilləşdirilməsi onların fəaliyyətinin tənzimlənməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Qənaətimizə görə yaxın vaxtlarda ilk növbədə “Azərbaycan Respublikası mərkəzləşdirilmiş dövlət kitabxana sistemlərinin Əsasnaməsi” və “Mərkəzləşdirilmiş kitabxana sistemlərində əməliyyatların iş normaları” hazırlanmalıdır.

14. Mərkəzləşdirilmiş kitabxana sistemlərinin fəaliyyətinin ölkənin digər kitabxanaları və ilk növbədə elmi və təhsil kitabxanaları şəbəkəsinin fəaliyyəti ilə bütün sahələrdə əlaqələndirilməsi, həmçinin onların MDB kitabxanalararası abonement sisteminə qoşulması və beynəlxalq kitabxana təşkilatları ilə əlaqələrinin genişlənməsi əhaliyə kitabxana xidmətinin yeni keyfiyyət almasına müsbət təsir göstərər.

Qeyd etdiyimiz təklif və tövsiyələrin həyata keçirilməsi dövlət kütləvi kitabxanalar şəbəkəsinin sosial funksiyalarının optimallaşmasını təmin edər, müasir dövrdə yeniləşən Azərbaycanda bu aparıcı kitabxana şəbəkəsinin fəaliyyətinin daha səmərəli təşkili üçün əsaslı zəmin yaradar.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

## Ədəbiyyat


1. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında çıxışı // Azərbaycan, 1995, 6 iyun.*
2. *Xələfov A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri / Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri: Tematik məcmuə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1986, S. 12-15.*
3. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006, 311 s.*
4. *Xələfov A.A.Kitabxanaşünaslığa giriş. 2 cilddə. I-II hissələr. Bakı, 2001, 276 s.*
5. *Xələfov A.A. Müasir kitabxanaların sosial funksiyaları // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal, 1999, №2, s.3-32.*
6. *Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin nailiyyətləri (inkişaf mərhələləri, müasir vəziyyəti) / Elmi əsərlərin mövzu toplusu. Bakı: BDU, 1991, s.3-20.*
7. *Ismayılov X.I. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya. Bakı, 2000, 440 s.*
8. *Mərkəzləşdirmə şəraitində kitabxana fondlarının komplektləş-dirilməsi, mühafizəsi, sistemdaxili kitab mübadiləsindən və kitabxanalararası abonementdən səmərəli istifadənin təşkili: Metodik tövsiyələr. Bakı, 1983, 26 s.*
9. *M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının arxivi, elmi-metodik şöbənin 1970-1980-ci illər hesabatları.*
10. *MKS-lərinin bölmələrinin nümunəvi əsasnamələri. Kitabxana işçilərinin vəzifə təlimatları və uçot formaları / Tərtib edənlər L.Qafurova və B.Şəfiyeva. Bakı, 1979, 130 s.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**Sevda Xalafova**

## Перспективы развития сети государственных массовых библиотек в азербайджане

### REZÖME

*Данная статья посвящена одной из актуальных и малоизученных проблем отечественного библиотековедения – «Развития сети государственных массовых библиотек в Азербайджане 70-80 гг. XX века (на основе материалов сети массовых библиотек Азербайджанской республики)». Здесь особое внимание уделяется развитию государственных массовых библиотек, их роль в организации библиотечно-библиографического обслуживания населения, научно-методического обеспечения этих библиотек в данном историческом этапе.*

*В статье также исследуется деятельность централизованных библиотечных систем, развитие единого фонда, их тематико-типологический состав и совершенствование работы по каталогизации в ЦБС республики.*

*В заключении подведены итоги, подробно изложены основные выводы, вытекающие из проведенного исследования, даны конкретные рекомендации.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**Sevda Xalafova**

## Network development of the state mass libraries in Azerbaijan

### SUMMARY

*This thesis is dedicated to one of the important and less studied problems of national library science called "Network development of the State mass libraries in Azerbaijan in 70-80s of the XIX century (on the basis of the mass libraries network materials in the Republic of Azerbaijan). The thesis is consisting of an introduction, three chapters, a conclusion and the less of references.*

*In the introductory part of the thesis is being based the actuality of the topic given the justification of the actuality of the topic the actuality of the topic its scientific novelty, exposed significance of the scientific elaboration of the topic, analyzed the studying degree of it, aims and objectives of the research, thoroughly shown the scientific novelty of the work, expounded the methods of the research, as well as the practical significance of the thesis.*

*In conclusion all the data obtained here was sum up, the main inferences coming out of this research were expounded in details, done necessary recommendations, as well as the list of references while preparing this scientific work.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**ESMİRA ZƏRBƏLİYEVA**
***Magistrant***

# YENİYETMƏLƏRİN BƏDİİ ZÖVQÜNÜN FORMALAŞMASINDA KİTABXANALARIN ROLU

Respublikamızda 1990-cı illərdən başlayaraq tərbiyə prosesi milli istiqamətdə məqsədli şəkildə formalaşmağa başlamışdır. Bu da müstəqillik illərində respublika uşaq və gənclər kitabxanalarından yeniyetmələrə xidmətin təşkilini keyfiyyətcə yeni vəzifələrin həyata keçirilməsini tələb edir. Yeni şəraitdə mütaliənin məzmununda baş verən dəyişikliklər yeni xidmət növlərinin istifadəsi üçün şərait yaratmalıdır.

Mütaliəyə rəhbərlik işi hər cür ideoloji ehkamlardan azad olub yeniyetmələrin mütaliəsinə, xalqımızın müstəqilliyinin möhkəmlənməsinə, azərbaycançılıq ideologiyasının təbliğinə və demokratik dünyagörüşünün formalaşmasına istiqamətlənməlidir.

Yetişməkdə olan gənc nəsil üçün milli tərbiyənin vacibliyini ümummmilli liderimiz Heydər Əliyev də ziyalılarla görüşlərində dönə-dönə qeyd etmiş, strateji istiqamətini müəyyənləşdirmişdir: “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər.”(4) Liderin sözlərinə istinad edən Təhsil Naziri prof. M. Mərdanov da öz fikirlərində bu məqama toxunmuşdur: “Milli tərbiyə işinin məzmunu ilk növbədə gənclərin dövlətçilik, müstəqillik və mübarizlik ruhunda tərbiyəsindən ibarət olmalıdır. Üzərində düşən borcun dərk edilməsi və bunun üçün məsuliyyət hissi daşımaq artıq yetkinlik əlamətidir. Kiçik yaşlarından başlayaraq tərbiyə işi psixoloji, metodik əsaslar ilə düzgün qurulmalıdır ki, hər bir böyüyən uşaqda yetkinləşmə getsin. Əgər tərbiyə işinin məqsədi aydın müəyyənləşdirilərsə, ona çatmaq yolları düzgün tapılarsa heç şübhəsiz nəzərdə tutulan nəticəni almaq olar. ”(3,13)

Bunu biz t.e.d. prof. A.A. Xələfovun “Azərbaycan müstəqilliyinə və milli ideolgiyasına qiymətli töhfə” adlı məqaləsində görə bilərik: “Milli ideologiyamız tarixi keçmişimizlə,

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

millətimizin adət-ənənələri ilə xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır.”(6,s 130)

Təhsil alan hər bir yeniyetməyə milli tərbiyə qaydalarının aşılanmasında təhsil müəssisələri, tərbiyə ocaqları ilə bərabər respublika kitabxanaları da yaxından iştirak etməli, bu sahədə dövlət proqramlarının həyata keçirilməsində köməklik göstərməlidir.

Milli tərbiyənin əsas məqsədi mühitə və ehtiyaca uyğun olaraq gənc nəslin hansı keyfiyyətlərə yiyələnməsi problemini araşdırmaqdır. Uşaq mütaliəsi sahəsində tanınmış alim, dos. Sahib Rzayevin fikirlərinə görə tərbiyə işində öyrətmək başlıca şərtdir. Ona görə də kitabxanaların üzərinə düşən vəzifə onlardan daha böyük məsuliyyət tələb edir. Bu baxımdan mütaliə vasitəsilə öyrətmək, öyrətməklə tərbiyə etmək vəzifəsini üzərinə götürən uşaq kitabxanalarının işi daha rəngarəng və çoxcəhətlidir (5,s 61).

Inkaredilməz faktdır ki, yeniyetmələrin milli tərbiyə prosesinin həyata keçirilməsində mütaliə mədəniyyətinin formalaşması ölkəmizin gələcək taleyində mühüm əhəmiyyət kəsb edən amildir. Çünki yeniyetmələrin mütaliəsi onun lazımı tərbiyə almasına, şəxsiyyətinin formalaşmasına çox güclü təsir göstərir.

Qədim və zəngin tarixi keçmişə malik Azərbaycan xalqının ibrətamiz, tərbiyəvi inci xəzinələri- yazılı tarixi abidələri mövcuddur. Yeniyetmə mütaliəsinə rəhbərlik edən kitabxanaçı öz oxucusuna böyük əhəmiyyətli, qədim abidələri təbliğ etməklə yeni nəsli Metenin vətənpərvərliyi ilə Cavad xan qeyrəti, Koroğlu dəliqanlılığı Dədə Qorqud müdrikliyi ilə tərbiyə etməyi bacarmalıdır. Gənc nəsli yüksək ideyalar uğrunda tərbiyə etmək üçün kitabxanaçı bəşəriyyətin biliklər məcmusundan yaradıcılıqla istifadə etməyi bacarmalıdır. Belə biliklər məcmusunda “Kitabi- Dədə Qorqud” abidəsi mütəsna əhəmiyyətə malikdir. Dastanda deyilən deyimlər, qiymətləndirilən keyfiyyətlər, irəli sürülən hikmətamiz fikirlər yeniyetmələrin möhkəmlənməsi, həyat hadisələrindən baş çıxarması, şəxsiyyət kimi yetkinləşməsi üçün böyük əhəmiyyət kəsb edir:

“Qız anadan görməyincə öyüd almaz.”, “Ağıllı oğul ağacın közü, ağılsız oğul isə külüdür.” (3, s.66)

Dastanda vəsf edilən ata-ana, valideyn- övlad məhəbbəti bu gün də böyük əhəmiyyət daşımaqdadır. Dastanda baş qəhrəman, el ağsaqqalı

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Dədə Qorqudun dilindən verilmiş hakimanə sözlər, öyüd, nəsihətlər oxucuya böyük əxlaqi keyfiyyətlər aşılayır.

Milli sərvətimiz olan folklorumuz o qədər zəngindir ki, kitabxanaya müraciət edən hər bir yeniyetmədə bu mənbələrdən istifadə etməklə milli tərbiyə aşılmaq, yüksək bədii zövq formalaşdırmaq mümkündür. Kitabxanlarda keçirilən kitab sərgilərinin, yaradılan plakatların başlıqlarını zəngin folklor qaynaqlarından maraqlı nümunələr seçməklə tərtib etmək olar. Məs:

Hər zərbi məsəlin öz tarixi var
Yersiz söz deməyib bizim babalar(H.Arif)

başlığı altında disputlar təşkil etməli, hər bir oxucuya müəyyən mövzuda atalar sözü və məsəllərin əzbərlənməsi tapşırılmalıdır. Keçirilən disputlarda oxucuların qənaətə gəldikləri əxlaqi fikirlər, çıxardıqları nəticələr digər dinləyicilərə də çatdırılmalıdır. Geniş müzakirələr nəticəsində yeniyetmələrdə fəallıq, təşəbbüskarlıq, müstəqillik, özünütərbiyə, qarşılıqlı hörmət, özünütənqid və s. keyfiyyətlər formalaşır. Nəsildən-nəslə keçən, gündən-günə cilalanan, daha da kəsərli olan atalar sözləri haqqında yazıçı və şairlərimizin çox gözəl fikirləri vardır:

"Atalar sözlərinin hər biri bir dastandır." S.Vurğun

"Atalar sözləri öyüddür bizə
Yüz illər, min illər deyiləcəkdir" B.Vahabzadə

Bildiyimiz kimi, Azərbaycan Respublikası konstitusion əsaslar üzərində qurulmuş dünyəvi dövlətdir. Azərbaycanda tərbiyə prosesi dini dayaqlara söykənib, hüquqi-demokratik əsaslarla birləşərək mükəmməl bir sistem yaratmışdır. Milli istiqlaliyyətimizi əldə etdikdən sonra dinə, mənəviyyata, keçmişə qayıdış sahəsində bir sıra addımlar atılmaqdadır. Bu işə kömək məqsədilə respublika gənclər kitabxanalarında milli-mənəvi və bəşəri dəyərlər əsasında yeniyetmələrin milli tərbiyəsini və bədii- estetik zövqünü formalaşdırmaq labüddür.

Bu sahədə yeniyetmələrin mütaliəsinə rəhbərlik zamanı 7-ci əsr abidəsi islam mədəniyyətinin qiymətli incisi olan Qurani- Kərim abidəsini təbliğ etmək vacibdir. Bu abidə ən zəkalı insanların, ən müdrik filosofların, ən qabiliyyətli siyasətçilərin gənclərə verə biləcəyi mükəmməl tərbiyə əsəridir. Şifahi xalq inciləri və klassik ədəbi irs xalqımızın hərtərəfli sosial həyat təcrübəsinə əvəzsiz xəzinə olduğundan

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

həm də şəxsiyyətin kamilləşməsi, yetkinləşməsi, yəni sosiallaşması problemi ilə sıx bağlıdır ki, bu cəhət də kitabxanaçının diqqətindən yayınmamalıdır.

Azərbayan ədəbiyyatı tarixinə nəzər saldıqda şifahi xalq sənəti ilə bərabər kitabxanalarda yeniyetmələrimizə təbliğ olunacaq klassik ədəbiyyat nümunələri də az deyil. Bu cəhətlərə diqqət verən kitabxanaçı milli ədəbiyyatımızın hər iki qolunu eyni səviyyədə təbliğ etməlidir. Klassik ədəbi irsə nəzər saldıqda görürük ki, klassiklərimizin yaratdıqları əsərlərdə təsvir olunan səhnələr, şərh olunan ibrətamiz hadisələr kitabxanaların yeniyetmə oxucuları üçün bir ibrət dərsidir, onların qəlbində yüksək bəşəri duyğular oyadır, tərəqqi və inkişafa, ağıl və elmə, yer üzərində həqiqi bərabərlik, ədalət və sülhə ruhlandırır.

Mütaliəyə yüksək qiymət verən, kitabı və mütaliəni hər cür tərbiyə üsullarından üstün tutan söz dühamız Nizami Gəncəvinin həm mütaliə, həm də tərbiyə barədəki qiymətli fikirlərinə nəzər salaq:

Dünyada nə qədər kitab var belə
Çalışıb –vuruşub gətirdim ələ
Oxudum-oxudum, sonra da vardım
Hər gizli xəznədən bir dürr çıxardım.

“Insan xeyirxah olmalıdır. Düşmənə isə xeyirxahlıq ağılsızlıqdır.” “Ikiüzlü yalançı dost düşmənlərdən daha qorxuludur. Dostu bərk ayaqda, yaman gündə sınamaq lazımdır.”

Nizami Gəncəvinin bu ibrətamiz fikirləri, humanist ideyaları,əxlaqi-estetik görüşləri kitabxanaların həyata keçirdiyi tərbiyə işində tətbiq olunmağa layiqdir.

Yeni dövr Azərbaycan mədəniyyətinin mütəffəkiri M.F.Axundovun fikirlərinə görə xalqda milli mənlik şüurunu inkişaf etdirmədən milli ləyaqət, milli vətənpərvərlik hissi aşılamadan onu mədəniyyət yoluna çıxarmaq olmaz(3,s 147). M.F.Axundov özü milli şüurun inkişafının rəmzi idi. O uşaqlarda aşılanması zəruri olan mənəvi keyfiyyətlər içərisində vətənpərvəliyi, millətpərəstliyi birinci yerdə qoyurdu. Azərbaycan xalqının tarixində ilk dəfə olaraq milli dil və mədəniyyət məsələlərini qaldırmış bir şəxsiyyətin əsərləri ilə müasir gəncliyimizə milli tərbiyənin, bədii zövqün aşılanması kitabxanaçılarımızın qarşısında duran ən ümdə məsələlərdən olmalıdır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Bu gün kitabxanalara müraciət edən hər bir yeniyetmə sabah dövlət tribunalarından öz xalqının taleyini həll etməli olacaqdır. Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi E.Y.Əhmədov yeniyetmələrin milli-ideoloji tərbiyəsindən bəhs edərək qeyd edir ki, uşaqların tərbiyəsindən strateji əhəmiyyət kəsb edən milli – ideoloji tərbiyə onların təfəkkürünə tam sahib olmalıdır. Çünki qlobal informasiya məkanında müstəqil dövlətin malik olduğu atributlara tamamilə uyğun olan bir prosesdir. Bu prosesdə kitabxanalar mədəniyyət instinktinin etibarlı qorunub saxlanması üçün ənənəvi mütaliə ilə eyni zamanda çap məhsullarının elektron variantı vasitəsilə də uşaqlarda mütaliə tərbiyəsini aktual problem kimi qoymalıdır. Belə yeniləşmə mütaliəyə rəhbərlik edən kitabxana işçilərindən xüsusi tədqiqatların aparılmasını və tövsiyələrin verilməsini tələb edir.(2,s 49)

Bu proses yeniyetmələrin milli tərbiyəsini, bədii estetik zövqünü formalaşdırmaq üçün yeni nəzəri metodik əsasların işlənib hazırlanması, yeni azad cəmiyyətin tərbiyəsinə uyğun prinsiplərin yaradılması və ondan istifadə edilməsini zəruri edir. Odur ki, yeni şəraitdə uşaqlara kitabxana-informasiya xidmətini yeniləşdirmək yaşadığımız informasiya cəmiyyətinin tələblərinə cavab verməyi qarşısına məqsəd qoyan kitabxanaların XXI əsrin əvvəllərində yeniyetmələrə kitabxana xidmətinin təşkili, kitabxanaların müasir informasiya resursları ilə təmin edilməsi məsələlərində nailiyyət qazanması üçün mühüm şərtdir.

### *Ədəbiyyat*


*1. Aslan K. Bədii ədəbiyyatın təbliği üsullarının təkmilləşdirilməsi yolları//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi –nəzəri, təcrübi jurnal. - B.: Bakı Universiteti Nəşriyyatı,2002.-№1. S. 54-64*

*2. Əhmədov E.Y. ABŞ və Rusiya kitabxanalarının iş təcrübəsində uşaq mütaliəsi məsələləri.-B.- 2005,49 s.*

*3. Əhmədova Ə. Azərbaycan ictimai- pedaqoji fikrində milli tərbiyə problemi və onun həlli yolları: I kitab.-B.: "MBM", 2005, 184 s.*

*4. Əliyev H. Hər bir Azərbaycan gənci müstəqil dövlətimizin fəal qurucusu olmalıdır//Azərbaycan.-1996.-2 fevral*

*5. Rzayev S.M Kiçik məktəb yaşlıların mütaliəsinə fərdi rəhbərliyin pedaqoji-psixoloji əsasları.// ADU-nun elmi əsərləri: Kitabxanaşünaslıq və biblioqrafiya ser.-1983.- №1. S.61-67.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

6. *Xələfov A.A. Azərbaycan müstəqilliyinə və milli ideologiyasına qiymətli töhfə//Bakı Universiteti Xəbərləri: Humanitar elmlər ser.-1998.-№1. S.128-139.*

***Эсьмира Зарбалиева***

***Рол библиотек художественная вкуса формирование подрастающие поколение***

***РЕЗЮМЕ***

*В статье рассматриваются вопросы о роли и значения библиотек. Воспитание национального самосознания подрастающего поколения, при помощи пропаганды художественной литературы.*

***Esmira Zarbaliyeva***

***The role of the libraries in formation adolescent's artistic taste***

***SUMMARY***

*In article is examined questions about a role and values of libraries. Education of national consciousness of rising generation, by means of propaganda of fiction.*

*7.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**ESMİRA NURİYEVA**
***Magistrant***

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA KİTABXANA İŞİNİN HÜQUQİ TƏMİNATI

Məlumdur ki, hər bir sahənin inkişafı üçün onun hüquqi bazasının olması vacib şərtlərdən biridir. Bunsuz heç bir sahənin gələcək inkişafından danışmaq olmaz. Bütün dövlət strukturlarının inkişafında hüquqi tənzimlənmə məsələsi aparıcı rol oynamaqla onun artan istiqamətdə inkişafını təmin edir.

Bütün belə sahələr kimi, kitabxana işinin də inkişafında hüquqi baza vacib və əhəmiyyəti danılmaz məsələlərdəndir.

Bildiyimiz kimi Azərbaycan uzun illər boyu Rusiya imperiyasının əsarətində yaşadığına görə nəinki kitabxana işi sahəsində, hətta dövlət məsələlərində belə müstəqil siyasət yeritmək iqtidarında olmamış, bütün sahələr kimi kitabxanalar da kommunist siyasətinin təbliğatçısı kimi dar bir strategiya ilə idarə olunmuşlar.

Lakin çox keçmədi ki, Rusiya imperiyasının «laxlaması» nəticəsində bütün imperiya əsarəti altında olan müttəfiq dövlətlər kimi Azərbaycan da öz müstəqilliyinə qovuşdu. Və artıq 1991- ci ildən etibarən bütün dövlət strukturlarında və eyni zamanda da kitabxana işi sahəsində öz müstəqil siyasətini yeritməyə başladı.

Bu dövrlərdə bir çox sahələr kimi, mədəniyyət strukturlarında da əsaslı islahatlar, dəyişikliklər etmək kimi, problemlər ortaya çıxdı. Milli mədəniyyətimizin bir qolu, ayrılmaz hissəsi sayılan kitabxanalarımız keçid dövrünün çətinlikləri qarşısında artıq öz-özünü tənzimləyə bilməmiş və baxımsız hala düşmüşdü. 1991- ci ildə kitab alınması ilə bağlı büdcə maddəsinin Maliyyə Nazirliyi tərəfindən ləğv olunması da kitabxanaların maddi texniki bazasının zəifləməsi, yeni nəşrlərin alınması, kitab mübadiləsinin pozulması kimi problemlə üzləşdi (8, s. 6).

Bütün bu qeyd olunanlarla yanaşı bu dəfə də prezident Ayaz Mütəllibov 1991- ci ildə fərman verərək mədəniyyət məsələlərini yerli icra hakimiyyətinin tabeliyinə verdi (9, s.5).

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Bu məsələlərdə yaranan ikitabeli surətdə fəaliyyət də ilk növbədə kitabxanaların fəaliyyətini ləngidərək zəiflətmişdi.

Prezident 1993- cü il aprelin 16-da «Mədəniyyət və incəsənətə dövlət himayəsinin gücləndirilməsi» haqqında qərar qəbul etdi. Qərarda qeyd olunan sahədə çalışan işçilərin əmək haqqının artırılması və əmək haqqından vergi tutulmaması bildirilirdi (3.- s. 3). Bu tədbir kitabxana işinə müsbət təsir etsə də yaranmış digər əsaslı problemlərdən yan keçdi.

Lakin bütün çətinliklərə baxmayaraq müstəqil Azərbaycan tutduğu azadlıq yolunda daim irəliyə addım atmışdır. Belə ki, artıq 1995- ci ilin 12 noyabrında müstəqil respublikanın Konstitusiyası qəbul edildi. Dövlət siyasətinin bütün sahələrini əhatə edən bu konstitusiyada bir neçə maddə milli mədəniyyətimizə, dolayısı ilə də kitabxanalarımıza şamil edilmişdir. Bunlardan «Mədəniyyət hüququ» maddə 40- da deyilir:

I. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəni təsisatlardan və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

II. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli və mədəniyyət abidələrini qorumalıdır.

Konstitusiyada bu qeyd edilənlərlə yanaşı «Məlumat azadlığı» maddə 50- də isə deyilir:

I. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, hazırlamaq, yaymaq azadlığı vardır.

II. Kütləvi İnformasiyanın azadlığına təminat verir, kütləvi İnformasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır (2, s.60).

Kitabxana işi sahəsində həyata keçirilən tədbirlər bununla kifayətlənmir. Belə ki, 1995- ci ildə «Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərar hazırlanmış və 1996- cı ilin 9 iyununda qüvvəyə minmişdir. Bu qərar dövlət tərəfindən kitabxana işinə yeni maliyyə kanalının açılmasını təmin etdi. Bu haqda müsahibə verən M.F.Axundov adına Milli Kitabxananın direktoru Kərim Tahirov bu qərarın ümdə əhəmiyyətini açıqlamış və qərarın kitab alınması ilə bağlı xüsusi maddəsi kitabxanaların sinir sisteminin bərpasına xüsusi köməklik göstərəcəyini, yerli büdcədən maliyyələşən kitabxanaların normal iş rejiminə qayıdacağını bildirmişdir. Bundan başqa 1996- cı il qərarı kitabxanalara kitab verilişi və abunə yolu ilə dövri mətbuatla təmin olunmasında

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

yaranmış bir sıra problemlərin həllinə yol açdı. Qərarda xaricdən kitabxanalarla kitab mübadiləsi məsələsinə də toxunulmuş, 1993- cü ildən üzvü olduğumuz IFLA təşkilatına üzvlük haqqının Maliyyə Nazirliyinə tapşırılması və kitabxanaların tabeliyindən asılı olmayaraq Mədəniyyət Nazirliyinin tabeliyinə keçməsi qərara alınmışdı (8. S.5). Bu qərarla da kitabxana işi sahəsində işçilərin maaşı, və pedaqoji statusu, kitabxanaların yeni standartlara uyğun yenidən təşkil edilməsi və s. kimi məsələlər yenə də öz həllini gözləyən problemlər siyahısında qaldı.

Müstəqilliyimizdən bəri kitabxana işi sahəsində atılmış ən böyük addım və kitabxana işinə dövlət qayğısının ən böyük nümunəsi olan 1998- ci ilin 29 dekabrında qəbul edilmiş «Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu» dur ki, bu qanunla kitabxana işi sahəsində həllini gözləyən bir çox məsələlər qanunla tənzimləndi. 6 fəsil 34 maddədən ibarət qanunun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin ümumi əsaslarını, kitabxana fondlarının formalaşması və mühafizəsi tələblərini kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir (7. S.1) və qeyd edilir ki, kitabxana işi sahəsində Azərbaycan Respublikasının Qanunvericiliyi bu Qanundan, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir. Qanun 6 fəsil və hər fəsil bir neçə maddədən ibarət olmaqla özündə «Kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsipləri», «Kitabxana sistemi», «Kitabxana fondu», «Kitabxana xidmətinin təşkili», «Kitabxana işinin idarə olunması» və ən sonda isə «Yekun müddəalar» adı altında bir çox məsələlər öz hüquqi həllini tapmışdır.

1998- ci il qanununun təsdiq edilməsi ilə əlaqədar möhtərəm prezident Heydər Əliyev 1999- cu il 12 mart tarixində fərman imzalamışdır. Qanun tətbiq edilməsi ilə əlaqədar prezident qərara almışdır ki, «Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, 2 ay müddətində qüvvədə olan qanunvericilik aktlarının «Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu»a uyğunlaşması barədə təkliflər Azərbaycan Respublikası Prezidentinə təqdim edilisin (4. S.160). Fərmanda, maddələrində qeyd olunmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikası Nazirlər Kabinetinə və Azərbaycan Respublikası Prezidenti aparatı

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

kitabxanalarını nəzərdə tutur. Lakin 24- cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərinin Azərbaycan Respublikası Nazirlər Kabineti və Mədəniyyət Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirir. Qanunun 14- cü maddəsinin III hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı» səlahiyyətlərini Azərbaycan Respublikası Təhsil Nazirliyi həyata keçirir.

Azərbaycan Respublikasının «Kitabxana işi haqqında qanunu» ilə əlaqədar prezidentin fərmanının I bənd III abzasında qeyd olunan «Dövlət kitabxana fondlarında saxlanan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadə qaydaları haqqında» 6 mart, 2000- ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərar qəbul etmişdi ki, qərarda qeyd olunurdu:

- Dövlət kitabxana fondlarında saxlanılan çap əsərlərinin və digər materialların uçotu, mühafizəsi və istifadəsi qaydaları təstiq edilsin (əlavə olunur).

- Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Müstəqillik illərində dövlət strukturlarının bütün sahələrinə diqqət artmış, milli iqtisadiyyat, mədəniyyət, bizneslə yanaşı kitabxana işi sahəsində də daim irəliləyişlər qeydə alınmışdır. Bunun ən əsas səbəbi isə bu sahəyə dövlət nəzarətinin daimiliyi olmuşdur. Belə ki, yuxarıda sadalanan tədbirlərdən sonra 2000- ci ilin 6 martında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən daha bir qərar qəbul edilmişdi ki, bu da «Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Kitabxanasının nümunəvi əsasnaməsinin təstiq edilməsi haqqında» idi. Bu Azərbaycan Respublikası Prezidentinin «Kitabxana işi haqqında Azərbaycan Respublikası Qanunu» nunun tətbiq edilməsi barədə 1999- cu il 12 mart tarixli fərmanının 2- ci bəndinin icrasını təmin etmək məqsədilə qərara alınmışdır (4. S.163).

Bütün bu sadalananlarla yanaşı daha bir qərarı vurğulamaq yerinə düşərdi. Bu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 mart 1999- cu il tarixli Azərbaycan Respublikası Nazirlər Sovetinin 1987- ci il 9 fevral tarixli, 45 nömrəli qərarına dəyişiklik edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi barəsindədir.

Azərbaycan Respublikasının müstəqillik dövründə baş verən çətinlikləri arxada qoyması və yeni tərəqqi dövrünə başlaması,

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

vətənimizin artıq çiçəklənən Azərbaycana çevrilməsi möhtərəm prezident Heydər Əliyevin müdrik siyasətinin davamçısı olan Ilham Əliyevin dövrünə düşür. Bu dövrün kitabxana işi sahəsindəki əsas rolunu, xarakterizə edən cəhətlərdən biri kimi, prezidentimizin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 2004- cü il 12 yanvar və «2005-2006- cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təstiq edilməsi haqqında» 2004- cü il 27 dekabr tarixli sərəncamlarına əsasən son 3 il ərzində ümumi sayı doqquz milyona yaxın ədəbiyyat nəşr olunmasını və ölkə kitabxanalarına hədiyyə edilməsini göstərə bilərik (10. S.1).

Ancaq son dövrlər həyata keçirilən tədbirlər bununla kifayətlənmir. Ölkə başçısının Milli Mədəniyyətimizə verdiyi töhfələrdən daha biri 20 aprel 2007- ci il tarixli «Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamıdır. Vaxtında qəbul edilmiş sərəncam yeni İnformasiya əsrinə qədəm qoyduğumuz bir zamanda kitabxanalarımızın yeni əsrin tələbləri üzərində yenidən qurulmasını təmin edəcəkdir.

Sərəncamda əvvəla Azərbaycan kitabxanalarının tarixi keçmişinə nəzər salınmış, daha sonra prezidentin sərəncamı ilə latın qrafikası ilə Azərbaycan dilində çap olunan ədəbiyyatlar haqqında danışılaraq sərəncamın əsas məğzinə keçid alınmışdır. Sərəncam 6 bənddən ibarət olmaqla əsasən Milli kitabxananın modernləşdirilməsi ilə bağlı tədbirlərdən, regionlarda fəaliyyət göstərən kitabxanaların təmiri, MTB-nin möhkəmləndirilməsi, bu barədə tədbirlər planının hazırlanması, ölkənin iri kitabxanalarının elektron kataloqu və kitabxanasının yaradılması, bu işin müasir standartlar səviyyəsində aparılması, Azərbaycan kitabxana İnformasiya sahəsinin 2008-2013- cü illərdə inkişafı üzrə «Dövlət Proqramının» hazırlanması, məktəb kitabxanalarının MTB- nın möhkəmləndirilməsi, MEA- nın Mərkəzi Kitabxanası üçün «Akademiya şəhərciyi»nin ərazisində yeni binanın tikilməsi və Nazirlər Kabinetinin sərəncamdan irəli gələn məsələləri həll etməsindən danışılmışdı (1. S.1).

Mədəniyyətlə bağlı möhtərəm Prezidentimizin növbəti tədbiri «Kitabxana işi haqqında və Muzeylər haqqında» Azərbaycan

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Respublikası Qanununda dəyişikliklər edilməsi barəsindədir. Burada «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununda Azərbaycan Respublikası Qanunvericilik toplusu, 1999- cu il, №3 maddə 158; 2002- ci il №5 maddə 245; 2003- cü il №12 1 kitab (maddə 674) maddəsində dəyişikliklərdən danışılır. 2007- ci il 16 iyun tarixli bu qərarın tətbiq edilməsi haqqında elə 2007- ci il 16 iyun tarixində sərəncam imzalanmışdır. Burada qeyd edilir: «Kitabxana haqqında və Muzeylər haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2007- ci il 16 iyun tarixli 390 – III DD nömrəli qanunun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. Qüvvədə olan qanunvericilik aktlarının «Kitabxana işi haqqında və Muzeylər haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

1.2. Azərbaycan Respublikası Nazirlər Kabineti müvafiq mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktlarını həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikası Prezidentinə məlumat versin.

1.3. Öz səlahiyyətləri daxilində «Kitabxana işi haqqında və Muzeylər haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin (5. S.1).

1991- ci ildən bu günə kimi sadalanan bütün bu qanunlar, sərəncamlar, fərmanlar bir-birini əvəz edərək Azərbaycanın kitabxana işinin hüquqi bazasını təşkil etməklə onun inkişafına ardıcıl təkan vermiş onun bu müasir səviyyəyə gəlib çatmasına şərait yaratmışdır.

Inanırıq ki, Azərbaycan Prezidentinin «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» sərəncamından irəli gələn bütün tədbirlər nəticəsində başlanılmış çoxşaxəli işlər uğurla sona yetəcək və «Azərbaycan kitabxana işi» dünyanın öndə gedən və ilk sıralarda sadalanan nümunəvi kitabxanaşünaslığından olacaqdır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

## *Ədəbiyyat*


*1.«Kitabxana işi haqqında və Muzeylər haqqında Azərbaycan Respublikası qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2007- ci il 16 iyun tarixli qanunun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Respublika. – 2007. – 26 iyun. – S.3.*

*2.Azərbaycan Respublikası Konstitusiyası: (maddə 40-50). – B., 1995. – S.67.*

*3.Iqtisadi islahatlar dövründə mədəniyyət və incəsənətə dövlətin himayəsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Ədalət qəzeti. – 1993. – 23 aprel*

*4.Ismayılov X. Kitabxana menecmentinin əsasları. – B., 2005. – S.138-193.*

*5.Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan. – 2007. – 24 aprel. – S.1.*

*6.«Kitabxana işi haqqında və Muzeylər haqqında» Azərbaycan Respublikası qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu //Respublika. – 2007. – 26 iyun. – S.3.*

*7.Kitabxana işi haqqında Azərbaycan Respublikası Qanunu //Azərbaycan. – 1999. – 12 mart. – S.2.*

*8.Tahirov K. Kitabxanalar yeni həyata qədəm qoyacaq // Xalq qəzeti. – 1996. – 17 oktyabr. – S.5.*

*9.Tahirov. K. Özəlləşmə kitabxana işinə çoxlu problem yaratdı // Xalq qəzeti. – 1999. – 2 may. – S.5.*

*10.Xələfov A. Kitabxana sahəsi dövlət qayğısı ilə əhatə olunmuşdur // Azərbaycan. – 2007. – 24 aprel. – S.5.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

***Эсьмира Нуруева***

### ***Юридическое обспечение библиотечного дела в азербайджане в годы независимости***

### ***Р Е З Ю М Е***


*В данной статье ведется разговор о недастатких библиотечной работы в годы независимости и об ее юридической усовершенствовании. В начале были изложены комментарии к*

*нескольким государственным документам, в том числе «Закон библиотечного дела» Азербайджанской Республики и «Закон о культуре».*

***Esmira Nuruyeva***

***Legal improvement library science in azerbaijan independence years***


SUMMARY

*In given clause is had a conversation about lacks of library science independence years, and about its legal improvement. In the beginning comments to several state documents, including «The law of library science» Azerbaijan Republic and «The law on culture» have been stated.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**YEGANƏ MƏMMƏDOVA**
*Magistrant*

## M.F.AXUNDOV ADINA MİLLİ KİTABXANANININ ELEKTRON KATALOQU
## (ümumi xarakteristikası)

İnkişaf etmiş ölkələrdə informasiya ən vacib amillərdən biri hesab olunur. Bu amil həmin ölkələrin elmi, texniki, mədəni, iqtisadi və başqa sahələrdəki inkişafına həlledici təsrini göstərir. Buna görə dövlət və cəmiyyətdə informasiyaya strateji vasitə kimi baxılır. Belə bir strateji vasitənin saxlanılması, rasional istifadəsi və inkişafı hər bir dövlət cəmiyyətin məqsədlərindən biridir.

Müstəqilliyini əldə etmiş Respublikamızda Azərbaycan Milli Kitabxanası da öz növbəsində dünya birliklərinə və məlumatlarına girişi təmin etmək və eləcə də dünya oxucularına qlobal şəbəkə vasitəsilə mədəni sərvətimiz olan kitabxanamızın fondu haqqında məlumatların catdırılması üçün elektron kataloqunun yaradılması işinə başlamışdır. Bu istiqamətdə bir sıra işlər görülmüşdür.

Elmin müxtəlif sahələrində məlumat texnologiyalarının ingişafı Milli Kitabxananı oxucuların kəskin şəkildə artan və dəyişən tələblərinə uyğun məlumatların işlənməsi, saxlanılmasının ənənəvi sisteminin dəyişdirilməsi vacibliyi qarşısında qoydu. Bunun üçün üç mühüm bir-birilə bağlı məsələni həll etmək tələb olunurdu: kitabxanadaxili texnoloji proseslərin kompüter yardımı və kitabxana fəaliyyəti ilə idarə olunması, elektron təsəvvürdə özünün informasiya resurslarının təşkili, elektron məlumat resurslarına oxucaların girişinin təşkil edilməsi.

Kitabxana-informasiya texnologiyalarının müasir, dünyəvi inkişafı, informasiya tələbatının operativ və daha keyfiyyətli ödənilməsi vəzifələri Milli Kitabxanada yeni informasiya metodu və vasitələrinin tətbiqinə zərurət yaratmışdır. Bu problemin həlli kompleks xarakter daşıdığından 2002-ci ildən etibarən Milli Kitabxanada dünya standartlarına uyğun

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

beynəlxalq səviyyədə işləyəcək bir sistemi VTLS (Virginiya Texnical Library System) tətbiq edilməyə başlanmışdır.

Milli Kitabxana ABŞ-ın Beynəlxalq Təminat Təşkilatı ilə müqavilə bağlayaraq Avrasiya Fondunun maliyyə dəstəyi ilə VTLS-in tam kompleksini almışdır. Bu proqram elektron kataloqun tərtibindən, elektron kitabxananın təşkilinədək, kitab fondunun komplektləşdirilməsindən, milli biblioqrafiyanın və respublikanın bütün kitabxanalarının toplu elektron kataloqunun yaradılmasına qədər bütün proseslərin avtomatlaşdırılmasına imkan verir. [2, s.3.]

VTLS sistemi dünyada internetə birbaşa çıxışı olan müasir sistemlərdən biridir və Beynəlxalq Kitabxana Təşkilatının iri kitabxanalar və kitabxana şəbəkələri üçün tövsiyə etdiyi sistemdir. Bu sistemin 180-a qədər avtomatlaşdırılmış işçi yeri mövcuddur. [4, s.26.] Proqram təminatının quruluşu müştəri – server arxitekturasına uyğundur və nəzərə çarpacaq dərəcədə kompüter şəbəkəsinə olan yükü azaldır. Proqram təminatı aşağıdakı proqram modullarını özündə birləşdirir.

- Komplekləşdirmənin idarə olunması;
- Kataloqlaşdırmanın idarə olunması;
- Dövri nəşrlərin idarə olunması;
- Xidmətin idarə olunması;
- Fondların elektron yoxlanışı;
- Ümumi girişin interaktiv kataloqu;
- Statistika;
- Elektron sifariş;
- Ehtiyat saxlama;
- Məqalələrin məlumat bazası;
- Biblioqrafik filtrasiya;

Elektron kataloq oxucuların ənənəvi kataloqlar üzrə saatlarla axtarış aparmaları kimi ağır prosesi aradan qaldırır, hətta bilavasitə iş və yaşayış yerlərindən kitabxananın elektron kataloqundan istədikləri məlumatı əldə etmək imkanı yaradır. Kitabxananın iş saatı olmadıqda belə, dünyanın hər hansı nöqtəsindən internetə qoşulmaqla istənilən şəxs elektron kataloqdan istifadə edə bilər.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elektron kataloqlarına sənədlər haqqında məlumatın toplanması, hər hansı sənədə dair lazımi informasiyanın tələb olunan şəkildə təlabatcıya çatdırılması təmin edilir. Elektron kataloqlar dünya kitabxanalarının internet vasitəsilə yayılan əsas informasiya mənbəyidir. Elektron kataloq olmadan kitabxanada kompüter əsasında tətbiq edilən bütün işlərin xarakteri dar məna daşıyacaqdır. Elektron kataloqlarına malik olan kitabxana öz fondunu daha geniş şəkildə əks etdirə bilər, geniş oxucu-tələbatçıların nəzərəinə çatdıra bilər, bütünlükdə kitabxana sisteminin ümumi səviyyəsinə və keyfiyyətinə fəal təsir göstərə bilər. Onu da qeyd etmək yerinə düşər ki, elektron kataloqlar dünya miqyasında təkcə bir kitabxana daxilində axtarışı məhdudlaşdırmır. Oxucu-tələbatçı eyni zamanda ona lazım olan informasiyanın axtarışını digər kitabxanalarla əlaqəli şəkildə apara bilər, istədiyi materialı əldə edər, mütaliə dolğunluğu yaradır. Buna görə də respublikamızda elektron kataloqların yaradılmasına mühüm ehtiyac duyulur.

Elektron kataloqlar ilə işləməyin bəzi ümumi qaydalarını nəzərdən keçirək.

Birinci. Tələbatçı ilk növbədə kitabxanada mövcud olan məlumat bazalarının həcmini, həmin bazada nə qədər biblioqrafik qeydlərin əhatə olunmasını, burada hansı növ sənədlərin əks etdirilməsini, bu prosesin hansı vaxtdan başlamasını, kataloqa daxil olan bütün sənədlərin əhatə olunmasını, kataloq kartoçkalarının tərtib edilməsini və onun elektron kataloqları ilə əlaqəli işlənməsini, kataloq kartoçkalarından istifadəetmə illərinin müəyyənləşdirilməsi, konkret bilik sahələrinin və ya tematik bölmələrin nəzərə alınmasını, sorğu-informasiyanın növlərini və onun axtarış sistemində istifadəsini bilməlidir.

Ikinci. Elektron kataloqların ekranında axtarışlar ardıcıl aparılır və müxtəlif məlumatlar verilir. Əgər ekranda axtarışların sadalanma imkanı varsa, onda tələbatçı sadəcə olaraq ekranda göstərilən lazımi variantı seçir və informasiyanı əldə edir.

Üçüncü. Ekranda verilən xidmət-klavişinin dəstəyini sətirlər, xətlər arasında hərəkəti yuxarı, aşağı istiqamətdə dəqiq təmin olunmalıdır.

VTLS sisteminin köməkliyi ilə maliyyə vəsaiti sərf etmədən qısa vaxtda, respublikanın bütün kitabxanalarının vertual elektron kataloqunu yaratmaq mümkündür. Belə ki, kitabxanaların fondlarında mühafizə

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

edilən ədəbiyyatın əksəriyyətinin Milli Kitabxananın fondunda olduğundan toplu kataloqun yaradılması zamanı ədəbiyyatın yenidən təsvirinə və VTLS sisteminə daxil edilməsinə ehtiyac qalmır.

Ədəbiyyatın təsvirinin və sistemləşdirilməsinin çox vaxt aparan, gərgin əmək tələb edən və yüksək ixtisaslı, təcrübəli mütəxəsis biliyi bahasına başa gələn proses olduğunu nəzərə alsaq, toplu kataloqun Milli Kitabxananın məlumat bazası əsasında tərtibinin nə qədər böyük əhəmiyyət daşıdığı aydınlaşar. Toplu kataloqda ədəbiyyatın təsviri verildikdən sonra onların hansı kitabxanada neçə nüsxədə mühafizə olunduğu da göstərilir. Beləliklə, bölgələrdə yaşayan istifadəçilər hər hansı kitab üçün Bakıya deyil, əlaqədar şəhər və rayonların kitabxanalarına müraciət etmək imkanı qazanırlar.

Bundan başqa, Milli Kitabxana “Maşınlaoxunan elektron kataloqun yaradılması” adlı layihə ilə 3 təşkilata müraciət edərək maliyyə dəstəyi əldə etmişdir. [1.]

Bütün bunların nəticəsi olaraq Milli Kitabxana tərəfindən yaradılan elektron kataloq artıq 2005-ci ilin ortalarından oxucuların istifadəsinə verilmişdir. Milli Kitabxananın elektron kataloqundan istifadə etmək istəyən hər bir istifadəçi www.anl.az. saytına daxil olmaqla asanlıqla istənilən informasiyanı əldə edə bilər. Internet portalı Azərbaycan, rus və ingilis dillərində işlənib hazırlanmışdır.

Milli Kitabxana elektron kataloq vasitəsilə ABŞ-ın Konqress Kitabxanası və Rusiya Dövlət kitabxanası ilə biblioqrafik yazı mübadiləsi aparır. Bu isə oxucuya imkan verir ki, kitabxananın saytı vasitəsilə birbaşa olaraq bu kitabxanaların elektron kataloqlarında axtarış apara bilsin və onlara sorğu ilə müraciət edərək istədikləri sənəd haqqında məlumat ala bilsin. Buradan göründüyü kimi, kitabxananın saytı nəinki kitabxananın elektron resursları, həmçinin dünyanın ən nəhəng kitabxanalarının fondunda olan ədəbiyyatla tanış olmağa imkan verir. Bununla oxucular həm vaxtlarına, həm də maliyyə vəsaitlərinə qənaət edirlər.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

### *Ədəbiyyat*


1. *Azərbaycan Milli kitabxanası http: // www.anl.az*
2. *M.F.Axundov adına Azərbaycan Milli kitabxanasının 2006-cı il hesabatı.*
3. *Rüstəmov, Ə.M. Informatika: Dərslik.-B., 2002, 556 s.*

**4.** *Rüstəmov, Ə.M. Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması /Ə.M.Rüstəmov, N.Mustafayeva// Kitabxanaşünaslıq və biblioqrafiya. Elmi-nəzəri, metodik və təcrübi jurnal.- 2007.- № 2.- s. 15-26.*

***Eqana Мамedova***

***Электронный каталог национальной библиотеки им. М.Ф.Ахундова (общая характеристика)***

***РЕЗЮМЕ***

*В статье изучается общая характеристика электронного каталога (ЭК) Национальной библиотеки им. М.Ф.Ахундова. ЭК Национальной библиотеки разрабатывается на базе системы VTLS и составляет один из ее модулей. В статье основное внимание удалено структуре и функции ЭК.*

***Yegana Mamedova***

***The electronic catalogue of national library of a name M.F.Akhundov (general characteristic)***

***SUMMARY***

*In article is studied the general characteristic of the electronic catalogue of National library of a name M.F.Akhundov . The electronic catalogue of National library is developed on the basis of system VTLS and makes up one of its modules. In clause the basic attention is given to structure and function of the electronic catalogue.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**CƏMALƏ TALIBOVA**
*Magistrant*

# MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ MƏRKƏZİ ELMİ KİTABXANASININ ELMİ-TƏDQİQAT FƏALİYYƏTİ

Respublikamızın XX əsrdə ikinci dəfə öz müstəqilliyini və suverenliyini elan etməsi xalqımızın taleyində böyük tarixi iz buraxmışdır. Belə ki, müstəqillik şəraitində əldə edilən imkanlar ölkəmizin sosial-iqtisadi tərəqqisi, mədəni-mənəvi və elmi potensialının güclənməsi üçün yeni imkanlar açmışdır.

1991-cı ildə Sovetlər Birliyinin dağılması məhz demokratik cəmiyyət quruculuğunun başlanğıcı olan yeni-müstəqil Azərbaycan Respublikasının yaranmasına səbəb olmuşdur. Həmin dövrdə artıq yeni ictimai quruluş yarandı ki, bu quruluş da ölkə həyatının bütün sahələrində özünü göstərdi. Əsrin əvvəllərində xalqımızın qazandığı sərvətlərdən biri olan, eyni zamanda elm və mədəniyyət tariximizdə yeni başlanğıc yaradan, millətimizin qürur, fərəh duyğusunun səbəbi, elm və mədəniyyət ocağı olan Milli Elmlər Akademiyası indiki dövrdə də hüquqi dövlət və bazar iqtisadiyyatı cəmiyyəti yolunda addımlayan müstəqil, demokratik Azərbaycan Respublikasının əsas aparıcı elm mərkəzidir.

Elmin varlığını, inkişafını təmin edən ən mühüm amillərdən biri onun sənəd-İnformasiya sərvətidir. Müasir dövrdə hər bir cəmiyyətin elminin səviyyəsini xarekterizə edən əsas göstəricilərdən biri onun İnformasiya ehtiyatları və bu İnformasiyanı toplayıb mühafizə edən kitabxanalardır. Kitabxanalar İnformasiya materiallarının toplanıb mühafizə edildiyi, elm, İnformasiya mərkəzi kimi cəmiyyətin formalaşmasında özünəməxsus yeri olan müəssisədir.

Milli Elmlər Akademiyasının fəaliyyətinin uğuru olan çoxsahəli kitabxana şəbəkəsi və burada toplanan İnformasiya sərvətləri sayəsində Azərbayan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası Azərbaycan elminin qızıl fondunu təşkil edir. Əsrin əvvəllərində yaranan bu kitabxananın əsas vəzifəsi alim və mütəxəssislərə kitabxana-biblioqrafiya xidməti gösərməkdir. MEK respublikamızın ən böyük kitab

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

fonduna və oxucu sayına malik olan kitabxanalarından biridir. Tarixən kitabxanaların əsas funksiyası elmi İnformasiya sərvətlərini gələcək nəsillərə çatdırmaq, elmi kadrların yetişdirilməsi olmuşdur. Belə kitabxanalardan olan Mərkəzi Elmi Kitabxananın qarşısında müstəqilliyin ilk illərində bir sıra vəzifələr qoyulmuşdu. Oxuculara kitabxana xidmətini yeni forma və üsullar əsasında qurmaq; kitabxana işini demokratikləşdirmək; kitabxana işinin İnformasiyalaşdırılması; kitabxananın maddi-texniki bazasını möhkəmləndirmək, ən əsası isə kitabxana işinin dünya standartları səviyyəsində qurmaq və s. kimi işlərin həyata keçirilməsi qarşıda duran əsas iş idi. Lakin müstəqilliyin ilk illərində ölkənin siyasi həyatında baş verən çətinliklər kitabxananın işinə də öz mənfi təsirini göstərmişdir. Belə ki, həmin dövrdə kitabxananın maddi-texniki bazası zəifləmiş, kitab fondunun komplektləşdirilməsi işində ciddi problemlər meydana çıxmış, beynəlxalq əlaqələr pozulmuş, kitabxananın maliyyələşdirilməsi ciddi çətinliklərlə üzləşmişdir ki, bütün bunlar da oxuculara xidmət işini ləngidirdi.

Bu çətin dövrdə həm respublikamızın, həm də onun inkişafında özünəməxsus rolu olan kitabxanalarımızın həyatında yeni bir dövr başlandı. Bu dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin prezident seçilməsi ilə bağlı olmuşdur. Uzaqgörən siyasətçi olan rəhbərin iti zəkası sayəsində respublikamızın ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-mədəni həyatının bütün sahələrində nailiyyətlər əldə edildi..

1993-cü ildə xalqın tələbi ilə ölkə prezidenti kimi hakimiyyətə gələn Heydər Əliyev yenidən bütün qüvvəsi ilə ölkənin rifahını yüksəltmək üçün çalışmışdır. Ölkənin demokratikliyini, müstəqilliyini təsdiqləmək üçün ilk demokratik Konstitusiya qəbul edilmişdir ki, burada 40-cı və 50-ci maddələrdə xalqın İnformasiya azadlığı xüsusi vurğulanmışdır. Ölkənin milli mədəniyyətinin tərkib hissəsi olan kitabxanalara yüksək qiymət verdiyi prezidentin M.F.Axundov adına Milli Kitabxanada kitabxanalar haqqında söylədiyi sözlərdə də təsdiqlənmişdir. “Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir” ifadəsi ilə prezident H.Əliyev kitabın və kitabxanaların

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

həmiyyətini və onları daim diqqət mərkəzində saxladığını sübut etmişdir. (8)

Azərbaycan Elmlər Akademiyası və onun kitabxanası üçün görülən tədbirlər də bunu bir daha təsdiqləmişdir. Baxmayaraq ki, həmin dövrdə Akademiyanın bağlanmaq təhlükəsi vardı. Ulu öndərin ölkənin siyasi, iqtisadi və mədəni həyatında reallaşdırdığı tədbirlər nəticəsində Akademiya ilə yanaşı, kitabxnanın işində də canlanma baş verdi. Ən əsası kitabxananın maliyyələşdirilməsi, onun beynəlxalq əlaqələrinin genişləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, oxucu-lara xidmət işinin yaxşılaşdırılması kimi tədbirlər tam qaneedici olmasa da, kitabxananın həyatında olan durğunluğa son qoydu və gələcək perspektivlər üçün zəmin yaratdı. Müstəqillik illərində eyni zamanda kitabxana öz fondunun komplektləşməsi ilə yanaşı elmi-tədqiqat institutlarının kitabxanalarının komplektləşdirilməsi işinə böyük qayğı göstərmiş, kitabxana fondlarını dinamik, oxucu tələblərinə cavab vermək durumunda saxlamağa müvəffəq olmuşdur.

Azərbaycan MEA-nın MEK-sı 27 tədqiqat Institutunun kitabxanasına metodik rəhbərlik edir. Çünki, AMEA-nın MEK-sı elə yarandığı vaxtdan onun əsas fəaliyyət istiqamətlərindən biri də elmi-tədqiqat işləri olmuşdur.Bütün çətinliklərə baxmayaraq Elmi kitabxana 1990-cı illərdə də planlı şəkildə bir sıra tədqiqat işlərinə başlamışdır:

MEK-nın hazırladığı biblioqrafik göstəricilərin istifadəsinin effektivliyinin öyrənilməsi; Kitabxananın soraq-biblioqrafiya aparatının (kataloq və kartotekaların) oxucular tərəfindən istifadəsinin effektivliyinin öyrənilməsi; MEK-nın təşkil etdiyi kitab sərgilərinin istifadəsinin effektivliyinin öyrənilməsi və s. elmi-tədqiqat işləri həyata keçirilmişdi. Kitabxana-biblioqrafiya, elmi-tədqiqat və elmi-metodiki işlər sahəsində araşdırmaların nəticələri professional mətbuat səhifələrində və Kitabxananın 4-cü buraxılışda nəşr etdiyi "Elmi əsərlər"də dərc edilmişdir.( 1 )

Baxmayaraq ki, 90-cı illərin əvvəllərində Azərbaycan EA-sı maliyyə çətinliyi ilə üzləşdiyindən, elmi işçilərinin bir hissəsini itirmiş, elmi-tədqiqat işlərinin aparılmasında böyük çətinliklərlə üzləşmişdi, yenə də sonrakı illərdə öz iş fəaliyyətini davam etdirmişdir.

1991-ci ildə kitabxananın elmi əməkdaşlarına, akademiklərə, Prezidiumun üzvlərinə, kitabxana tərəfindən sifariş olunmuş "Xarici

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

dövri nəşrlərin kataloqu" (Təbii elmlər seriyası) hazırlanmışdı. Kitabxananın əməkdaşları tərəfindən araşdırılan elmi-tədqiqat problemlərinin analiz planı göstərir ki, kitabxananın elmi-texniki İnformasiya şöbəsi 21 elmi-tədqiqat inistitutunu araşdırılan 265-dən çox elmi problemlərlə bağlı İnformasiya ilə təmin etmişdi.( 2 )

Eyni zamanda 30 sərgi təşkil olunmuşdu ki, onlardan 10-u EA-nın problemləri ilə bağlıydı. Bunların içərisində "ETT-nin sürətlənməsində elmin rolu", "Azərbaycan ekologiyasının problemləri", "Xəzərin problemləri: enerci, ekologiya, iqtisadiyyat" və s.başlıqlar altında sərgilər təşkil olunmuşdu. Həmin ildə eyni zamanda alimlərin, elmi-tədqiqat inistitutlarının əməkdaşlarının, o cümldən müxtəlif elmi mərkəzlərin əməkdaşlarının İnformasiya tələbatları kitabxana tərəfindən ciddi şəkildə ödənilmişdi. Ümumiyyətlə, MEK-da elmi-tədqiqat işi bütün şöbələr tərəfindən həyata keçirilir. Uzun illər MEK-nın elmi-tədqiqat işinin başlıca mövzusu "Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında əməyin elmi təşkili" olmuşdur. Məhz həmin il kitabxananın elmi-metodiki fəaliyyəti Azərbaycan daxilində Mərkəzi Elmi Kitabxananın filiallarına və digər elmi mərkəzlərə köməkliklərin göstərilməsinə istiqamətlənmişdir.

1993-cü ildə kitabxanada Azərbaycan Elmlər Akademiyasının Elmi-Tədqiqat Inistitutları nəzdindəki elmi-texniki İnformasiya şöbəsinin əməkdaşlarına 6 seminar keçirilmişdi. (3) Seminarlarda elmi-tədqiqat işlərinin rəhbərlərinin və onların bilavasitə əsas iştirakçılarının İnformasiya ilə təmin edilməsinin vacibliyi qeyd edilmişdir. Eyni zamanda ETI-ın strukturunun dəyişməsi ilə əlaqədar olaraq elmi-tədqiqat işlərinin mövzularının dəqiqləşdirilməsinə, bu sahədə alim və mütəxəssislərin sorğu dairələrinin diqqət mərkəzində saxlanmasına xüsusi nəzarət edilmişdir.

Kitabxana işinin elmi əsaslarla qurulması məsələsinin həlli həmişə bu sahədə elmi-tədqiqat və elmi-metodiki işlərin inkişafına təkan verir. Kitabxananın elmi fəaliyyətinin məzmunu və istiqaməti, respublikada kitabxana-biblioqrafiya işinin inkişafının səviyyəsi respublikada böyük kitbxanalardan biri olan MEK-ın özünün inkişaf ehtiyatlarının istiqaməti ilə müəyyən edilmişdir. Kitabxanaşünaslıq və biblioqrafiya sahəsində bütün elmi-tədqiqat işlərinə respublikada Azərbaycan Mədəniyyət Nazirliyi nəzdindəki elmi-tədqiqat komissiyası rəhbərlik edir.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmlər Akademiyasının MEK-da əhəmiyyətli dərəcədə elmi-tədqiqat işləri aparılır və bu işlərin nəticələrinin gündəlik işə tətbiqi mövzu seçilərkən müəyyənləşdirilir. Kitabxananın elmi-tədqiqat işlərində bütövlükdə işin keyfiyyətinə müsbət təsir göstərən istər metodiki, istərsə də təşkilati məsələlərə böyük yer verilir.

MEK-nın bütün şöbələrinin gördüyü işlərin keyfiyyətini artırmaq məqsədilə daim tədqiqat işi aparılır və bu tədqiqatların nəticələri elmi məqalə halında çapa hazırlanır. Bu baxımdan həmin il kitabxananın Elmi-Metodik Şurasında müzakirə edilmiş bir sıra məsələlər şöbələrdə aparılan tədqiqatların nəticələri belə əks olunmuşdur: "KAA-ın yeni şəraitdə təkmilləşməsi", "Azərbaycan və rus dillərində MEK-ya daxil olan kitablar" biblioqrafik İnformasiya bülleteninin istifadəsinin effektivliyi; "Azərbaycan xarici mətbuatda kartotekasının və göstəricisinin tərtib edilməsi təcrübəsindən", "Oxucu borcları ilə mübarizə tədbirləri" haqqında Azərbaycan Elmlər Akademiyasının MEK-nın əməkdaşlarının müxtəlif məqalələr məcmuəsi və dövri mətbuatda nəşr edilmiş məqalələrin toplanıb küll halında yenidən çapı .(3) Lakin məhz həmin dövrdə respublikadakı çətin vəziyyətlə bağlı olaraq inistitutlar özünümaliyyələşdirmə üsuluna keçir və ölkədəki hadisələrlə əlaqədar kitabxananın bütün sahələrində iş prosesləri azalırdı. Belə ki , maddi vəsaitin olmaması səbəbindən məqalələr toplusu və eyni zamanda kitabxanaya alınan ədəbiyyatları tanıtmaq məqsədilə kitabxana tərəfindən ildə 4 dəfə buraxılan "Kitabxanaşünaslıq və biblioqrafiyaya aid yeni kitablar" adlı bülletenin çapı 1993-cü ildən dayandırılmışdı.

Baxmayaraq ki, kitabxanada ilk elmi-tədqiqat işi 70-ci illərdə "Azərbaycan Elmlər Akademiyasının kitabxanalarının fondlarından istifadə səmərəliliyi və onların kompleks elmlər üzrə oxucuların İnformasiya sorğularına uyğunluğu" mövzusunda işlənmişdir, sonrakı illər alim və mütəxəssislərə göstərilən kitabxana-biblioqrafiya xidmətinin yaxşılaşdırılması məqsədilə kataloq və kartotekaların, ədəbiyyat fondlarının, həmçinin kitabxana tərəfindən nəşr edilmiş biblioqrafik göstəricilərin istifadə səmərəliliyinin öyrənilməsi elmi-tədqiqatların əsas istiqaməti olmuşdur.

Müstəqilliyin ilk illərində- 1992-ci ildə MEK-da bütün şöbələrin aktiv surətdə iştirakı ilə yeni elmi-tədqiqat işi aparılmışdır ki, bu

tədqiqatın nəticəsində "Azərbaycan Elmlər Akademiyasının MEK-da əsas iş proseslərinin vaxt norması" adlı toplu nəşr edilmişdir. (9)

Sonrakı illərdə MEK-na Akademiyanın akademiklərinə, müxbir üzvlərinə biblioqrafik İnformasiyalar, elmi-tədqiqat işlərinin mövzuları üzrə məlumat nəşrləri və s. təqdim edilmişdir. Məhz bu illərdə1994-cü ildə məlumat işində yeni təsərrüfat mexanizminin tətbiqi üçün ilkin addımlar atılmış, MEK Azərbaycan EA-nın elmi-tədqiqat idarələri ilə 5 müqavilə bağlamışdır. Bu müqavilələr tərəflərin qarşılıqlı marağı prinsipi ilə bağlanmışdı.

Bu il eyni zamanda "Azərbaycan EA-nın MEK-sı şəbəkəsində əməyin elmi təşkili" mövzusunda çoxaspektli iş başa çatdırılmışdır. Sonrakı il bu işin davamı kimi olan "Azərbaycan EA-sı MEK-dakı işin əsas proseslərinin istehsal və vaxt normaları" adlı texnoloci kartoteka redaktə edilib kitabxana əməkdaşlarının istifadəsinə verilmişdi. Həmin il həm də kitabxananın Elmi-Metodik Şurasında müzakirə edilmiş bir sıra işlərin nəticələri "MEK daxil olan xarici curnalların toplu sistemli kataloqunun təşkili", "Əlifba kataloqunda əlavə qeydlərin məhdudlaşdırılması yolları","Elmi biblioqrafiya şöbəsinin hazırladığı göstəricilərin vəziyyəti", "Azərbaycan EA MEK-da biologiya təmayüllü alimlərə müqavilə ilə və müqaviləsiz biblioqrafik İnformasiya xidməti", " Oxucu borcları ilə mübarizədə qarşıya çıxan problemlər və onların həlli yolları" və s. elmi-tədqiqat işinin bir qolunu təşkil etmişdir. ( 4 )

Bütün bunlarla yanaşı, kitabxananın işini təhlil edərkən yeni təsərrüfatçılıq şəraitində vəziyyətin yaxşılaşması haqqında nəticə çıxarmaq olmazdı. Çünki respublikada iqtisadi sabitliyin olmaması və mürəkkibliyi buna mühüm təsir göstərir. Eyni zamanda kitab məhsullarına, kağıza olan qiymətlərin artması, abunə xərclərinin artması, poçt məsrəfləri, cildləmə materialları və başqa faktorlar kitabxana işinə mənfi təsir göstərirdi.

Kitabxananın arxiv sənədlərinə nəzər saldıqda, 1995-ci ilin hesabatlarından məlum olur ki, EA-nın MEK-sı və onun bütün şəbəkəsinin fəaliyyətinin əsas istiqaməti ETI-da aparılan elmi axtarışların artıq təşəkkül tapmış İnformasiya təminatı sisteminin daha da təkmilləşdirilməsinə yönəldilmişdi.

80 illik fəaliyyət dövrü keçən Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası bu dövr ərzində ölkənin ən iri kitabxana -

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

İnformasiya müəsssisələrindən birinə çevrilərək elmin inkişafında, elmi kadrların yetişdirilməsində əvəzsiz rol oynamışdır. Azərbaycan EA sistemində əsas struktur vahidlərindən olan MEK Elmlər Akademiyası sistemində və digər elmi müəssisələrdə aparılan elmi-tədqiqatların analitik-İnformasiya təminatı, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq, kitabxana fondlarının konservasiyası və bərpası, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, müasir İnformasiya texnologiyalarının istifadəsi və tətbiqi sahələrində fəaliyyət göstərən elmi müəssisədir. MEK Elmlər Akademiyası sisteminin baş kitabxanası olub, Akademiyanın elmi-tədqiqat müəssisələrinin kitabxanaları ilə əlaqələndirilmiş şəkildə oxuculara kitabxana-biblioqrafiya və İnformasiya xidməti göstərən universal elmi kitabxanadır.

Elmi kitabxananın 11 şöbəsi var. Bu şöbələrin hər biri özünəməxsus elmi-tədqiqat işləri ilə məşğul olur ki, bu da ümumi kitabxananın elmi-tədqiqat fəaliyyətini tamamlamış olur. Müstəqilliyin ilk beşilliyində kitabxananın şöbələrinin iş fəallığını öyrənmək üçün kitabxanaşünaslıq şöbəsinin illik hesabatlarına nəzər yetirilmişdir.

Cəmiyyətin bütün sahələrində baş verən yenidənqurma proseslərinin surətlə inkişafı kitabxanaların da fəaliyyətinə müsbət təsir göstərir, onu öz fəaliyyətini günün tələblərinə uyğun qurmağa vadar edir. Əlbəttə, bütün kitabxananın fəaliyyətinə təsir göstərən hadisələr kitabxanaşünaslıq şöbəsindən də yan keçməmişdir.

Şöbə 1990-cı ildən əsas işlərini üç istiqamətdə aparmışdır:

1. Elmi-tədqiqat işləri
2. Elmi- metodik işlər
3. Şöbənin nəzdində kiçik həcmli kitabxana funksiyalarını yerinə yetirən kitabxanaşünaslıq kabinəsinin işləri. ( 5 )

Məhz həmin ildə kitabxanaşünaslıq şöbəsində aşağıdakı elmi-tədqiqat işləri həyata keçirilmişdir.

MEK-nın fəaliyyətində istiqamətverici, rəhbər rol oynayan metodiki sənədlər, şöbələr haqqında əsasnamələr, şöbələrin iş fəaliyyətini müəyyənləşdirən təlimatlar, kitabxana əməkdaşlarının tutduğu vəzifəyə uyğun görməli olduğu iş prosesləri haqqında ixtisas xasiyyətnaməsi və s. toplanmış, redaktə edilmiş və vahid kitab halında nəşr edilməsi üçün son dəfə olaraq makinada çap edilməyə verilmişdir.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Qısa olaraq kitabxananın XII beşillikdə hansı elmi-tədqiqat işləri ilə məşğul olduğunu öyrənmək üçün də Kitabxanaşünaslıq şöbəsinin hesabatlarına nəzər yetirilmişdir.

1985-1990-cı ilin perspektiv planında aşağıdakı işlər nəzərdə tutulmuşdur:

1. Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının bələdçisinin hazırlanması;

2. Azərbaycan EA MEK-nın fəaliyyətini tənzim edən metodiki sənədlərin toplanıb kitab halında çapa hazırlanması;

3. "Kitabxana-biblioqrafiya və məlumat işi məsələləri" adlı məqalələr məcmuəsinin ikinci buraxılışının nəşri;

4.1984-cü ildən başlanmış "Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasdında əməyin elmi təşkili" adlı kompleks elmi-tədqiqat işinin davam etdirilməsi;

5. Elmlər Akademiyası İnformasiya-kitabxana şurasının nəzdində nəşr edilən məqalələr məcmuəsində MEK əməkdaşlarının məqalələrinin çapı;

6. Elmlər Akademiyasının təşkil etdiyi seminar konfrans və iclaslarda MEK əməkdaşlarının çıxışı.

Bütün bu qeyd olunan işlər beşillik plan üzrə nəzərdə tutulmuş və elmi-tədqiqat işləri yerinə yetirilmişdir.

Tədqiqat işləri ilə yanaşı, şöbə müəyyən metodiki matereallar da tərtib etmişdir ki, bunlardan:

· MEK-nın əməkdaşları üçün daxili əmək qaydaları;
· Surətçıxarma şöbəsi haqqında əsasnamə;
· Kitabxanaşünaslıq şöbəsi haqqında əsasnamə;
· Azərbaycan EA MEK-nın elmi-tədqiqat institutları nəzdindəki filiallarından istifadə qaydaları;
· Elmi-tədqiqatların nəticələrinin təcrübədə tətbiq edilməsi;
· Əməyin elmi təşkili üzrə komissiya haqqında əsasnamə və s.

1991-ci ildə şöbədə Azərbaycan EA MEK-da elmi-tədqiqat işlərinin istiqamətləri barədə məsələ müzakirə edilmişdir. Müzakirə nəticəsində aydın olmuşdur ki, "Əməyin elmi təşkili üzrə" elmi-tədqiqat işi bu il tam surətdə ümumiləşdirilməli idi. Yalnız 1992-ci ildə bu iş kitab halında öz həllini tapmalı idi.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Həmin dövrdə ölkədə baş verən siyasi və iqtisadi dəyişikliklər bütün sahələrdə olduğu kimi kitabxanaların da fəaliyyətinə təsir göstərmiş, onları öz işini dövrün tələblərinə uyğun qurmağa yönəltmişdir. Bununla əlaqədar olaraq elmi-tədqiqat institutlarının iş planlarında öz əksini tapmışdır. Belə ki, elmi-tədqiqat mövzularının dəyişilməsi, yeni elmi-tədqiqat işlərinin planlaşdırılması kitabxananın bütün iş proseslərini bu istiqamətə yönəltmişdir. 1992-ci il də kitabxananın və şöbənin qarşısında duran əsas plan "Azərbaycan EA MEK-na sistemində əməyin elmi təşkili " rus dilində çap edilən kitabların Azərbaycan dilinə tərcümə edilməsi, eyni zamanda bu kompleks tədqiqat işinin davamı - toplanan statistik məlumatların analizi, hər şöbədə görülən iş növlərinin tipik siyahısının tərtibi, norma çərçivəsinə daxil olmayan iş növlərinin ayırd edilməsi, hər şöbənin iş prosesi üçün qərar və təkliflərin hazırlanması kimi sənədlər yenidən tərtib edilərək dövrün tələbləri səviyyəsində tərtib edilmişdir.

1992-93-cü illərdə ölkədə baş verən siyasi və iqtisadi dəyişikliklər kitabxanaların fəaliyyətinə öz təsirini göstərirdi. Məhz 1992-ci ilin yanvarın 1-dən MEK-ın filialları Mərkəzi Elmi Kitabxanaların kitabxanalar şəbəkəsinə çevrilmişdir və nəzdində olduqları elmi-tədqiqat institutlarının mövzularının dəyişilməsi kitabxananın bütün iş planlarında öz əksini tapmışdır.

Maliyyə çətinliklərinə baxmayaraq, kitabxana tədqiqat işlərini davam etdirirdi. Belə ki, 1992-ci ildə əməyin elmi təşkili üzrə işin davamı olan "Normalar" kitabı hazırlanmış, ruscadan tərcümə edilib redaktə edilmiş və çapdan çıxmışdır. (6) 1992-ci il eyni zamanda müəyyən məqalələr redaktə edilmişdir ki, bu da tədqiqat işinin əsas tərkib hissələrindəndir:

· Rolğ nauçno-issledovatelğskoy rabotı v deətelğnosti ÜNB AN Azerbaydjana.

· Iz opıta rabotı po komplektovaniö QOST-ov i vnedreniö standartov v ÜNB i ee filialov.

· K voprosu gffektivnosti metodiçeskoqo rukovodstva ÜNB deətelğnosti ee bibliotek - filialov pri NIU AN Azerbaydjana.

· Azərbaycan EA MEK-nın "Alimlər evi" oxu zalında oxuculara biblioqrafik xidmət.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

· Azərbaycan EA MEK-nın bələdçisi-kiçik həcmli yeni bələdçi tərtib edilmişdir.

· Azərbaycan EA MEK-nın kitabxanalar şəbəkəsi haqqında əsasnamə tərtib edilmişdir.

Fəaliyyətdə olduğu dövr ərzində MEK tərəfindən geniş metodiki iş aparılmış, elmi-tədqiqat idarələri nəzdində kitabxananın ədəbiyyatla komplektləşdirilməsinin ədəbiyyatın işlənməsi və sistemləşdirilməsi prosesinin metodika və texnikasının elmi əsaslarının təşkil olunması, biblioqrafiya və məlumat işinin aparılmasının prinsipləri nizamlanmışdır.

1993-cü ildə Məlumat-biblioqrafiya xidmətinin effektivliyinin öyrənilməsi üzrə böyük iş aparılmışdır. Məlumdur ki, elmi-tədqiqatların effektivliyinin yüksəldilməsinin mühüm şərti tədqiqatçıların elmi-məlumatla operativ təminatıdır.

Kitabxananın elmi-tədqiqat işində metodiki və təşkilati məsələlərə də xüsusi diqqət yetirilmişdir ki, bu da bütünlüklə kitabxananın işinin keyfiyyətinə və effektivliyinin yüksəldilməsinə zəmin yaradır.

MEK Elmlər Akademiyasının elmi-tədqiqat idarələri ilə könüllü olaraq qarşılıqlı maraq əsasında müəyyən sayda müqavilələr bağlayırdı. 1994-cü ildə də belə tip 5 müqavilə bağlanmışdı.(7) Bu müqavilənin əsas məqsədi alimlərə məlumat xidməti dairəsinin genişləndirilməsi zərurəti yaratmaq olmuşdu.

Ədəbiyyatın seçilib paylanması Azərbaycan EA işçilərinə xidmət yollarının əlverişli formalarından biridir. Bu sistem daim oxucularla əks-əlaqə yaradır, bu zaman abonent hər bir biblioqrafik məlumatlara öz rəyini bildirmək imkanı əldə edir. Oxuculara xidmətin forma metodlarının təkmilləşdirilməsi məsələləri, biblioqrafik vəsaitlərin mövzu dairəsinin genişləndirilməsi Azərbaycan Milli EA MEK -nın daima diqqət mərkəzində olmuşdur.

1993-94-cü illərdə artıq uzun zaman davam edən " Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasındakı işin əsas proseslərinin istehsal və vaxt normaları" adlı texnoloci kartoteka redaktə edilmiş və kitabxana əməkdaşlarının istifadəsinə verilmişdir (7).

### *Ədəbiyyat*


*1.Azərbaycan EA MEK-nın 1990-cı il hesabatı .- s 30*

*2.Azərbaycan EA MEK-nın 1991-ci il hesabatı .- s 26*

*3.Azərbaycan EA MEK-nın 1993-cü il hesabatı .- s 22*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

4.Azərbaycan EA MEK -nın 1994 -cü il hesabatı .- s 28
5.Azərbaycan EA MEK-nın Kitabxanaşünaslıq şöbəsinin 1990-cı il hesabatı .- s 4
6.Azəbaycan EA MEK -nın Kitabxanaşünaslıq şöbəsinin 1992-ci il hesabatı .- s 6
7.Azərbaycan EA MEK -nın Kitabxanaşünaslıq şöbəsinin 1994-cü il hesabatı .- s. 3
8.Azərbaycan Respublikasının Prezidenti H. Əliyevin çıxışı // Azərbaycan qəzeti , 6 iyun, 1995-ci il
9.Əliyeva-Kəngərli A., Hüseynova F. Azərbaycan MEA-nın Mərkəzi Elmi Kitabxanasında elmi-tədqiqat işləri; inkişaf tarixi, müasir vəziyyəti və perspektivləri /Elmi əsərlər V buraxılış .-2004 .-s 18-26
10. Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin nailiyyətləri // Azərbaycanda kitabxana işi (Elmi əsərlər mövzu toplusu).-B.:BDU, 1991.-s 16-17

***Джамаля Талыбова***

**Научно-исследовательская деятельность Центральной Научной Библиотеки Академии Наук Азербайджанской Республики начальные годы независимости**

**РЕЗЮМЕ**

*В статье было рассмотрено научно-исследовательские работы, проведенные в институтах Академии Наук Азербайджана и в Центральной Научной Библиотеке. Такъе было рассмотрено оперативно-информационная служба в библиотеках. Было раскрыто ряд факторов, в том числе, изучение эффективности пользования читателей каталогами и картотеками поискового библиографического аппарата библиотеки, суть работ проводимых научно-исследовательских и научно-методических областях.*

***Jamala Talibova***

**Scientific research activity of the central science library of science academy of Azerbaijan republic's first years of independence**

**RESUME**

*In this article there was considered the scientific-researches which have been carried out at the institutes of Azerbaijan Science Academy and*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

*at the Central Science Library. Also there was learned the operative-information service at libraries. It was discovered number of the factors, including the study of efficiency of the catalogues and cards files of library's bibliographic device usage by readers, the real issue carried out at scientific-research and at the scientific-methodical sphere.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**ZÖHRAB ƏLİYEV**
*Professor*

## BİBLİOQRAFİK İNFORMASİYA ÜMUMİ İNFORMASİYA KOMMUNİKASIYALARI SİSTEMİNDƏ

Biblioqrafik İnformasiya «İnformasiya» anlayışının bir tərkib hissəsi kimi sənəd kommunikasiyaları sistemində özünəməxsus, səciyyəvi xüsusiyyətə malik bir vasitədir. Ümumiyyətlə İnformasiya nədir? İnformasiya dedikdə hər şeydən əvvəl bizi əhatə edən mühit haqqında hər cür məlumat nəzərdə tutulur. Bununla bərabər İnformasiya şəxslər, predmetlər, faktlar, hadisələr və müxtəlif proseslər haqqında məlumatlardan ibarət ola bilər. Onun çatdırılması prosesi bu zaman əhəmiyyət kəsb etmir, yəni məlumatın çatdırılması formasından asılı olmur (7,S.6).

Azərbaycan Respublikası Milli Məclisinin «İnformasiya, İnformasiyalaşdırma və İnformasiyanın mühafizəsi haqqında» 3 aprel 1998-ci il tarixdə qəbul etdiyi qanunda «İnformasiyalaşdırma» anlayışına belə tərif verilir: «İnformasiyalaşdırma – İnformasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünü idarəetmə orqanlarının təşkilati, hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların və vətəndaşların İnformasiya tələbtlarının və bu sahədəki hüquqlarının təmin edilməsində optimal şəraitin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi –texniki prosesdir »(maddə 2) (1,S.1214)

Həmin qanunda daha sonra deyilir: «İnformasiya ehtiyatları – İnformasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, ayrıca mövcud olan sənədlər və onların massivləridir» (maddə 2)

Habelə İnformasiya hadisələr, proseslər, canlı və cansız təbiət obyektləri haqqında məlumatdan, proqramlardan və təlimatlar məcmuundan ibarət ola bilər. Insanlar bu məlumatları müxtəlif mənbələr vasitəsilə alır və onlardan gündəlik həyat və fəaliyyətlərində istifadə edirlər.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

İnformasiya cəmiyyətdə həmişə  və indi xüsusilə mühüm əhəmiyyət kəsb edir. Müasir cəmiyyəti elə ona görə də İnformasiya cəmiyyəti adlandırırlar. Bəşəriyyət daima İnformasiyanı toplamış, qorumuş və yaymışdır. Insan özü, onun genetik kodu İnformasiya daşıyıcısı və eyni zamanda qoruyucusudur.

İnformasiya ehtiyatları mənsubiyətlərinə görə dövlət, qeyri-dövlət xarkteri daşıya bilər. Qeyri-dövlət İnformasiyası özü-özlüyündə şəxsi və ictimai İnformasiyaya ayrılır.

«İnformasiyanın müdafiəsi»  və «İnformasiyanın təhlükəsizliyi» sözlərinə tez-tez təsadüf edilir. Bunlar o deməkdir ki, toplanan, işlənən və qorunan məlumatların təhrif olunmasının, məhv edilməsinin  və icazəsiz istifadə olunmasının qarşısını almağa yönəldilmiş metodların, vasitələrin və tədbirlərin məcmuu müəyyənləşdirilib nəzərə alınmalıdır.

İnformasiyalaşdırma dövlət fəaliyyətində yeni istiqamətdir, İnformasiyanın qorunmasında əsas məqsəd isə bunlardan ibarətdir.

-İnformasiya axınının oğurlanmasının, təhrif olunmasının, ona yeni düzəliş verilməsinin qarşısını almaq;

-Şəxsiyyətin, cəmiyyətin, dövlətin təhlükəsizliyinin təmin olunması;

-İnformasiyanın korlanması, təhrif olunması, blokadaya (mühasirəyə) salınması üzrə icazəsiz hərəkətin qarşısını almaq;

-Vətəndaşların şəxsi sirlərinin saxlanılmasına dair  konstitusiya hüquqlarının müdafiə olunması;

-Dövlət sirrlərinin mühafizəsindən, sənədləşdirilmiş İnformasiyanın konfidensiallığı

İnformasiya ehtiyatlarını sənədlərin tiplərinə görə dokumentoqrafik, biblioqrafik, faktoqrafik (soraq kitabçaları, ünvan vasitələri, ensiklopediyalar və s.) konseptoqrafik, iqtisadi, hüquqi, kommersiya, elmi-texniki, konyuktura, sosial, ekoloji, təlim, mədəni və başqa İnformasiyalara bölmək olar.

İnformasiyanın istifadəsi vasitələrinin tipləri cihazlardan, İnformasiya kommunikasiyalarından, proqramlardan, texnologiyadan ibarətdir və s.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

İnformasiya ehtiyatları mühafizə, işlənmə və çatdırma əlamətlərinə görə təsnifləşdirilərsə o zaman onun iki tipii müəyyənləşir: ənənəvi və avtomatlaşdırılmış.

İnformasiya məkanına görə İnformasiya ehtiyatları lokal (evdə, işdə) və ya uzaq məkanda, yəni istifadəçidən uzaq olan hər cür məsafələrdə ola bilər.

Biblioqrafik İnformasiya ümumi İnformasiyanın bir tərkib hissəsidir və o biblioqrafiya nəzəriyyəsinin mərkəzi kateqoriyası, ilkin nöqtəsi kimi nəzərə alınır. Biblioqrafik İnformasiyanın nəzəriyyəsi məhz buna görə biblioqrafik fəaliyyətin ümumi nəzəri əsası hesab edilir və biblioqrafiyaşünaslıqda diqqət mərkəzində duran bir anlayışa çevrilmişdir. Xüsusilə 70-ci illərdə biblioqrafiyaşünaslığın ümumi nəzəriyyəsində əsas və mərkəzi kateqoriya kimi biblioqrafik İnformasiya haqqında konseptual mülahizələr formalaşmağa başlamışdır və sonralar da onun nəzəri şərhinə maraq durmadan artmışdır. Prof. O.P.Korşunovun bu sahədəki xidmətlərini xüsusilə qeyd etmək lazımdır (8).Ümumiyyətlə biblioqrafik İnformasiya haqqında nəzəri tədqiqatların mühüm müddialarını belə səciyyələndirmək olar.

1. Peşəkar biblioqrafik fəaliyyət təşkilati formalaşmaya malik deyil. Yəni onun vahid idarə mənsubiyyəti yoxdur. Biblioqrafik fəaliyyət kitabxana, nəşriyyat, kitab ticarəti, arxiv işlərində, elmi-İnformasiya fəaliyyətlərində iştirak edir. Bu müəssisələr isə olduqca mürəkkəb, geniş və dərin differensasiyaya malik olan sənəd kommunikasiyaları (sənəd-İnformasiya istifadəçisi) sisteminin optimal işləməsini, fəaliyyət göstərməsini təmin edən vasitəçilərdir. Bu sistem ümumi mənada bütün sənədlərin, İnformasiya istifadəçilərinin, onların arasındakı sistemin həm daxili, həm də onun ictimai fəaliyyətinin ətraf şəraitilə şərtləşən münasibətlərinin məcmuundan ibarət olan elə bir metasistemdir ki, biblioqrafiya və yuxarıda adları çəkilən başqa sosial institutlar da ora daxildir.

2. Sənəd kommunikasiyaları sistemini bütövlükdə və onu təşkil edən sosial institutlardan hər birinin nəzəri izahının (şərhinin) ilkin özəyi, əsas nöqtəsi (ilkin abstraksiyası) real və mürəkkəb konkret tarixi şəraitlə şərtləşməsidir ki, bu da « sənəd-İnformasiya istifadəçisi » arasındakı ibtidai uyğunluğu

doğurur. Bu zaman ikili münasibət - sənəd-İnformasiya istifadəçisi münasibəti götürülür. Lakin sənəd-İnformasiya istifadəçisi münasibəti ilə əlaqədar belə fikirlər də mövcuddur ki, rabitə nəzəriyyəsində və iqtisadi münasibətdə olduğu kimi (rabitədə ötürücü → rabitə vasitəsi → qəbul edici; istehsal → bölgü istehlak) biblioqrafiyada da (müəllif → sənəd → tələbatçı, istifadəçi) üçlü münasibət əsas götürülməlidir. Əlbəttə, belə münasibət mövcuddur və müəyyən hallarda onu nəzərə almaq lazımdır. Bundan əlavə ilk baxışda məsələ belə nəzərə çarpır ki, bir vaxtlar insan öz bilik və təcrübəsini mühafizə etmək və yaymaq məqsədi ilə material daşıyıcısı üzərində qeyd etmək üsulunu kəşf etmiş və bununla bilik yaradıcıları ilə onların istifadəçiləri arasında da sənəd formasında tarixi zəruri əlaqələndirici, öz funksiyasına görə rabitə vasitəsi və ya maddi istehsal və istehlak sistemində bölgü ilə analogiya təşkil edən əlaqələndirici sahə meydana gəlir. Bəzi mənada bu elə də var, lakin bununla bərabər sonra daha mühüm hadisə baş verir. Sənəd ümumi İnformasiya mənbəyi funksiyasını öz üzərinə götürməklə tamamilə yeni münasibət yaradır və burada da istehsal edən (yaradıcı) və istifadəçi, necə deyirlər istehlakçı vahid tələbatçı vəhdətində sənədlə öz aralarında ziddiyyət təşkil edirlər, biri-birilərilə qarşı-qarşıya dururlar. Bu halın özündə İnformasiya yaradıcısı (müəllif) hətta böyük ölçüdə isitifadəçiyə çevrilir. Axı yeni bilik yaratmaq üçün hazır olanla maraqlanmaq, sənədlərə müraciət etmək zərurəti yaranır. Sənədin meydana gəlməsi ilə əlaqədar olan bu metamorfoza insanı sənədləşdirilmiş İnformasiyanın istifadəçisi etmiş və sənəd kommunikasiyaları sisteminin yüksək inkişafına gətirib çıxarmışdır. M-S-I münasibətinə gəlincə onu qeyd etmək lazımdır ki, o daha əsaslı, ümumi və sadə olan «S-I» tələbatçı münasibətinin xüsusi bir halı kimi nəzərə alınmalıdır. Ona görə məhz sənəd-istifadəçi sistemi əsl çıxış nöqtəsidir (9).

3. «S-I» münasibətindəki əksliklər vəhdətinin nəzəri şərhi biblioqrafiya anlayışının nəzəriyyəsi üçün olduqca vacib olan sənədlərlə İnformasiya istifadəçiləri arasında uyğunluq anlayışına gətirib çıxarır. Bu anlayış ümumi (mücərrəd) mənada, lakin «sənəd-İnformasiya istifadəçisi» münasibətlərindən (yəni sənəd-kommunikasiyaları sistemindən) kənara çıxmamaqla sənədlərin

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

informasiya mənbəyi kimi ayrı-ayrı istifadəçilərlə onların hər hansı qrupuna, müəyyən İnformasiya tələbatları ilə mütaliyə məqsədlərilə qarşı-qarşıya durduğu və bunlara uyğun gəldiyi bütün mümkün olan müxtəlif və intəhasız şəraiti (vəziyyəti) əhatə edir. Belə uyğunluğun mövcudluğu «S-I» münasibətini davam etdirir, uyğunluq həyata keçən kimi sənəd-istifadəçilər arasındakı lazımi əlaqə də itir.

Lakin sənədlərlə istifadəçilər arasındakı ziddiyyətlər üzündən uyğunluğun əməli olaraq həyata keçirilməsi olduqca çətinləşir. Bu ziddiyyətlər (bunları İnformasiya maneələri də adlandırmaq olar) olduqca müxtəlif formalarda baş verir. Məsələn, məkan, kəmiyyət, dil, keyfiyyət, məzmun, terminoloji mürəkkəbliyi və başqaları ilə əlaqədar ola bilər. Ziddiyyətlər olduqca müxtəlifdir, onlar bəşəriyyətin intellektual tərəqqisilə daha da mürəkkəbləşir və dərinləşir. Sənəd kommunikasiyaları sisteminin tarixi inkişafının ilkin mərhələsində belə bu ziddiyyətlərin aradan qaldırılması və uyğunluqların həyata keçirilməsi özü-özlüyündə mümkün olmur. Məhz buna görə həmin sistemin normal və optimal fəaliyyətini təmin etmək məqsədilə kitabxanalar, kitab ticarəti müəssisələri kimi xüsusi sosial institutlar - vasitəçilər meydana gəlir. Biblioqrafik fəaliyyət də belə vasitəçilərdəndir.

Belə vasitələr məlum sistemdə mövcud olan ziddiyyətləri aradan qaldırmaq, sənədlərlə İnformasiya istifadəçiləri arasındakı uyğunluqları həyata keçirmək sənəd kommunikasiyaları sistemində fəaliyyət göstərən bütün sosial institutların, o cümlədən biblioqrafiyanın daha ümumi (yeganə) funksiyalarıdır. Onların hər biri bu funksiyanı səciyyəvi vasitələrlə yerinə yetirir. Biblioqrafik fəaliyyətin bu məqsədlə istifadə etdiyi vasitə biblioqrafik İnformasiyadır.

4. Məlumdur ki, biblioqrafik İnformasiyanın əsas özəyi sənədlərə dair biblioqrafik yazıdan, xüsusilə biblioqrafik təsvirdən ibarətdir. Yəni hər bir biblioqrafik İnformasiya mənbəyi sənədlərin özlərini deyil, onların fərqləndirilməsi və axtarışı üçün vacib olan əlamətlərini əks etdirir. Buradan belə bir nəticə çıxarmaq lazımdır ki, biblioqrafiyanın sənəd-kommunikasiyaları sistemində vasitəçiliyinin başlıca fərqli xüsusiyyəti ondan ibarətdir ki, o İnformasiya mənbəyi olan sənədlərin özlərini deyil, onlar haqqında İnformasiyanı istifadəçilərə çatdırır və istifadəçilər həmin İnformasiyadan sənədlərsiz, onlardan asılı olmayaraq istifadə edə bilərlər.

Biblioqrafik İnformasiya sənəd axtarışı vasitəsi kimi qədim kitabxanalarda, onların fondlarında toplunu əks etdirən siyahı formasında meydana gəlmişdir. Bu siyahılar kitabxana kataloqlarının ilk formasıdır. Məhz kitabxana kataloqları biblioqarfik İnformasiyanın tarixən ilkin mövcudluq formasıdır. Beləliklə insan tərəfindən sənədin özündən məlumatın götürülməsi, bu məlumatları sənədlərlə İnformasiya istifadəçiləri arasındakı ziddiyyətləri aradan qaldırmaq və uyğunluğu həyata keçirmək məqsədilə qeydə alınması və mütəşəkkilləşdirilməsi hər cür biblioqrafik fəaliyyətin ilkin məntiqi nəticəsi və biblioqrafiyanın ümumi nəzəriyyəsinin formalaşması üçün əsasdır.

5. Biblioqrafik İnformasiyanın mövcudluq formaları müxtəlifdir və onlar konkret tarixi şəraitlə şərtləşir. Məlum olduğu kimi müasir biblioqrafiyaşünaslıqda onlar biblioqrafik çatdırma (biblioqrafik İnformasiyaının ünsürü), biblioqrafik yazı (biblioqrafik çatdırmanın sənədləşdirilmiş forması), biblioqrafik təsvir (biblioqrafik yazının zəruri və minimum vacib ünsürü), biblioqrafik yazının fakültətiv ünsürü (başlıq, annotasiya, referat, təsnifat indeksi, saxlanma şifrəsi və b.), nəhayət biblioqrafik İnformasiyanın cəmiyyətdə mövcudluğunun və öz funksiyasını həyata keçirməsinin başlıca üsulu olan biblioqrafik vəsait deyilən ümumi anlayışla səciyyələndirilir.

Biblioqrafik İnformasiyanın daxili mütəşəkilliyini, yəni, biblioqrafik vəsaitdə yazıların müəyyən qayda üzrə qruplaşdırılmasını, biblioqrafik əlamətlərin dəqiq müəyyənləşdirilməsi qaydasının mövcudluğunu xüsusi qeyd etmək lazımdır. Təbiidir ki, belə biblioqrafik İnformasiya mənbələrinin yaradılması qaydaları insanlar tərəfindən işlənilir və onlar öz inkişafı tarixində müxtəlif vəziyyətlərdən (sənədlərin biblioqrafiyalaşdırma obyekti kimi forma və məzmunun dəyişməsi, onların yeni növlərinin meydana gəlməsi, biblioqrafik İnformasiya tələbatlarının mürəkkəbləşməsi, biblioqrafik fəaliyyətin texniki bazasının ikişafı və s.) asılı olaraq dəyişir, mürəkkəbləşir.

Ona görə də biblioqrafik iformasiyaya «sənədlər haqqında sənədlə istifadəçi arasında uyğunluğun həyata keçirilməsinə təsir edən və müəyyən qaydaya əsaslanan İnformasiyadır» deyə tərif verilir.

Biblioqrafik İnformasiyanın ilkin səciyyələndirilməsində belə tərif kifayət edə bilər. Lakin burada biblioqrafik İnformasiyanın mahiyyəti olduqca ümumi formada (bütövlükdə sənəd

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

kommunikasiyaları sistemi səviyyəsində) açılır. Biblioqrafik İnformasiya anlayışının funksional mahiyyətinin dəqiqləşdirilməsi, diferensasiyası onun konkretləşdirilməsinin mühüm anı kimi qarşıda durur.

Biblioqrafik İnformasiyaya xas olan xüsusiyyətlərdən ən mühümü «sənəd-İnformasiya istifadəçisi» münasibətindəki ikiliyi əks etdirən iki meylliliyidir. Məlum olduğu kimi biblioqrafik İnformasiya bir tərəfdən biblioqrafiyalaşdırmanın bilavasitə obyekti olan sənədlərə əsaslanır, digər tərəfdən biblioqrafik təsirin bilavasitə və ya potensial (ehtimal edilən) obyekti hesab edilən İnformasiya istifadəçilərinə müraciət edir.

Ikilik biblioqrafiyanın nəzəriyyəsi üçün həlledici əhəmiyyət kəsb edir, sonrakı mərhələdə əsas olan bütün biblioqrafik anlayışlarda ona təsadüf edilir və onların məzmununa öz təsirini göstərir. Ikimeyllilik biblioqrafiyanın tarixində də mühüm yer tuturdu. Məsələn, XIX əsrin axırında, XX əsrin əvvəlində o dövrün biblioqrafları ideoloji baxımdan «akademiklərə» və «ictimaiyyətçilərə» görə fərqləndirilirdilər. Özünə qapalılıq, ictimaiyyətin həyati problemlərindən təcrid olunmaq birinci istiqamətin nümayəndələrinə, yəni «akademiklərə» xas olan xüsusiyyət idi, onların biblioqrafiyanın «təmiz» elmi vəzifələri haqqında təsəvvürlərinə uyğun gəlirdi və öz mahiyyəti etibarilə biblioqrafik İnformasiya ikiliyinin birinci tərəfinə əsaslanırdı. Məşhur rus biblioqrafı B.S.Bodnarski bu məhdudluğun klassik formilirovkasını verərək yazırdı ki, biblioqrafiya bir elm kimi «üçlü fundamental» (özülə) əsaslanır (malikdir).: 1.Çap əsərlərinin tam dolğunluqla meydana çıxarılması; 2. Onların biblioqrafik təsvirlərinin dolğunluğu və dəqiqliyi; 3. Təsvirlərin biblioqrafik təsnifatı və əlifbaya görə dəqiq düzülüşü (verilməsi). Burada biblioqrafiyalaşdırmanın obyekti kimi sənədlə (çap əsərlərilə) bağlılıq öz aydın ifadəsini tapır və digər tərəfdən İnformasiya istifadəçisindən, oxucudan tamamilə yan keçilir, prosesdə nəzərə alınmır. «Akademik» istiqamətin «biblioqrafiya- kitab haqqında elmdir» konsepsiyası çərçivəsində tapmış məhdudluğu keçmiş Sovet hakimiyyətinin ilk onilliklərində də özünü biruzə verirdi. Məsələn, bu M.N.Kufayevin məşhur tərifindən aydın görünür: «Biblioqrafiya bir kitabşünaslıq fənni olub kitabı tarixi mənbəşünaslığın tarixi abidələri tədqiq və təsvir etdiyi, coğrafiyanın yer üzünün ayrı-ayrı ölkələrini və xalqlarını təsvir etdiyi kimi tədqiq və təsvir edən müstəqil bilikdir». Bu məhdudiyyət

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Y.I.Şamurinin görüşlərində də nəzərə çarpırdı. O, iddia edirdi ki, «Kitab pis olsun və ya yaxşı olsun eyni dərəcədə biblioqrafiya üçün əhəmiyyətlidir». Dəyəri və mahiyyəti onun tərəfindən yalnız bir faktla – kitabların mövcudluğu faktı ilə müəyyənləşdirilirdi. Kitabın bir əşya kimi konkret mövcudluq faktı kitabın məzmunundan, verdiyi yeni ideologiyadan mühüm hesab edilirdi. Şamurinə görə biblioqrafın kitabın yalnız zahiri əlamətini əks etdirməyə səy göstərməsi bununla izah olunur.

XIX əsrdə Rusiyada akademik mövqeyə əks olan demokratik mövqe meydana gəlir.Mütərəqqi hesab olunan bu istiqamətin nümayəndələri biblioqrafiyanı ictimai inkişafın tələbatları ilə, xalq maarifi vəzifələrilə əlaqələndirməyə çağırışları biblioqrafik İnformasiyanın iki meylliyinin obyektiv olaraq ikinci tərəfinə əsaslanırdılar. Məsələn, K.N.Derunov «həyat və biblioqrafiya, kütlə və biblioqraf» arasında həmişə əsassız uçurum olduğunu qeyd edərək «öz əsrinin və öz xalqının həyatı ilə sıx əlaqə yaratmasını biblioqrafiyanın bir nömrəli vəzifəsi hesab edirdi (8, S.36-37) Mutaliəyə rəhbərlik və oxucuların tərbiyəsi biblioqrafik əməyin başlıca məqsədi hesab olunurdu. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, biblioqrafik İnformasiyanın tərbiyəvi, şəxsi təhsil, təbliğat imkanlarından vaxtilə bolşeviklər, başqa partiyalar öz məqsədləri üçün geniş bəhrələnirdilər.

Keçmiş Sovet hakimiyyətinin ilk illərindən formal – təsviri xarakterli biblioqrafik konsepsiyaya qarşı mübarizə kəskinləşir.

Nəzəri cəhətdən onu qeyd etmək vacibdir ki, biblioqrafik İnformasiyanın ictimai istiqamətində onun İnformasiya istifadəçisindən asılılığı mühüm əhəmiyyət kəsb edir. XX əsrin 70-ci illərində biblioqrafik İnformasiyanın funksiyası və mahiyyətinin eyniləşdirilməsi haqqında nəzəri mülahizələr formalaşır. Yəni biblioqrafik İnformasiyanın əsl mahiyyəti ikiliyin ikinci tərəfi ilə bağlı olması və yalnız ondan istifadəçilərin istifadəsi zamanı yerinə yetirilən sosial funksiyaları sayəsində aşkar edilə bilər. Sənədlərlə bağlı nə varsa hamısı yalnız biblioqrafik İnformasiyanın ictimai mahiyyətinin (funksiya məqsədyönlülüyünün) əməli olaraq həyata keçirilməsində vasitəçiliyi ilə ölçülür.

Iki meyllilik məsələsi Azərbaycan biblioqrafiyasının tarixində də nəzərə çarpır və faktlar göstərir ki, biblioqrafik vəsaitlərin yaradılmasında oxucular, yəni İnformasiya istifadəçiləri nəzərə alınır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Bunu hələ 1913-14-cü illərdə çap olunmuş «Orucov qardaşları kitabxanasının Əsamül Kütubi» adlı kataloqunun məqsədində görürük. «Kataloqun müqəddiməsində deyilir: Kataloqun məqsədi təzə nəşr olunan və mağazalarda olan kitablar haqqında məlumat verməkdən ibarətdir». Beləliklə məlum olur ki, İnformasiya istifadəçiləri nəzərə alınır. Daha bir fakt kimi A.V.Baqrinin tərtibilə çap olunmuş «Qafqaz xalq ədəbiyyatı.Biblioqrafik göstərici üçün materiallar» (1926) adlı biblioqrafik vəsaitini qeyd etmək olar. Burada məqsəd Qafqaz universitetində dərs deyən müəllimlərin və həmçinin tələbələrin biblioqrafik İnformasiyaya olan ehtiyaclarını təmin etməkdən ibarət olmuşdur.

1929 –cu ildə AHIŞ-in mədəni-maarif şöbəsi tərəfindən çap olunmuş «Mülahizəli kataloq» (Tərtib edənləri: M.H.Rzaquluzadə və Ə.Əliyev) adlı iri həcmli nəşrin müqəddiməsindən aydın olur ki, o həm kitabxana işçiləri və həm də oxucular üçün nəzərdə tutulmuşdur. XX əsrin 20-30-cu illərində meydana gəlmiş bir çox biblioqrafik nəşrləri misal gətirmək olar ki, onlar bilavasitə oxucular da nəzərə alınmaqla tərtib olunmuşdur (2, S.25, 48-49)

Peşəkar biblioqrafik fəaliyyətdə İnformasiya istifadəçisi (tələbatçı) dedikdə İnformasiya – sənəd və ya sadəcə olaraq sənəd tələbatının daşıyıcısı (sənəddə əks olunan İnformasiyaya olan tələbatın) nəzərdə tutulur.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Ümumiyyətlə tələbatın ümumi başvermə ardıcıllığını belə təsəvvür etmək olar.

Insanın maddi və mənəvi tələbatının intəhasız müxtəlifliyi

↓

Insanın İnformasiya tələbatı

↓

Sənəd tələbatı

↓

Biblioqrafik tələbat

Bu ardıcıllıq göstərir ki, biblioqrafik tələbat (biblioqrafik İnformasiyaya tələbat) müstəqil deyil, onlar sənəd tələbatnı əks etdirən tələbat kimi meydana gəlir və onun ödənilməsinə xidmət edir. Sənəd tələbatı, deməli, sənəd kommunikasiyaları sisteminin, o cümlədən biblioqrafik fəaliyyətin inkişafı və fəaliyyət göstərməsi üçün əsas və başlıca stimuldur.

Qeyd etmək lazımdır ki, tələbat biblioqrafik İnformasiyanın funksiyalarının öyrənilməsində əsas amildir. «Sənəd tələbatı», «sənədlərlə və onların istifadəçiləri arasında uyğunluq» və «biblioqrafik İnformasiyanın ictimai funksiyaları» anlayışları biri-birilərilə qarşılıqlı əlaqəyə malikdirlər. Biblioqrafik İnformasiyanın mahiyyəti üçüncü anlayışla ifadə olunur. Birinci ikinci anlayışlar bunun üçün yaramır, heç olmasa ona görə ki, onlar biblioqrafik İnformasiyadan kənarda, ondan asılı olmayaraq mövcuddurlar, biblioqrafik İnformasiyasız da ödənilə və həyata keçirilə bilərlər. Bununla bərabər o da danılmazdır ki, biblioqrafik İnformasiyanın funksiyaları uyğunluqlara, uyğunluqlar isə tələbatlara əsaslanır. Tələbat necədirsə uyğunluq da elədir, uyğunluq necə olursa biblioqrafik İnformasiyanın funksiyası da o cürdür. Tələbatda baş verən mühüm dəyişiklik, uyğunluq və funksiyalar sahəsində də analoji dəyişikliyə səbəb olur. Ona görə də biblioqrafik İnformasiyanın ictimai funksiyalarının öyrənilməsinə tələbatdan başlamaq lazımdır. Lakin tələbatdan bir başa, əlaqələndirici orta nöqtə olan uyğunluqdan

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

yan keçib funksiyaları təyin etmək olmaz. Məhz tələbat uyğunluq sayəsində sənəd kommunikasiyaları sisteminə qoşulur, sənədlə tələbatçı (istifadəçi) arasında münasibət baş verir və yalnız bundan sonra biblioqrafik İnformasiya həmin sistemin səmərəli fəaliyyətinə təsir göstərə bilir.

Beləliklə sənəd kommunikasiyaları sistemində uyğunluqdan kənarda biblioqrafik İnformasiyanın bəşəriyyətin sosial məişətilə əlaqəsini təsəvvür etmək olmaz. Başqa sözlə, əgər İnformasiya tələbatı varsa, onun yerinə yetirilməsi üçün sənəd olmadığı (lazımi uyğunluq da yoxdur) halda biblioqrafiya həmin tələbatın ödənilməsinə təsir göstərə bilməz.

Biblioqrafiyaşünaslığın nəzəri şərhdə qarşılaşdığı əsas çətinlik sənədlərə olan tələbatın intəhasız müxtəlifliyi ilə əlaqədardır və bu uyğunluğun, biblioqrafik İnformasiyanın funksiyalarının tərkibinə də öz təsirini göstərir. Bunları insanın sosial məişətinin bu və ya digər tərəflərini nəzərə alan biblioqrafik xidmətin ayrı-ayrı sahəsinə tətbiq etdikdə məlum olur ki, biblioqrafik İnformasiyanın sosial funksiyaları İnformasiya istifadəçilərinin məqsədli fəaliyyət sahələri ilə əlaqədar ola bilər. Biblioqrafiyaşünaslıqda bu müxtəlifliyin ən ilkin strukturunun düzgün müəyyənləşdirilməsi məsələsinin həlli üçün bu fəlsəfi kateqoriyalardan istifadə olunmuşdur: Ümumi, xüsusi və tək-tək (fərdi).
Buna müvafiq olaraq sənəd tələbatının üç səviyyəsi fərqləndirilmişdir: 1.Əsas (ümumi); 2.Qrup halında (xüsusi) və 3. Fərdi (tək-tək). Birinci səviyyədə İnformasiya istifadəçilərinin ümumən sənəd tələbatları nəzərdə tutulur; ikinci səviyyədə konkret tarixi şəraitlə əlaqədar olaraq cəmiyyətdə baş verən təbəqələşmə (dövlətə, millətə, yaş xüsusiyyətlərinə, peşə tərkibinə görə və başqa sosial qruplaşmalara); üçüncüdə isə fərdlərə xas olan tələbatlar nəzərdə tutulur.

Uyğunluq və biblioqrafik İnformasiyanın funksiyalarının əsas səviyyələrinin formalaşdırılmasında analoji cəhətlər əsas götürülür. Bu zaman nəzərə almaq lazımdır ki, bir səviyyədən başqa bir səviyyəyə keçidlə öyrənilən obyektin müxtəliflik dərəcəsi xeyli artır və anlayışın ümumilik dərəcəsi də ciddi şəkildə aşağı düşür. Müxtəlif səviyyələr eyni hüquqlu biri-birindən asılı olmayan bir ünsür müəyyən sıra ardıcıllığına malik deyil.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Hər bir sonrakı səviyyə əvvəlkinin meydana gəlmə (mövcudluq üsulu) formasıdır;

Biblioqrafik İnformasiyanın daha ümumi, əsaslı və beləliklə daha sadə və ilkin mahiyyəti biblioqrafik İnformasiyanın əsas sosial funksiyaları anlayışları ilə aşkar edilir. Lakin bu anlayışların nədən ibarət olduğunu aydınlaşdırmaq üçün əvvəlcə biblioqrafik İnformasiyanın həyata keçirilməsi üçün xidmət etdiyi əsas sənəd tələbatının mahiyyətini müəyyənləşdirmək lazımdır.

Bunun üçün yenə «S-I»münasibətinin daha ümumi və sadə formada ilkin şərhinə qayıtmaq lazımdır.Bu münasibətin nəzəri şərhi göstərir ki, biblioqrafik İnformasiyanın ödənilməsində iştirakının ehtimal edildiyi sənəd tələbatının müxtəlifliyi həmişə artır və onlar daha ümumi və bir-birinə uyğun gəlməyən tələbatla bağlı olur: 1) Istifadəçiyə lazım olan sənədlərin axtarışına olan tələbat; 2) Müəyyən formada və məzmunda sənədlərin mövcudluğu haqqında xəbər verilməsinə tələbat; 3) Qrup və fərdi tələbatlar, İnformasiya istifadəçilərinin hazırlıq səviyyəsi, yaşı, imkanları və başqa xüsusiyyətləri nəzərə alınmaqla sənədlərin müxtəlif keyfiyyət meyarlarına görə qiymətləndirilməsinə olan tələbat.

Bununla sənəd kommunikasiyaları sistemində üç əsas uyğunluq tipi formalaşır: 1)Formal (S $\overset{1}{\rightarrow\leftarrow}$ T); 2)Məzmun (S $\overset{2}{\rightarrow\leftarrow}$ T ); 3) Dəyər (S $\overset{3}{\rightarrow\leftarrow}$ T ). Uyğuluğun birinci tipinin biblioqrafik cəhətdən həyata keçirilməsi və birinci əsas tələbatın təminatı sənədlərin identifikasiyası (təxmini biblioqrafik axtarış) və onların müəyyən fondda yerinin müəyyənləşdirilməsi (axtarışın qəti mərhələsi) məqsədilə biblioqrafik İnformasiyadan istifadə olunması deməkdir.

Biblioqrafik İnformasiyanın köməkliyilə ikinci uyğunluq tipinin həyata keçirilməsi nəticəsində ikinci əsas sənəd tələbatının ödənilməsi mümkün olur. Ona görə ki, bununla biblioqrafik İnformasiya mənbələrində sənədin məkana, vaxta, forma və əsas etibarilə sənədlərdə işıqlandırılan İnformasiya məzmununa görə inkişafı əks olunur.

Məsələn, «Azərbaycan mətbuat salnaməsi», «Birillik Azərbaycan kitabiyyatı», «Azərbaycan kitabı», «Azərbaycan tarixi», «Azərbaycanın palçıq vulkanları» və başqa biblioqrafik göstəricilər belələrindəndir.

Üçüncü, daha mürəkkəb olan uyğunluq tipinin və üçüncü əsas tələbatın biblioqrafik yolla həyata keçirilməsi biblioqrafın sənəd tələbatı

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

ehtiyaclarının öyrənilməsi prosesinə fəal nüfuz etməsi deməkdir və məqsədyönlü səciyyələndirmə vasitəsilə, yəni yalnız o sənədlərin seçilib tövsiyə olunması ilə həyata keçirilir ki, İnformasiya istifadəçilərinin səciyyəvi xüsusiyyətlərinə və həm də biblioqrafik təsir üçün əvvəlcədən planlaşdırılmış məqsədlərinə, o cümlədən elmi – tədqiqat, ümumi təhsil, tərbiyə və hər hansı başqa məqsədlərə bilavasitə uyğun gəlir. Elmi-köməkçi və tövsiyə xarakterli bütün biblioqrafik vəsaitlər buna misal ola bilərlər.

Yuxarıda verilən fərqləndirmə əsasında biblioqrafik İnformasiyanın aşağıda qeyd olunan əsas sosial funksiyaları müəyyən edilir və formalaşır: A.Axtarış; B.Kommunikativ; C.Dəyərləndirmə. Bunlardan hər biri əslində müəyyən uyğunluq tipinin funksiyasıdır. Simvolik olaraq belə işarələrlə ifadə olunur: A ( S $\xrightarrow{1}\leftarrow$ T); B (S $\xrightarrow{2}\leftarrow$ T ); C( S $\xrightarrow{3}\leftarrow$ T)

Etiraf etmək lazımdır ki. «kommunikasiya» termini nəzərdə tutulan ikinci funksiyanın konkret mənasının ifadəsi üçün o qədər də yerinə düşmür. Heç olmasa ona görə ki, sənəd kommunikasiyaları sistemində bu termin başqa daha geniş mənada işlədilir. Hər üç funksiyada kommunikasiya (sənədlə istifadəçi arasında əlaqə) xarakteri var. Bəzi nəzəriyyəçilər, məsələn, J.V.Qudovşikova bütün sənəd kommunikasiyaları sistemində kommunikativ funksiyanı əsas funksiya hesab edir, sonra isə biblioqrafik İnformasiyanın kommunikativ funksiyasına həmin mənanı verərək belə nəticəyə gəlir ki, kommunikativ funksiya biblioqrafik İnformasiyanın funksiya quruluşunda iştirak edə bilməz, ona görə ki, biblioqrafik İnformasiyanın bütün funksiyaları bu və ya başqa formada kommunikasiyaya xidmət edir. Buna baxmayaraq biblioqrafik İnformasiyanın əsas sosial funksiyaları sistemində bu anlayış saxlanılır. Ona görə ki, həmin funksiyanı mənasına görə ifadə edən başqa anlayış müəyyənləşdirmək mümkün olmayıb. Mən bunu inteqral biblioqrafiya adlandırardım.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Əsas sosial funksiyalar məntiqi olaraq əsas sənəd tələbatlarından (ümumi) irəli gəlir və öz səviyyələrində biblioqrafik İnformasiyanın funksional mahiyyətinin müxtəlifliyini tamamlayır. Bu anlayışların formalaşma məntiqi aşağıda göstərilən cədvəllə əyani olaraq nümayiş etdirilir.

| **Əsas sənəd tələbatları** | **Əsas uyğunluq tipləri** | **Biblioqrafik İnformasiyanın əsas ictimai funksiyaları** |
|---|---|---|
| 1. Axtarış tələbatı | 1.Formal | A.Axtarış A(S → T); |
| 2. Xəbərdar olmağa tələbat | 2.Məzmun | B.Kommunikativ B (S → ← T) |
| 3.Qiymətləndirməyə tələbat | 3.Dəyərinə görə | C.Qiymətləndirmə C ( S → ← T) |

Ictimai funksiyaların siyahısını ancaq o vaxt dəyişmək (ixtisara salmaq, əlavə etmək və ya dəqiqləşdirmək) olar ki, onların artıqlığı, dolğun olmaması və qeyri-dəqiqliyi sübut edilmiş olsun.

Belə bir sual meydana çıxa bilər: Bu cür nəzəri mücərrədlik nəyə lazımdır. Onun nə kimi əməli əhəmiyyəti var?

Məlumdur ki, nəzəri mücərrədlik bilavasitə utilitar tətbiq üçün nəzərdə tutulmur. Nəzəri problemləri konkret mütəşəkkillik, törəmə və ya metodiki problemlərlə qarışdırmaq olmaz. Bununla bərabər bəzi biblioqraflar arasında biblioqrafiyanı tamamilə əməli fəaliyyət hesab edənlər və orada heç cür «yüksək» nəzəriyyəsi ola bilməz iddiasında olanlar var. Belə biblioqraflar tamamilə səhv yoldadırlar. Korşunov haqlı olaraq belə hesab edir ki, «dar praktisizm» biblioqrafiyanın ümumi nəzəriyyəsinin inkişafında bir əngəl olaraq qalır(9,S ).

Mücərrəd nəzəri əsaslar ilk növbədə elmin özü üçün «faydalı funksiyaya» malik olur. Bununla yanaşı hər cür (hətta ən abstrakt) nəzəri mülahizələr son nəticədə nəinki ictimai təcrübədə əsaslılığı, həqiqiliyi yoxlanılır, həm də ona təsir göstərir, onun təkmilləşdirilməsi məqsədilə istifadə olunur. Lakin nəzəriyyənin təcrübə ilə əlaqəsi həmişə bir başa baş vermir, o çox dəfəli vasitəçiliyə məruz qala bilər, dərhal aşkar edilə

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

bilməz və ona görə də nəzəriyyə yarandığı anda və nəzəriyyənin özündə onun tətbiqi mahiyyəti aydın ifadə olunmur.

Biblioqrafik İnformasiyanın ilkin ümumi nəzəri müddəalarına biblioqrafik işdə bilavasitə əməli tətbiqi nöqteyi-nəzərindən deyil, biblioqrafiyaşünaslığın metodoloji və qnesoloji marağı mövqeyindən yanaşmaq lazımdır. Bununla əlaqədar olaraq qeyd olunan anları fərqləndirmək yerinə düşər.

Formalaşdırılmış nəzəri müddəalar ictimai hadisə olan biblioqrafiya haqqında istər biblioqrafiyaşünaslıqda, istərsə də ondan kənarda (məsələn, kitabxanaşünaslıqda və informatikada) geniş yayılmış məhdud təsəvvürlərin aradan qaldırılmasına əsas verir.

Biblioqrafik İnformasiyanın əsas sosial funksiyalarının mahiyyətlərinə görə ilkin fərqləndirilməsi (axtarış, kommunikasiya və qiymətləndirmə) biblioqrafik İnformasiya təminatının əsasında duran prinsiplərin bir mənalı olmadığını nəzəri cəhətdən dərk etməyə imkan yaradır və beləlikdə də hər cür biblioqrafik İnformasiyanın ümumiyyətlə qiymətləndirici təbiətə malik olması haqqında konsepsiyaya son qoyur. Bu konsepsiyanın tərəfdarları biblioqrafiyalaşdırmanın obyektinə qiymətləndirici münasibətini biblioqrafiyanın ümumi növ bölgüsündə yeganə əsas hesab edirdilər. Əslində isə sənədə qiymətləndirmə münasibəti biblioqrafik İnformasiyanın yalnız bir əsas – qiymətləndirmə funksiyası üçün səciyyəvidir.

Qiymətləndirici biblioqrafik fəaliyyətin müxtəlif sahələrinin konkret məqsəd və oxucu istiqamətinə malik olması da bununla bağlıdır. Təbiidir ki, bu zaman həm də onun xidmət sahələri, o cümlədən elmi-köməkçi, peşə, istehsalat, tədris köməkçi, kütləvi maarifçilik və başqaları fərqləndirilməli və nəzərə alınmalıdır. Qymətləndirmə funksiyasının həyata keçirilməsinin bu istiqaməti biblioqrafiyanın dərin keyfiyyət bölgüsünə gətirib çıxarır və müxtəlif xidmət sahələrilə üzvü şəkildə bağlı olduğunu göstərir. Belə hallarda biblioqrafik iş ya elmi, ya təbliğat – tərbiyə, ya da hətta ədəbi yaradıcılıq xarakteri alır. Burada baş verən xüsusi vəzifələr çox hallarda peşəkar biblioqrafların və müvafiq bilik və əməli fəaliyyət sahələri mütəxəssislərinin birgə səyi ilə öz həllini tapa bilər.

Biblioqrafik İnformasiyanın axtarış və kommunikativ funksiyaları qiymətləndirmə funksiyasından fərqli olaraq sənədlər arasında forma və

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

məzmunlarına görə münasibəti qaydaya salmaqla əlaqədar olan məntiqi əsaslarla bağlıdır. Məhz buna görə də bu iki əsas sosial (A,B) funksiyanın əməli olaraq həyata keçirilməsi vasitələri, o cümlədən kitabxanaların əlifba kataloqları, dövlət biblioqrafiyası orqanları (Məsələn, «Azərbaycan mətbuat salnaməsi», «Birillik Azərbaycan kitabiyyatı») və bu kimi başqa biblioqrafik nəşrlər konkret məqsəd və oxucu istiqamətinə malik deyil və beləliklə nisbi müstəqilliyə malik mövcudluq formasında özlərini göstərirlər.

Abstrakt şəkildə götürülən əsas ictimai funksiyalar biblioqrafik iformasiyanın funksional mahiyyətinə görə quruluşunun ünsürləri rolunu oynayırlar və onun sistem kimi bəsitliyinin, sabitliyinin daha ümumi formada ifadə olunmasına xidmət edirlər. Başqa sözlə biblioqrafik İnformasiya hər hansı dəyişikliyə məruz qalmasına baxmayaraq o həmişə öz əsas ictimai funksiyalarını yerinə yetirəcəkdir. Bununla bərabər onu da qeyd etmək lazımdır ki, onların qrup və fərdi səviyyələrdə əməli oaraq həyata keçirilməsi üsulları müxtəlif tarixi mərhələdə səciyəvi, konkret tarixi şəraitlə şərtləşən forma ala bilər.

Qeyd etmək lazımdır ki, biblioqrafik İnformasiyanın əsas ictimai funksiyalarının elmi şərhi biblioqrafiyaşünaslıqda yüksək dərəcədə abstrakt anlayışlarda ümumiliyin meydana gəlməsinə səbəb olur. Onların dəyəri və bununla bərabər prinsipial məhdudluğu bundan ibarətdir. Onların köməkiyi ilə ən müxtəlif miqyaslı hər hansı biblioqrafik hadisənin funksional mahiyyətini və ayrı-ayrı biblioqrafik yazılardan, biblioqrafik vəsaitə dair yardımçı göstəricilərdən başlamış bütövlükdə biblioqrafik əsərin məzmununu ifadə etmək mümkündür. Ictimai funksiyalar biblioqrafik hadisənin milli, təşkilati, metodiki və başqa xüsusiyyətlərindən əslində kənarda qalır və yalnız funksional mahiyyətinin şərhi üçün yararlı olur. Bu biblioqrafik reallığın çox mürəkkəb tarixi şəraitə uyğun əsl inkişafının nəzəri şərhinə zəmin yaradan ilk çıxış nöqtəsidir.

Bütün bu deyilənlərdən sonra biblioqrafik İnformasiya mahiyyətinə görə tərifini belə formalaşdırmaq olar. Biblioqrafik İnformasiyanın sənədlər haqqında müəyyən qayda ilə konkret tarixi şəraitə uyğun formalarda əsas ictimai funksiyalarını (axtarış, kommunikativ, dəyərləndirmə) həyata keçirən və son məqsədi cəmiyyət

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

üzvlərinin sənəd tələbatlarını ödəməkdən və formalaşdırmaqdan ibarət olan mütəşəkkil İnformasiyadır.

Biblioqrafik İnformasiya biblioqrafiyanın ümumi nəzəriyyəsinin əsas, mərkəzi anlayışı olmaqla bərabər onun mücərrədlikdən konkretliyə doğru ardıcıl dinamikasını göstərir və biblioqrafik olanla biblioqrafik olmayan İnformasiyanın fərqləndirilməsində ümumi meyar hesab edilir. Biblioqrafiyanın ictimai hadisə kimi tamlığını və hüdud dairəsini aydın təsəvvür etməyə imkan verir. Bir sözlə, ikinci sənədləşdirmə proseslərinin (məsələn, sənədlərin analitik, sintetik təhlili, biblioqrafiyalaşdırılması və s.) və müvafiq obyektlərin (ədəbiyyat göstəricilərinin, referativ jurnalların, kataloq və kartotekaların) yaradılmasının harada baş verməsindən asılı olmayaraq və biblioqrafik İnformasiyanın yaradılıb İnformasiya istifadəçilərinə çatdırılması məqsədinə xidmət edirsə, deməli o, biblioqrafik işdir və insanın biblioqrafik fəaliyyətinin əsasıdır.

***Ədəbiyyat***


*__1.__«İnformasiya, İnformasiyalaşdırma və İnformasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının qanunu//Azərbaycan respublikasının qanunvericilik toplusu.-1998.-№6.-S.1214-1222*

*2. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik.-B.,2007.-184s.*

*3. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.-B.: BUN, 2001.-142s.*

*4. Əliyev Z.H. Biblioqrafik İnformasiya sənəd İnformasiya tələbatının ödənilməsində mühüm vasitədir // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.-2004.-№1.-S.82-92.*

*5. Əliyev Z.H. Biblioqrafik vəsaitlər sənəd axını və kütləsini inteqral şəkildə əks etdirən biblioqrafik İnformasiya mənbələridir //Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.-2005.-№2.-S.97-109.*

*6. Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // «Respublika» qəzeti.-2002.-17 aprel.*

*7. Алешин Л.И.Защита Информации и информационная безопасность: Курс лекций.-Москва,1999.-97с.*


KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

*8. Коршунов О.П. Библиографоведение: Общий курс: Учебник. - М.: Издательство «Книжная палата», 1990.-232с.*

*9. Коршунов О.П. Библиография: теория, методология, методике.- М.: «Книга», 1986.-286с.*

***Зохраб Алиев***

***Библиографическая информация в системе общих информационных коммуникации***

***Р Е З Ю М Е***

*В статье освещается место библиографической информации в системе общей информации, ее отличательные черты и функции*

***Zohrab Aliyev***

***Bıblographıc informatıon ın common informatıon communıcatıon system***

***SUMMARY***

*In article has been reflected the place of bibliographic information in common information system, its differentiating features and functions.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**NADİR İSMAYILOV**
*Biblioqrafiyaşünaslıq kafedrasının dosenti*
**AYNURƏ CƏFƏROVA**
*Magistrant*

# AZƏRBAYCANDA BİBLİOQRAFİK FƏALİYYƏTİN İNKİŞAFİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Azərbaycanda biblioqrafik İnformasiya mənbələrinin yaradılması və istifadəsi zəngin və mürəkkəb inkişaf yolu keçmişdir. XX əsrin II yarısından etibarən bu sahədə mühüm nailiyyətlər əldə edilmiş, Milli mədəniyyətimizin bir sahəsi kimi biblioqrafik fəaliyyət, onun nəticəsi olan biblioqrafik ehtiyat bir sistem kimi formalaşmışdır. Biblioqrafik İnformasiya mənbələri formasına görə tarixi təkamül prosesindən keçmiş, Azərbaycan cəmiyyətinin İnformasiya tələbatının ödənilməsinin müstəqil atributlarından birinə çevrilmişdir. Biblioqrafik mənbələrin artması, onlardan müasir İnformasiya-axtarış vasitələrində istifadə olunması problemi bu mənəvi sərvətin inkişaf meyllərinin öyrənilməsini zəruri etmişdir.

Biblioqrafik fəaliyyətin inkişafının əsas istiqamətləri tarix boyu biblioqrafiyaşünas alim və mütəxəssislər tərəfindən tədqiq edilib öyrənilmişdir(2). Bu günümüzdə də bu sahənin tədqiqi, problemlərin meydana çıxarılması və aradan qaldırılması aktual vəzifələrdən biridir. Bu problemlərlə bağlı tədqiqat işləri aparılır, alınan nəticələr təhlil edilərək onların həlli yolları müəyyənləşdirilir. Belə tədqiqatlardan biri prof. Zöhrab Əliyev tərəfindən aparılmış və əldə edilən nəticələr 2007-ci ildə «Azərbaycan biblioqrafiyasının tarixi» adlı əsərdə öz əksini tapmışdır(3). Bu əsər bir tərəfdən biblioqrafik inofrmasiya mənbələri haqqında lazımi bilik verir, digər tərəfdən də keçmiş nailiyyətləri, mütərəqqi ənənələri mənimsəyib ümumiləşdirməklə Azərbaycanda müasir biblioqrafik fəaliyyətin aktual problemlərinin istənilən səviyyədə həlli yollarını müəyyənləşdirməyə imkan verir.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra Milli biblioqrafiyanın təşkilati mənsubiyyətində və inkişafında

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

bəzi yeni xüsusiyyətlər və istiqamətlər özünü göstərir. 2001-2005-cı illərdəki biblioqrafik fəaliyyətin inkişaf istiqamətlərini nəzərdən keçirərkən məlum olur ki, bəhs olunan dövrdə şəxsi biblioqrafik mənbələrin nəşri prioritet xarakter daşımışdır. Belə ki, bu sahədə Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

Eyni zamanda bəhs olunan dövrdə ümumi xarakterli biblioqrafik mənbələrin yaradılması və nəşri də əsas istiqamətlərdən biri kmi diqqəti cəlb edir. Kitab Palatasının funksiyaları M.F.Axundov adına Milli Kitabxanaya verildikdən sonra palataya məxsus funksiyalar müvəffəqiyyətlə yerinə yetirilir. Bu funksiyalardan biri də cari biblioqrafik mənbələrin tərtibi və çapıdır ki, bu sahədə xeyli irəliləyiş nəzərə çarpır.

Bibiloqrafik fəaliyyətin inkişaf istiqamətlərindən danışarkən, qeyd etmk lazımdır ki, sahəvi mövzu xarakterli göstəricilərin nəşri də getdikcə artmışdır.

Bütün bu qeyd olunanları aşağıdakı cədvəldən də görmək olar.

**2001-2005-ci illərdə Azərbaycanda biblioqrafik vəsaitlər sisteminin inkişafını əks etdirən cədvəl**

| **Mən bələr**<br><br>**İllər** | **Ümumi biblioqra fik mənbələr** | **Sahəvi mövzu xarakterli biblioqrafik mənbələr** | **Şəxsi biblioqrafik mənbələr** | **Cəmi (illər üzrə)** |
|---|---|---|---|---|
| 2001 | 7 | 3 | 7 | 17 |
| 2003 | 4 | 4 | 13 | 21 |
| 2004 | 4 | 4 | 11 | 19 |
| 2005 | 5 | 4 | 12 | 21 |
| **Cəmi** | 20 | 15 | 43 | 78 |



KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Cədvəldən də göründüyü kimi 2001-2005 ci illər ərzində (2002-ci il istisna olmaqla) nəşr olunan biblioqrafik İnformasiya mənbələri içərisində şəxsi biblioqrafik mənbələr üstünlük təşkil edir (Ümumi mənbələrin 55%-i). Bu da, əsasən, yuxarıda qeyd etdiyimiz kimi Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının fəaliyyətilə əlaqədardır. Bəhs olunan dövrdə AMEA MEK «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyasından 22 adda şəxsi göstərici çap etdirib. Bunlara misal olaraq «H.Əhmədov», «A Daşdəmirov», «A.Rüstəmova», «Cəfər Qiyasi», «N.Tusi», «I.Həbibbəyli (2 hissəli)», «C.Məm-mədquluzadə», «Hüseyn Cavid» və b. göstərmək olar.

Şəxsi biblioqrafik mənbələrdən danışarkən «Heydər Əliyev:Biblioqrafik məlumat kitabı» adlı göstəricini xüsusi qeyd etmək lazımdır. Bakı Dövlət Universiteti tərəfindən 2003-cü ildə yüksək poliqrafik səviyyədə çap olunan göstərici müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli Liderimiz cənab Heydər Əlirza oğlu Əliyevin 80 illik yubileyinə həsr olunmuşdur. Göstəricinin redaktoru BDU-nun rektoru, akademik Abel Məhərrəmov, tərtibçi-müəllifləri əməkdar elm xadimi, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov və Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi Solmaz Sadıqovadır(5).

Akademik Abel Məhərrəmov kitaba yazdığı «Azərbaycan intibahının böyük memarı» adlı ön sözdə Heydər Əliyev şəxsiyyəti haqqında obyektiv fikirlər söyləmiş, əsrin təxminən üçdən birini əhatə edən Heydər Əliyev erasını çox yüksək qiymətləndirmişdir. Biblioqrafiyaşünas alim professor Zöhrab Əliyevin qeyd etdiyi kimi «Heydər Əliyev: Biblioqrafik məlumat kitabı» universal xarakterli biblioqrafik İnformasiya mənbələri silsiləsinə aiddir. Yəni kitab biblioqrafik İnformasiya ilə yanaşı, elmi-publisistik İnformasiyanı da özündə birləşdirir və bu da onun İnformasiya potensialını gücləndirir(4).

Ümumilikdə, 544 mənbəni özündə birləşdirən məlumat kitabında «Dünyanın və Azərbaycanın görkəmli siyasətçiləri, elm və mədəniyyət xadimlərinin Heydər Əliyev haqqında fikirləri»nin də verilməsi diqqətəlayiqdir. Kitabın azərbaycan, rus və ingilis dillərində elektron diski də hazırlanmışdır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Şəxsi biblioqrafik göstəricilərin nəşri, eyni zamanda, ayrı-ayrı müəssisələr tərəfindən də həyata keçirilmişdir. «Ozan» nəşriyyatı tərəfindən 2005-ci ildə çap olunan «Paşa Qəlbinur» (Tərtibçi: Eluca Atalı) adlı göstərici belə mənbələrdən biridir(8). Göstəricidə Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, Oftalmologiya Akademiyasının həqiqi üzvü, şair Paşa Ismayıl oğlu Musayev-Qəlbinurun elmi və bədii kitabları, elmi məqalələri, ixtiraları, ictimai-siyasi məqalələri, dövri mətbuatda çap olunmuş materiallar toplanmışdır. Göstəricidə, həmçinin, onun şerlərinə bəstələnmiş mahnılar, həyatı və yaradıcılığına həsr olunmuş müxtəlif janrlı incəsənət əsərləri barədə biblioqrafik məlumatlar sistemləşdirilmişdir.

Azərbaycanda biblioqrafik vəsaitlər sisteminin inkişaf istiqamətlərindən biri də ümumi xarakterli biblioqrafik mənbələrdir. Bu vəsaitlər sisteminin inkişafında M.F.Axundov adına Milli Kitabxanası mühüm yer tutur. Kitabxananın nəşr etdirdiyi mənbələr içərisində «Birillik Azərbaycan kitabiyyatı» ölkə üzrə nəşrlər haqqında biblioqrafik məlumat əldə etməyə imkan verir(1). Kitabxana tərəfindən tədqiqat dövründə 2001, 2003, 2004, 2005-ci illəri əhatə edən «Birillik Azərbaycan kitabiyyatı»nın elektron versiyası hazırlanmışdır. Burada materiallar aşağıdakı bölmələr üzrə qruplaşdırılmışdır(1):

0 - Ümumi şöbə
1 - Fəlsəfə elmləri. Psixologiya
2 - Din. Teologiya
3 – Ictimai elmlər
5 – Riyaziyyat. Təbiət elmləri
6 – Tətbiqi elmlər. Tibb elmləri. Texnika
7 – Incəsənət. Dekorativ-tətbiqi incəsənət. Foto sənəti
8 – Dilçilik. Linqvistika. Bədii ədəbiyyat
9 – Coğrafiya. Tarix

Qeyd etmək lazımdır ki, 1960-cı ildən nəşr edilən «Birillik Azərbaycan kitabiyyatı» il ərzində dilindən, mövzusundan, janrından asılı olmayaraq respublikada nəşr olunan bütün kitablar barəsində tam biblioqrafik məlumat verir. «Birillik Azərbaycan

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

kitabiyyatı»nda verilən yardımçı göstəricilər və statistik məlumatlar respublikada nəşr edilən kitab məhsulunun tərkibi barədə müxtəlif aspektli İnformasiya əldə etməyə imkan yaradır. Uzun illər ərzində kitabxanaçılar, biblioqraflar və ən müxtəlif tələbatçı qrupları tərəfindən geniş istifadə edilirdi. Həmin vəsaitə nəinki respublikamızda, həm də onun hüdudlarından kənarda böyük tələbat var idi. Lakin vəsaitlər üçün materialların toplanması davam etsə də müxtəlif təşkilati və maliyyə çətinlikləri üzündən 1986-cı ildən etibarən həmin vəsaitin nəşri dayanmışdır. Belə bir vəziyyət həm respublikamızın kitabxanaçılarını və İnformasiya mütəxəssislərini, həm ziyalıları və həm də geniş tələbatçı kütlələrini ciddi narahat edirdi.

80-ci illərin sonlarından Azərbaycan Dövlət Kitab Palatasının fəaliyyəti xeyli məhdudlaşdığından və 1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilən «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının qanunu ilə ölkə ərazisində dərc olunan çap məhsullarının dövlət uçotunu aparmaq və arxiv fondunu yaratmaq Milli Kiatbxanaya həvalə olunduğundan bu iş dayandırılmışdı.

Lakin «Milli kitabxana» statusu hələlik heç bir kitabxanaya verilmədiyindən bir neçə il bu vacib iş aparılmırdı.

2004-cü ildə M.F.Axundov adına Dövlət Kitabxanasına «Milli Kitabxana» statusu verildikdən sonra Milli biblioqrafiya vəsaitlərinin nəşri işi yenidən gündəmə gəldi və bu ilin iyununda 1990-cı ilə aid ilk buraxılış uzun fasilədən sonra işıq üzü gördü. Bir qədər sonra isə 1991-ci ilə aid ikinci buraxılış çap olundu.

«Birillik Azərbaycan kitabiyyatı»nın 2004-cü ilə aid buraxılışı Azərbaycan Milli Kitabxanası tərəfindən bu qismdən dərc olunan beşinci vəsaitdir. Bu buraxılış üçün materialların toplanmasında Milli Kitabxananın mütəxəssisləri ilə yanaşı, elmi kitabxanaların və bir sıra nəşriyyatların və universitetlərin kitabxanalarının mütəxəssisləri iştirak etmişlər.

Burada 2004-cü ildə Azərbaycan Respublikasının ərazisində nəşr edilmiş 2203 kitab və kitabça barəsində biblioqrafik İnformasiya öz əksini tapmışdır. Bibloqrafik təsvirlər QOST 7.1-2003 «Biblioqrafik yazı. Biblioqrafik təsvir. Ümumi tələbat və tərtibat qaydaları» əsasında tərtib edilmişdir.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Vəsaitin sonunda oxucuların ondan istifadəsini asanlaşdırmaq məqsədilə köməkçi aparat-həm azərbaycan, həm də rus dillərində müəlliflərin əlifba göstəricisi və vəsaitdə sərlövhə üzrə təsvir olunmuş əsərlrin sərlövhəsinin əlifba göstəricisi verilmişdir.

«Birillik Azərbaycan kitabiyyatı»nın 2004-cü il buraxılışı M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının təcrübəli mütəxəssisləri tərəfindən çapa hazırlanmışdır. Bu buraxılışın çapa hazırlanması işində Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının, BDU-nun Elmi Kitabxanasının, Iqtisad Universitetinin, Tibb Universitetinin elmi kitabxanalarının və bir sıra universitetlirin kitabxanalarının mütəxəssisləri də yaxından iştirak etmişlər.

Ümumi xarakterli biblioqrafik mənbələrdən danışarkən «Azərbaycan, Rusiya və başqa MDB ölkələrində nəşr olunan kitabların kataloqu», «Yayım assosiasiyası» və s. qeyd etmək olar.

Bəhs edilən dövrdə biblioqrafik fəaliyyətin inkişaf istiqamətlərindən biri də sahəvi-mövzu xarakterli bibiloqrafik mənbələrdir. Belə mənbələrə misal olaraq «Qarabağ», «Xəzər dənizi və neft», «Elmin qızıl fondu» kataloqu, «Azərbaycan bayraqları», «Azərbaycan generalları», «Azərbaycanda fəaliyyət göstərən qeyri hökumət əlil təşkilatlarının kataloqu», «Gender Azərbaycan dövri mətbuatında», eləcə də rus dilində «Biblioqrafiçeskiy ukazatelğ zahihennıx dissertaüiy po akuşerstvu i qinekoloqii za 1929-1999 qodı» göstəricilərini göstərmək olar.

Bu göstəricilər sırasında 2004-cü ildə A.Xəlilov tərəfindən tərtib olunmuş «Qarabağ» göstəricisinin də adını qeyd etmək yerinə düşər(7). Qarabağın tarixinə, mədəniyyətinə, iqtisadiyyatına, kənd təsərrüfatına, mineral ehtiyatlarına və s. aid 2001-ci ilə qədər mövcud olan külli miqdarda elmi tədqiqat işləri, kitablar və məqalələr haqqında biblioqrafik məlumatı əhatə edir. Əlbəttə, Qarabağla əlaqədar materialların hamısını biblioqrafik təsbit etmək asan deyildir və buna görə də tərtibçi ən vacib və dəyərli materialları seçməli, daha çox iri həcmli məqalələrə üstünlük verməli, sonralar dəyişdirilmiş toponimlərin orijinal mənbələrdə qeydə alınmış əvvəlki variantlarını təqdim etməyə məcbur olmuşdur. Göstəricidə bütövlükdə 5156 adda sənədin bibliqrafik təsviri əhatə olunub. Bunlardan 2719-u azərbaycan, 2437-i rus dilində olan materiallardır. Göstəricdə hər iki bölmənin sonunda ixtisarların siyahısı

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

verilmişdir. Yeri gəlmişkən, onu da qeyd edək ki, göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə heç bir yardımçı aparat tərtib olunmamışdır.

Beləliklə, 2001-2005-ci illərdə Azərbaycanda biblioqrafik fəaliyyətin təhilini yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, müasir dövrdə Azərbaycanda biblioqrafik fəaliyyətin dinamik inkişafı təmin edilmiş, istər ümumi, istər sahəvi və istərsə də şəxsi biblioqrafik mənbələr həm kəmiyyət, həm də keyfiyyət baxımından intensiv inkişaf etmişdir. Biblioqrafik fəaliyyətin inkişafı ilə bağlı M.F.Axundov adına Milli Kitabxana, AMEA MEK-sı, BDU-nun Elmi Kitabxanası və s. bu kimi iri elmi müəssisələrin fəaliyyətilə yanaşı, ayrı-ayrı nəşriyyatlar, eləcə də görkəmli alim və mütəxəssislərin fəaliyyətini də xüsusi qeyd etmək lazımdır.

***Ədəbiyyat*:**


*1.Birillik Azərbaycan kitabiyyatı: 2001-2005-ci illər üzrə elektron versiyalar*

*2.Əliyev,Z.H. Azərbaycanda biblioqrafik fəaliyyətin bəzi təşkili məsələləri//Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal.-2003.-№1.-S.63-77.*

*3.Əliyev,Z.H. Azərbaycan biblioqrafiyasının tarixi.-B.:BUN,2007.-185s.*

*4.Əliyev Z.H.,Ismayılov N.I. Azərbaycan biblioqrafiyasını zənginləşdirən dəyərli töhfə:Dünyanın görkəmli dövlət xadimləri//Respublika.-2003.-13 iyun.-S.1-2.*

*5.Heydər Əliyev: Bibiloqrafik məlumat kitabı(Heydər Əliyevin 80 illik yubileyinə həsr edilir)/Tərt.A.A.Xələfov, S.A.Sadıqova; Red. və ön sözün müəllifi A.M.Məhərrəmov.-B.:BDU,2003.-434s.-(«Dünyanın görkəmli dövlət xadimləri»).*

*6.Xəzər dənizi və neft(1954-2002):Biblioqrafik göstərici/Tərt.N.I.Ismayılov;Red.L.V.Hüseynov.-B.:Mütərcim,2003.- 47s.*

*7.Qarabağ: Biblioqrafiya/Tərt.A.C.Xəlilov; Topl.D.X.Xəlilov; Elmi red.M.M.Adilov; Red.V.Quliyev; AMEA, M.Füzuli ad. Əlyazmalar In-tu.-B.:Şuşa,2004.-398s.*

*8.Paşa Qəlbinur:Biblioqrafik göstərici/Tərt.E.Atalı; Elmi red.Ə.Məmmədov;Red.S.Əkbərov.-2-ci nəşr.-B.:Mars-Print, 2005.-401s.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

***Надир Исмаилов***
***Айнура Джафарова***

## *Некоторые вопросы развития библиографической деятельности в Азербайджане*

**РЕЗЮМЕ**

*В статье рассмотрена проблема развития библиографической деятельности в Азербайджане в период 2001-2005 гг. Анализируются основные направления развития библиографических ресурсов.*

***Nadir Ismayilov***
***Aynura Jafarova***

## *Some questions of development of bibliographic activity in Azerbaijan*

**SUMMARY**

*In this article surveyed the problem of development of bibliographic activity in Azerbaijan during 2001-2005 years.In the article is analized the basic directions of development of bibliographic resources.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**SİMA İSMAYILOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ ƏDƏBİ BİBLİOQRAFİYANIN İNKİŞAFI VƏZİYYƏTİ

1991-ci ildə Azərbaycan Respublikasının tam siyasi, iqtisadi sahədə müstəqillik qazanması, beynəlxalq aləmdə layiqli yer tutması, cəmiyyətimizdə köklü dəyişikliyə səbəb olmuşdur. Bu hər şeydən əvvəl müstəqil Azərbaycan Respublikasının yaranması ilə, o cümlədən milli-mədəni və tarixi ənənələrə, ümumbəşəri dəyərlərə söykənən həqiqi demokratik cəmiyyət quruculuğuna başlanması ilə nəticələndi.

Azərbaycan xalqının həyatında yeni bir dövr başlandı. Öz tarixi kökümüzə qayıdış, milli-mənəvi dəyərlərimizə yiyələnmək üçün əlverişli şərait yarandı. Cəmiyyətin bütün sahələrində hiss olunan bu dəyişiklik, yeniləşmə bütün sahələrdə, o cümlədən elm, ədəbiyyat, mədəniyyət və tarix sahəsində daha çox hiss olunmağa başlandı.

Həyatımızın bütün sahələrində olduğu kimi milli ədəbiyyatşünaslığımızın, folklorumuzun, ədəbiyyat tariximiz sahəsində də bir yeniləşmə, canlanma baş verdi. Artıq naşirlərimiz, şairlərimiz öz əsərlərində müstəqilliyi tərənnüm etməyə başladılar.

Ulu öndərimiz, ümummilli liderimiz H.Əliyevin dediyi kimi: «Ədəbiyyatımız xalqımızın milli sərvətidir».

Bu sərvətin qədrini bilən və onun qorunması və çiçəklənməsi üçün AMEA-nın Nizami adına Ədəbiyyat Institutu bütün Yaxın Şərqdə ədəbiyyatşünaslıq profilli elmi-tədqiqat müəsssisəsi kimi özünün çoxcəhətli fəaliyyəti ilə xalqın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır. Azərbaycan ədəbiyyatının inkişaf qanunauyğunluqlarının araşdırılması müxtəlif dövrlərdə institutun əsas elmi-tədqiqat istiqamətini təşkil etmişdir. Azərbaycan ədəbiyyatı tarixinin yaradıcılığının öyrənilməsi, nəzəri məsələlərin qarşılıqlı ədəbi əlaqələrinin araşdırılması, həmçinin, ədəbi abidələrin və klassiklərin əsərlərinin sistemli nəşri, şifahi xalq ədəbiyyatı örnəklərinin toplanması, tədqiqi və çapa hazırlanması kimi elmi problemlər həmin istiqamətin əsasında dayanmışdır.

Müstəqillik illərində Nizami adına Ədəbiyyat Institutu zamanın tələblərinə uyğun yeni problemlərin, aktual məsələlərin tədqiqi ilə

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

məşğul olmuş, bu qrumun sturukturu həmin problemlərin həllinə imkan verən bir şəkildə müəyyənləşdirilmişdir.

Vacib istiqamətlərdən biri Azərbaycan ədəbiyyatının qaynaqlarını, təşəkkülünü, inkişaf tarixini və qanunauyğunluqlarını, dünyada mövcud olanədəbi cərəyanların spesifik Azərbaycan modelini öyrənməklə, şifahi xalq yaradıcılığı nümunələrinin toplanması, tədqiqi və nəşrə hazırlanması ilə bağlıdır. Əsas etibarilə «Azərbaycan ədəbiyyatı tarixi» çoxcildində reallaşan bu istiqamətdə xalqımızın mənəviyyat tarixi ilk dəfə olaraq əvvəlki onilliklərin sərt ideoloji qadağa buxovlarından azad sürətdə qorunub həll edilməlidir. (4,S.432)

Ümummilli liderimiz H.Əliyevin qeyd etdiyi kimi «Insan mənəviyyat üçün yaşamalıdır, mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır».(5)

Bu işdə cəmiyyətin bütün üzvlərinə yardımçı olan kitabxanaların fəaliyyətini yüksək qiymətləndirən H.Əliyev demişdir. «Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyid(2)

«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda deyildiyi kimi «Kitabxana elm, İnformasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər İnformasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur»(1,S.3).

Kitabxanaların ictimai istifadəsini təşkil etdiyi İnformasiya daşıyıcıları silsiləsində biblioqrafik İnformasiya mənbələri də mühüm yer tutur.

Azərbaycanın zəngin biblioqrafik ehtiyatları içərisində ədəbi biblioqrafik mənbələr başqa sahələrə nisbətən üstünlük təşkil edir.

Müstəqil respublikamızda ədəbiyyatşünaslığın çox saylı sənəd toplusu öz əksini biblioqrafik mənbələrdə tapır. Bu mənbələr ictimai istiqamətinə görə ümumi və xüsusi biblioqrafik mənbələrə ayrılır. Xüsusi biblioqrafik mənbələr içərisində isə şəxsi biblioqrafik göstəricilər çoxluq təşkil edir.

Müstəqillik şəraitində cəmiyyət üzvlərinin İnformasiya tələbatı artır. Ədəbiyyata, bədii ədəbiyyata tələbat isə başqa sahələrə nisbətən daha çoxdur. Elmin bu sahəsi üzrə geniş elmi tədqiqat işləri

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

aparıldığından mütəxəssislərin həm ilkin mənbələrə, həm də biblioqrafik mənbələrə tələbatı yüksək olur. Bu mərhələ ilk növbədə Azərbaycanda ədəbi prosesin canlanması, onun sənəd kütləsinin inkişafı kimi xarakterizə edilə bilər.

Elə bu səbəbdən ədəbi biblioqrafik vəsaitlər sistemi zaman keçdikcə inkişaf edərək zənginləşir, təkmilləşir və cəmiyyətin ədəbi biblioqrafik İnformasiyaya olan tələbatının daha dolğun şəkildə ödənilməsinə xidmət edir.

Respublikadamızda aparılan elmi-tədqiqat işlərinin əlaqələndirilməsi AMEA-nın müvafiq isntitututlarında həyata keçirilir. Ədəbiyyatşünaslıq üzrə belə bir əlaqələndirici mərkəz Nizami adına Ədəbiyyat Institutu hesab olunur. Ona görə ki, respublika ədəbiyyatşünaslarının aparıcı qüvvəsi məhz bu elmi müəssisədə toplanmışdır.

Azərbaycanda ədəbi biblioqrafiyanın müasir vəziyyətindən bəhs edərkən, bu sahədə fəaliyyət göstərən mərkəzlərin fəaliyyətindən də danışmaq lazımdır. Respublikamızda elmin bu sahəsi üzrə biblioqrafik fəaliyyət proseslərini həyata keçirən mərkəzlər çox olsa da bu məqalədə AMEA-nın Nizami adına Ədəbiyyat institutunun «İnformasiya və biblioqrafiya» şöbəsinin, institutun nəzdində yerləşən filial kitabxananın və AMEA Mərkəzi Elmi Kitabxanasının iş təcrübəsindən və bu sahədəki fəaliyyətindən bəhs olunacaq.

Ədəbiyyat institutunda yerləşən filial kitabxana mütəxəssis oxuculara ancaq kitabxana-biblioqrafiya xidməti yerinə yetirirsə, «İnformasiya və biblioqrafiya» şöbəsinin əməkdaşları həm biblioqrafiyalaşdırma, həm də biblioqrafik xidmət proseslərini yerinə yetirirlər. Belə ki, şöbə əməkdaşları tərəfindən ayrı-ayrı ədəbiyyatşünaslara, onların sorğularına cavab olaraq Internet resurslarından istifadə edilərək sorğular ödənilmişdir. Bundan başqa şöbə əməkdaşları biblioqrafiyalaşdırma metodikasına tam riayət etməklə həm ümumi, həm də şəxsi xarakterli biblioqrafik vəsaitlər tərtib edib ədəbiyyatşünasların ixtiyarına vermişlər.

Nizami adına Ədəbiyyat institunun «İnformasiya və biblioqrafiya» şöbəsi tərəfindən yeni bir nəşr «Ədəbiyyatşünaslıq İnformasiya bülleteni» (3) adlı toplu mövzu və məzmun əhatəliyi baxımından çox zəngindir. Çünki, Azərbaycanda bu sahə üzrə məlumatı çox çətinliklə

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

əldə edən mütəxxəsislər bülletendən istifadə etməklə özlərinə lazım olan İnformasiyanı Internet dünyasından əldə edə bilirlər.

İnformasiya bülleteninin əvvəlində verilmiş «məlumat»da deyilir: «Zəmanəmizin əsas xarakterik cəhətlərindən biri ondan ibarətdir ki, indi alim, hüquqşünas, mühəndis, müəllim, jurnalist və s. sahələrdə çalışan bütün mütəxəssislər İnformasiya axını qarşısında çaş-baş qalır. Mövzu ilə əlaqədar nə oxumalı?  Lazım olan materialları haradan və necə tapmalı? Bu günün tədqiqatçısı nəhəng Himalay dağlarında qızıl dənələri axtaran geoloqun vəziyyətindədir» (3)

İnformasiya bülleteninin qarşısına qoyduğu əsas məqsəd Azərbaycan ədəbiyyatı haqqında Internet dünyasında məlum olan İnformasiyanı əldə etməkdir. Məsələn: Məhəmməd Füzuli (www kultur/qa.tr) «XV-XVI əsrlərin Azərbaycan ədəbiyyatı» (www azeriros. ru/az)

İnformasiya bülletenində materiallar ədəbiyyatşünaslığın ən aktual problemlərinə həsr edilmiş, Azərbaycan rus və xarici dillərdə verilmişdir. Bu isə Internet resurslarından istifadə etmək üçün biblioqrafik axtarışı asanlaşdırır.

İnformasiya bülleteninin əsas əhəmiyyətindən biri də çağdaş dünya ədəbiyyatşünaslığı sahəsindəki elmi yeniliklərlə mütəxəssisləri tanış etməkdir.

Müasir dövrdə İnformasiya texnologiyalarına yiyələnən ədəbiyyatşünas alimlərin biblioqrafik İnformasiya təminatında bu mənbənin rolu olduqca böyükdür. Belə ki, ədəbiyyatşünas alimlərimiz öz uğurlarını təbliğ etməklə yanaşı, dünya Internet resurslarından da lazımınca bəhrələnir.

«İnformasiya və biblioqrafiya» şöbəsi bu gün də öz fəaliyyətini zamanın tələblərinə uyğun şəkildə quraraq ədəbiyyatşünaslıq sahəsinin mütəxəssislərinin İnformasiyalaşdırılması sahəsində ciddi tədqiqatlar aparır.

Müasir dövrdə ədəbiyyatşünaslıq üzrə mütəxəssislərin biblioqrafik İnformasiya təminatında sosial İnformasiya mərkəzi kimi AMEA-nın Mərkəzi Elmi Kitabxanasının fəaliyyəti xüsusi yer tutur.

Ədəbiyyatşünaslığa dair cari elmi-köməkçi, ümumi və şəxsi xarakterli biblioqrafik vəsaitlərin tərtibində MEK-nın fəaliyyəti diqqəti cəlb edir. Ictimai istiqamətinə görə xüsusi biblioqrafiyaya aid olan bu

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

göstəricilər mütəxəssislərin biblioqrafik İnformasiya təminatında mühüm rol oynayır.

Mərkəzi Elmi Kitabxananın çap etdirdiyi biblioqrafik vəsaitləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Mərkəzi Elmi Kitabxanaya Azərbaycan və rus dillərində daxil olan kitablar;
2. Mövzu biblioqrafik göstəricilər;
3. Retrospektiv biblioqrafik göstəricilər;
4. Şəxsi biblioqrafik göstəricilər.

Mərkəzi Elmi Kitabxananın fonduna daxil olan yeni ədəbiyyat haqqında İnformasiya bülletenləri cari biblioqrafik İnformasiya mənbəyi kimi mütəxəssis tədqiqatçılar üçün olduqca əhəmiyyətlidir.

Müasir dövrdə ədəbiyyatşünaslıq üzrə mütəxəssislərin biblioqrafik İnformasiya təminatından bəhs edərkən Mərkəzi Elmi Kitabxananın çap etdirdiyi elmi-köməkçi xarakterli retrospektiv və şəxsi biblioqrafik vəsaitlər mühüm rol oynayır. Bu biblioqrafik vəsaitlərin xarakterik xüsusiyyətlərindən əvvəlki saylarda gedən məqalələrdə bəhs edilmişdir.

Mərkəzi Elmi Kitabxananın fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri də kitabxana tərəfindən hazırlanıb nəşr edilən «Elmi əsərlər»in IV buraxılışının «Kitabxanaşünaslıq və ədəbiyyatşünaslıq» adlandırılmasıdır. Məcmuədə müasir kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın son nailiyyətləri və qarşıda duran problemlərdən bəhs olunur.

Məcmuənin «Ədəbiyyatşünaslıq» bölməsində tanınmış filoloq-alimlərin elmi məqaləri verilmiş, Azərbaycan ədəbiyyatının müxtəlif çalarlarından bəhs edilmişdir.

Kitabxanaşünaslıq və ədəbiyyatşünaslıq ayrı-ayrı elm sahələri olsa da onların əldə etdikləri nailiyyətlər vəhdətdə götürülmüş və nəzəri cəhətdən təhlili verilmişdir.

Müstəqillik şəraitində ədəbi biblioqrafiyanın inkişafı vəzifələrindən danışarkən ədəbiyyatşünaslıq üzrə elektron biblioqrafik İnformasiya mənbələrinin də əhəmiyyətini qeyd etmək lazımdır.

Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə elektron biblioqrafik mənbələrin yaradılması problemi ümumilikdə milli biblioqrafik ehtiyatların yaradılması probleminin tərkib hissəsidir və buna görə də həmin problemə kompleks yanaşılmalıdır.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Məlumdur ki, XX əsrin 70-ci illərindən etibarən keçmiş SSRI-də Dövlət Elmi-Texniki Insformasiya sisteminin (QASNTI) yaradılmasına başlanmışdır. Həmin sistemin tərkib hissəsi olaraq ölkədə biblioqrafik İnformasiya üzrə yarımsistemin yaradılması sahəsində də xeyli iş görülmüşdür. Keçmiş Ittifaqın aparıcı elmi-İnformasiya müəssisələrində lazımi hesablama texnikası qruplaşdırılmış, müvafiq texnologiyalar və proqram təminatı işlənib hazırlanmışdır. Biblioqrafik yazıların elektron (rəqəm) variantının tərtibi üçün xüsusi standart-kommunikativ format yaradılmışdır. Bu görülən işlərin bir tərkib hissəsi də həmin texnologiyaların ümumittifaq Kitab Palatasının işinə də tətbiq edilməsi olmuşdur. Artıq həmin proqramın mərhələli həyata keçirilməsi sahəsində 80-cı illərin ortalarında Moskvada yerləşən mərkəzi İnformasiya orqanları və müttəfiq respublikaların İnformasiya orqanları QASNTI sisteminin bir çox altsistemləri əsasən istismara verildi. Nəticədə ölkədə çap edilən kitab məhsulunun əksər hissəsi, ən mühüm İnformasiya orqanlarının və kitabxanaların fondlarına daxil olan yeni ədəbiyyat barədə biblioqrafik İnformasiya kommunikativ formatda tərtib edilərək verilənlər bazalarına daxil edilməyə başladı. Bu isə biblioqrafik İnformasiyanın bir dəfə işlənərək elektron formada maşın yaddaşına daxil edilərək sonradan təkrar istifadə edilməsinə şərait yaratdı. Həmin İnformasiya əvvəlcə maqnit disklərinə, maqnit lentlərinə yazılaraq digər İnformasiya müəssisələrinə göndərildi. Sonra isə kommunikasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq bu İnformasiyanı rabitə kanalları vasitəsilə göndərmək və qəbul etmək mümkün oldu.

XX əsrin sonu, XXI əsrin əvvəllərində bu texnologiyalar Azərbaycanda tətbiq edilməyə başladı. Belə ki, Respublika Elmi-Texniki Kitabxanası respublikamızda QASNTI-yə daxil olan və biblioqrafik təsvirləri kommunikativ formatda tərtib edilməsi və avtomatlaşdırılmış İnformasiya sisteminə daxil edən ilk müəssisə oldu. Sonrakı illərdə bu texnologiya Azərbaycan MEA-nın MEK-nın Elmi-Texniki Inforomasiya şöbəsində kitabxananın fonduna daxil olan yeni kitablar barədə inormasiya avtomatlaşdırılmış qaydada işlənərək rabitə kanalı ilə bənzər işlər EA Ictimai Elmlər üzrə Elmi İnformasiya Institutunun İnformasiya Proseslərinin Avtomatlaşdırılması şöbəsində həyata keçirilməyə başladı. Buradan həm də telefon xətti ilə Moskvadakı INION-un EHM-ləri də

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

əlaqə yaratmaq imkanı var idi. Bununla da IEEIM-də Azərbaycanda ictimai elmlər, o cümlədən ədəbiyyatşünaslıq üzrə kitab və məqalələrin elektron biblioqrafik yazıları Moskvaya göndərilir və sorğu əsasında Moskvadan lazımi biblioqrafik məlumat almaq imkanı yaranmışdı.

Beləliklə, respublikamızda digər elm sahələri kimi ədəbiyyatşünaslıq sahəsində rəqəm biblioqrafik resursların yaradılması və istifadə edilməsinə XX əsrin 80-ci illərə təsadüf edir. Lakin bir sıra təşkilati, maliyyə və bürokratik əngəllər nəticəsində bu proses çox ləng gedirdi və SSRI-nin dağılması ərəfəsində bu işlər demək olar ki, dayandırıldı.

Respublikamızda biblioqrafik fəaliyyətdə İnformasiya texnologiyaların növbəti, keyfiyyətcə yeni mərhələsi 2000-ci illərə təsadüf edir. Bu dövrdə respublikamızın beynəlxalq, siyasi, iqtisadi və mədəni əlaqələr orbitinə daha intensiv cəlb edilməsinin tərkib hissəsi və nəticəsi kimi kitabxana-biblioqrafik fəaliyyətdə də dünyada mövcud olan metodlar və texnologiyalar ölkəmizdə təbliğ edilməyə başladı. Xarici ölkələrin səfirlikləri, beynəlxalq təşkilatların yardımı ilə biblioqrafik İnformasiyanın yeni üsulları üzrə seminarlarda iştirak etməyə başladılar. Bu prosesin məntiqi nəticəsi kimi bir sıra kitabxanalarda kitab fonduna malik ictimai təşkilatlarda biblioqrafik İnformasiyanın kompüterlə işlənərək verilənlər bazalarının yaradılması sahəsində ilkin təcrübələr aparılmağa başladı.

Məsələn, 2001-ci ildən etibarən Gələcək naminə Gənclər təşkilatının kitabxanasında və bir sıra təşkilatlarda kiçik də olsa biblioqrafik verilənlər bazaları yaradılmağa başladı. Belə ki, 2001-ci ildən Xəzər universitetinin Elmi Kitabxanasında, BDU-nun Elmi Kitabxanasında elektron kataloqun yaradılmasına başlandı. BDU-nun Elmi Kitabxanasında yaradılmış professor A.A.Xələfovun rəhbərlik etdiyi «Kitabxana proseslərinin avtomatlaşdırılması» laboratoriyasının iştirakı ilə kitabxanada Azərbaycan ədəbiyyatı fondunda, dissertasiyalar və nadir ədəbiyyat fondunda olan xeyli kitab və dissertasiyaların elektron biblioqrafik yazısı tərtib edildi. Bu yazılar MARCSOL kitabxana avtomatlaşdırılmış sistemi əsasında UNIMARK standartı üzrə tərtib edilirdi. 2004-cü ilin sonuna olan məlumata görə bura 20 mindən çox biblioqrafik yazı daxil edilmişdir ki, bunun da əksəriyyətini kitablar təşkil edir.

KITABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Respublikamızda kitabxanaların elektron biblioqrafik ehtiyatların işlənməsi və onun tələbatçılara verilməsi sahəsində digər əhəmiyyətli addım Gələcək naminə Ictimai Birliyin və Azərbaycan Dövlət Iqtisad Universitetinin birgə icra etdiyi və Exxonmobil Şirkətinin yardımı ilə həyata keçirilən «Elektron kitabxana şəbəkəsi» lahiyəsi olmuşdur. 2002-ci ildən həyata keçirilən bu lahiyəyə əsasən respublikamızın 12 əsas kitabxanasının (əsasən ali məktəb və respublika səviyyəli kitabxanalar) və 4 ictimai təşkilatın kitabxanası fondunda olan 100 min sənədin biblioqrafik yazısı tərtib edilərək WEB- serverə yerləşdirilmisdir və bununla da dünyada bütün Internet istifadəçiləri üçün istifadə imkanı açılmışdır.

Elektron kitabxana şəbəkəsi BDU ilə yanaşı, Dövlət Iqtisad Universiteti, Dövlət Neft Akademiyası, Dövlət Dillər Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Tibb Universiteti və EA kitabxanalarını əhatə edir.

Verilənlər bazasının menyusu 4 aspekt üzrə axtarışı həyata keçirməyə imkan verir. Bunlar axtarış, mövzu, kitabxana və dil aspektləridir. Axtarış adlı aspektlərdə müəllif, sərlövhə, söz əlamətləri üzrə, mövzu aspekti üzrə isə UOT-un 9 bölməsi üzrə axtarış aparmaq mümkündür.

Ədəbiyyatşünaslıq və bədii ədəbiyyat üzrə 8-ci mövzu bölməsi üzrə axtarış aparmaq mümkündür.

Elektron kataloq üzrə axtarış müəyyən etməyə imkan verir ki, BDU-nun Elmi Kitabxanasının 16.250 kitabı əks olunmuşdur ki, bunlardan da 7663 kitab 8-ci bölməyə aiddir. Azərbaycan Dillər Universitetinin fondunda olan 9984 adda kitab 8-ci bölməyə aiddir.

Digər elektron biblioqrafik mənbə Azərbaycan Respublikası Prezidenti Işlər Idarəsinin Prezident kitabxanasına məxsusdur. Kitabxanada biblioqrafik verilənlər bazasının yaradılmasına 2004-cü ilin may ayından başlanmışdır. Verilənlər bazası kitabxanada tətbiq edilən IRBIS-64 Kitabxanaların Avtomatlaşdırılması sisteminin tərkib hissəsidir. Indiyə kimi verilənlər bazasına Azərbaycan, rus və digər dillərdə olan 6000-ə yaxın sənədin biblioqrafik yazısı daxil edilmişdir ki, bunun da 20%-i bədii ədəbiyyat, ədəbiyyatşünaslıq, incəsənət və sənətşünaslığı əhat edir. Verilənlər bazası həm kitabxanadakı

avtomatlaşdırılmış işçi yerlərindən, həm də WEB kataloqu vasitəsilə Internetdən müyəssərdir.


### *Ədəbiyyat*

*1.«Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və bibilioqrafiya:Elmi-nəzəri və təcrübi jurnal.-1999.-№1.-S.3-16.*

*2.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında çıxışı//Azərbaycan qəzeti.-1995.-6 iyun.*

*3.Ədəbiyyatşünaslıq İnformasiya bülleteni.-B.:Elm,2003.-№1.-2.-S.27.*

*4.Ədəbiyyat məcmuəsi // Nizami adına Ədəbiyyat Institutunun əsərləri.-XVIII c.-B.:Elm,2004.-432s.*

*5. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı.-B.:Elm, 1998.-178 s.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

***Сима Исмаилова***

## *Развитие литературной библиографии в годы независимости*


### *РЕЗЮМЕ*

*В статье рассмотриваются вопросы становления и развития Азербайджанской литературной библиографии за годы независимости, дан анализ системи библиографических пособий.*


***Sima Ismayilova***

## *The development of the biblioqraphy of fiction*


### SUMMARY

*There was analized establishment and development of biblioqraphy of fiction in Azerbayjan luring period of independency.*

*There was also analized the system of biblioqraphic indexes on this topic.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**XURAMAN VERDİYEVA**
*Laboratoriya müdiri*

## GÖRKƏMLİ PEDAQOQ, AKADEMİK H.ƏHMƏDOVUN ƏSƏRLƏRİ BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ

Pedaqoji elmlərin biblioqrafik İnformasiya təminatında mühüm rol oynayan biblioqrafik vəsaitlər çoxdur. Onlardan biri də pedaqoji elmlər doktoru, akademik, Azərbaycan Respublikasının Əməkdar ali məktəb işçisi, Azərbaycan Respublikasının Maarif əlaçısı, Pedaqoji Universitetin Ümumi Pedaqogika kafedrasının müdiri Hüseyn Mustafa oğlu Əhmədovun elmi-pedaqoji fəaliyyətinə həsr edilmiş, "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə çap olunmuş biblioqrafik göstəricidir. 118 səhifədən ibarət olan, "Professor H.M.Əhmədovun əsərlərinin izahlı biblioqrafiyası" (5) adlanan bu biblioqrafik göstərici 1951-1990-cı illəri əhatə edir. Biblioqrafik göstəricinin tərtibçiləri F.A.Rüstəmov və H.B.Bayramov, elmi redaktoru isə I.N.Isayevdir. Göstərici Pedaqoji Universitetdə nəşrə hazırlanmış və 1990-cı ildə çap olunmuşdur.

Göstərici təxminən 40 il ərzində müəllifin nəşr etdiyi əsərləri, elmi-pedaqoji, tədris-metodiki xarakterli məqalələri, respublika və keçmiş ümumittifaq elmi-praktik konfranslardakı çıxışlarının qısaldılmış mətni, tezisləri və s. yazıları daxil edilmişdir.

Göstəricidə həmçinin H.M.Əhmədovun redaktə etdiyi əsərlər, tədris-metodiki ədəbiyyat, eyni zamanda onun rəhbərlik və ya rəsmi opponentlik etdiyi namizədlik və doktorluq dissertasiyaları haqqında biblioqrafik İnformasiya da öz əksini tapmışdır.

Professor H.M.Əhmədovun Azərbaycan dilində nəşr olunmuş əsər və məqalələrinin adları rus dilində, eyni zamanda rus, erməni və gürcü dillərində nəşr edilmiş məqalələrin adları isə müvafiq şəkildə Azərbaycan dilinə tərcümə edilmişdir.

Göstəriciyə daxil edilən bütün materiallar məzmun və xarakterindən asılı olmayaraq xronoloji ardıcıllıqla verilmiş, biblioqrafik göstəriciyə bir neçə köməkçi aparat tərtib olunmuşdur.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Biblioqrafik göstərici aşağıdakı bölmələrdən ibarətdir. 1.Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri 2.Ömrün yadda qalan səhifələri (elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında qısa öçerk) 3.Əsərləri 4.Redaktə etdiyi əsərlər 5.Dissertasiya işinə elmi rəhbərlik 6. Dissertasiya işlərinə opponentlik 7.Elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında ədəbiyyat 8. Köməkçi göstəricilər (Əsərlərinin əlifba göstəricisi, H.Əhmədov haqqında yazmış müəlliflərin əlifba göstəricisi).

Göstəricinin birinci bölməsi "Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri" adlanır. Azərbaycan və rus dilində verilmiş bu bölmə akademik H. Əhmədovun mənalı həyatının güzgüsüdür. Bölmə vasitəsilə akademikin həyatında baş verən mühüm hadisələr haqqında İnformasiya almaq olar.

"Ömrün yadda qalan səhifələri" (elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında qısa öçerk) adlanan ikinci bölmədə professor Ə.Əlizadə akademik H.Əhmədovun elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında mükəmməl məlumat verilir. Bölmədən öyrənirik ki, 1952-ci ildən taleyini Pedaqoji universitetlə bağlayan H.Əhmədov pedaqoji fikrin mərkəzlərindən biri hesab edilən pedaqogika kafedrasında aspirant kimi fəaliyyətə başlamışdır. Görkəmli alim, professor Ə.Seyidovun elmi rəhbərliyi altında işləmişdir. 1958-ci ildə Pedaqoji universitetdə dissertasiya müdafiə edərkən akademik A.O.Makovelski, professor B.B.Komarovski, professor M.M.Mehdizadə, M.Ə.Muradxanov, R.Ş.Mustafayeva dissertasiyanın elmi əhəmiyyəti ilə bərabər praktik əhəmiyyətə malik olduğunu xüsusilə qeyd etdilər. Dissertasiya müdafiəsi zamanı elmi rəhbər professor Ə.Seyidov onun haqqında demişdir: "H.Əhmədov istedadlı gənc pedaqoqdur. Mən belə hesab edirəm ki, o, bu sahədəki tədqiqatlarını müvəffəqiyyətlə davam etdirəcəkdir". H.Əhmədov elmi rəhbərin sözlərini doğrultdu.

H.Əhmədov 1972-ci ildə Bakı Dövlət Universitetində pedaqoji elmlər doktoru alimlik dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə etmişdir. Akademiklərdən N.Qonçarov,M.Mehdizadə, F.B.Köçərli, professorlardan K.Kazımov, A.Abdullayev, M.Qazıyev, A.Zamanov, M.Əlizadə və başqaları onun dissertasiya işini haqlı olaraq Azərbaycan pedaqoji fikrinə

layiqli tohfə kimi qiymətləndirdilər. 150-yə qədər kitab, kitabça və məqalələrin müəllifi olan H.Əhmədovun tədqiqatları Azərbaycan məktəbi və pedaqoji fikrinin görkəmli nümayəndələrinə həsr edilmişdir. Professorun tədqiqatında «N.Nərimanovun pedaqoji fikirləri" xüsusit yer tutur. Onun «N.Nərimanovun pedaqoji fikirləri" adlı kitabı Bakıda, məqalələri isə Moskvada, Həştərxanda, Tbilisidə nəşr olunmuşudur. Professor H.Əhmədov həmçinin ASE-nin bir neçə cildinin, Moskvada çapa hazırlanan 2 cildlik "Pedaqoji ensiklopediya"nın əsas müəlliflərindən biridir.

Göründüyü kimi, akademik H.Əhmədovun yaradıcılıq yolu zəngindir və bu bioqrafik oçerk akademikin maraqlı yaradıcılıq yolunu izləmək baxımından əhəmiyyətlidir və sahənin istifadəçilərinin biblioqraifk İnformasiya təminatında mühüm əhəmiyyət kəsb edir.

"Əsərləri" adlanan üçüncü bölmə akademik H.Əhmədovun 1955-ci ildən 1990-ci ilə qədər çap olunmuş elmi yaradıcılığını əks etdirir. Bu bölmə akademik H.Əhmədovun qələmindən çıxan 150-yə qədər Azərbaycan və rus dilində olan əsərinin biblioqrafik təsvirini əhatə edir. Azərbaycanca olan sənədlərin rus dilində, rus dilində olan sənədlərin Azərbaycan dilində verilməsi vəsaitinin oxucu kontingentini genişləndirir. Əsərlərə annotasiyanın verilməsi istifədəçilər üçün mühüm əhəmiyyət kəsb edir və hər bir əsərin məzmununu açır. Məsələn:

104. XIX əsr Azərbaycan məktəbi.-Bakı: Maarif.-1985.-292 s.

XIX yüzillikdə-bütöv bir əsr ərzində Azərbaycan xalq maarifi və məktəb təhsili ilə bağlı bir sıra vacib pedaqoji problemlərin tədqiqinə həsr edilmişdir.

Monoqrafiyada Azərbaycanın Rusiya tərkibinə daxil edilməsindən sonra məktəb təhsili sahəsində ilk mütərəqqi nəticələr, ilk dövlət məktəblərinin meydana gəlməsi, müsəlman məktəbləri, keçən əsrin 60-cı illərinin məktəb islahatı və bunun Azərbaycanda məktəb təhsilinin inkişafına təsiri, ibtidai kənd məktəblərinin meydana gəlməsi və inkişafı, dəmir yolu, bazar günü və sənət məktəblərinin fəaliyyəti, rus-Azərbaycan, natamam orta və orta məktəblərin inkişafı, qadın təhsili, məktəb və

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

mədrəsə təhsili məsələləri, ana dili məktəblərinin meydana gəlməsi və inkişafı və s. məsələlər küllü miqdarda arxiv sənədləri əsasında ətraflı tədqiq olunur (3).

Göründüyü kimi, annotasiya monoqrafiyanın məzmunu tam əhatə edir. Yeri gəlmişkən, biblioqrafik göstəricinin adının "H.Əhmədov əsərlərinin izahlı biblioqrafiyası adlandırılması biblioqrafiyaşünaslığın metodiki əsaslarına uyğun gəlmir. Annotasiyalı biblioqrafik göstərici adlandırılsa idi daha düzgün olardı.

Biblioqrafik göstəricinin "Əsərləri" adlanan 3-cü bölməsində kitabların elmi məqalələrdən ayrı verilməməsi biblioqrafik axtarışı çətinləşdirir və vaxt itkisinə səbəb olur. Bölmədən öyrənirik ki, akademik H.Əhmədovun ilk elmi əsəri 1955-ci ildə "Azərbaycan məktəbi" jurnalının 2-ci sayında 24-28-ci səhifələrdə dərc olunmuş "Pioner dəstələrinin adları ilə əlaqədar olaraq tərbiyəvi iş təcrübəsindən" adlanan elmi məqalədir və 1990-cı ildə sonuncu elmi məqaləsi "Əhməd Seyidov" biblioqrafik göstərcisinə yazdığı "Sovet Azərbaycanının ilk pedaqoqu "Əhməd Seyidov" adlı oçerkdir. Bölmə akademik H.Əhmədovun 1990-cı ilə qədər nəşr edilmiş əsərləri haqqında mükəmməl biblioqrafik İnformasiya verir və pedaqoji sahənin biblioqrafik İnformasiya təminatında mühüm rol oynayır. Bölmə vasitəsilə H.Əhmədovun 1990-cı ilə qədər nəşr edilmiş əsərləri haqqında mükəmməl biblioqrafik İnformasiya almaq olar.

Biblioqrafik göstəricinin dördüncü bölməsi "Azərbaycan Sovet Ensiklopediyasında nəşr olunmuş məqalələri" adlanır. Bölmədə ensiklopediyada nəşr edilmiş 44 məqalə haqqında biblioqrafik məlumat verilir.

"Qəzet məqalələri" adlanan beşinci bölmə akademik H.Əhmədovun dövri mətbuat səhifələrində çap edilmiş məqalələri haqqında mükəmməl məlumat verir. Lakin bölmənin "Qəzet məqalələri" adlandırılması biblioqrafiyaşünaslığın terminologiyasına uyğun deyil. "Dövri mətbuatda dərc edilmiş əsərləri" adlandırılsaydı daha düzgün olardı. 1990-cı ilə qədər professorun dövri mətbuatda çap edilmiş axırıncı əsəri "Pedaqogika tarixi və müasirlik" adlı "Azərbaycan müəllimi" qəzetinin 20 oktyabr 1989-cu ildə çap olunmuş məqaləsidir. Bölmə akademikin

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

qəzet səhifələrində çap olunmuş 143 məqaləsi haqqında mükəmməl biblioqrafik İnformasiya verir və bölmə vasitəsilə 1990-cı ilə qədər akademikin dövri mətbuat səhifələrində dərc olunmuş əsərləri haqqında mükəmməl biblioqrafik İnformasiya almaq olar.

Biblioqrafik göstəricinin altıncı bölməsi "Redaktə etdiyi əsərlər" adlanır. Bu bölmədə akademik H.Əhmədovun redaktə etdiyi 35 əsər haqqında biblioqrafik İnformasiya verilir. Biblioqrafik göstəricinin yeddinci bölməsi "Dissertasiya işlərinə elmi rəhbərlik" adlanır. Bölmədə akademik H.Əhmədovun 1990-cı ilə qədər rəhbərlik etdiyi pedaqoji elmlərin müxtəlif sahələrinə həsr olunmuş 26 dissertasiya işinin avtoreferatı haqqında biblioqrafik İnformasiya verilir. Bölmə vasitəsilə aydınlaşır ki, biblioqrafik göstərici tərtib olunan dövrə qədər müdafiə olunmuş dissertasiyaların hamısı rus dilində yazılmışdır.

"Dissertasiya işlərinə opponentlik" adlı digər bölmədə akademik H.Əhmədovun opponentlik etdiyi 12 dissertasiya işi haqqında biblioqrafik İnformasiya verilir.

"Elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında ədəbiyyat" bölməsində akademik H.Əhmədovun elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında yazılmıış 102 məqalə haqqında biblioqrafik İnformasiya almaq olar.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə göstəriciyə köməkçi aparat tərtib edilmişdir. Bu köməkçi aparatlardan birincisi "H.Əhmədovun əsərlərinin əlifba göstəricisi"dir. Köməkçi aparatı tərtib etməkdə əsas məqsəd daxildə xronoloji ardıcıllıqla düzülmüş materialların əlifba sırası vasitəsilə tez tapılmasına yardım etməkdən ibarətdir.

Ikinci köməkçi aparat "Alfavitnıy ukazatelğ trudov Q.M.Axmedova izdannım na russkom i qruzinskom əzıkax" adlanır. Bu köməkçi aparat vasitəsilə akademikin rus, gürcü və başqa dillərdə nəşr olunmuş əsərlərini daha tez müəyyənləşdirmək olar.

Üçüncü köməkçi aparat "Professor H.Əhmədov haqqında yazmış müəlliflərin əlifba göstəricisi"dir. Göstərici vasitəsilə H.Əhmədov haqqında yazmış müəlliflər haqqında İnformasiya almaq olar.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Göründüyü kimi akademik H.Əhmədovun elmi, pedaqoji, ictimai fəaliyyəti haqqında mükəmməl məlumat verən bu biblioqrafik vəsait pedaqoji sahənin biblioqrafik İnformasiya təminatında mühüm rol oynayır.

Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiq üzvü, keçmiş SSRI Pedaqoji EA-nın müxbir üzvü, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının akademiki, Azərbaycan Respublikasının əməkdar ali məktəb işçisi, Azərbaycan Respublikası və keçmiş SSRI-nin maarif əlaçısı, ADPU-nun ümumi pedaqogika kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor H.M.Əhmədovun elmi-pedaqoji fəaliyyətinə həsr edilmiş daha bir biblioqrafik göstərici 1951-1996-cı illəri əhatə edən, «Azərbaycanın elm və mədəniyyət xadimləri» seriyası ilə 1997-ci ildə «Mütərcim» nəşriyyatında çap olunmuş «Akademik Hüseyn Mustafa oğlu Əhmədov: Biblioqrafiya» adlanan 194 səhifədən ibarət vəsaitdir (1). Bu biblioqrafik göstərici yuxarıda haqqında bəhs olunan göstəricinin təkmilləşdirilmiş nəşridir. Bu vəsaitdə əvvəlki nəşrdə buraxılan qüsurlar aradan qaldırılmış, təkmilləşdirilmiş və son 6 illik yeni materiallarla zənginləşdirilmişdir.

Göstəriciyə 45 il ərzində alimin nəşr etdiyi əsərləri- elmi-pedaqoji, tədris-metodiki xarakterli məqalələri, respublika və keçmiş ittifaq elmi-praktik konfranslarındakı çıxışlarının tezisləri, habelə redaktə etdiyi əsərləri, tədris-metodiki ədəbiyyatı, eyni zamanda onun rəhbərlik və ya rəsmi opponentlik etdiyi namizədlik və doktorluq dissertasiyaları haqqında biblioqrafik İnformasiya daxil edilmişdir. Akademik H.M.Əhmədovun həyatı, elmi-pedaqoji fəaliyyətinin əsas tarixləri və eyni zamanda haqqında qısa oçerk Azərbaycan və rus dillərində, əsərləri və haqqında ədəbiyyat isə nəşr olunduğu dillərdə təqdim edilmişdir.

Göstəriciyə daxil edilən bütün materiallar məzmun və xarakterindən asılı olmayaraq xronoloji ardıcıllıqla verilmiş, müvafiq problemlər üzrə sistemləşdirilmişdir. Biblioqrafik göstəricidə 70 illik bir dövrün alim ömründə izi səbr və təmkinlə izlənmiş, onun elmi-pedaqoji fəaliyyətinin bütün istiqamətləri araşdırılmışdır.

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

Biblioqrafik göstəricinin tərtibçiləri professor F.Rüstəmov, pedaqoji elmlər namizədi H.Əhmədov, redaktorlar: professor Ə.Paşayev və dosent H.Bayramovdur.

Biblioqrafik göstəricinin quruluşu birinci göstəricidə olduğu kimi saxlanılmış və aşağıdakı bölmələrdən ibarətdir. 1.Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri (Azərbaycan və rus dillərində); 2. H.Əhmədovun həyatı və elmi-pedaqoji fəaliyyəti haqqında qısa oçerk (F.A.Rüstəmov); 3.Əsərləri (Azərbaycan və rus dillərində); ACE-də dərc olunmuş məqalələri; qəzet məqalələri; 4.Redaktə etdiyi əsərlər (Azərbaycan və rus dillərində); 5. Dissertasiya işlərinə elmi rəhbərlik; dissertasiya işlərinə opponentlik; 6.Elmi-pedaqoji fəaliyyəti və əsərləri haqqında ədəbiyyat (Azərbaycan və rus dillərində); 7.Yardımçı göstəricilər-Əsərlərinin əlifba göstəricisi; H.Əhmədov haqqında yazmış müəlliflər (Azərbaycan və rus dillərində) 8. Redaktordan.

«Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri» adlanan birinci bölmə akademik H.Əhmədovun həyatının güzgüsüdür bu bölmə vasitəsilə akademikin keçdiyi keşməkeşli, eyni zamanda zəngin həyat yolu haqqında mükəmməl İnformasiya almaq olar.

«H.Əhmədovun həyatı və elmi-pedaqoji fəaliyyəti haqqında qısa oçerk» adlanan ikinci bölməni birinci göstəricidə professor Ə.Əlizadə qələmə almışdırsa, ikinci göstəricidə professor F.A.Rüstəmov qələmə almışdır. Hər iki oçerk yüksək peşəkarlıqla yazılmış elmi təhlildir. Oçerkin, eyni zamanda biblioqrafik göstəriciyə daxil edilmiş bütün materialların Azərbaycan və rus dillərində verilməsi vəsaitin oxucu kontingentini artırır.

Əsərləri bölməsində Azərbiycan dilində 122 və rus dilində 55 sənədin biblioqrafik təsviri verilir. Bölmə vasitəsilə oyrənirik ki, H.Əhmədovun ilk kitabı «Ibtidai məktəb şagirdlərinin kommunist əxlaqı tərbiyəsində nümunənin rolu və ondan istifadə etmək yolları (B., 1958.-98 s.) adlı kitabdır. Yeri gəlmişkən müəlliflər birinci biblioqrafik göstəricidə etdikləri səhvi təkrar etmişlər. Bölmədə akademik H.Əhəmdovun kitabları ilə elmi məqalələrinin bir yerdə, qarışıq verilməsi ondan istifadəni çətinləşdirir. Yaxşı olardı ki, əvvəlcə kitablar, sonra isə dövri mətbuat

səhifələrində dərc olunmuş məqalələr xronoloji ardıcıllıqla veriləydi. Onu da qeyd etmək lazımdır ki, biblioqrafik göstəricinin birinci nəşrində (1990) akademikin qələmindən çıxan kitablara annotasiya verilmişdir. Təkrar nəşrdə buna rast gəlmirik. 1990-cı ildən keçən 6 il ərzində göstəriciyə Azərbaycan dilində 22, rus dilində 13 yeni mənbə əlavə olunmuşdur. Bölmənin «ASE-də dərc olunmuş məqalələri» altbölməsində 44 məqalənin biblioqrafik təsviri verilir. Qəzet məqalələri altbölməsində isə Azərbaycan dilində 149 və rus dilində isə 14 qəzet məqaləsinin biblioqrafik təsviri verilir və buraya 22 yeni mənbə əlavə olunmuşdur.

«Redaktə etdiyi əsərlər» bölməsində akademikin redaktə etdiyi Azərbaycan dilində 43 və rus dlilində 3 mənbə haqqında biblioqrafik İnformasiya verilir.

Dissertasiya işlərinə elmi rəhbərlik bölməsində birinci nəşrdə akademikin rəhbəri olduğu 26, iknici nəşrdə isə 33 dissertasiya işinin avtoreferatı haqqında və opponent olduğu 4 doktorluq və 9 namizədlik dissertasiyası haqqında biblioqrafik İnformasiya verilir.

«Elmi pedaqoji fəaliyyəti və əsərləri haqqında ədəbiyyat» bölməsində birinci biblioqrafik göstəricidə 102, təkrar nəşrdə isə Azərbaycan dilində 192, rus dilində 14 mənbənin biblioqrafik təsviri verilir. Bölmədən məlum olur ki, akademik H.Əhmədovun əsərləri haqqında olan ilk mənbə Y.Talıbovun qələmə aldığı «Qiymətli vəsait» (H.Əhmədovun «Ibtidai məktəb şagirdlərinin kommunist əxlaqı tərbiyəsində nümunənin rolu və ondan istifadə etmək yolları» kitabı haqqında) «Azərbaycan müəllimi» qəzetinin 1958-ci il 13 iyul tarixli sayında dərc olunmuş məqalədir. 1997-ci ilə qədər haqqında yazılmış son məqalə F.Rüstəmovun «Maarif tariximiz tədqiq və tədris olunur» adlı (Azərbaycan müəllimi.-1997-28 yanvar) məqalədir.

Rus dilində verilmiş «Literatura o nauçno-pedaqoqiçeskoy deətelğnosti i trudax» adlı bölmədə müxtəlif yerli və xarici dövri mətbuatda akademik haqqında yazılmış materiallar əks olunur. Məsələn, akademik haqqında ilk xarici dövrü mətbuatda çap olunmuş məqalə «Bolğşoy sovet» pedaqoqov stranı (Q.Axmedov-uçastnik i dokladçik dannoy konferenüii)//

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Leninqradskaə pravda.-1970.-22 mart tarixində dərc olunmuş məqalədir. Bundan başqa bölmə vasitəsilə akademik haqqında "Ulənovskaə pravda", «Penzenskaə pravda», «Sovetskiy pedaqoq» (Tbilisi), «Uçitelğskaə qazeta», «Bakinskiy raboçiy», «Vışka» və başqa dövri mətbuat səhifələrində dərc edilmiş məqalələr haqqında biblioqrafik İnformasiya almaq olar.

Biblioqrafik göstəriciyə Azərbaycan və rus dillərində «H.Əhmədovun əsərlərinin əlifba göstəricisi» və «Akademik H.M.Əhmədov haqqında yazmış müəlliflər» adlı mükəmməl yardımçı göstəricilər tərtib olunmuşdur. Yardımçı göstəricilər biblioqrafik göstəricinin axtarış imkanlarını artırır vəsaitdən istifadəni asanlaşdırır.

Sonda verilmiş «Redaktordan» adlı bölmədə vəsaitin elmi redaktoru professor Ə.Paşayevin pedaqogika tariximizi uzun illər boyu tədqiq edib ümumiləşdirən və sistemə salan, sözün əsil mənasında elmimizin patriotlarından biri olan H.Əhmədovun mənalı ömür yolu dəyərləndirilir və qeyd olunur ki, bu böyük elm fədaisinin qədrini gələcək nəsillər daha çox biləcək və onun adını iftixarla çəkəcəklər.

Biblioqrafik göstəricilərdə 70 illik bir dövrdə akademikin elmi-pedaqoji fəaliyyətinin bütün istiqamtləri araşdırılmışdır. Biblioqrafik tədqiqat əsərləri akademik H.Əhmədovun necə deyərlər həyatının güzgüsüdür. Belə ki, biblioqrafik göstəricilər akademikin keçdiyi zəngin həyat yolu və dəyərli əsərləri haqqında mükəmməl biobiblioqrafik İnformasiya verməklə, onun cəmiyyətimizdə tanınmasında, təbliğində, bununla bərabər pedaqoji sahənin biblioqrafik İnformasiya təminatında mühüm əhəmiyyətə malikdir.

## *Ədəbiyyat*


**1.***Akademik Hüseyn Mustafa oğlu Əhmədov: Biblioqrafiya / Tərt ed.: F.Rüstəmov, H.Əhmədov; N.Tusi adına Azərb. Dövlət Pedaqoji Ins-tu. -B., 1997.-194 s. «Azərbaycanın elm və mədəniyyət xadimləri» ser.*

**2.***Əhmədov H.M. Ilk pedaqoji biblioqrafiya // Pedaqoji tədqiqatlar: axtarışlar, tapıntılar.- B., 1996.- №2.- S.112-113.*

**3.** *Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. -Bakı: Maarif, 2002.- 293 s.*

**4.** *Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq:Dərs vəsaiti.- B., 2001.- 143 s.*

**5.** *Professor H.M.Əhmədovun əsərlərinin izahlı biblioqrafiyası /Tərt ed.: Fərrux Abbas oğlu Rüstəmov, Həsən Bayram oğlu Bayramov;*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

*Red.:I.N.Isayev; Azərbaycan Təhsil Nazirliyi, Azərbaycan Dövlət Pedaqoji Universiteti. -B., 1990.- 118 s.*

***Хураман Вердиева***

***Отражение произведений видного педагога академика Г.Ахмедова в библиографических указателях***

**_Р Е З Ю М Е_**

*Академик Г.Ахмедов является одним из наиболее значительных ученых педагогической науки в Азербайджане и поэтому библиографическое изучение его творчества имеет важное значение. Источники библиографической информации о жизни и творчество про академика Г.Ахмедова весьма разнообразны. В статье рассмотрено отражение творчество этого видного ученого на страницах библиографических указателях посвященных ему и проделан анализ этих источников и их сравнительная оценка с точки зрения библиографической методики.*

*В статье особенное внимание удалено персональному библио-графическому уназателью посвященному жизни и творчеству академику Г.Ахмедову.*

***Xuraman Verdiyeva***

***Consecration of creations of distinguished pedagogy specialist, academician Huseyn Ahmadov on bibliographic sources***

**_S U M M A R Y_**

*Academician Huseyn Ahmadov is recognized representative of pedagogic science in Azerbaijan and research of his rich scientific activity is very important for Azeri pedagogic bibliography. Given article is devoted to question of bibliographic consecration of Huseyn Ahmadov's scientific heritage. There was analyzed the main basic properties of this bibliographic sources, a specially personal bibliographic index.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**RƏŞAD QARDAŞOV**
***Magistrant***

# RESPUBLİKA ELMİ KƏND TƏSƏRRÜFATI KİTABXANASININ BİBLİOQRAFİK FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Müstəqil Azərbaycan Respublikasında qədim və zəngin tarixə malik olan,elmin bütün sahələrini özündə cəmləşdirən kitabxanalardan biri də Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasıdır.

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası cəmiyyətdə iqtisadiyyatın infrastrukturu kimi öz fəaliyyəti ilə iqtisadi proseslərin informasiya təminatları ilə məşğul olmaqla onun inkişafında əhəmiyyətli rol oynayır. Sənaye və aqrar kompleksə xidmət edən müstəqil kitabxana şəbəkələrinin fəaliyyətinin səmərəliliyi özünü müvafiq istehsal sahələrinin inkişafında,orada çalışan əməkçilərin peşə səviyyəsinin yüksəldilməsində göstərir. Bundan başqa elmə, kadr hazırlığına xidmət edən kitabxanalarin fəalyyətinin nəticələri cəmiyyətin iqtisadi potensialinin inkişafına müsbət təsirini göstərir. Məlumdur ki, kitabxanalar öz oxucularının mənəviyyatına,intellektual və peşə səviyyəsinə kitab və informasiya xidməti ilə səmərəli təsir göstərərək, onların fəaliyyətində yaradıcılıq ünsürlərinin formalaşmasına, alimlərin, mütəxəssislərin və sair informasiya istehlakçılarının zehni əmək potensialının zənginləşməsinə və bu potensialdan ictimai həyatda, o cümlədən istehsalatda səmərəli istifadə olunmasına kömək edir ( 2, s. 42).

Aqrar texnikanın inkişafında rolu olan REKTK-sı 1921-ci ildə Xalq Torpaq Komissarlığı tərəfindən yaradılmışdır.1923-cü il aprelin 12-də Xalq torpaq Komissarlığının 47/213 nömrəli əmri ilə rəsmiləşdirilərək müstəqil kitabxana kimi fəaliyyətə başlamışdır (3, s. 2).

REKTK Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını təbliğ edən, respublikanin nazirlik, şirkət, idarə və müəssisələri, elmi tədqiqat və layihə institutlarının, elm, texnika, kənd təsərrüfatı sahəsində tədqiqat aparan ayrı-ayrı müəssisələrə, tələbələrə, aspirant və magistratura pilləsində təhsil alanlara məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən respublika mərkəzi hesab olunur.

REKTK-sı kitab və biblioqrafik xidmətlərlə yanaşı xarici ölkələrin jurnallarını, dövri və ardı davam edən nəşrləri,nadir nüsxələri

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

avtoreferatları, müxtəlif ensiklopediyaları, lüğətləri, ünvan-soraq kitablarını daimi oxucuların istifadəsinə verir.

REKTK-sı Azərbaycan Respublikası ərazisində yerləşən Kənd Təsərrüfatı Nazirliyi tabeliyində olan idarə və müəssisələrin, elmi-tədqiqat institutları və Aqrar Elm Mərkəzlərində fəaliyyət göstərən 51 şəbəkə və filial kitabxanaları üçün metodik mərkəz hesab olunur. Bu mərkəz il boyu kitabxanalarla sıx əlaqə saxlayaraq seminarlar keçirir.Yerlərdə onlara lazımi kitabxana işinə dair məsləhətlər verir.”Məlumat-mütəxəssis” günləri keçirirlər. Kitabxana bütün il ərzində kitabxanalararası mübadilə yolu ilə MDB-nin kənd təsərrüfatı kitabxanalarının 47-si ilə kitab mübadiləsi aparır.(1, s. 126).

Eyni zamanda Beynəlxalq kitab mübadiləsi yolu ilə Polşa, Koreya, Fransa,Almaniya,Türkiyə və başqa ölkələrin kitabxanaları ilə sıx əlaqə saxlayır.REKTK 1982-ci ildən kənd təsərrüfatı ədəbiyyatı üzrə depozitar mühafizə mərkəzidir.

REKTK-ının əsas istiqamətləri-respublikanın aqrar siyasəti sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsindən, kənd təsərrüfatı, ictimai-siyasi və elmin müxtəlif sahələrinə dair ədəbiyyatın təbliğindən ibarətdir. Fəaliyyət istiqamətinə, uyğun profilinə və gördüyü işlərə görə REKTK-ının əsas vəzifələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

-Müstəqil Azərbaycan Rspublikasının siyasətinin və tarixinin keşməkeşli yollarının, hazırki keçid dövrünün zəruriliyinin inkişafımızın milli ruhda təbliğ olunmasını təşkil etmək.

-müxtəlif səviyyəli oxucular arasında ictimai-siyasi və kənd təsərrüfatı ədəbiyyatının geniş təbliğində izahat işini möhkəmləndirmək.

-aqrar siyasətin,elmin,texnikanın və ictimai həyatın digər sahələrinin inkişafına, respublikanın elmi-texniki potensialına, yerli təsərrüfat sistemində yeni təcrübələrin təbliğinə dair ədəbiyyatı təbliğ etmək.

-elm xadimlərinin, kənd təsərrüfatı alim və mütəxəssislərinin, elmi işçilərin və başqa tələblərini öyrənməli, elmi-köməkçi, soraq-biblioqrafiya vəsaitlərini tərtib etməli, ədəbiyyatların geniş mövzular üzrə baxışların, məlumat-mütəxəssis günlərinin, elmi-praktiki konfransların, sərgilərin və s.tədbirlərin keçirilməsi.

-kompyuterləşmə və avtomatlaşdırma sisteminin REKTK-da və onun tabeliyində olan kitabxanalarda tətbiqini təbliğ etmək.

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

-Kənd Təsərrüfatı Nazirliyi mütəxəssislərinə xid-mət edən filial və şəbəkə kitabxanaları ilə kordinasiya işini təkmilləşdirmək (4, s. 8).

-oxucuların tələblərini KAA sistemi üzrə respublikada mövcud olan kitab fondu və respublikadan kənar kitabxanalar vasitəsi ilə ödəmək.

1967-ci ildən Azərbaycan SSRI Nazirlər Sovetinin Respublika Elmi Kənd Təsərrüfatı Nazirliyi nəzdində Respublika Elmi Kənd Təsərrüfatı kitabxanası kimi öz fəaliyyətini davam etdirmişdir. Bu gün REKTK Respublika Prezidentinin fərman və sərəncamlarını təbliğ edən, respublikanın nazirlik,şir-kət,idarə və müəssisələri, elmi-tədqiqat və layihə institutlarının,elm və texnika, kənd təsərrüfatı sahəsində tədqiqat aparan ayrı-ayrı mütəxəssislərə və tələbələrə, aspirantlara və magistratura pilləsində təhsil alanlara elmi metodik yardım göstərir, məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən respublika mərkəzi hesab olunur (5, s. 12).

REKTK-sı ənənəvi kitab təbliği və kitabxana-biblioqrafiya xidmətlərindən əlavə xarici ölkələrin jurnallarını,dövri və ardı davam edən nəşrlərini, avtoreferatları, plakatları və digər sənədləri özündə əks etdirən,metodiki fəaliyyətlə məşğul olan böyük müəssisədir.

Hazırda kitabxananın ümumi fondu 743461-ə yaxındır. Kitabxanada fəaliyyət göstərən soraq-məlumat aparatı,kataloq-kartoteka sistemi vasitəsilə kitabxana fondları haqqında operativ məlumat verilir. Müxtəlif ensiklopediyalar, lüğətlər, ünvan-soraq kitabları daim oxucuların istifadəsindədir. Il ərzində 12247-dən artıq oxucu kitabxananın xidmətindən istifadə edir.REKTK-sı Azərbaycan Respublikası ərazisində yerləşən 51 şəbəkə və filial kitabxanaları üçün metodik mərkəz hesab olunur.Metodik iş əsasən aşağıdakı istiqamətlərdə aparılır:

-qabaqcıl kitabxana təcrubəsinin öyrənilməsi,yayıl-ması və metodiki sənədlərin hazırlanması, kitabxana kadrlarının ixtisas səviyyısinin yüksəldilməsi,seminar və məsləhətlərin keçirilməsi.

Eyni zamanda BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri uçun istehsalat təcrübəsi mərkəzidir.

Respublikamızda həyata keçirilən aqrar islahatlara uyğun olaraq aqrar sahədə aparılan elmi-tədqiqat işlərinin istehsalatda tətbiq edilməsinin elmi-tədqiqat institutlarının, təcrübə sınaq təsərrüfatlarının və fermer təsərrüfatlarında işlərin səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Respublikası Kənd Təərrüfatı Nazirliyinin  təşəbbüsü ilə doqquz müxtəlif Regional Elmi Mərkəz yaradıldı (Quba, Salyan, Beyləqan, Kürdəmir, Tərtər, Lənkəran, Gəncə, Şəki və Naxçıvanda).

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

REKTK-sı işçiləri mütəmadi olaraq onun tabeliyində olan filial, şəbəkə və REM-də lazımi informasiya və elmi metodik kömək göstərmək məqsədilə ezamiyyələrdə olurlar. Respublika daxilində və respublikadan kənarda mövcud olan lazımi informasiyaları və biblioqrafik vəsaitlərin göndərilməsini təşkil edir.

Hazırda REKTK-da 5 söbə, 3 bölmə fəalyyət gösətirir:

1.Metodiki

2.Xidmət

3.Komplektləşdirmə ,kitab işləmə və kataloqlaşdırma

4.Məlumat-biblioqrafiya 5.Depozitar fond.

Bölmələr:

1.Sistemli və əlifba kataloqları üzrə bölmə

2.Mərkəzləşmiş komplektləşdirmə üzrə bölmə

3.Nadir nüsxələr bölməsi.

REKTK-nın biblioqrafiya bölməsinin fəaliyyəti əsasən Kənd Təsərrüfatı Nazirliyi sistemində vahid biblioqrafiya xidmətinin yeniləşdirilməsinə və daha da təkmilləşdirilməsinə yönəldiləcəkdir. Məlumat biblioqrafiya işinin səmərəsini yüksəltmək üçün ədəbiyyatların retrospektiv mövzu göstəricilərini tərtib etmək planlaşdırılmışdır.(6, s. 10)

-məlumat biblioqrafiya fondunun işlənməsi

-oxucu kartotekasının işlənib qaydaya salınması

-jurnal məqalələrinin göstəricisininin hazırlanması

-qəzet, məqalə kartotekasının işlənməsi

-oxucuya biblioqrafik xidmət

-xarici jurnallarla iş

-mövzu kartotekasının işlənməsi

-sərgilərin təşkili

-ETI əməkdaşlarının kitabxanada dövri nəşr edilmiş məqalə kartotekasının işlənməsi

-məlumat-mütəxəssis günlərinin keçirilməsi

-oxucuların sorğularına cavab(yazılı,şifahi)

-illik hesabatların hazırlanması.

Beləliklə müasir cəmiyyətimizin kitabxanaları kimi REKTK-sı da öz fəaliyyətinin bütün istiqamətlərini informasiya infrastrukturunun müasir dövrdə mövcud formalarından istifadə edərək qurmağa çalışır.

**Ədəbiyyat**


1. *Əliyev Z.H. Azərbaycan Biblioqrafiyasının tarixi.- B.:BUN, 2007.-190 s.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

2. Kazımov R.Ə. “Kitabxana işinin iqtisadiyyatı” B.: 2003
3. REKTK-nın hesabatı 2003
4. REKTK-nın hesabatı 2004
5. REKTK-nın hesabatı 2005
6. REKTK-nın hesabatı 2006

**Рашад Кардашов**

**РЕЗЮМЕ**

*В статье были рассмотрены главные направления Республиканской Научно Сельскохозяйственной библиотеки.Здесь рассматриваются его история в современном виде и проведенные работы. В статье были выделены места библиографическим и методическим деятельностям Республиканской Научно Сельскохозяйственной библиотеки.*

**Rashad Kardashov**

**SUMMARY**

*The basic directions of the activity of republic sciences agronomist library has been lighted, it’s modern position and about affords of it’s carried out given reference in the article.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**ZƏRİFƏ MƏMMƏDOVA**
***Magistrant***

## AZƏRBAYCAN MÜHACİRƏT PUBLİSİSTİKASI:
## Biblioqrafik tədqiqat
## <u>I məqalə</u>

Tarixin müəyyən inkişaf mərhələsində ictimai-siyasi həyatın, insanlar və dövlətlər arasındakı münasibətlərin, hərbi ideoloji münaqişələrin məhsulu kimi ortaya çıxan mühacirət ümumbəşəri bir problemdir.

Mühacirət (latınca «emiqro»-köçürəm,çıxıram)- daimi və ya müvəqqəti(uzun zamana)yaşamaq üçün digər ölkəyə könüllü və ya məcburi köçmə, hər hansı bir ölkədə yaşayan mühacirlərin toplusudur.Mühacirətin tarixi uzaq keçmişdən başlamışdır. Qədim imperiyaların,sonralar isə Sasanilərin, Ərəb xilafətinin və digər dövlətlərin Azərbaycanda işğalçı siyasəti mühacirətə səbəb olmuşdur.Lakin müasir anlamda mühacirət Azərbaycan torpaqlarının Rusiya və Iran arasında bölüşdürülməsilə (Gürcüstan müqaviləsi və Türkmənçay müqaviləsi) bağlı olmuşdur.Çar Rusiyasının müstəmləkəçilik siyasəti,ermənilərin azərbaycanlılara qarşı soyqırımları Şimali Azərbaycandan,hakim dairələrin sosial-siyasi zülmündən narazılıq isə Cənubi Azərbaycandan əhalinin zaman-zaman mühacirətinə səbəb olmuşdur.Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaranan mühacirət, Azərbaycanın mühacirət tarixində yeni bir səhifə açmışdı. Cümhuriyyətin rəhbərlərinin böyük bir hissəsi, yeni qurulmuş sovet hakimiyyətinin ideya düşmənləri,keçmiş sahibkarların əksəriyyəti ölkəni tərk edərək,mühacirətə getmişdi. Ilk dəfə olaraq, Azərbaycan mühacirəti siyasi cəhətdən təşkilatlanmış, ədəbi-bədii məktəb,dövri mətbuat yaratmışdı. Bu dövr mühacirət mətbuatı Azərbaycanda baş verən hadisələrə münasibətini bildirməyə,vəziyyətin dəyişdirilməsinə təsir göstərməyə çalışmışdır.

Azərbaycan mühacirət mətbuatı Azərbaycan mətbuatının mühüm qollarından biridir.

Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra istiqlal mücadiləsini xaricdə davam etdirən Azərbaycanın siyasi mühacirlərinin

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

başda Məhəmməd Əmin Rəsulzadə olmaqla, Cümhuriyyət xadimlərinin və onların ardıcıllarının bütün XX əsr boyu SSRI-nin süqutunadək,əsasən,Türkiyədə və bəzi Qərbi Avropa ölkələrində yaratdıqları mətbuat nəzərdə tutulur.(1;12)

1923-cü ilin sentyabrın 26-dan Türkiyənin Istanbul şəhərində Azərbaycan mühacirət mətbuatının ilk nümunəsi olan «Yeni Qafqasya» jurnalı nəşr edilməyə başladı. Azərbaycan Milli Qurtuluş Hərəkatının ideoloqu, ilk Demokratik Azərbaycan Respublikasının banisi M.Ə.Rəsulzadə tərəfindən nəşr edilən bu jurnalın başlıca qayəsi Azərbaycanda davam edən milli istiqlal mübarizəsinə dəstək vermək, vətəni bolşevik işğalından xilas etmək idi.

1927-ci ildə «Yeni Qafqasya» Sovet Ittifaqının Türkiyəyə təzyiqlərindən sonra fəaliyyətini dayandırdı.Lakin 1932-ci ilədək Azərbaycan mühacirləri Türkiyədən çıxarılana qədər bu və ya digər adlarla öz nəşrlərini buraxmağa müvəffəq olmuşlar.Həmin müddətdə Azərbaycan mühacirləri Istanbulda « Azəri türk» (1928-1930), «Yaşıl yarpaq» (1928), «Odlu yurd»(1929-1931) məcmuələrini və «Bildiriş»qəzetini (1930-1931) nəşr etmişlər.Həmin nəşrlərin də proqramları cüzi dəyişikliklərlə «Yeni Qafqasya»nın proqramının təkrarı idi.Jurnalda imtiyaz sahibi müdir kimi əvvəlcə Seyid Tahir,sonra Əhməd haqqının adları göstərilsə də,əslində,nəşrə Məhəmməd Əmin Rəsulzadə rəhbərlik etmişdir.

«Yeni Qafqasya» ərəb əlifbası ilə, «Azəri-türk» ün ilk 20 sayı ərəb,sonrakı 10 nömrəsi latın əlifbası ilə buraxılmışdır. Məcmuədə əsasən publisistik janrda yazılmış əsərlərin nəşri üstünlük təşkil edirdi.Publisistik janra ona görə üstünlük verilirdi ki,mühacirət publisistikası ideyanı,fikri ifadə etmək baxımından daha azaddır.Mühacirət publisistikası üçün bir tərəfdən döyüşkənlik və üsyankarlıq, digər tərəfdən həsrət,vətən yanğısı çox xarakterikdir.

M.Ə.Rəsulzadə mühacirət mətbuatını Milli dövlət ideyalarının təbliği və itirilmiş Azərbaycan müstəqilliyinin bərpası uğrunda mübarizə kimi dəyərləndirirdi. Bu məqsədlə «Yeni Qafqasya» da Azərbaycan mühacirət mətbuatında tanınmış Azərbaycan ziyalılarının yaradıcılığı haqqında mütəmadi məlumatlar verilirdi.

Azərbaycan mühacirət mətbuatının banisi M.Ə.Rəsulzadə də baş redaktoru olduğu mətbu orqanlarında davamlı olaraq öz publisistik

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

məqalələrini nəşr etdirirdi. M.Ə.Rəsulzadənin «Istiqlal» jurnalında «Azərbaycan mətbuatının şanlı xatirəsi» (Yeni Qafqasya,1926,№9), «Tutduğumuz yol» (Azəri türk,1928,№1), «Hərf inqilabı cəbhəsində» (Azəri türk,1928, №18), «Əfqanıstan faciəsi» (Odlu yurd,1929, №1), «Öyrədən bir müsibət»(Odlu yurd,1929, №3), «Müştərək Qafqaz cəbhəsi» (1932, № 12), «Türkiyə və Avropa» (1932, № 13), «Bir rejimin ildönümü» (1932, № 20), «Demokratiya və Sovetlər» (1932, № 30), «Haqq da ümid də bizdə» (Istiqlal, 1932, №23), «Vahid istiqlalçılar cəbhəsi» (1933, № 9), «Uzaq Şərqdə» (1933, № 34), «Ukrayna məsələsi» (1933, № 48), «S.Ə.Şirvaninin çap olunmuş bir şeri haqqında,(1933,Azərbaycan Yurd Bilgisi), «Milli Azərbaycan hərəkatının xarakteri (Azərbaycan Yurd Bilgisi,1934,№29), «Azərbaycan haqqında ümumi məlumat» ( Azərbaycan (Ankara),1952,№9) «Azərbaycanın qara günü» (Birləşik Qafqasya,1953,№3-4), «Azərbaycan istiqlalının elanı»(Birləşik Qafqasya,1953,№5), məqalələri davamlı olaraq nəşr olunurdu. M.Ə.Rəsulzadənin «Azəri Türk», «Prometey», «Yeni Qafqasya», «Azərbaycan (Ankara)», «Birləşik Qafqasya», «Azərbaycan Yurd Bilgisi» və digər mətbuat orqanlarında da Azərbaycan istiqlal mübarizəsinə həsr olunmuş publisistik məqalələri çap edilirdi. (5;18)

Azərbaycan mühacirət mətbuatında haqqında yazılar verilən, publisistik məqalələri nəşr edilən, azadlıq mübarizəsinin önündə gedənlərdən biri də Mirzə Bala Məmmədzadə idi.

Azərbaycan mühacirət probleminin araşdırılması, elmi-nəzəri tədqiqi və dəyərləndirilməsi sahəsində ilk tədqiqat heç şübhəsiz Mirzə Bala Məmmədzadənin «Milli Azərbaycan hərəkatı» adlı kitabı olmuşdur. Kitabın 1991-ci ildə Ankarada buraxılan ikinci nəşrinin «Ön sözündə qeyd olunur ki, bu qiymətli əsər ilk dəfə 1938-ci ildə Almaniyanın paytaxtı Berlində o günün şərtlərinə görə məhdud sayda çap olunmuş və qısa bir zamanda da tükənmişdir». Əsərdə göstərilirdi ki, «Yeni Qafqasya» yalnız azərbaycanlıların deyil, rus əsarəti altındakı bütün türklərin xaricdə çıxardıqları ilk məcmuə idi.

Mirzə Bala Məmmədzadənin «Səkkiz illik yol» (Yeni Qafqasya, 1926. - № 4), «Bakının azad olunması uğrunda döyüş – 15 sentyabr qələbəsi» (Yeni Qafqasya, 1927. - № 24), «31 Mart» (Odlu yurd, 1929. - № 2), «Müsavatçılar və kommunistlər» (Odlu yurd, 1929. - № 4),

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

«Bolşeviklər və daşnaklar» (Odlu yurd, 1929. - № 5), «Azərbaycan parlamenti» (Odlu yurd, 1930. - № 11), «Azərbaycan həyat və mətbuatında» (Odlu yurd, 1931. - № 3, 4, 5, 6, 7), «Azərbaycan və bolşeviklər» (Odlu yurd, 1931. - № 27), «Kommunistlər və istiqlal» (Odlu yurd, 1931. - № 27), «Bir qırğının 15 illiyi»(Istiqlal, 1933, №31), «Hər şeydən öncə milli istiqlal»(Qafqasya, 1952, №15), «Sovetlər Birliyində əhali və rus olmayan millətlər məsələsi» (Birləşik Qafqasya, 1953, №3-4), «Mirzə Fətəli və əlifba məsələsi»(Birləşik Qafqasya, 1953, №3), «Rus imperializmi və onun alətlər»( Birləşik qafqasya, 1953, №5), «Müstəqil Azərbaycan» (Birləşik Qafqasya, 1953, №5), «Yeni tariximizin mühüm günlərindən» (Birləşik Qafqasya, 1953, №7), «Azərbaycanın milli zəfər günü» (Birləşik Qafqasya, 1953, №9), «Milli tariximizin son 50 ili» (Azərbaycan, 1956, №1) və s. kimi məqalələri mühacirət mətbuatında ardıcıl olaraq nəşr olunmuşdur.

Rus imperializminin, bolşevizminin ifşası SSRI xalqlarının dözülməz, ağır həyatı, istiqlal tarixi və istiqlal uğrunda mücadilə aparan qəhrəmanların həyat və fəaliyyəti, sovet rejiminin təzyiq, təqib və işgəncələrinə məruz qalan insanların taleyi, Qafqaz birliyi ideyası, Sovetlərin ədəbi-mədəni və din sahəsindəki siyasətinin tənqidi nəşr olunan məqalələrin məzmununu əhatə edirdi. (3;25)

Bolşeviklərin qanlı qırğınlarından sonra M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə kimi respublikamızda yüzlərlə ziyalı haqsız təqiblərə məruz qalmış, doğma yurdunu tərk etməyə məcbur olmuşdur. Ancaq bir an da Azərbaycansız yaşamamışlar, ürəklərində gəzdirmişlər Azərbaycan odunu, Azərbaycan həsrətini. Uzaqlarda yaşasalar da ancaq vətənsiz yaşamayıblar. Ürəklərində yaşayan qürbət duyğusu, qəriblik acısı əsərlərində əks olunub.

Azərbaycan mühacirət publisistikasında görkəmli ictimai xadimi H.Baykaranın xüsusi yeri var. Hüseyn Baykara da digər mühacirlər kimi qürbətdə vətəninin istiqlalı uğrunda mübarizəyə başlayır, Azərbaycan xalqının vəziyyəti haqqında mətbuatda elmi, publisistik məqalələrlə çıxış edirdi. Onun məqalələrini oxuduqda görürük ki, söhbət yalnız və yalnız Azərbaycandan gedir. O cümlədən, «Azərbaycanda erməni basqısı və Naxçıvan məsələsi», «Azərbaycan istiqlalının 50 illiyi dolayısilə», «Azərbaycan cümhuriyyətinin iki hərbi zəfəri», «Azərbaycan renessansını yapanlardan Abbasqulu Ağa Bakıxanov», «Azərbaycan

istiqlal mücadiləsinin iqtisadi təməli», «Dədə Qorqud kitabı üzərinə notlar» və s. yazılar bu qəbildəndir. (2;15)

Hüseyn Baykara Azərbaycanın azadlıq hərəkatından bəhs edən bir neçə elmi kitabın müəllifidir. «XIX əsrdə Azərbaycanda yeniləşmə hərəkatları» (kitab 1966-cı ildə Türk Kültürünü Araşdırma Institutu tərəfindən nəşr olunmuşdur), «Iran inqilabı və azadlıq hərəkatı», «Azərbaycan istiqlal mübarizəsi tarixi» (kitab 1975-ci ildə Istanbulda buraxılmışdır).

Hüseyn Baykara «Azərbaycan istiqlal mübarizəsi tarixi» əsərində Azərbaycanın bolşeviklər tərəfindən istila olunmasını, ermənilərin bundan istifadə edərək Azərbaycanda qırğın törətməsini, türkiyəli soydaşlarımızın bizə etdikləri hərbi yardım və digər hadisələri tarixi faktlar əsasında işıqlandırmışdır.

Azərbaycan öz müstəqilliyini yenidən bərpa etmək uğrunda mübarizə apardığı illər 80-ci illərin sonu 90-cı illərin əvvəllərində mühacirət publisistikası yeni inkişaf mərhələsinə qədəm qoydu.Həmin dövrdə və müstəqilliyin ilk illərində «Azərbaycan» (Ankara) jurnalı ölkədə gedən ictimai-siyasi prosesləri, xüsusilə Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələri diqqətlə izləyir və dərhal reaksiya verirdi.Türkiyədə («Azərbaycan türkləri», «Xəzər»,Istanbul,1990), Isveçdə («Araz»,Lund,1991; «Azərbaycan», Stokholm), Böyük Britaniyada («Aydınlıq», 1988, London; «Odlar ölkəsi», 1988, Edinburq), Almaniyada («Azər»,1990, Berlin; «Ana dili», 1984, Bonn; «Savalan», 1967, Berlin, «Ərk»,1975), İspaniyada («Dədə Qorqud», 1988, Madrid), Belçikada («Qürbət», 1984, Brüssel; «Odlu vətən», 1992, Brüssel),habelə keçmiş SSRI məkanında Rusiya Federasiyasında («Azərros», «Azərbaycan XXI əsr», «Millətin səsi», «Azərbaycan diasporu», «Asudə vaxt»,Moskva; «Azərbaycan media»,Ivanovo; «Azerbaydjan»,Yekaterinburq; «Bizim qəzet», Kemerovo; «Yurd», Saratov; «İnam» Sankt-Peterburq; «Azərbaycan»,Vladivostok; «Dərbənd», Dərbənd), Estoniyada («Ocaq, Tallin»), Ukraynada («Savalan»,Dnepropetrovsk; «Exo Azerbaydjana», «Qolos Azerbaydjana»,Kiyev; «Millət», Simferepol), Moldovada («Araz»,Kişinyov) nəşr edilən qəzet və jurnallarda mühacirət mətbuatı tarixində müəyyən iz qoymuş publisistik əsərlər çap edilirdi.

***Ədəbiyyat*:**

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

1. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti 1918-1920. – B., 1990. – 92 s.
2. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. – B.: Azərnəşr, 1992. – 276 s.
3. Həşimova A. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti.- B.: Bilik, 1992. – 167 s.
4. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. – B., 1991. – 126 s.
5. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. – Bakı, 1991. – 152 s.

***Зарифа Мамедова***

***Эмиграционная публицистика в Азербайджане:***
***(1921-1999-г.х)***
***(Библиографическое исследование)***

## *РЕЗЮМЕ*

*Появившаяся на определенном этапе истории, отражающая социально-политическую жизнь,отнашения между людьми и государствами, военно-идеологические конфликты эмиграция общечеловеческая проблема. В 1921-1991-годах прошлого века, в период господства советского режима и идеологии в Азербайджане преднамеренно не затрагивали эту тему или предджявляли негативное отнашение к ней.*

*В статье отрожена библиографическое исследование эмиграционной публицистики.*

***Zarifa Mamedova***

***Publicism in Azerbaijan emigration (1921th-1991st -years)***
***(Bibliographic investigation)***

## *SUMMARY*

*In the definite develorment stages of the history emigration is the rublic problem of the social-rolitical life and the relations among the reorle and governments and the military ideological arguments.In the 1921th -1991st years of the last century when dominated the soviet*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

*regime and its ideology in Azerbaijan unintentional this theme wasn't investigated or had made a false attitude.*

*The article deals with the bibliographic investigation of migration of the publicism.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**ŞİRİNOV CEYHUN**
*Magistrant*

## MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT İ İSTİFADƏÇİLƏRININ BİBLİOQRAFİK-İNFORMASİYA TƏLƏBATLARI VƏ M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASI

Respublikamızın ən böyük milli mədəniyyət xəzinələrindən biri M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasıdır. Mədəniyyət və incəsənət sahəsi tələbatçılarının biblioqrafik İnformasiya tələbatının ödənilməsində Milli Kitabxana müstəsna rol oynayır. Kitabxananın «Musiqi ədəbiyyatı» və «Mədəniyyət və incəsənət üzrə elmi İnformasiya» şöbəsi öz fəaliyyəti ilə diqqət çəkir.

«Musiqi ədəbiyyatı» şöbəsi 1963-cü ildən müstəqil şöbə kimi fəaliyyət göstərir. Fəaliyyətə başladığı ilk gündən şöbə musiqiyə dair kitabların, jurnalların, notların, qramafon vallarının komplektləşdirilməsi, inventarlaşdırılması, sistemləşdirilməsi və məlumat-biblioqrafiya aparatında əks etdirilməsi ilə məşğul olur. Şöbə oxucular, xüsusilə gənc nəsl arasında musiqiləri yaymaq, təbliğ etmək üçün yardımçı fonda və fonetika fonduna böyük ehtiyac duyurdu. Bu məqsədlə 1063-cü ildə fonetika bölməsi fəaliyyətə başlayır. Bu zaman onun fondunda müxtəlif qrammafon valları, müasir və xarici bəstəkarların nadir əsərləri yer tutur.

1981-ci ildə «Musiqi ədəbiyyatı» şöbəsi fonduna daha bir yeni ədəbiyyat növü Azərbaycan bəstəkarlarının əlyazmaları daxil edildi. (1 s.63)

Azərbaycan bəstəkarlarının əlyazmaları inventar nömrələrlə düzülüb, xüsusi şkaflarda qorunur. Bu tip əsərlərə müraciət edənlər daha çox elmi-tədqiqat işi ilə məşğul olanlardır. Ümumiyyətlə şöbəyə müraciət edənlər elmi işçilər, peşəkar musiqiçilər, koknservatoriya, musiqi məktəbləri və kolleclərin tələbələridir.

Şöbə 1969-cu ildən etibarən Bakının musiqi məktəb müəllimlərinə və tələbələrinə kömək məqsədilə 1969-cu ildən «Not musiqi şöbəsinə yeni daxil olan not, kitab, səs valları haqqında məlumat bülleteni» adlı İnformasiya göstəricisi buraxır. Rüblik buraxılan bülleten not, qrammofon valı və kitab bölmələrindən ibarətdir. İnformasiya bülleteni

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

musiqi məktəblərinə, texnikumlara, klublara, mədəniyyət evlərinə göndərilirdi. Çox təəssüf ki, bülletenin nəşri uzunmüddətdir ki, dayandırılıb.

Bundan başqa Məlumat-biblioqrafiya aparatı da çox əhəmiyyətli işlər görmüşdür. Belə ki, məlumat-biblioqrafiya aparatı musiqi fondunu bütövlükdə oxucuların diqqətinə çatdırmaq üçün notların, qrammofon vallarının və kitabların sistemli kataloqunu və bir sıra tematik kartotekalar yaratmışdır.

Milli kitabxananın «Mədəniyyət və incəsənət üzrə elmi-İnformasiya» şöbəsi də bu sahənin tələbatçılarının biblioqrafik İnformasiya tələbatının ödənilməsində xüsusi rol oynayır.

SSR Mədəniyyət Nazirliyinin 1972-ci il 28 avqust 505 №-li əmrinə əsasən Lenin adına SSR Dövlət Kitabxanasının nəznində mədəniyyət və incəsənət üzrə elmi İnformasiya mərkəzi işə başlayır. Bu prosesə respublika, şəhər və vilayət kitabxanaları da qoşulur. (2. s 90). M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanası da bu prosesə qoşulur. 1975-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanasında mədəniyyət və incəsənət üzrə İnformasiya şöbəsi fəaliyyət göstərir. Şöbənin əsas işini məlumatın seçmə üsulla yayılması, rəhbərliyə fərdi xilmət, İnformasiya nəşrlərinin hazırlanması və. s təşkil edir.

Rəhbərliyə fərdi xidmət işi rəhbər işçilərin tutduqları vəzifədən asılı olaraq beş seriya əsasında aparılır. RFX-in I, II və V seriyaları yüksək səviyəli rəhbər işçilərə IV seriya orta pilləli, III seriya isə «Soraq-cavab» prinsipi əsasında hazırlanır və hər iki səviyyəli rəhbər işçilərə xidmət edir. RFX üsulları ilə Mədəniyyət Nazirliyinə, Azərbaycan Dövlət Konservatoriyasına, Azərbaycan Dövlət Incəsənət Universitetinin müəllim heyətinə xidmət edilir.

İnformasiyanın seçilmiş yayılması üsulunun da özünə məxsus xüsusiyyətləri vardır. Bu üsulun əsas üstünlüklərindən biri daim qüvvədə olan sorğular əsasında həmin sorğulara uyğun biblioqrafik İnformasiyanın müəyyən vaxt ərzində yayılmasıdır.

Bu sistemin abonenti xüsusi profilli biblioqrafik İnformasiyaya ehtiyacı olan alimlər, mütəxəssislər və kiçik kollektivlərdir.

Lakin şöbənin əsas işini İnformasiya göstəricilərinin hazırlanması təşkil edir.

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Şöbə 1990-cı ildən «Respublika mədəni həyatının xronikası» adlı İnformasiya bülleteni hazırlayır. Bu bülleten aylıq nəşr edilirdi. Bülleteni buraxmaqda məqsəd rəhbər işçilərə və mütəxəssislərə müntəzəm olaraq Respublika mədəni həyatında baş verən əlamətdar hadisə və faktlar haqqında məlumat verməkdir. Bülleten Respublika qəzetlərində dərc edilən materiallar əsasında hazırlanırdı. Bülleten iki əsas sahə: Mədəniyyət və Incəsənət sahələri üzrə tərtib edilib.

Mədəniyyət sahəsi Beynəlxalq mədəni əlaqələr, Radio və televiziya verlişləri, Mətbuat rublikalarına bölünür.

Incəsənət sahəsi isə Musiqi, Estetika, Teatr, Rəssamlıq, Dekoratik tətbiqi incəsənət, Heykəltəraşlıq rublikalarına bölünür. Bülletendə təkcə Azərbaycan dilində deyil, rus dilində də məqalələr verilmişdir. Bülleteni buraxmaqda məqsəd Mədəniyyət Nazirliyi Aparatı işçilərinə Mədəniyyət və incəsənət sahəsində çalışan alimlərə, mütəxəssislərə, bu sahə üzrə təhsil alan tələbələrə xidmət göstərməkdir. Çox təəssüf ki, bu göstəricinin də nəşri uzun müddətdi dayandırılıb.

Şöbə 1976-cı ildən şöbə «Mədəniyyət və incəsənət üzrə yeni ədəbiyyat»adlı İnformasiya göstəricisi nəşr edir. Göstərici kitab, məcmuə, jurnal məqalələri əsasında nəşr edilmişdir. Göstəriciyə həm sovet, həm də xarici ölkə xalqlarının mədəniyyət və incəsənətinə aid materiallar daxil edilmişdir. Göstərici mədəniyyət və incəsənət bölmələrinə ayrılmışdır. Bu bölmələr bəziləri də alt bölmələrə ayrılmışdır. Mədəniyyət bölməsi Mədəni-maarif işi; Klub işi; Mətbuat, kitab, kitabçılıq; Kitabxana işi; Biblioqrafiya və s. alt bölmələrə ayrılır. Incəsənət bölməsi Təsviri incəsənət; Musiqi; Teatr; Opera və s alt bölmələrə ayrılır. Göstəricini buraxmaqda məqsəd Mədəniyyət Nazirliyi Aparatı işçilərinə o cümlədən, mədəniyyə və incəsənət sahəsində çalışan alimlərə, mütəxəssislərə, sənətkarlara konservatoriya və musiqi məktəblərinin tələbələrinə müvafiq sahə üzrə nəşr olunan ədəbiyyat haqqında vaxtaşırı məlumat verməkdir. Göstərici iki aydan bir buraxılırdı.

Göstərici 1982-ci ildən «Azərbaycan mədəniyyəti və incəsənəti üzrə yeni ədəbiyyat» adı ilə nəşr olunur. Əvvəlki göstəricidən fərqli olaraq, bu göstəricidə sırf Azərbaycana aid materiallar daxil edilmişdir. Kitabdan istifadəni asanlaşdırmaq məqsədilə onların qarşısında şifrələri verilmişdir. Göstərici ayda bir dəfə nəşr olunurdu. Göstəricinin 90-cı

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

illərdə nəşri dayanır. Bu sahədə bir müddət durğunluq müşahidə olunur. Lakin, ölkəmizin bütün sahələrində gedən sürətli inkşaf, bu sahənin də xoş gələcəyindən xəbər veirirdi. Bir müddət verilən fasilədən sonra həmin şöbə cari biblioqrafik İnformasiya göstəricilərinin nəşrini bərpa edir. Şöbə 2006-cı ildən «Mədəniyyət, incəsənət və turizm haqqında yeni ədəbiyyat» adlı göstəricini nəşr edir. Bu göstəricidə kitab, jurnal, qəzet məqalələri əsasında hazırlanır.” Fondun formalaşması şöbəsinin dövrü mətbuat bölməsindən hər gün 20-40 adda qəzet daxil olur.” (3) Məqsəd Mədəniyyət və Turizm Nazirliyinin rəhbər işçilərinə müvafiq mövzu üzrə azərbaycan və rus dillərində kitabxanaya daxil olan yeni kitablar, bəzi jurnal və qəzet səhifələrində dərc edilən məqalələr haqqında operativ məlumat verməkdir. Kitabxana fonduna daxil olan mövzu üzrə bəzi jurnal məqalələri də bu buraxılışdan vəsaitdə əks olunmuşdur. Kitabdan istifadəni asanlaşdırmaq məqsədilə onların qarşısında şifrələri verilmişdir. Qarşısında ulduz işarəsi olan məqalələrin tam elektron mətni Milli Kitabxananın saytı və elktron kataloqu vasitəsilə açıb oxumaq mümkündür.

***Ədəbiyyat***


*1. Məmmədova Tamella. Musiqi mədəniyyətimizin böyük sərvəti. . 70 il xalqın xidmətində.-B, 1993.-s.62-68.*

*2. Səfərəliyeva G. Mədəniyyət və incəsənət üzrə elmi İnformasiya işinin təşkili tarixindən. 70 il xalqın xidmətində.-B, 1993.-s. 90.*

*3. M.F.Axundov adına Kitabxananın 2007-ci il hesabatı.*



***Джейхун Ширинов***


***Потребностей библиографические информации исползователи деятельности културо и искустуво и Национальной Библиотеки Азербайджана им. М.Ф.Ахундова***

***РЕЗЮМЕ***


*В статье рассматриваются библиографической деятельности отдела культура и искусство и музукалная летература национальной библиотеки им. М.Ф.Ахундова.*



***Jeyhun Shirinov***



KİTABXANASÜNASLIQ VƏ BİBLİOQRAFİYA

## *Users of culelture and branches of the bibliographic information demandins and Azerbaijan Nateonal Library named after M.F.Akhundov*


## *SUMMARY*

*In this article, it is talked about the main role of the National Library named after M.F.Akhundov content of demanding the bibliographic information about the users in the branch of culture and art.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**ŞƏHLA TAHİRQIZI**
*Kitabşünaslıq və nəşriyyat işi*
*kafedrasının müəllimi*

# MÜƏLLİFLİK HÜQUQUNUN OBYEKT VƏ SUBYEKTLƏRİ
## I məqalə

Bütün dövrlərdə cəmiyyətin sivilizasiyalılığının başlıca göstəricilərindən birini həmin cəmiyyətdə elm, mədəniyyət və texnikanın inkişafına verilən diqqət təşkil etmişdir və bu gün də təşkil etməkdədir. Son nəticədə cəmiyyətin qarşısında duran iqtisadi problemlərin uğurlu həlli də cəmiyyətin intellektual potensialının və onun mədəni inkişaf səviyyəsinin nə dərəcədə yüksək olmasından asılıdır. Öz növbəsində, elm, mədəniyyət və texnika yalnız zəruri hüquqi şərtlər də daxil olmaqla, müvafiq şərtlər mövcud olduqda dinamik şəkildə inkişaf edə bilər. Şübhəsiz, onların sırasına cəmiyyətdə təşəkkül tapan əmtəə-pul münasibətlərinə adekvat olan normativ qaydaların qanunvericilikdə təsbitini də aid etmək lazımdır.

Ilk növbədə, bütün keçmiş Sovet Ittifaqında olduğu kimi, Azərbaycanda da intellektual mülkiyyətin mühafizəsi haqqında xüsusi qanunlar yox idi və nəzərdən keçirilən sahədə münasibətlərin hüquqi tənzimlənməsi, əsasən, qanun qüvvəli aktlarla tənzimlənirdi. Bu baxımdan yeganə istisnanı xüsusi qanunda, 60-cı illərin ortalarından etibarən isə Azərbaycan Respublikasının Mülki Məcəlləsində cəmləşdirilmiş müəllif hüququ normaları təşkil edirdi.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra intellektual mülkiyyətin mühafizəsi sahəsində yaranmış böhranlı vəziyyət bütövlükdə aradan qaldırılmış, və ənənəvi qorunma obyektlərinin istifadə üsulları dəyişilmiş, yeni obyektlər əmələ gəlmiş, istifadə etmə özü-özlüyündə qlobal xarakter daşımağa başlamışdı.

Müəlliflik hüququ obyektinin əlamətləri. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının qanununda göstərilir ki, yaradıcılıq məhsulu olan elmi əsərlər, bədii ədəbiyyat və

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

incəsənət əsərləri təyinatından və ifadə edilməsi üsullarından asılı olmayaraq müəlliflik hüququ obyektləridir. Bu təyinat çox həcmli olub, müəlliflik hüququ obyektinin çoxlu sayda əlamətlərini əhatə edir. Bundan başqa, bir sıra əlamətlər qanunun bir neçə digər maddələrində də göstərilmişdir.

1. "Əsər" anlayışı müəllifin yaradıcılıq məhsulu kimi, bir neçə yüzillik əvvəl meydana gəlmişdir, lakin müasir qanunçuluq onun dəqiq tərifini verməmişdir. Bunun səbəbi odur ki, əsər mürəkkəb, çoxplanlı obyektdir və bu və ya digər mənalandırmada ilk planda onun bir neçə xarakteristikası verilir.[1] Məsələn, V.Serebrovskinin verdiyi tərif belədir: "Əsər – yaradıcılıq fəaliyyəti nəticəsində alınan, insanın qavrama imkanlarına uyğun ifadə edilən və təqdimat (yayılma) formasına malik olan ideyaların, fikirlərin və obrazların məcmuudur". Bu tərifdə başlıca olaraq, əsərin hüquqi mühafizə obyekti kimi xarakteristikası verilir.

2. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikası qanununun 5.1-ci maddəsinə əsasən, müəlliflik hüququ təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan həm açıqlanmış, həm də açıqlanmamış, obyektiv formada mövcud olan elm, ədəbiyyat və incəsənət əsərlərinə şamil edilir [1]. Sahələr ənənəyə uyğun olaraq belə göstərilmişdir, əslində isə onların konkret sərhədi yoxdur. Həqiqətən, müəlliflik hüququ üçün elmin, ədəbiyyatın və incəsənətin sərhədlərini dəqiq şəkildə müəyyən etmək çox mürəkkəbdir.

Bundan başqa, məntiqin əsas tələbi olan bölgünün bir əsasda olması prinsipi burada pozulmuş olur. Əslində, burada çoxplanlı anlayışın olması tamamilə aydındır. Onu demək kifayətdir ki, müəyyən obyekt eyni zamanda, bu terminlərin müxtəlifliyi ilə xarakterizə edilə bilər. Məsələn, əsər eyni zamanda həm bədii, həm də elmi əsər ola bilər (fəlsəfə sahəsində bu hal çox müşahidə edilir). Digər obyektləri vahid bir kateqoriyaya daxil etmək çətindir. Eləcə də, teatr pyesini həm incəsənət, həm də ədəbiyyat əsəri hesab etmək olar. Bu terminlər müəlliflik hüququnu digər müstəsna huquqlardan fərqləndirməyə imkan vermir. EHM-lər üçün proqramlar hazırda müəlliflik hüququ obyektidir. Lakin

---

Qeyd: [1] Əsərin müxtəlif tip əlamətləri aşağıdakı əsərlərdə verilmişdir: Красовчикова О.А. Единство и дифференциации правовых форм творческих отношений // Проблемы советского авторского права.-М.1979.-С.55; Серебровский В.И. Вопросы советского права.-М., 1956.-32с.

fərqləndirmək çox çətindir ki, proqram elmi əsərdirmi, ədəbiyyatdırmı, yoxsa incəsənətdirmi. Çünki bəzi hallarda proqramın yazılması riyazi biliklər tələb etməyə bilər. Bəzi qanunvericilikdə EHM-lər üçün proqramlar ədəbi əsər hesab edilir. Lakin bu cür yanaşmanın mənfi cəhətləri də vardır. Beləliklə, yuxarıda deyilən terminlər məhdudlaşdırılaraq ayrılıqda deyil, insan fəaliyyətinin müəyyən sahəsini ifadə etmək üçün məcmu halda götürülməli və orientir rolunu oynamalıdır.

3. Əsər yaradıcılıq fəaliyyətinin nəticəsi (məhsulu) olmalıdır. "Yaradıcılıq" anlayışı ilk baxışdan kifayət qədər aydın olsa da, onun tərifini vermək çətindir. S.I.Ojeqovun rus dilinin izahlı lüğətində, eləcə də, "Azərbaycan dilinin izahlı lüğəti"nin birinci cildində "yaradıcılıq" "mahiyyəti etibarilə yeni mədəni və maddi dəyərlərin yaradılması prosesi" kimi izah edilmişdir.

Hüquqa dair bir sıra ədəbiyyatlarda "yaradıcılığa" belə tərif verilir: "Yaradıcılıq öz unikallığı, təkraredilməzliyi, orijinallığı ilə fərqlənən və keyfiyyətcə yeni olan insan fəaliyyətidir" [3]. Burada nəticənin xarakteristikası ön planda verilmişdir. Bununla birlikdə, yadda saxlamaq lazımdır ki, burada fəaliyyətin bir proses kimi xarakteristikasından söhbət gedir. Heç də hər zaman əvvəldən təsəvvür etmək olmur ki, yaradıcılıq nə ilə qurtaracaq və müəllifin müəyyən nəticəyə gəlməsi mümkün olacaqmı. Buna görə də, müəllifdən yaradıcılıq nəticələrini qısa vaxtda tələb etmək olmaz. Yaradıcılıq prosesi illərlə davam edə bilər. Odur ki, nəticənin xarakteristikası keçmiş illərdə baş vermiş fəaliyyətin xarakteristikasına təsir edə bilməz. Müəlliflik hüququnda belə məntiqsizliyin səbəblərini göstərərkən qeyd etməliyik ki, müəlliflik hüququna cəmiyyətdə əsərlərin varlığı ilə bağlı olan bütün münasibətləri əhatə etməyə cəhd edilmir.

Qismən, hüquqi tənzimləmə çərçivəsində əsər yaradılmasının daxili prosesi nəzərə alınmır, bu proses isə əslində, yaradıcılıqdır. Buna görə də hüququ tətbiq edənin real imkanı qalmır ki, əsərin yaradılmasına səbəb olan fəaliyyəti birmənalı tərzdə xarakterizə etsin. Belə olduqda bütün mübahisəli hallarda əsər təcrübi olaraq yeganə universal göstəriciyə çevrilir. Təsəvvür edilir ki, əsərin yeniliyi müəllifin yaradıcılıq fəaliyyətini xarakterizə edir və belə halda ideya əsas götürülür. Lakin yadda saxlamalıyıq ki, belə meyarların konkret olmaması, qeyri-

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

müəyyənliyi bir sıra konkret məsələlərin həllini məhkəmənin öz üzərinə qoyur. Bu və ya digər hallarda məhkəmə müəllifin fəaliyyət xarakterini də nəzərə alacaqdır.

Təsadüfi deyil ki, anqlo-sakson məhkəmə təcrübələrində əsərin xarakteristikasına dair yuxarıda dediyimiz traktovka (qorunan əsər orijinal olmalıdır) başlıca meyar kimi götürülmür. Burada müəllifin fəaliyyətinin xarakteristikasına daha çox diqqət verilir. Məsələn, əsər o zaman orijinal hesab edilir ki, müəllif əsəri yazarkən "bacarıq, düşüncə və əmək" sərf etsin, yaxud əgər əsər "alın təri" ilə yazılmışdırsa, "seçmə, qiymətləndirmə, yoxlama" prosesləri əsərdən aydın başa düşülsün. Bu ölkələrdə faktiki olaraq əsərdə ideyanın və onun ifadə formasının orijinal olması tələb edilmir. Ancaq əsərin köçürmə olmadığı və bilavasitə müəllif tərəfindən yaradılması əsas götürülür.

4. Əsər təyinatından asılı olmayaraq hüquqi qorunma dairəsində olur. Əsərin hansı sahəyə aid olması, onun hansı fəaliyyət sahəsində istifadə ediləcəyi, əlaqədar sahənin aktuallığı, yaxud qeyri-aktuallığı nəzərə alınmır. Bu prinsip qismən ifadə edir ki, hətta utilitar təyinatlı obyektlərdə də (məişətdə işlənən predmetlər, memarlıq tikintiləri və s.) müəlliflik hüququnu inkar etmək yolverilməzdir. Belə obyektlərin istifadəsi zamanı dəyişiklik edilməsi ancaq müəllifin razılığı ilə edilə bilər.

5. Əsər məna dəyərindən, məziyyətlərindən asılı olmayaraq qorunur. Bu əlamət əvvəlki ilə sıx bağlıdır. Əsər öz təyinatına uyğun ola bilər, yaxud hər hansı real təyinata uyğun gəlməyə bilər. Hər iki halda əsər qorunur. Eyni zamanda, əsər "ictimai fayda" baxımından qiymətləndirilməsinə görə də hüquqi mühafizədən məhrum edilə bilməz. Hətta müəyyən tarixi şəraitdə əsər cəmiyyət üçün ziyanlıdırsa, yenə də müəlliflik hüququ ilə qorunur. Müəllifin uğursuz yaradıcılıq məhsulu olan əsər də müəlliflik hüququ ilə qorunacaqdır.

6. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikası Qanununun 5-2-ci maddəsinə əsasən, əsər obyektiv formada mövcud olmalıdır. 5-2-ci maddə maddi forma kimi aşağıdakıları göstərir:

- yazılı (əlyazması makina yazısı, not yazısı və s.)
- şifahi (kütləvi çıxış, kütləvi ifa və s.)
- səs və ya videoyazılma (mexaniki, maqnit, rəqəmli, optik və s.)

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

- təsviri (rəsm, eskiz, şəkil, plan, cizgi, kino-, tele, video-, yaxud fotokadr və s.)

- həcmli-fəzavi (heykəl, model, maket, tikili və s.)

Bu siyahı ancaq nümunəvi xarakter daşıyır, obyektiv formada ifadə olunan digər tip əsərlər də buraya aid edilə bilər [1; 2].

"Obyektiv forma" anlayışının müxtəlif traktovkası (izahı) ola bilər. Əsərin hüquqi qorunmaya təqdim edilməsində vacib roluna görə bu anlayışın bir neçə meyarı müəyyən edilməlidir.

Adətən bir qayda olaraq, iki meyar əsas götürülür: əsərin təkrar nümayiş etdirilməsi, surətinin alınması və insanın hiss orqanları ilə qavranılması.

Təkrar nümayiş etdirilmə, yaxud surətinin alınması meyarı dünya müəlliflik hüququna dair tədqiqatlarda kifayət qədər araşdırılmışdır. Tədqiqatçıların yekdil fikrinə görə, əsərin obyektiv formaya malik olması onu təkrar nümayiş etdirmək, surətini almaq, yəni təkrar istehsal etməyin mümkün olmasıdır. Buradan da hər hansı maddi daşıyıcıda olmayan əsərlər də hüquqi qorunma obyekti ola bilər. Həqiqətən, əgər əsər maddi daşıyıcıya yazılmayıbsa, onun identikliyini təyin etmək mümkün deyil. Belə halda onu dinləyən, qəbul edən insanların yaddaşına əsaslanmaq lazım gəlir. Bununla yanaşı, belə mövqe bir sıra çatışmazlığa malikdir. Bu və ya digər səbəblərə görə, bir çox əsərlər bilavasitə hər hansı daşıyıcıya malik olmadığına, ancaq ifa edildiyinə görə hüquqi mühafizədən məhrum olur.

Bununla əlaqədar olaraq, belə bir fikir irəli sürülmüşdür ki, obyektiv forma həm də əsərin təkrar nümayiş, yaxud istehsal edilməsində də özünü göstərməlidir. Məsələn, əgər əsər ifa edilmişdirsə, təkrar edilə də bilər. Faktiki olaraq bu, onu ifadə edir ki, təkrar göstərmə, nümayiş nöqteyi-nəzərindən əsərin obyektiv formasının qiymətləndirilməsinin mənası yoxdur. Burada başlıca meyar müəllifin hansı yolla olsa öz yaratdığını göstərməsidir, ifa etməsidir.

Göstərilən yanaşmada müəyyən meyarların ayrılması vacibliyi ona gətirib çıxardı ki, tədqiqatçılar əsərin obyektiv formaya malik olmasını onun hiss orqanları tərəfindən qəbul edilməsi, qavranılması meyarı ilə də müəyyənləşdirməyi əsas götürdülər. Xüsusilə, anqlo-sakson ölkələrdə bu meyar kifayət qədər yayılmışdır. Bu halda əsərə o vaxt mühafizə hüququ verilir ki, o, qavranılma imkanına malik olsun. Burada əsərin maddi

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

daşıyıcıda fiksasiya olunub-olunmaması nəzərə alınmır. Əsas məsələ onun ifa edilməsi, nümayiş və göstərilməsinin hiss orqanları vasitəsilə qavranılmasıdır.

Hətta əgər əsər göstərilən meyarlara görə müəlliflik hüququ obyektinin təyinatına uyğun olsa da, bəzi hallarda Azərbaycan müəlliflik hüququ qanununun çərçivəsindən kənarda qalacaqdır. Əsərin Azərbaycan müəlliflik hüququnun təsiri altına düşməsi üçün onun Azərbaycan vətəndaşları, yaxud Azərbaycan ərazisi ilə bağlılığı da vacib meyar kimi götürülə bilər. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə uyğun olaraq müəlliflik hüququ aşağıdakılara şamil edilir:

- Azərbaycan Respublikasının vətəndaşı olan və ya Azərbaycan Respublikası ərazisində daimi yaşayış yeri olan fiziki şəxsin, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi üzrə hüquqi şəxsin müəlliflik hüququ və ya əlaqəli hüquqlara malik olduğu elm, ədəbiyyat və ya incəsənət əsərləri, ifalar və fonoqramlar;

- Azərbaycan Respublikası ərazisində ilk dəfə dərc edilmiş (buraxılmış) elm, ədəbiyyat və incəsənət əsərləri və ya fonoqramlar. Əsər və fonoqram Azərbaycan Respublikasının hüdudlarından kənarda ilk dəfə dərc edildikdən (buraxıldıqdan) 30 gün keçənədək Azərbaycan Respublikası ərazisində dərc edildikdə Azərbaycan Respublikasında da ilk dəfə dərc edilmiş (buraxılmış) sayılır [1].

### *Ədəbiyyat*

*1. Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının qanunu. 1996-cı il, 23 oktyabr // Azərbaycan qəzeti, 1996, 24 oktyabr.*

*2. Isayev N. Müəllif hüququnun obyektləri // «Hüquqi dövlət və qanun», 2005, №8; 9.*

*3. Гаврилов Е.Л. Советское авторское право. Основные положения и тенденции развития. – М., 1984.-с. 83.: Серебровский В.И. Вопросы советского авторского право.-М.1956.-с.43.*

***Шахла Тахир кызы***

## *Объекты и субъекты авторского права*

## 1-ая статья

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

## *РЕЗЮМЕ*

*С статье говорится об объектах и субъектах авторского права. Соответственно дается обзор ныне действующему законодательству Азербайджанской Республики в этой области.*

***Shahla Tahir kizi***

## ***The object and subject rights of authorship***

***I article***

## *SUMMARY*

*In article is spoken about the object and subject rights of authorship. It is given survey according law in force of the Azerbaijan Republic in this sphere at the present moment.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**ƏLƏMDAR BAYRAMOV**
***Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müəllimi***

# MÜASİR DÖVRDƏ ALİ MƏKTƏB DƏRSLİKLƏRİNİN NƏŞRƏ HAZIRLANMASI, TƏRTİBATI VƏ REDAKTƏSİ XÜSUSİYYƏTLƏRİ

Dərskilər və dərs vəsaitləri dünyada nəşr olunan ədəbiyyatın əhəmiyyətli bir hissəsini təşkil edir. Ayrı - ayrı ölkələrdə bu ümumi ədəbiyyatın 45 - 50, bəzi ölkələrdə isə 60% - ni təşkil edir. Azərbaycanda dərsliklərin nəşrinə XX əsrin 20 - ci illərindən başlanılmışdır. Bu işlə daha çox Azərnəşr və Maarif nəşriyyatları məşğul olmuşdur. Bu proses uzun bir yol keçmiş və hazırkı səviyyəsinə gəlib çatmışdır. Dərs kitabları nisbətən dəyişməz xarakter daşıyır və uzun müddət istifadə olunur. Bununla yanaşı onların müasir dövrə uyğunlaşdırılması aktual məsələlərdən biridir. Ölkəmiz müstəqilik əldə etdikdən sonra təhsildə aparılan islahatlar, təhsil sisteminin dəyişməsi dərsliklərin yeni variantlarının hazırlanmasını zəruri etmişdir. Yeni texnologiyaların inkişafı, müasir dünyanın tələblərinə uyğun aparıcı elmlərin meydana gəlməsi bu zərurəti daha da artırmışdır. Müasir dövrdə bütün tədris ocaqlarında dərslik və dərs vəsaitlərinin sayca və İnformasiya baxımından tələbatı tam ödəməməsi, istifadə olunan dərsliklərin tam şəkildə latın qrafikası ilə çap edilməməsi, tədris ədəbiyyatının xarici dillərdən tərcüməsi məsələləri, qonorarın təyin edilməməsi, elektron dərsliklərin azlığı və s. bu sahədə olan problemlər sırasındadır. Son illər bütünlükdə nəşriyyat işi sahəsində olan nailiyyətlər bu sahəyə də müsbət təsirini göstərmişdir. “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının qanunun qəbulu, “Müəllif hüquqları və əlaqəli hüquqlar haqqında” qanunun qəbulu bu nailiyyətlər sırasındadır. Bu qanunların qəbulu ilə əlaqədar olaraq müvafiq sahədə olan hüquqi boşluqlar aradan qaldırılmışdır ki, bunlar yüksək dəyərləndirilməlidir.

Sovet dövründə Azərbaycanda tədris ədəbiyyatının nəşri ilə əsasən “Maarif” nəşriyyatı məşğul olurdu. Azərnəşrin bazası

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

əsasında yaradılan bu nəşriyyat ötən əsrin 70 - 80 - ci illərində öz fəaliyyətinin məhsuldar dövrünü yaşamışdır. Nəşriyyat respublikada bu sahədə ixtisaslaşan yeganə böyük müəssisə idi. Alternativ olmadığından nəşriyyat öz gücündən çox nəşr yükü götürməli olurdu. Bu isə həm poliqrafik icra, həm də redaktə və korrektura baxımından problemlər yaradırdı. Bununla yanaşı “Maarif” nəşriyyatının bu sahədə olan əməyi danılmazdır (1.s.45). Ölkəmiz müstəqillik qazandıqdan sonra nəşriyyatın fəaliyyəti zəiflədi və yeni dövrün tələbləri ilə uzlaşa bilmədi. Təhsil Nazirliyi vəziyyətdən çıxış yolu kimi tədris ədəbiyyatının nəşrini həyata keçirəcək yeni nəşriyyatın yaradılması təşəbbüsünü irəli sürdü və 1992 - ci ildə Resbublika Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə “Öyrətmən” (indiki “Təhsil”) nəşriyyatı yaradıldı. Ilk dövrlərdə məhdud imkanlara malik olan nəşriyyat professional kollektiv yaradaraq öz məqsədlərinə nail olmağa səy göstərdi. Bu nəşriyyat yeni dövrün tələblərinə uyğun müasir və milli dərsliklərin yaradılması istiqamətində öz fəaliyyətini gücləndirdi. Hazırda respublikamızda dərslik nəşrinin mühüm hissəsini məhz “Təhsil” nəşriyyatı həyata keçirir. Nəşriyyatın ötən il buraxdığı dərslik və dərs vəsaitlərinə nümunə kimi “Müasir Azərbaycan dili”, “Azərbaycan dili tədrisinin bəzi məsələləri” və s. göstərmək olar. Hazırda nəşriyyatın müvafiq redaksiyaları, təcrübəli kadr potensialı və müasir poliqrafik bazası mövcuddur. Tədris ədəbiyyatının nəşri ilə ölkəmizdə ayrı - ayrı təhsil ocaqlarına məxsus nəşriyyatlar da məşğul olur. Bakı Universiteti Nəşriyyatını bu sırada xüsusilə fərqləndirmək olar. Nəşriyyat son dövrlər Universitet rəhbərliyinin xüsusi qayğısı nəticəsində müasir avadanlıqlarla təhciz olunmuşdur ki, bu da öz növbəsində dərslik və dərs vəsaitlərinin, proqramların çapını qısa vaxt ərzində və yüksək keyfiyyətlə həyata keçirməyə imkan verir. Müasir dövrdə respublikamızda dərslik nəşri ilə özəl nəşriyyatlar da məşğul olur. Bu nəşriyyatlar adətən Təhsil Nazirliyinin elan etdiyi tenderdə qalib gəldikdən sonra bu işə cəlb olunurlar. Özəl nəşriyyatlardan bu sahədə xüsusilə fərqlənəni “Çaşıoğlu” nəşriyyatıdır. Nəşriyyatın buraxdığı dərsliklər poliqrafiq icra baxımından diqqəti daha çox cəlb edir. Nəşriyyat eyni zamanda Azərbaycanda elektron dərsliklərin yaradılması yönümündə də ilk addımlarını atmışdır. Elektron dərsliklərin nəşri günün ən ciddi tələblərindən biridir və artıq dünya ölkələrində bu sahədə xeyli təcrübə var. Elektron dərsliklərin oxucusu

nəşri yalnız gözləri ilə deyil, digər duyğu orqanları vasitəsilə də mənimsəyir ki, bu da qavramanı xeyli asanlaşdırır.

Bütün uğurlarla bərabər dərslik nəşrində müəyyən problemlər də mövcuddur. Bu gün qarşıda duran ən mühüm vəzifə yeni, milli dərsliklərin yaradılmasıdır. Fikrimizi ümumiləşdirərək söyləyə bilərik ki, dərsliklərin nəşrində vaxtı keçmiş sovet praktikasından artıq imtina edilməlidir. Modern dərsliklərin yaradılması istiqamətində bütün səylər birləşdirilməli, inkişaf etmiş dövlətlərin təcrübəsindən istifadə edilməlidir. Xüsusilə ölkəmizdə dərslik müəlliflərinə qonorarın verilməsi məsələsində anlaşılmazlıq mövcuddur. Təhsil nazirliyinin müvafiq qərarı ilə nəşriyyatların hər çap vərəqinə görə dərslik müəllifinə verəcəyi qonorarın həddi müəyyənləşdirilmişdir. Lakin mütəxəssislər bu həddi çox aşağı hesab edir və bunu müəllif hüquqlarının pozulması kimi qiymətləndirirlər (2.s.28). Ümumiyyətlə dərslik nəşrinin maliyyələşdirilməsi sahəsində ciddi problemlər mövcuddur. Dərslik müəllifləri çox vaxt əsərlərini öz hesablarına buraxdıqlarına görə onların tiracı az, poliqrafik icrası isə aşağı səviyyədə olur. Bu problemin yeganə çıxış yolu fikrimizcə dövlətin bu işi öz üzərinə götürməsi ola bilər. Orta məktəblər üçün dərsliklərin nəşrinə dövlət tərəfindən vəsait ayrılsa da hələlik bu ali məktəb dərsliklərinə şamil edilmir. 2008 - ci ildən bu istiqamətdə real addımların atılacağı gözlənilir. Bu sahə ilə bağlı ölkə rəhbərliyinin göstərişi ilə xüsusi proqram hazırlanır və proqramın icrasına başlamaq cari ildən nəzərdə tutulub. Bu istiqamətdə ilk addımlar artıq Bakı Dövlət Universitetində atılmışdır. Universitetin rektoru akademik, millət vəkili Abel Məhərrəmovun göstərişi ilə qrif almış dərsliklər universitetin maliyyə ödəmələri hesabına müəyyən tiracla çap edilir. Bu təşəbbüsə digər ali təhsil məktəbləri də qoşulsalar problemin həllində real nəticələr əldə etmək olar.

Dərslik kimi nəzərdə tutulmuş kitab bu statusu almaq üçün müvafiq qrifə malik olmalıdır. Bunun üçün öncə müəllif və ya müəlliflər müvafiq proqram əsasında dərsliyi hazırlayıb, müvafiq müzakirələrdən və aidiyyatlı elmi şuradan keçirməlidir. Müvafiq prosedur sənədləşmədən keçən dərslik Təhsil Nazirliyinə təqdim edilir. Burada dərsliyə qrif verilməsinə baxılır. Nazirliyin elmi - metodik şurası əlyazmanın dilini, məzmununu, mövzusunu, elmi səviyyəsini azı bir ay müddətində müzakirə etdikdən və müvafiq yoxlamalardan keçirdikdən sonra onun

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

dərslik kimi yararlı olub - olmaması haqqında rəy verir. Əgər rəy müsbətdirsə nazirliyin Dərslik və Nəşriyyat şöbəsi əlyazmanın dərslik kimi təsdiqinə əmr verir və onu müvafiq qriflə təmin edir.

Müasir dövrdə milli dərslik yaradılması məsələsi əsas problemlərdən biri kimi qalmaqdadır. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra bu məsələ zamanın tələbi kimi geniş şəkildə gündəmə gəldi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu məsələyə həssaslıqla yanaşmış və aşağıdakı fikirləri söyləmişdir: “Dövlət müstəqilliyinin xalqa bağışladığı nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm ki, bu asan iş deyil. Mən bu gün həm Təhsil Nazirliyinə, həm də Nazirlər Kabinetinə qəti şəkildə təklif edirəm ki, onlar dərsliklərin dəyişilməsi, müstəqil Azərbaycanın tarixinə, həyatına uyğun yazılması ilə məşğul olsunlar. İndi dərs alanlar gərək mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar”(6).

Dərslik nəşrində ortaya çıxan yeniliklərdən biri də elektron dərsliklərin hazırlanmasıdır. Müasir dünyada İnformasiyanın yaradılması, saxlanılması və ötürülməsi müxtəlf texniki vasitələr əsasında həyata keçirilir. Son illər bu proses yüksələn dinamika ilə bütün dünyada gedir və dönməz bir prosesdir. Bu da elektron nəşrlərin istehsalı ilə əlaqədardır. Müasir dövrdə elektron nəşrlər getdikcə sosial əlaqə və İnformasiya vasitəsinə çevrilməkdədir. Hazırda nəşrlər multimedia texnologiyası əsasında zənginləşir, nəşrlərə mətnlə yanaşı səs, animasiya, video effektləri də əlavə olunur. Bu sistem qavramada, operativlikdə, məlumat axtarışında və s. məsələlərdə olduqca əlverişli olduğu üçün dərsliklərin də bu üsulla hazırlanmasına müasir dünyada əhəmiyyət verilir və ənənəvi dərsliklərdən fərqlənən elektron dərsliklərin yaradılması istiqamətində real addımlar atılır. Azərbaycan da dünya birliyinin üzvü və regionun lider dövləti olaraq bu proseslərdən kənarda qalmamalı və bütün səylərini birləşdirməlidir. Bu cür dərsliklər CD - lər və beynəlxalq şəbəkə - Internet vasitəilə yayımlanır. Qərb ölkələrndə elektron dərsliklər demək olar ki, ənənəvi dərslikləri üstələyib. Azərbaycanda da belə nümunələr hazırlanmışdır. Orta məktəb dərsliklərinin elektron variantlarına rast gəlmək mümkündür. Ali

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

məktəblərdə isə bu problem hələ də aktual olaraq qalır. Bu sırada istisna kimi Xəzər Universitetinin adını çəkmək olar.

Dərslik hazırlanarkən xüsusi fikir verilən məqamlardan biri də dərslik müəllifləri ilə bağlıdır. Hər hansı bir sahənin mütəxəssisi heç də dərslik üçün müəllif ola bilməz. Dərslik yazan müəllifin müəyyən sahədə kifayət qədər elmi biliyi və təcrübəsi olmalıdır. Eyni zamanda o, pedaqoji işi də incəliklərinə qədər bilməlidir. Dərslik müəllifi müəyyən edilərkən müəllifin həyat təcrübəsi, pedaqoji fəaliyyəti, elmi ictimaiyyət arasında tanınması və nüfuz sahibi olması mütləq nəzərə alınmalıdır və bu kriteriyalara cavab verən mütəxəssis dərslik yazmaq işinə cəlb edilməlidir. Dərslik müəllifləri seçilərkən onların namizədliyi müvafiq elmi - metodiki şurada müzakrə olunur və qərar çıxarılır. Xüsusilə xarici dil dərsliklərini yazan müəlliflərin peşəkarlığına və təcrübəsinə ciddi fikir verilir. Bu dərslikləri yazan müəlliflər dərslik yazdıqları dili mükəmməl bilməli, onun qayda - qanunlarına əməl etməlidirlər.

Dərslik anlayışı mürəkkəbdir. Dərsliklər mövzusuna görə, oxucu qrupuna və elmi tutumuna görə fərqlənirlər. Dərs kitabları da digər kitablar kimi İnformasiya daşıyıcısıdır. Eyni zamanda elmi əsərdir, ideoloci, tərbiyəvi funksiya daşıyır və ən əsası tələbələrin elmi və həyati biliklərə yiyələnməsinə xidmət edir. Dərslik müəyyən sistemə əsasən bilikləri ardıcıl və sistemli şəkildə, sadədən mürəkkəbə doğru prinsipi ilə oxucusuna çatdırır. Dərsliklər tərtib olunarkən onların mənimsəmə dərəcəsi nəzərə alınmalıdır və əldə edilən bilklər təcrübədə tətbiq edilməlidir. Dərslik hər hansı bir fənnin öyrənilməsinə xidmət edən çap məhsuludur və onun hazırlanmasında bu unudulmamalıdır. İnformasiyalar, elmi biliklər elə şəkildə yerləşdirilməlidir ki, onun qavranılmasında, problemlərin qoyuluşunda və izah olunmasında anlaşılmazlıqlara yol verilməsin. Dərsliyin hazırlanması elmi, intellektual, texniki və yaradıcı xarakterli mürəkkəb bir prosesdir. Bu proses dərsliyin layihələşdirilməsi, dərsliyin yazılması, dərsliyin istehsalı mərhələlərindən ibarətdir. Bu mərhələlərin hər biri isə özünə xas prosedur qaydalardan ibarətdir. Dərslik layihələşdirilərkən ona olan tələbatın öyrənilməsi, tədris prosesinin konsepsiyasının müəyyənləşdirilməsi, dərsliyin proqrama uyğunluğunun müəyyənləşdirilməsi, təcrübəli müəllif, təhsil və nəşriyyat işçiləri ilə məsləhətəşmək, nümunə üçün bir fəslin yazılması və s. prinsipial məsələlərə xüsusi fikir

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

verilməlidir. Bundan sonra dərsliyin yazılması, daha sonra isə onun poliqrafik icrası həyata keçirilir. Bütün bu proseslərin hər birinə redaktor tərəfindən ciddi nəzarət edilməlidir. Mətnin korrektə və redaktəsinə xüsusi fikir verilməli, məzmunun maksimum anlaşıqlı şəkildə çatdırılması təmin edilməlidir. Kitab nəşrində redaktorun oynayacağı rolun vacibliyinə bu sahədə görkəmli alim Milçin də toxunur: “Nəşriyyat işində nəşriyyat prosesinin təşkilatçısı kimi çıxış edən, onu oxucu və cəmiyyətin maraqlarına uyğun yönəldən bir işçi mütəxəssis labüddür. Bu da məhz redaktordur”(4.s.46). Müasir dərsliklərin hazırlanmasında redaktordan peşəkarlıqla yanaşı həm də redaktor iradəsi tələb olunur ki, o çapa hazırlanan dərsliyin günün tələblərinə, yeni dünya düzəninə uyğunluğuna çalışsın, milli dərslik strategiyasının uğurla həyata keçirilməsinə öz töhfəsini versin.

Dərsliklərin redaktəsi kitabın əlyazmasının qəbulu ilə başlayır. Əlyazmanı qəbul edən redaktor ona ilkin rəy verir, dərsliyin məzmununu, proqrama uyğunluğunu yoxlayır, onun bölmələrini mövzular üzrə təhlil edir. Redaktor təqdim edilmiş əsərin müvafiq komissiyanın rəyindən keçib - keçmədiyini öyrənir, dərslik haqqında qərarın surəti ilə tanış olur, dərsliyə verilən rəyləri oxuyur. Redaktor əsərlə və sənədlərlə tanış olduqdan sonra əlyazmanın lazımi tələblərə cavab verib - vermədiyini yazdığı rəylə əsaslandırır. Bu rəyə əsasən əsər çap edilmək üçün nəşriyyata qəbul oluna bilər və ya göstərilən qüsurların aradan qaldırılması məqsədilə müəllifə və ya müvafiq təşkilata qaytarıla bilər. Dərslikdə müəyyən çatışmazlıqlar olarsa əsər aparıcı redaktorun təklifi ilə əlavə mütəxəssis rəyinə göndərilə bilər. Bu zaman əlavə rəyə verilmənin səbəbləri aydın şəkildə izah edilməlidir. Əgər bu nöqsanlar elmi prinsiplərlə bağlıdırsa əsər bu sahə ilə məşğul olan nüfuzlu mütəxəsislərə göndərilir. Yaxud nöqsanlar dərs proqramı, mövzular arasında olan uyğunsuzluqlarla bağlıdırsa bu zaman dərslik proqram - metodiki işi bilən mütəxəsəsisə verilir. Dərsliyin əlyazması üzərində əsas iş bütün bu mərhələlər keçildikdən və əsər çapa qəbul edildikdən sonra başlayır. Əsas redaktə zamanı dərsliyin dilinə, təsvirin elmiliyinə fikir verilməli, gətirilən sitatların və faktların mənbələrinin aydın göstərilməsinə xüsusi fikir verilməlidir. Adların yazılışına, ixtisar və qısaltmalara, mətnin abzaslara bölünmsəsinə və s. redaktor əhəmiyyət verməlidir.

Dərslikdə elmi səviyyənin gözlənilməsi başlıca şərtdir. Dərsliyin elmi səviyyəsi yoxlanılarkən müəllifin metodiki ustalığı, materialların müasir elmi tələblərə cavab verməsi, terminlərin uyğun şəkildə yerləşdirilməsi xüsusilə diqqət mərkəzində olmalıdır. Humanitar profilli dərsliklərin hazırlanmasına müasir dövrdə xüsusi həssaslıqla yanaşılmalıdır. Çünki, humanitar profilli dərsliklər həm də millli ideologiyamızın əsas daşıyıcılarından biri kimi də əhəmiyyətlidir. Bu sahədə milli ideologiya olmadıqda və ya ona əməl edilmədikdə dərsliklər, xüsusilə də tarix dərslikləri ciddi saxtalaşmaya məruz qalır. Bu məsələyə xüsusi önəm verən xalqımızın ümumimilli lideri H.Əliyev demişdir: "Təhsil alan gənc gərək Azərbaycanın tarixini bilsin, oxusun, öyrənsin. Amma o, köhnə dərsliklərdən bunu öyrənə bilməz. Dərsliyi hərə öz istədiyi kimi yazmamalıdır. Indi vəzifə ondan ibarətdir ki, Azərbaycanın yeni tarixi yazılmalıdır"(5). Tarix dərsliklərində ən son yeniliklər əks olunmalı, faktik materiallar yeni məlumatlar əsasında işlənməli, köhnə məlumatlar yeniləşdirilməlidir. Bunun üçün dərslik yazan müəllif müntəzəm olaraq ciddi elmi araşdırmalar aparmalı, dünyada gedən prosesləri yaxından izləməlidir.

Redaktor dərsliyin redaktəsi zamanı mövzunun nə dərəcədə açılmasına, faktik materialların mətnə uyğunluğuna fikir verməlidir. Dərslik mətnində problemlə bağlı hər cür fakta deyil, ən tipik, ən xarakterik fakta müraciət olunmalıdır. Elmi faktlar ardıcıl, bir - biri ilə əlaqəli şəkildə şərh olunmalıdır. Kitabın redaktəsi zamanı redaktor əlavə faktlara ehtiyac olub - olmadığını müəyyənləşdirməli, ikinci, üçüncü dərəcəli faktları azaltmaqla dərsliyin sadəliyinə nail olmalıdır. Fakt və rəqəmlərin sadəliyi mövzunun asan qavranılmasıma müsbət təsir göstərir. Yoxlanılmamış və dəqiqləşdirilməmiş rəqəmlərin, faktların dərslikdə yerləşdirilməsi, o cümlədən mətnlərdə uzunçuluğa yer verilməsi ciddi nöqsan hesab edilir və dərsliklərin nəşrində maksimum bunlardan qaçmaq lazımdır. Faktların əhəmiyyətindən və yerləşdirilməsindən bəhs edən professor I.Vəliyev yazır: "Mətndə çox zaman təkrarlanan faktlar da olur və bu faktlar əsərin müxtəlif yerlərində müxtəlif cür görünürsə, redaktor ona diqqəti cəlb etməli və bu uyğunsuzluqların səbəblərini müəyyənləşdirilməlidir. Faktların mənbələrlə yoxlanması da ən geniş yayılmış və etibarlı üsullardan biri sayılır"(3.s.225).

KITABXANAŞÜNASLIQ VƏ BIBLIOQRAFIYA

Dərsliyin tərtibatı dərs proqramından, tələbənin bilik səviyyəsinin nəzərə alınmasından, onun oxucusuna veriləcək biliklərin tutumundan çox asılıdır. Dərslikdə məlumatlar mərhələli, sadədən mürəkkəbə doğru dinamik inkişafda verilməlidir. Hər bir bölmənin və fəslin İnformasiya tutumu nəzərə alınmalıdır. Dərsliyin giriş hissəsi, bölmələri, mündəricatı bir - birini tamamlamalıdır. Dərslik elə tərtib edilməlidir ki, tələbə onu müstəqil şəkildə qavramaqda çətinliklərlə üzləşməsin. Müxtəlif ədəbiyyatların redaktə xüsusiyyətləri müxtəlif cür olur. Dərsliklərin redaktəsində əsas diqqət verilməli cəhətlər mövzunun aktuallığı, məzmunun elmiliyi, şərhin sistemliliyi və s.-dir ki, redaktor bunların hər birini nəzərə almalıdır. Tədris ədəbiyyatının redaktəsi zamanı mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də əlyazmanın dili, orfoqrafik qaydalara əməl olunmasıdır. Lakin təəssüflə qeyd edə bilərik ki, bir sıra hallarda dərsliklərin nəşrində buna ikinci dərəcəli məsələ kimi yanaşılır və bu da öz növbəsində dərsliyin nöqsanlarla ortaya çıxmasına səbəb olur. Redaktor dil və üslubiyyət üzərində işləyərkən diqqətli olmalıdır. Mətnin elmi məzmunu, səviyyəsi ilə yanaşı onun dilinə də fikir verməli, əsərin daha yaxşı qavranılmasında bu amilin də həlledici olacağını əvvəlcədən nəzərə almalıdır. Bu hal tədris ədəbiyyatının redaktəsi zamanı da xüsusi əhəmiyyət kəsb edir. Tədris ədəbiyyatına qoyulan tələblərdən biri də onun metodiki aparatının düzgün qurulmasıdır. Metodiki aparat düzgün formalaşdırılarsa tələbələrin həmin bilikləri qavramasında xeyli yüngüllük yaranar. Metodiki aparat nədir? Bu tədris ədəbiyyatının daxili formasıdır. Metodiki aparata mövzuya uyğun olan suallar, tapşırıqlar, nümunələr, izahedici sözlər, lüğətlər və s. daxildir. Onun əsas məqsədi tədris prosesində tələbələrin yaradıcı imkanlarını formalaşdırmaq, onda müstəqil bilik vərdişləri yaratmaqdır.

Dərsliklərin daha yaxşı, anlaşıqlı tərtib edilməsində metodiki aparatla yanaşı daha bir mühüm vasitə onda qrafik məlumatların, illüstrasiyaların yerləşdirilməsidir. Redaktor bu məsələni də diqqət mərkəzində saxlamalı və çalışmalıdır ki, dərslikdə yerləşdirilmiş qrafik materiallar mövzuya uyğun olsun, ona elmilik və əyanilik gətirsin. Dərsliyin hazırlanmasında bütün bunlarla yanaşı dizayn və poliqrafik icraya da ciddi fikir verilməlidir. Bu zaman əsas fikir verilməlidir ki, dizayn, poliqrafik icra maksimum səviyyədə mətnin qavranılmasına, kitabın populyarlığına xidmət etsin. Dərsliyin yığımı zamanı şrift

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

seçiminə də ciddi fikir verilməli, onun ölçüsü nəzərə alınmalıdır. Dərslik nəşrində şrift müxtəlifliyinə də yol vermək olar. Lakin çalışmaq lazımdır ki, bu müxtəliflik əsərə qarışıqlıq deyil, harmoniya gətirsin, mövzunun ayrı - ayrı hissələrinin qabardılmasında, fərqləndirilməsində öz sözünü desin. Dərs kitablarının çap edildiyi kağıza da xüsusi diqqət verilməlidir. Bu kağızlar yüksək keyfiyyətli, sanitar tələblərə cavab verən kağızlar olmalı, eyni zamanda uzun müddət istifadəyə yararlı olmalıdır. Çünki, dərsliklər nisbətən stabil nəşrlərdir və onlardan müxtəlif dövrlərdə, müxtəlif oxucular istifadə edirlər.

Azərbaycan Respublikasının müstəqilliyi şəraitində ali məktəb dərsliklrinin yenidən yazılması və nəşri qarşıya çıxan ən aktual problemlərdən biridir. Respublikamızda aparılan təhsil islahatları, dünya təhsil sisteminə inteqrasiya məsələləri bu istiqamətdə bütün səylərin birləşdirilməsini daha da zəriri edir. Bütün bunlar alimlərimizin qarşısına mühüm vəzifələr qoymuşdur. Bu vəzifələr, hər şeydən əvvəl, ölkəmizin təhsil sisteminin daha da təkmilləşdirilməsindən, dünya standartlarına cavab verə biləcək mütərəqqi islahatlar aparılmasından, bəşəriyyətin əldə etmiş olduğu elmi və mənəvi dəyərlərə əsaslanan, dərs proqramları və dərsliklər hazırlanmasından, tədris sisteminin təşkilində səmərəli üsullardan, o cümlədən müasir texniki vasitələrdən müvəffəqiyyətlə istifadə edilməsindən və s. ibarətdir. Bu mühüm və mürəkkəb vəzifələrin öhdəsindən gəlmək üçün ali məktəb kollektivləri, görkəmli pedaqoq - alimlər öz qüvvələrini birləşdirməli, yeni, günün tələblərinə uyğun proqramların və dərsliklərin yaradılmasını ön plana çəkməlidirlər.

### *Ədəbiyyat*

*1. Axundov B., Mahmudov M. Nəşriyyat işinin əsasları. Dərs vəsaiti. -B.: Aspoliqraf, 2006. - 223 s.*

*2. Umudlu I. Kitab nəşri bu gün. - B.: Əbilov və oğulları nəşriyyatı, 2004. - 321 s.*

*3. Vəliyev I. Redaktənin əsasları. - B.: Günəş nəşriyyatı, 2005. - 280 s.*

*4.Мильчин А.Э. Методика редактирования текста. - М.: Книга, 1980. - 320 с.*

*5. Azərbaycan qəzeti.- 2000.- 23 avqust.*

*6.Azərbaycan müəllimi. - 2000.-30 avqust.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

***Алемдар Байрамов***

## *Особенности подготовления к печати, редактирования и составления пособие для высших учебных заведений в современный период*


### *РЕЗЮМЕ*

*В современной эпохе издание учебников для высших учебных заведений является актуальной проблемой. Учебники должны соответствовать международным стандартом. В то же время должны особо учитываться их редактирование и составление. В составлении учебников выбор шрифта и их дизайн является важным вопросом.*

*Эта статья посвящена данной проблеме.*


***Alemdar Bayramov***

## *Preparing for publishing, designing and editorial spesific of the higher school's book in contemporary priod*


### *SUMMARY*

*Writing the higer instutes of education's textbooks is actual problems in the modern period. The textbooks must be combined with world standard. At that time must be thedught of the design and editing of them. One problem of the design of the textbooks is chosing of design and print.*

*The article is devoted to the dealing problem.*


KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

***Nəşriyyatın direktoru:*** ***İslam ŞİRİNOV***
***Baş redaktor:*** ***Məmməd ƏLİZADƏ***
***Mətbəə üzrə direktor müavini:*** ***Ələs QASIMOV***
***Kompüter tərtibçisi:*** ***Nuriyyə MUSTAFAYEVA***

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

*Yığılmağa verilmişdir: 15.03.2008*
*Çapa imzalanmışdır: 14.04.2008*
*Kağız formatı 70x100 1/16*
*Fiziki ç.v. 13,5*
*Sayı 200*
*Qiyməti müqavilə ilə.*

*Ünvan: AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23*
*Bakı Universiteti Nəşriyyatı*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*

KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA